# BƏXTİYAR VAHABZADƏ

ƏSƏRLƏRİ

IV

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ
**(1970 - 1979)**

*On iki cilddə*

IV *cild*

Bakı - 2008
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

Bəxtiyar Vahabzadə. Əsərləri. On iki clddə. IV cild (1970-1979). Bakı, "Elm" nəşriyyatı, 2008. 662 s.

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{055\ (07)\ -\ 2008}$ Qrifli nəşr

© B.Vahabzadə – 2008

# MİN İLİN MİN BİR OYUNU...
## *(B.Vahabzadə şeirlərini oxuyarkən düşündüklərim)*

### ZAMAN, TƏBİƏT VƏ BİZ

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır...
*("Axı, dünya fırlanır" şeirindən)*

Ağac bitir, çiçək tökür, meyvə yetirir. Yararlanıb çılpaqlaşır və zaman-zaman öz funksiyasını təkrarlamaqla ömrünü başa vurur. Kökündən çıxanlar onun cinsini özü kimi davam etdirir, meyvəsinin tumundan cücərənlərsə cırlaşır.

İnsan doğulur, iməkləyir, dil açır, addımlayır, mərhələ-mərhələ boya-başa çatır, həyatı və təbiəti dərk edir, münasibətlər qurur, yaradır, vuruşur, ya kamilləşə-kamilləşə xeyirləşir, ya da şərləşir. Qanında cırlıq varsa, saman altdan su yeridir. Görəsən onların cırlaşmasının səbəbi nədir? İnsandan fərqli olaraq ağac (bitki) iki ömür yaşayır. Birincisi, il ərzində ölüb-dirilməsidi. İkincisi, illərlə qol-budaq ata-ata böyüyüb tükənməsidi.

Ağacların əksərinin ömür payı insanınkından qat-qat çoxdur. Min il bu dünyanın istisinə, söyuğuna tab gətirəni də var. Və ağacın bar verməyəni də olur. Yerdən qalxıb qol-budaq atır, kölgəsiylə də olsa, varlığını təsdiqləyir. İnsanın isə sonsuzu da, sonlusu da eşqsiz qəfil külək kimidir. Əsib toz qaldırır. Getdiyi yerə bir də gəlişi arzulanmır.

Ağac da yaradır, insan da. İnsan ağacı da yetirir. Ağacsa insanı yaşadır.

### ÖMÜR – ÖLÜM

Düşünür, üsyan edib o, yerlərə, göylərə.
Gah öldürür, düşünür,
　　　　Gah dirildir, düşünür.
"Olum, ya ölüm!", – deyə
　　　　Dörd yüz ildir düşünür.
*("Olum, ya ölüm" şeirindən)*

Ölüm haqdır, yaxud haqq işidir. Bəs nə səbəbə İnsan ömrü boyu haqdan qorxub qaçır?

Zaman atlıdır. İnsan piyada onu ötə bilməz. Tale paydır. Onu çölə atmaqla həyat yolumuzu qısaldırıq. Ömürsə ən böyük sərvətdir. Həmin sərvəti boş-boşuna xərcləməklə dünya ilə əlaqələrimizi qırırıq. Və insan zamanın nəbzini tutsa, nə ömür yolunun qısalığından, nə də uzunluğundan qorxar.

İNSAN VƏ ZAMAN

İtirdiyin doğmaları, əzizləri
Qaytara ki, bilməyəcək.
Qəlbinizdə düyüləcək
Özünüzün özünüzə atdığınız
töhmət daşı,
Gözünüzdə həsrət tozu...
*("Göynərti" şeirindən)*

Dünyada heç nə əbədi deyil. Təkcə zamandan başqa. Ona görə də insanın zamanla yoldaşlığı baş tutan deyil. Və zaman başı-ayağı bilinməz, sonu görünməz olsa da, göz qırpımına, ana, saniyəyə, dəqiqəyə, saata, günə, həftəyə, aya, ilə, əsrə, minilliyə, qərinəyə bölünür. Dünyamızın zamanı bir dəfə əksinə - yuxarıdan aşağı gəlir. Sonra düz yola çıxıb aşağıdan yuxarı addımlayır. İnsanların təsəvvüründə zamanın çıxış nöqtəsinə münasibət də müxtəlifdir. İlk baxışda düz-xəttli görünür. Uzandıqca uzanır. Lakin zamanın dairəvi olması da, hardasa qırılıb təzədən başlaması da mümkündür. İnsanın dünyaya ilk gəlmə zamanı isə çox müəmmalıdır: bu torpağın övladıdır, yoxsa gəlmədir? Bilinmir. Lakin tarixə zamanın üç əsas mərhələsi bəllidir. Təbiətin doğuluşundan insanın ayağının torpağa dəydiyi çağlar mücərrəd, yaxud mifik zamandır. Füzuli onu Tanrının zamanı adlandırır. İcmalar, cəmiyyətlər, dövlətlər meydana gələndən sonra zaman üzüaşağı istiqamətlənib Allahın dərkinin yayılmasıyla başa çatır. Nəhayət, İnsanın yaradıcının Vahidliyinə qovuşmağa can atması dövrü gəlir. Zaman yenidən yuxarıya doğru üz tutur. Biz həmin eranın ikinci minilliyini başa çatdırırıq.

DÜNYAMIZDA NƏLƏR DƏYİŞMƏYİB Kİ?..

Çox ovlaqlar içində çox ovları ovladım,
Aşıb-daşan arzumu mən artıq cilovladım.
Mən atamı ötmüşəm, məni ötür övladım,
Bu, belə də olmalı, axı dünya fırlanır...
*("Axı, dünya fırlanır" şeirindən)*

NƏYİ ÖTƏN MİNİLLİKDƏ QOYAQ? Dünyamız yeni minilliyə qədəm qoyur.

Əslində yer üzünün indiki sakinlərinə zamanın böyük bir mərhələsini adlamaq nəsib olur. Köhnə minilliklə və iyirminci əsrlə vidalaşırıq, üçüncü minillik başlanır. Dövr dəyişəcək. Bəs həyatda, məişətdə, adət-ənənədə, insan psixikasında, vərdişlərdə başqalaşma baş verəcəkmi? Və soruşsalar ki, vidalaşan minilliyə həmişəlik nəyi bağışlayardınız, görəsən "Rüşvət verib almağı" cavabıyla hamı razılaşardımı? Yəqin Allah hökm çıxartsa ki, sabah yer üzündə rüşvətin kökü kəsiləcək, çoxlarının ürəyi durardı və tarixə çevrilən minilliklə birgə onlar da itib-batardı. Onda nəyi qoyaq bu böyük dövrün

içində?.. Nəyimizi qoysaq da, Qarabağa qayıtmaq ümidlərimizi kəsib çadırlarda ömür-gün çürütməyi vərdişə çevirməyək.

Axı, neçə illərdi ki, çoxlarımız ömür payımıza düşən vaxtı yaşamırıq, öldürürük... Bəlkə, təzə minillikdə bəxtimiz gətirdi, əl açıb dilənməyi tərgitdik. Dövlət müəlliminə, aliminə əməlli-başlı maaş verdi, onları təzədən kişilər və adamlar cərgəsinə qatdı. Görəsən övlad-uşaq yanında axan xəcalət tərindən canımız qurtaracaqmı?

## DƏRS

Dünən düz sandığımı bu gün əyri sanıram.
Bəzən olur, özümdən özüm oğurlanıram.
Hər il başqa arzunun başına fırlanıram,
Niyə də fırlanmayım, axı, dünya fırlanır.
*("Axı, dünya fırlanır" şeirindən)*

Əvvəllər ayla, illə, onilliklərlə həyatımızı tarazlayırdıq. On ildən bir təntənələr, yubileylər keçirirdik. Ötən çağlarımıza nəzər salır, nəyi düz, nəyi səhv etdiyimizi müəyyənləşdirirdik. İldə üç-dörd ürəyimizə yatmayan bayramımız olurdu, yüz də bol süfrəli qonaqlığımız. Ocaqlarımızda həmişə qazan qaynayırdı. Qapılarımız da ürəklərimiz kimi açıq idi. İndi ona qədər ruhumuzu oxşayan bayramımız var, amma bir dolu, açıq süfrəmiz yoxdu. Hamımızın da bağlı qapıları qalın dəmirdəndi. Onda problem axtarırdıq ki, başımızı qataq. İndi problemlər toruna elə salınmışıq ki, ordan haçansa çıxacağımız ağlımıza yerləşmir. Bax, belə günümüzdən ötən minilliyə, ən azı isə bir əsrə boylanmalıyıq. Özü də çox hissəsini görmədiyimiz, bilmədiyimiz çağlara. Tarixin böyük bir zaman aşırımının hadisələrindən ibrət dərsi almalıyıq.

Lakin ikinci minilliyin başlanğıcını təsəvvürə gətirmək mümkün deyil. Yuxularımız üçün də qaranlıqdı o çağlar. Döğrudur, iyirminci əsrin ilk günlərinin primitiv kino lentləri, foto şəkilləri qalır. Min il əvvəlki vaxtlar nağıl kimi gəlir bizə. Çoxdan nağıllaşıb, əfsanələşib o çağlar. Bəzi məqamları yalnız tarixi xronikalardan, salnamələrdən öyrənmək imkanımız var.

## SAVAŞ MEYDANI

Çox əyilən görmüşəm əyilməyən başları,
Sular duruldu, gördük dibindəki daşları,
Ünvanı dəyişdi dünənin alqışları;
Niyə də dəyişməsin, axı, dünya fırlanır...
*("Axı, dünya fırlanır" şeirindən)*

Bəs ikinci minillik bəşər övladına nələri verib? İnsan cəmiyyətinin inkişaf yollarını araşdırsaq, görərik ki, dünya min il qabaq da savaş meydanıydı, indi də. Amma

onda ərlər at belində qılınc oynadırdılar, kişiliyə güvənirdilər, sözlərinin ağasıydılar, tüpürdüklərini yalamırdılar. Nə qədər qüdrətli, güclü olsalar da, bir ox məsafəsindən uzağa silah çatdırıb ziyan vurmağa qadir deyildilər. Güc ağıldan üstün idi. Sonra hər ikisi bərabərləşdi. Odlu silah düzəltdi insanlar. Ərənlik, Koroğluluq əldən getdi. Dünyanın atəş savaşı başlandı. Top-tüfəng azlıq etdi, nələr icad eləmədilər ki... İndi raketlər dünyanın bu başından o başına tuşlanıb. Hətta Aya, yaxın planetlərə də barmağı çatır bəşər övladının. Min il əvvəl Amerikadan xəbəri olmayan mədəni Avropa və müdrik Şərq bu gün okeanın o üzündəki qitənin ABŞ adlı super dövlətinin çaldığı zurnaya, daha doğrusu, fleytaya oynayır. Peyğəmbərlər yetirən torpaqalarda yenə də iki əqidə arasında ölüm-dirim davası gedir. Xristianlıq doğulanda özünün xaç düşməni, indi isə "xaç atası" saydığı iudizmi İslam ərəbinin qəniminə çevirir. Fırlanan dünyamızda nələr dəyişməyib ki?..

## ARZULARSIZ DÜNYA KİMLƏRƏ GƏRƏKDİ?

Necə dönür bu dövran, necə dönür bu gərdiş,
Tazıların üstünə dovşanlar da gülərmiş.
Dünya bina olandan hər şey dəyişilərmiş,
Dəyişməsin neyləsin, axı, dünya fırlanır.
*("Axı, dünya fırlanır" şeirindən)*

Pis günün ömrü az olur - deyib atalarımız. Ona görə ki, pis gündən zaman da bezardı, ondan qaçır ki, xoş çağlara tez çatsın... Və pis günə ona görə salınırıq ki, daim əlləşək, vuruşaq, yamanlıqdan yaxa qurtarmaq barədə fikirləşək. Başqa arzuların ardınca düşməyi xəyalımıza belə gətirməyək. Dünyamız arzularsız başa vurur minilliyi...

## DÜNYAMIZ QOCALIR, AZƏRBAYCAN İSƏ HƏLƏ ÇAĞADIR

Əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım,
Bütlər gəldi və getdi, birinə inanmadım,
Niyə inanmalıyam, axı, dünya fırlanır.
*("Axı, dünya fırlanır" şeirindən)*

Vaxtından tez qocaltdıq dünyamızı. Axı, iyirmi yaş əslində gəncliyin ilk çağlarıdı. Amma dünyamızı iyirminci yüzilinin tamamında ahıllaşdırdıq. Haqsız işlərimizlə. Xeyirxahlıqdan əl çəkib şərə meyl göstərməyimizlə. Acgözlüyümüzlə. Paxıllığımızla... Fələyin özünə badalaq gəlməyimizlə. Kürsü davamızla. Vəzifə hərisliyimizlə.

Göz görə-görə qocalan dünyamızda təkcə Azərbaycanımız çağadı. İməkləmir də. Görəsən "şiroko şaqat" eləyən bir yurdu kim bu hala saldı? Həmişə beləkdə qalmaq üçünmü yenidən doğuldu?.. İndi qolundan tutan tapılmasa, böyük qardaşlarsız ilk addı-

mını atmağa özündə güc tapacaqmı? Yoxsa son əsrin iyirminci ilindəki kimi beşikdəcə boğulacaq?

Və dədə-baba torpaqlarımız parçalana-parçalana, ermənriləşə-erməniləşə (Qərbi Azərbaycan, Qarabağ), gürcüləşə-gürcüləşə (Borçalı), ruslaşa-ruslaşa (Dərbənd), farslaşa-farslaşa (Cənubi Azərbaycan), çadırlaşa-çadırlaşa qapımızın ağzınacan paylanmayacaq ki?

## TÜRKÜN MİNİLLİYİ BİTDİSƏ, "FANİ DÜNYA KİMƏ QALDI?.."

Fırlandıqca bu dünya, yox da dönüb var olur,
Quruyan çeşmələrdən sular yenə car olur.
Bu dünyanın xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın? Axı, dünya fırlanır.
*("Axı, dünya fırlanır" şeirindən)*

İkinci minilliyin astanasında tarix səhnəsinə yenidən atılan Türk İslam bayrağını əlinə alıb Asiyanın gündoğanından Avropanın ətəklərinə doğru yürüşə çıxdı. Yolboyu qan qardaşlarına rastlaşıb hamını dinə-imana gətirməyə can atdı, dünyanı İslam bayrağı altında birləşməyə çağırdı, qüdrətli imperiyalar yaratdı. Lakin korlar və topallar Nəsimi kimilərin dərisini dabanından soydular, insan kəllələrini kərpic yerinə işlədib qala divarları hördürdülər. Uyğurları səlcuqlar, səlcuqları osmanlılar, ağqoyunlular, səfəvilər əvəz etdi. O qədər artıb çoxaldılar ki, malları ortaq düşdü. İslam bayrağını iki yerə ayırdılar - sünni və şiyəyə. Qardaş qardaşa qənim kəsildi. Müsəlman müsəlmana dirsək göstərdi. Xristian Avropası türkün arasına nifaq toxumu səpdi. Ərəbi işə qatdı. Farsın başını tovladı. İçindən yeyilsə də, Türk iyirminci yüzilliyədək dünyanın savaş meydanını əlindən vermədi. Bir dəfə fransız baş qaldırdı, sonra alman, ingilis özünü ortaya atdı, nəhayət, rus dünya ağalığı iddiasına düşdü. Yer kürrəsində xeyir-şər müharibəsi bitib-tükənmədi. Axır ki, xristian birlikləri türkün imperiya bayrağını endirdi. Türk parçalandı. Türkün uyğuru Çinin, qazaxı, qırğızı, özbəyi, türkməni, azərbaycanlısı rusun (sonuncusu həm də farsın) əsarətində qaldı. Erməniyə dayılıq etdilər, qoltuğuna qarpız verib Qafqazda, Antaliyada qırğınlar törətdilər. "Yazıq millət" obrazı yaratdılar. Bu azmış kimi kürdün də ağlını oğurlayıb dağlara saldılar. Dünyada türkü düşmən cildində göstərmək vərdişə çevrildi. Amma onun dövlətini əlindən almaq mümkün olmadı. Türkü öz vətənində azərbaycanlılaşsalar da, Antaliyada osmalı türk adını üzərinə götürüb Türkiyə Cümhuriyyətini qurdu. Fırlanan dünyada çox şey baş-ayaq göründü. Xristian aləmində yeni antixristlər meydana gəldi. Faşizm dünyanı məhvərindən oynatdı. Türkün adına yapışdırılan "vəhşilik" damğası ölüm düşərgələrinin yanında toy-bayrama oxşadı. Nəhayət, "sosial ədalət" maskasına bürünmüş kommunizm kabusu Allahı danıb insan qəssabxanaları yaratdı.

Qədim inanclarımızın birində deyilir ki, lap əvvəllər Yer Göylə yanaşı imiş. İnsanlar arasında o qədər şər, haqsızlıq baş verir ki, Göy bezib yerdən ayrılır. Son yüz ilin

dəhşətlərini görən Göy yəqin ki, bir də bu tərəflərə üz döndərməz. Və hərdən qəzəbini saxlaya bilməyib qara torpağı alt-üst etmək istəyir, zəlzələlərin ardı-arası kəsilmir. Üçüncü minillik də son yüz ildəki kimi bəlalarla, fəlakətlərlə davam etsə, Göy başımızı kometa yağışına tutacaq.

Bəs yeni minilliyə nə ilə gedir türk? Yeddi müstəqil dövlətiylə: Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Kipr. Oğuzun 6 oğlundan və 24 nəvəsindən törəyən Türk ötən minilliyin başlanğıcından başlayaraq dünyaya 900 il meydan oxudu. Son əsrin ortalarında pərən-pərən salınsa da, 90-cı ilindən sonra yenə özünə döndü. Ayılıb kökünə qayıtdı. Dünyanın yeddi ölkəsində öz bayrağını qaldırdı. İyirminci yüzillikdə Yer kürrəsini türksüzləşdirə bilmədilər. Yeddi qardaş doğulub Dədə Qorqudun hayqırığını yada saldı:

*Hanı dediyim bəy ərənlər,*
*Dünya mənimdir deyənələr?*
*Əcəl gəldi, yer gizlətdi,*
*Fani dünya kimə qaldı?..*

AĞIL GÜCƏ QALİB GƏLDİ Kİ, BİR DAHA QILINCLAR İŞLƏMƏSİN. LAKİN QILICLAR QINLARINDA PAS ATSA DA, GÖZ YAŞLARI QURUMADI...

Min-min illər bu dünya beləcə fırlansa da,
Bu yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır.

Nə qədər istəyirsə, min o qədər fırlana,
Qarşıma gah şər çıxa, gah xeyir dığırlana.
Çərxi-fələk istəyir lap dolana tərsinə,
Əqidəmi heç nəyə dəyişmərəm mən yenə.
*(“Axı, dünya fırlanır” şeirindən)*

İnsan min ildən çoxdur ki, haqqa dönməyin yollarını arayır. Əvvəl bu yolu cəmiyyətdən kənarda, tərki-dünyalıqda, Məcnunluqda görmüşdü. Lakin İnsan insanlıqdan uzaqda haqqa qovuşa bilməzdi.

İşığa tapınıb ocağı haqqın dərgahı saydılar. Dünyanın işıqla, odla idarə olunduğunu qəbul etdilər. Lakin odu üfürüb gülü köyə sovuranlar, su töküb ocaqları söndürənlər tapıldı. Eləcə də yurdun köylərini yandırıb yerlə yeksan edənlər də haqq uğrunda vuruşduqlarını bildirirlər. Haqqa çatanların dərisi soyuldu, başları bədənlərindən ayrıldı.

Və haqqın yolunu sevgisiz, məhəbbətsiz keçməyin mümkünsüzlüyünü anlayıb eşq atəşinə tutuldular. Ötən minilliyin əsas fikri məhəbbət üzərində formalaşdı. Bir tərəfdə

döyüş meydanları, qan su yerinə axıdıldı, digər tərəfdə meyxanələr tikildi, eşq badələri içildi. Dünyanın çal-çağırından keçib haqqa yaxınlaşanlar ədalət qapılarını qıfıllı gördülər. Eşqi tanrıya bağlanan tellərdən biri kimi götürənlər isə insan zirvələrini kəşf etdilər. Sözdən qızıl fikirlər toxuyan Nizami elə zirvə ucaltdı ki, heyranlıqla baxanlar min il onun ətəklərində dolandılar. Ağıllarına gəlmədi ki, alınmış yüksəkliyə qalxmaq elə də böyük hünər sayılmır. Minililiyin başqa insan zirvələri - Firdövsi, Yusif, Xaqani, Sədi, Xəyyam, Yunus Əmrə, Cami, Nəsimi, Dante, Servantes, Füzuli, Nəvai, Xətai, Şekspir, Vaqif, Bayron, Şiller, Göte, Səbuhi, Puşkin, Balzak, Hüqo, Tolstoy, Sabir, Mirzə Cəlil, Cavid... savaş dünyasının şər qanadının qarşısını almağa çalışdı. Qələm qılınca qalib gəlsə də, atom bombasının, odlu silahların önündə aciz qaldı.

Dünya savaş və fikir minilliyini də arxada qoyur. Yenə də haqqın yolunu arayırıq. Yenə də bu dünyadakı həyatın mənasızlığını dilimizə gətirə-gətirə insanlığı bir qarın çörəyə möhtac qoyuruq. Yenə də çal-çağırla ancaq bir ovuc cibkəsən yaşayır. Və hər şey onların əlində cəmləşib. İşıq da, ocaq da, mahnı da, söz də, ad-san da! Minilliyin başlanğıcında ad-sanı ancaq qazanmaq mümkün idi. İndi ad-san da pulla satılır. Dünyanın alqı-satqı dövrü başlanır bəlkə... İnsan haqqı “dollarda tapır”. Belə getsə Üzeyirin “Pulun var, gələrəm” fikri yeni minillikdə qızıl hərflərlə yazılacaq, küçələrdə reklam olunacaq... Qoca dünya ucuzlaşdımı?

Müdrik dünyada hər şey satışa qoyuldu. Torpaq da. Vicdan da. Və mənə elə gəlir ki, yeni əsrdə beyinlərə də yol tapılacaq. Beyinlər də sərvət sahiblərinin barmaqlarının altındakı düymələrlə işləyəcək. Robotlaşacaq, manqurtlaşacağıq.

AXI, DÜNYA FIRLANIR... AXI, DÜNYA FIRLANIR...

## TƏBİƏTİN ƏN DƏHŞƏTLİ VƏ QORXULU HADİSƏSİ...

ENSİKLOPEDİYADA YAZILANLARDAN: “Zəlzələ təbiətin ən dəhşətli və qorxulu hadisəsidir. Güclü zəlzələlər daha çox Sakit Okean, Aralıq dənizi, Qafqaz-Himalay tektonik zonasında, dağlıq rayonlarda baş verir. Orta Asiya, Krım və Kuril adaları belə ərazilərdir. Zəlzələ zamanı bir neçə saniyə ərzində böyük bir şəhər xarabalığa çevrilə bilər. Ən güclü zəlzələlərdə yerdə dərin çatlar əmələ gəlir, torpaq çökür, uçqunlar olur. Bəzən çayların məcrası dəyişir, yeni şəlalələr, göllər meydana gəlir”.

Zəlzələ ərəfəsində və sonra cəmiyyətdə iğtişaşlar, insanların psixikasında köklü dəyişikliklər baş verir.

ZƏLZƏLƏ

Tanıya bilmirəm qoca dünyanı,
Qütblər dəyişmiş, solum, sağ olmuş.
Günortaya düşüb xoruzun banı, -
Nizamlar, ölçülər baş-ayaq olmuş.

*(“Gəldi bic əyyamı...” şeirindən)*

Bakıda zəlzələ baş verdi. Xəzər gölü yatağını dəyişmədi. Yer ayaqlar altından qaçsa da, üstündə çatlar əmələ gəlmədi. Bəs dəyişən nə oldu? İnsanlar bir neçə günlüyə dünənini, bugününü unutdu. Ancaq sabahını düşündü. Mümkünlüyü şübhə toruna bürünüb müşkülə düşən sabahını. Seçgilərin saxtalaşdırılması belə aktuallığını itirib arxa plana keçdi.

Zəlzələ iqtidar-müxalifət, vəzifəli-vəzifəsiz tanımır. Vaxtı-vədəsi, yeri-yurdu qabaqcadan bilinmir. Qəflətən, bir göz qırpımında meydana gəlib böyük əraziləri qoynuna alır.

Beləcə Bakı zəlzələni də yaşadı. Allah məxluqlarına bəla göndərdi ki, ölümlü dünyada hər kəsə verilən ömür payının tükdən asılılığını yaddan çıxartmayaq. Kürsüdən, var-dövlətdən ötrü haqqı tapdalamayaq. Zəlzələ hamının ürəyinə qorxu salsa da, millət birləşmədi. Millətin tamlaşması, düşmənləri qarşısında yumruğa çevrilməsi üçün gərək ürəklərdə zəlzələ baş versin.

Millətin iqtidarı imana gəlməyə çalışdı, uçuq evləri quracağına söz verdi. Ürəklərdən qorxunun götürülməsi yollarını aradı. Müxalifət isə durub gözlədi. Gözlədi ki, iqtidar harda səhvə yol versə, ora-burasını bəzəyib onu millətin gözündən bir az da salsın. Zəlzələ özümüzü özümüzə tam tanıtmağa qadir olmadı. Yer ayağımızın altından qaçsa da, zəlzələ divarları başımıza aşırmadı, millətin dərdinin üstünə böyük dərd artırmadı. Problemlər məngənəsinin ağzını tamam daraltmadı. Bəs nə səbəbə zəlzələ də bu milləti bütövləşdirmədi? Ona görə ki, müxalifət iqtidarda yaxşı heç nə görmür, təbii ki, heç görmək də istəmir. Və yüz yerə parçalanmalarına baxmayaraq hamısı milləti öz arxasında "hiss edir", uduzduqları yerdən belə qələbə ilə çıxdıqlarını gözə soxmağa can atır. Demirəm, seçgilər düz keçib? Bəli, ölülər də millətin dipdiri başbilənlərinə səs veriblər. Lakin müxalifətin arxası 93-cü ildə yerə qoyulub. Millət həmişə hər hansı bir şəxsiyyəti seçib, sayıb, onun arxasınca gedib. İndi bilmirlər kimə qoşulsunlar.

Və iqtidar da bir adətindən zəlzələylə də əl çəkmədi. Qara camaatın arasında "mafioz", "narkaman" axtarmasından.

Millət niyə yerində sayır? Ona görə ki, iqtidar da, müxalifət də bir-birinə münasibətdə ancaq qara rəngdən istifadə edir.

## DƏRDLƏRİMİZ

Dövrəmdə dərd uçur belədən-belə,
Qəm-qüssə - batmandır, şadlıq bir gilə.
Özüm də bilmirəm, bilmirəm hələ
Mən qəmi sevirəm, yoxsa qəm məni.

*("Bu aləm məni" şeirindən)*

Tarix boyu dərdlərimiz çox olub. Həmişə dərd yeyə-yeyə sinəmizə çəkilən dağlara alışmışıq. Dərdlərimizdən Dədə Qorqudun qopuzu ağlayıb. Qurbaninin sinəsi qan

bağlayıb. Dərdlərimiz Seyid Əzimi "Allaha rüşvət verməyə" vadar edib, Mirzə Fətəlini "dinsizləşdirib". Dərddən Sabir ağlaya-ağlaya gülüb, Mirzə Cəlil gülə-gülə ağlayıb. Dərd batmanla gələndə millət acizləşib, bir dizini yerə qoymağa məcbur edilib, amma başını aşağı salmayıb, əyilməyib, papağını ayaqlar altına atmayıb, qoruyub. İçərimizdən yeyilə-yeyilə ərimişik. Özümüz özümüzə papış tikmişik. Dərdlərimizə çarəni başqalarında axtarmışıq. Parçalana-parçalana, bölgələşə-bölgələşə, tayfalaşa-tayfalaşa dərdləri də adiləşdirmişik... Və zəlzələyə bərabər Qarabağ, Göyçə, Dərbənd, Borçalı dərdlərini görə-görə, unuda-unuda papağımızı başımızda saxlamışıq. Nə yaxşı ki, noyabrın 25-də yer yarılmadı, yerə girmədik...

## AĞRILARIMIZ

Özgəyə pərəstiş, özünə rişxənd!
Bu qəsdin oduna yaman bişmişik.
Çox ağır yük imiş heç demə, qeyrət,
Atıb çiynimizdən yüngülləşmişik.
Satdıq Qarabağı özümüz dünən,
Umduq xilasını özgələrindən.
*("Fəxriyyə" şeirindən)*

Ağrılara tab gətirə-gətirə dağlarımıza Ağrı adı vermişik. Dağ boyda ağrıları dağlaramı bağışladığımızı zənn etmişik? Neçə illərdi ki, Ağrıdağ ağrılı yerimiz olub. Ağrıdağı əlimizdən zorla alıblar. Amma ağrılarını özümüzə qoşub uşaqlı-qocalı çöllərə töküblər. Ağrıdağ düşmən əlində ağrısız qalıb, köklü insanlarsız qalıb. İndi Alının, Ələsgərin ruhu dolanır başında. Ətəklərində isə yağılar toy-düyün qururlar. Quranlı yerlərdə xaç çevirirlər. Ağrıdağ ağrısını Azərbaycana ötürüb. Ağrıdağın ağrıları başqa ağrıları da ayağa qaldırıb, yurdumuzun sinəsində sağalmaz yaralar əmələ gətirib. Qarabağ, Talış-Muğan, Şirvan, Qusar-Quba, Gəncə-Yevlax yaraları... Və qaşıya-qaşıya Şəkidə də bir yara əmələ gətirməyə çalışdılar. Bəlkə Ağrıdağın ağrılarını özünə qaytarsaq, bu yaralar da sağalar...

## ...MİLLƏTİMİZ

Bu necə millətdir, bu necə millət?
Varmı yer üzündə beləcə millət?
Uduzmaq istəmir, uda da bilmir,
Oynayır özüylə heç-heçə millət
*("Fəxriyyə" şeirindən)*

Millətimiz dözümlüdür, səbrlidir, itqidarlı-müxalifətlidir, partiyalar və universitetlər bolluğunda boğulur. Hər şeyi var, heç nəyi yoxdur. Millətimizin böyüklüyü var, ululu-

ğu var, kaş xırdalıqlar olmayaydı... Vedrə bağlamağı, qulp qoymağı, özgə baltalarına sap olmağı bəziləri tərgidəydi... Millətimizin dili var, adı hələ dəqiqləşməyib. Mənsəb, ad-san düşkünləri müharibə əlillərinə gülürlər. Böhtanı, şəri əlində silaha çevirənlər isə mənəviyyatımızı korlayırlar. Və görəsən çadırda doğulanlara hansı yerin möhürü vurulur?

...VƏ BİZİ QINAYIRLAR Kİ... Niyə düşündüklərini çılpaqlığıyla yazırsan. Əlinə qələm götürüb bir yerə yollanırsan, adam sayıb üzünə xoş baxırlar, qabağına çay qoyurlar, qayıdıb gəlirsən, eşidirsən ki, oranın böyüklərinin əməlləriylə çoxlarının haqqı tapdanır, zəlil qalanların sayı-hesabı yoxdur, toy toğlusu kimi özünü ortaya atıb çığır-bağır salırsan. Dinməsən, mənsəb sahiblərinin gözündə dosta çevrilərsən, düşmən qazanmazsan. Bu dəfə çay verənlər, gələn dəfə könlünü daha isti şeylərlə alarlar. Dünyanın əyər-əskiyindən danışmaq sənə qalıb?

Qınayırlar ki, səhvini başa düşəndə boynuna alırsan, gərək həqiqətin üzə çıxması naminə belə düz yazmayasan, nə vaxtsa dediklərini tutuquşu kimi təkrarlayasan. Axı, əvvəl həqiqətin bir üzünü görüb o birisindən xəbərsiz halda danışmışam - deyirəm. İndi hər üzündən məlumatım var.

Və məni dilimə, sözümə görə məşhər ayağına çəkirlər. Kimlər? Həmişə saman altdan su yeridənlər. Sözü bəd işləri həyata keçirmək üçün xərcləyənlər. Kişiliyi pulla ölçənlər.

"Fikrini açıq ifadə etdiyinə görə İnsana məhkəmə qurmazlar". Bir alim dostumun kəlmələridi bu. Əvvəl mən də ünvanıma yağdırılan böhtanlardan bezib hüquq-mühafizə orqanları vasitəsilə şərxislətliləri susdurmaq niyyətindəydim. Amma sifətlərin sözdən çox dəyişdiyini görüb "ağızdan çıxan Allah kəlməsi üçün məhkəmə lazım deyil" qənaətiylə razılaşdım. Sözün acısı acı söz gətirsə də, həqiqət üzə çıxmaqla şirinləşir. Sözün ucuzluğuna gedib saqqız kimi çeynəmək isə arvad işidi.

Bəxtiyar Vahabzadənin dili ilə desəm:

*Qardaş, məni qınama!*
*Bu həyat yalan, yalan... vicdanımsa həqiqət.*
*Amma mən neyləyim ki,*
*Danışmağım qəbahət, susmağım da qəbahət!*

Doğrudur, sözlə Adamı adamlıqdan çıxardanlar da az deyil. Beləri ağsaqqal, qarasaqqal olsalar da, bir şeyi unudurlar. Dünyanın sonsuz zəlzələləri var. Və zəlzələnin nə vaxt baş verdiyini heç kim qabaqcadan müəyyənləşdirə bilmir. Belə halda ürəklərdə zəlzələ yaratmaqla nə qazanırlar? Ad-sanmı? Şöhrətmi? Var-dövlətmi? Yox. Tənhalıq və vicdansızlıq. Sözə bədsöz qaytarmaqla adını şərəfləndirən olmayıb. Əksinə, özünə də təzək yapışdırıb.

Nəhayət, məni hədələyirlər: şirlər nəriltisiylə, tısbağalar asta yerişiylə, milçəklər vızıltısıyla. Amma şirləri az görürəm. Bu birilərinə baxanda isə allahımdan onlara bir balaca ağıl verməsini istəyirəm. Çünki...

Ulu Tanrı insandan üz döndərəndə ilk olaraq onun ağlını əlindən alır. Ağlı əlindən alınan nə etməlidir? Beləsinin ağlı üstündə olanları sıradan çıxartmaqla şeytanın qulluğunda durmaqdan başqa əlacı qalırmı?.. Məncə bəşər övladı arasında xeyir-şər mübarizəsi belə başlayıb.

## ...ZƏLZƏLƏDƏN SONRA

Küçə də əyridir, dalan da əyri.
Satan da əyridir, alan da əyri.
Nə vardı bir üzü olsa riyanın,
İp əyri, daş əyri, tərəzi əyri.
Səninlə bir yolu addımlayanın,
Məqsədi, məramı, qərəzi əyri.
*("Necə düz keçim" şeirindən)*

Allah həmişə öz şüurlu bəndəsini səbrli olmağa çağırıb. Çünki səbrlə, təmkinlə alınmaz qalanı almaq mümkündür. Dünya yaranandan belə olub, belə də olacaq...

***

Müdriklərimizin dilində "tanrısına təpik atır", "çörəyi ver çörəkçiyə" ifadələri var. Məncə, tanrısına təpik atanlar - öz çörək verəninə xor baxanlardır...

***

Rəzil, yaltaq, onun-bunun kölgəsinə daş atan adamlardan çox-çox uzaq olmaq gərəkdir.

***

Ürəyiyumşaqlıq insanın ən böyük baş ağrısıdır.

***

Yaxşılığı qanana elə və imdad üçün hər əl uzadana yardıma qaçmağın daşını at.

***

Dünyanı böyüdüb-kiçildən və yaxşılaşdırıb-pisləşdirən insandır. İnsanın özünü isə ucaldıb-alçaldan, ucu-bucağı görünməz dünyada yerini daraldan onun öz daxili aləminin boşluğudur.

***

İçi boşlar həyatı eybəcərləşdirməklə yanaşı, tənzimləyici rolunu oynayırlar.

***

Bilmirəm nədəndir, taleyimdə rastlaşdığım iyrənc hadisələri ancaq yaxşılıqlarımın arxasında görürəm. Və başıma gələn pisliklərin çoxu eyni ünvanlıdır.

***

Bəzilərinin qəsdimə durmalarının səbəbi nədir, anlamıram? Hər şeyi - xeyirxahlı-ğı, səmimiyyəti də qara rəngdə görmələrimi, yoxsa yüngül yolla qazandıqları "böyük uğurları" ətrafımda fəlakət, tufan, cəhənnəm yaratmaqla saxlamağa çalışmaları?

***

Dünya iki rəqəmində - əksliklərin qarşılaşması nəticəsində meydana gəlsə də, xəyanət və riyakarlıq üzərində qurulmayıb. Bütün yaranışların mayasında məhəbbət durur.

***

Gecə-gündüz Allahdan ancaq bir şey arzulanmalıdır: nə olar, bəndələrinin ağlını əlindən alıb dünyanın rəngini korlama, şeytana papış tikənlərin sayını çoxaltma...

## BƏS NƏ DƏYİŞDİ?..

Həyat da, zillət də həməndir bu gün,
Verilən vədələr tez unuduldu.
Azadlığın özü, vallah, bizimçün
İndi başqa cürə məhkumluq oldu.
*(“Azadlıq” şeirindən)*

Tarixən Azərbaycanda dağıdıcı zəlzələlər çox baş verib. Mənbələrin yazdığına görə, ilk belə zəlzələ 427-ci ilə aiddir. 1139-cu ildəki zəlzələdə Kəpəz dağının bir hissəsi uçmuş, Ağsu çayının qarşısı kəsilmişdir. Nəhayət, 1902-ci ildə zəlzələ qədim Şamaxı şəhərini yerlə yeksan etmişdir.

Zəlzələlər çox hallarda təbiətdə böyük dəyişikliklər yaradır. XII yüzillikdə Gəncə zəlzələsindən yer üzünün nadir inciləri - Göygöl, Maralgöl “doğulub”. Şamaxı zəlzələsi əyalət mərkəzi statusunu şəhərin əlindən həmişəlik alıb. Spitak zəlzələsi dünyanı ermənilərin “yazıqlığına” inandırıb, Qarabağı, Göyçəni Azərbaycanın əlindən çıxardıb. Bəs Bakı zəlzələsi nəyi dəyişdirib və nələri əmələ gətirib? Hələ ki, 31 insanın həyatına qəsd edib, onlarla inzibati və yaşayış binasının sütunlarını qırıb. Allah milləti sonrasından saxlasın...

## TƏBİƏTİN DƏ, CƏMİYYƏTİN DƏ ZƏLZƏLƏSİ DAVAM EDİR, ...

Xeyirə dolanmır niyə bu dövran?
Niyə bu milləti məğmun eylədin?
Niyə başqasına bir qarış olan
Yolu bizim üçün uzun eylədin?
*(“Ya rəbbim” şeirindən)*

200-ci ilin dekabr ayının 6-da axşam Bakı əhalisi yenidən təşvişə düşüb küçələrə axışdı. Yer silkələnib binaları bünövrəsindən oynatdı. Bu, Xəzərin o üzündə, Türkmənistanda baş verən 7,5 bal gücündə zəlzələnin dalğası idi. Onun təsir dairəsi Moskvayadək uzandı. Təbiətin qorxulu hadisəsi Yer kürrəsinin bağrını dəlsə də, xətəri çox olmadı. Allah bəndələrini bu dəfə də fəlakətdən qorudu.

Təbiətin də zəlzələsi davam edir, cəmiyyətin də...

Sabahımızın tükdən asılılığını düşünüb Allahın hələ ki qıymadığı yaşadığımız günlərdə günah üstünə günah gətirməyək. Dünya malından, vəzifədən, saxta ad-sandan ötrü həyatları zəhərləyib, qəlblərdə zəlzələ yaratmayaq.

## DÜNYADAN KƏNAR DÜNYA VƏ ÖLÜMDƏN QABAQ ÖLÜM VARMI?

DÜNYADAN KƏNAR...

Nə yaman dəyişdi bu köhnə dünya,
Qatıq qara olub, indi ağ olmur.
Durub öz-özünün qəsdinə dünya,
Elə dəyişib ki, tanımaq olmur.
*("Yol azmışam mən" şeirindən)*

Dünyanın təzadları çoxdur. Bəzən onları qəribəlik, möcüzə, qeyri-adilik, sirr, Allahın işi kimi qəbul edirik. Yer göylə, günəş torpaqla, dənizlə üzbəüzdür. Amma hər ikisi bir-birinə meydan oxuyur. Birinin yağışı, qarı, güləyi, tufanı, qasırğası, istisi o birinə qənim kəsilir. Və bunlar olmasa, dünyamızda canlılıqdan əsər-əlamət qalmaz. İnsanlar da belədir. Şərxislətlilər həmişə xeyirxahlara həsəd aparır, ayaqlarının altında quyu qazırlar.

Təzadlarsız hər şey bir rəngdə görünər, inkişaf, irəliləyiş mümkünsüzləşər, zaman dayanar.

Əvvəl fantastik ədəbiyyatda, sonra isə elmdə paralel, yaxud kənar dünyalardan geniş söhbət açılıb. Yaşadığımız dünyadan kənarda sonsuz dünyaların mövcudluğu barədə ilk təsəvvürlərlə isə miflərdə rastlaşırıq. Astrologiya da əsrlər boyu başqa dünyaları təsvirə çalışıb, bütün hərəkətlərin ulduzlarla idarə olunduğunu iddia edib. Xalqın əsgi inanclarında təsadüfi olaraq deyilmir: "Hərənin bir ulduzu var". Yaxud "Ulduzu sönənin ömrü də bitər". Nənə-babalarımız "onların ulduzları barışdı" ifadələrini tez-tez dillərinə gətirirlər. Ulduzlarımız barışsa da, bir-birimizə badalaq gəlməkdən əl çəkmirik.

İndiyədək heç kəs bir sorğuya dəqiq cavab tapmayıb. Başqa dünyalar varmı? Yer kürrəsindən kənarda həyatın, canlılığın olduğunu təsdiqləyən faktlar özünü doğruldurmu? Hələ ki, insan və özgə canlılar təkcə bizim dünyamızın sakinləridir. Və hər kəsə bir ömür payı verilir. Şirinli, acılı, uzunlu, qısalı bir ömür payı. Bugünədək Allahın ömür payından heç kəs doymayıb. Doğrudur, həyatın burulğanlarından qorxub acizləşməklə canına qıyanlar da olur. Lakin onlar dünyadan doyduqları üçün yox, bezdiklərindən vaxtından qabaq köçüb gediblər.

Həyat əbədi, ölümsüz olsaydı, ürəklərdən qorxu da silinərdi. Qorxusuz isə hamımız robotlaşar, manqurtlaşardıq.

Şüur meydana gələndə ilk qorxu bəşər övladının ölümlə üzləşdiyi zaman özünü biruzə verib. O vaxtdan milyon illər keçsə də, hələ də ölümü ölümsüzlüklə əvəzləmək

mümkün olmayıb. Dünyada çox şeyləri yaratmağı bacaran insan anlayıb ki, ölüm Allah işidi. Canı verib alan Ulu Tanrıdı. İqtidarlar da ölümü heç vaxt istədikləri şəkildə idarə edə və ondan öz yaxasını qurtara bilməyiblər. Gözü heç nədən doymayan bəşər övladı tarix boyu ölümün Allaha məxsusluğunu bilə-bilə min vasitəylə ölümlü dünyada ölümlərin vaxtından tez baş verməsinə çalışıb, Əzrayıla yardımından ləzzət alıb - əzrayıllaşıb.

Dünyadan kənar dünya varmı? Ayrı-ayrı tarixi mərhələlərdə və uzaq-yaxın bölgələrdə yaşayan toplumlar bir-birindən xəbərsiz dünyamızdan kənarda cənnət və cəhənnəmin varlığına inanıblar. Diri-diri dərisi soyulan Nəsimi isə iki dünyaya (axirət və yaşadığımız dünya) qarşı daha böyük mənəvi dünyanın durduğunu təsdiqləyib. Mənəvi dünyanın saflığını qorumaq üçün mövcud dünyadan əl çəkənlər də tapılıb.

Dünyamız boşalıb, dolub. Dünyamızdan yaxşılar köçüb, pislər, arsızlar qalıb.

İnsanın ikinci qorxusu qaranlıqdır. Ulularımız işıqlı günlər üçün oda, Günəşə, Aya pənah aparıblar. İşıqdan doğulub odla o biri dünyalara yollandıqlarını (ölüləri yandırma adəti ilə) zənn ediblər. Evlərin ocağı sönəndə elə biliblər nəslin kökü kəsilir. Bu gün də işıq, ocaq üçün mübarizə aparırlar. Və bu gün də insanlardan işığı, istiliyi əsirgəyənlər tapılır.

## CƏMİYYƏTDƏN KƏNAR...

Uzaq bir adanı sahil bilmişik,
Adil dədəmizi cahil bilmişik.
Özgənin şamını qəndil bilmişik,
Bizi özümüzə qaytar, ilahi!
*(“Özümdən özümə şikayət” şeirindən)*

Bütün zamanlarda bəşər övladının ən böyük arzusu ölümsüzlük qazanmaq olub. Vücudlarını itirsələr də, ad-sanlarını tarixdə ölümsüzləşdirənlər tapılıb. Qeys cismani həyatın puçluğunu, mənəvi, ruhi aləmin isə əbədiliyini dərk edib - məcnunlaşıb. Məcnunu da bəzi icra başçıları kimi daşa basıblar. Amma Məcnun heç kəsin ocağının sönməsini, işıqsız qalmasını istəməyib. Məcnun ürəklərin işığa qərq olunmasına can atıb. Onu cəmiyyətdən kənarlaşdırıblar. Cəmiyyət zülmətdə qalmağı üstün tutub. Məcnunun insanlığa gətirdiyi məşəli söndürüblər.

İsgəndər “ölüləri diriltmək”lə Şeyx Nəsrullahın şeytana papış tikdiyini və dirilərin sağkən ölülüyünü görüb. O, qeyrəti, namusu var-dövlətə satan diri ölülərin üzünə tüpürüb. İsgəndər də cəmiyyətdən kənar sayılıb. Ölü cəmiyyətdən kənar sayılıb.

Bu gün Qarabağda vücudunun bir hissəsini qoyub o torpaqların hələ də yağıların tapdağında olduğunu görən ac-yalavac əlillər, çadırlarda Vətənində vətənsiz ömür-gün çürüdənlər görəsən cəmiyyətdən kənarda deyil ki!..

Və millətin adından danışanlar mersedeslərdə gəzməklə, təm-tarahlı saraylarda qarın bəsləməklə cəmiyyət içindədirlərmi?

## SİYASƏTDƏN KƏNAR...

Özümüz yanırıq öz dərdimizə,
Dünyanın qulağı kar olmuş bizə.
Bizim haqqımızı boğan siyasət,
Haqqı sübut edən sahibimiz yox.
Sıfıra dönübdür başsız bu millət,
Sıfırlar önündə vahidimiz yox!
*(“Həm oğul, həm ata” şeirindən)*

Dünya yaranandan kürsü davası olub. Ad-san, torpaq, var-dövlət davası olub. Qaydalı, qaydasız döyüşlər meydana gəlib. Gizli və aşkar söyüşlər, təhqirlər, bədsözlər dilə gətirilib. Qərəzli, qərəzsiz ittihamlar ortaya atılıb. Qardaş qardaşı, ata oğulu, millət milləti günahlandırıb. Günah üstə günah artırılıb.

Dövlət yaradıblar ki, bir bayraq altında hamını birləşdirsinlər. Siyasətlə dövləti böyütmək əvəzinə kürsülərini qoruyublar. Torpaqları kürsülərinədək itirməklə qoruyublar.

“Torpaqdan pay olmaz” deyə-deyə dədə-baba torpaqlarını şimallı, cənublu, qərbli qonşulara paylayıblar. Bircə kürsünü verməyiblər.

Siyasəti qazanc mənbəyinə, insanları ətalətdə, qorxu altında saxlamaq silahına çeviriblər.

## VİCDANDAN KƏNAR...

Stol hərisləri nə yaman çoxdur,
Hanı bu vətəni düşünən ürək?
Millətin adından danışan çoxdur,
Millətin dərdinə alışan gərək...
*(“Həm oğul, həm ata” şeirindən)*

Mifləri, əfsanələri, rəvayətləri, uydurmaları sonsuz olsa da, Dünya yalanlar üzərində qurulmayıb. Dünyada hər şey sevgidən, məhəbbətdən yaranıb.

Xeyir şərə qardaş doğulub. Amma Xeyir şərlə qardaşlaşa bilməyib. Biri işığı, aydınlığı əlində silaha çevirib, o biri qaranlığı, zülməti. İnsanlar da xeyirləşib, şərləşiblər. Vicdan mizan-tərəzisi ilə xeyirxahlarla şərxislətlilər bir-birindən ayrılıb. Bəziləri qurbanlar tələb ediblər. Haqq üçün yox, şəxsi anbisiyalarını həyata keçirmək üçün. Vicdanlarını zülmətdə itirməklə tülküləşib, çaqqallaşıblar. Ulularımız əlacsız qalıb deyiblər ki, “Çaqqal var baş yeyər...” Beləəri nəinki Vətənini, anasını, arvad-uşaqlarını da xırda vəzifəsinə qurban verib.

Vicdandan kənarlar əyninə geyməyə şalvar tapmadıqları halda dilənçiliklə əllərinə düşənləri sağa-sola xərcləyə-xərcləyə qapıları gəziblər, nazir qalmayıb, vergi idarəsi

qalmayıb, polis qalmayıb, prokuror qalmayıb, qəzet qalmayıb ki, ayaq döyməsinlər. Ağıllarına nə gəlib, söyləyiblər, "Amandı qoymayın, millətin əxlaqını pozurlar". Biri nazirin şəxsi telefon nömrəsini ələ keçirib, onunla calaşıb ki, "Durma gəl, papağımızı yerə soxdular". Halbuki, onun ömründə başında papaq olmayıb. Nələr uydurmayıblar, təki şərlə, böhtanla qarşılarını kəsənləri ləkələyib aradan götürsünlər. Başqası bir hüquqşünasın yaxasından yapışıb ki, niyə bizim ittihamlara əsasən qanun filankəsin cəzalanmasına yol vermir? Cavab alıb ki, axı, o, uydurduğunuz işləri yerinə yetirməyib... Ondan soruşublar:

-Camaatın savadlanmaq istəyən balalarına qarşı etdiyiniz xəyanətin üstü açılanda yaşınızın çoxluğuna baxmayaraq mənsəb sahiblərinin qarşısında diz çöküb ağlayırdınız. İndi hansı haqdan, ədalətdən, əxlaqdan danışırsınız? Hələ bəzi tulaların da qabağına sümük atıb onun-bunun üstünə qısqırdırsınız? Elə bilirsiz, siz ağıl dəryasısınız, elədiklərinizi heç kim anlamır?..

İnsanın bir ayağı gorda olanda elədiklərinin peşimançılığını çəkir. Haqqa dönür. Vicdandan kənarlar isə bu dünyadakıların xirtdəyindən daha bərk yapışırlar ki, dartıb özləriylə cəhənnəmə yoldaş aparsınlar. Ona görə də atalarımız deyiblər: "Qozbeli qəbir düzəldər".

Amma beləl期inə soyuq, qara torpaq da heç nə eləyə bilməz.

*(Bircə ona təəssüflənirəm ki, həyatımda vicdandan kənarlarla çox rastlaşmışam, bəzən hiylələrinə aldanmışam, hətta onlar mənim kimilərinə rəhbərlik etmək iddiasına da düşüblər).*

## ƏXLAQDAN KƏNAR...

Qəhr edilsə imanın
Nə günahı zamanın?
İndi nə var, insanın
Ləyaqətindən ucuz?
*("Ucuz" şeirindən)*

İnsan imkansızlıqdan pis yola düşmək məcburiyyətində qalır. Buna əxlaqsızlıq adamın deməyə dili gəlmir. Yaxud kimsə doğmasını, yaxınını, istəklisini, cəmiyyəti xilas üçün Mopassanın "Gonbul"u kimi düşmən əsgərinin qoynuna atılır. Buna da əxlaqsız adı vermək insafdan deyil.

Elə xəstələr var ki, zahirən kişidir, qadınlıq meyliylə yaşayır. Bu da təbiətin bəlasıdır, onları insan əxlaqından kənarlaşdıran amili aradan qaldırmaq lazımdır.

Məhz əxlaqdan kənarlar o adamlardır ki, tərbiyə, bilik verdiyi yeniyetmə qızların ağlını oğurlayıb qulluq göstərdiklərinin qabağında əyləncə vasitəsinə çevirilməyə vadar edirlər. Beləlləri dar ağaclarından asılmalıdır. Və ucuz elmi addan ötrü başqasının ailə üzvülərinə - bir vaxtlar qızındığı ocağın namusuna böhtanlar yağdıranın isə dili kəsilməlidir. Onlara "çaqqal" desək, Allahın çaqqalını təhqir etmiş olarıq.

Və belələrinin bütün şərlərinə, əməllərinə göz yummaq mümkün idi, vicdandankənar sözləri ailə, namusla əlaqələndirməsəydilər. Allah qoysa, zaman özü öz hökmünü verəcək. Bu gün uşaqlarının çörək pulunu kortəbii şüurun, sərbəst düşüncənin toruna bürünmüş, həqiqətə, vicdana müxalifət olan, şərlə dolu qəzetlərə verib yayanların öz vicdandankənar işlərinin quluna çevriləcəyi gün an uzaqda deyil.

## İNSANLIQDAN KƏNAR...

Vaydır əkdiyiniz, sizsə gül dərin.
Gizli saydığınız dolların səsi
Yetim evlərində kimsəsizlərin
Ahu-naləsidir, ahu-naləsi.
Vallah, gec-tezi var, billah, gec-tezi,
Bu ahlar, nalələr tutacaq sizi.
*("Vaydır əkdiyiniz" şeirindən)*

Kiməsə savadsız demək cinayət deyil. Saxta sənədlər düzəltməklə yalan elmi dərəcə almağa can atmasının açıq şəkildə elan edilməsi də ağlı başında olan üçün dünyanın sonuna çevrilməməlidir.

Dünyanın sonu odur ki, ömrün boyu insanlığını tapmayasan. İtirdiyini demirəm. Anadangəlmə insanlıqdan məhrumluğunu qanmayasan və belələrinin əhatə dairəsində fırlanmaqdan ləzzət alasan.

Əslində, haqlı, haqsız tənqiddən yaxa qurtarmaqdan ötrü elmi həqiqətə söykənməklə fikrinin doğruluğunu sübuta yetirib ucalmaq mümkündür. Qara qışqırıqla şərxislətlilərlə birləşib beynini təkcə çamurla dolduranlar borc aldıqları adlarını da batırarlar. Böhtanların içərisində elmi söhbətlər olsa, dərd yarıdır. Qərəzli iradlar, sonsuz iddialar, özünü göylərdə görmək...

Bunlara görə də razılıq bildirilməlidir. Çünki kiminsə bir-iki cümləsinin snoskada verilməməsinin yığıcılar tərəfindən unudulması böyük qəbahət sayılmasa da, müəllifi daha diqqətli olmağa sövq edir.

Dünyadan xəbərisizlərin saxtakarlığının qabağına kötük atanları ağılsız kimi qələmə verməsi isə adama əsgi "mağaralar"ı xatırladır. Cəmiyyətdən uzaqdakı bir mağarada oturub "sivil" dünyanın işinə qarışmaq insanlıqdan kənardır. Gərək əvvəl insanlar cərgəsində sayılasan, sonra "Mən də varam" söyləyəsən.

Və mağaradakı küt sakini gətirib nə qədər böyük alim dəstəsinin yanına bağlasan, yenə də qırxında saz öyrənməyəcək. Aşıqlığı başa bəla olacaq.

Bunları nə üçün deyirəm? Ona görə ki, bədniyyətli yazıların arxasında duranlar və çap edənlər bir vaxtlar bir ali təhsil ocağının rəhbərini işdən çıxartmaqdan ötrü dəridən-qabıqdan çıxır, şeytanın özünə quyruq bulayırdılar. Onlar buqələmun kimi rəngdən rəngə, cilddən cildə girməklə nə cəmiyyətimizdə özlərinə yer tapacaq, nə də böyük uğur qazanacaqlar, ancaq özü kimilər arasında sayılıb seçiləcəklər.

## KİŞİLİKDƏN KƏNAR...

Verib Qarabağı Bakıya qaçdıq,
Bakıda "Qarabağ" kafesi açdıq.
Verib Qarabağı oxuduruq biz
Toylarda "Qarabağ şikəstəsi"ni.
Heç demə, bizim də kişiliyimiz
Toylarda cırmaqmış minik dəstini.
*("Yurd yad əlində" şeirindən)*

Səməd Vurğun böyük istedad sahibi olub. Təəssüf ki, onun yaratdıqlarının bir qismi Azərbaycanı qara rəngə bürüyən siyasi əqidəyə hədsiz qulluq göstərib. Lakin şairin xalq arasında gəzib-dolaşan bəzi misraları da var, daxilindən gəlib, mühitinin, ətrafındakıların görünməyən tərəflərinə güzgü tutub. Həmin müdrik kəlamların arasında kişiliklə bağlı deyilənlər yadıma düşür. Doğrudan da sənətkarın qələminin qüdrəti qarşısında baş əyməyə dəyər. Kişilikdən kənar işlər baş verəndə isə dünyanın rəngi başqalaşır. Axı, kişi qadını məhşər ayağına çəkməz. O halında ki, həmin qadının ən təlatümlü, ağrılı günləri idi, faciəli şəkildə doğmasını itirmışdı. Və bəlkə də kişilikdən kənar işlərə görə Allah bizə zəlzələlərlə xəbərdarlıq edirdi.

Kaş qadınlarımızın qeyrəti "kənarlar"da dayananalara keçəydi...

## ...VƏ ÖLÜMDƏN QABAQ ÖLÜM

Ölülər diridir, dirilər ölü,
İstidir dünyanın odundan külü.
Doğru danışanın kəsilir dili,
Öldürən haqlıdır, amma ölən yox.
*("Gerçək günahkardır" şeirindən)*

Saydığım və onlarla başqa amillərlə insan özü özünü ölümdən qabaq dəfələrlə öldürür. Diriykən ölməyin dəhşətini Mirzə Cəlil qovrula-qovrula göstərib. Həyəcan təbilini əsrin əvvəllərində çalıb. Yüz ili başa çatdırırıq. Amma dünyamızı hələ də diri ölülərdən xilas edə bilməmişik. Allah dil bağışlasaydı, çaqqallar insanları məhkəməyə verib deyərdilər ki, bizdən nə istəyirsiniz, adımıza onlarla nalayiq atalar sözü düzəltmisiniz. Öz aranızdakı çaqqalları görmürsünüz? Nə qədər ki, çaqqallarımız çoxdur, ulamaqlarında davam edirlər, bəlalarımız da bitib-tükənən deyil. Ölümdən qabaq ölməyimizə kənardan düşmən axtarmağa gərək yoxdur.

***Ramazan Qafarlı***

# ƏLVAN ÇİÇƏKLƏR



*Azərbaycan,*
*Mənim eşqim,*
*mənim andım,*
*mənim anam!*
*Biz ikimiz bir torpağıq,*
*Mən də sənin bir parçanam.*
*Ey qüdrətim, ey şöhrətim,*
*Sənsiz mənim nə qiymətim?*

## İNAM

Dünən,
bu gün,
sabah.
Üçü də bir vahidin
dolanır başına.
Bu zaman ölçüləri,
Müsavidir
Mehrabımız vətənin yaşına.
Biz bu yaşın içində,
Yaşa dolduq,
Böyüdük,
Yetişdik.
Ən ali məqsədə çatmaq üçün
Xalq yoluna and içdik.
Andımız
Odlardan, alovlardan
Keçirdi bizi müdam.
Dünənə hörmət,
bu günə alqış,
sabaha inam.
İnam!
İnam!
İnam!

*1970*

## CIZIQ

*Bir dissertasiya müdafiəsi*
*münasibətilə*

Kişi kimi sən qalxıbsan o kürsüyə
Deyəmmədin öz fikrini.
Kişi gərək
Gizlətməyə düz bildiyi
Düz fikrini...
Fikir?
            Yox-yox! Mən yanıldım,
Səndə fikir ola bilməz.
Fikir ki, var,
Xəbis, xırda duyğuların arxasında
Gizlənilməz.
Əgər haqqı sevirsənsə,
Sən bu haqqı necə dandın?
Sən manatın qabağında
Qəpik kimi xırdalandın.
O kürsüdə kişi kimi ucalmağa
Yox cürətin!
Sən gizlində cızıq çəkib
Gizləndin bir cücə kimi
Arxasında ədalətin.
O cızıqmı?
Yox! Qəlbində yuva salan
İlanlardır qara-qara,
Sən fikrini, cürətini
Yem etmisən
            qəlbindəki ilanlara.

Sən «yox» deyə
Nəyi pozdun,
Kimi pozdun?
Elə bildin sən qazandın?
Yox, ay bədbəxt,
Öz-özünü, mənliyini
sən uduzdun.
Qara bir xətt – sənin fikrin,
sənin sözün.
Pozdun! Yaxşı!
Çox da bunu biz bilmədik
Bəs sən özün?
Sənin əqlin
Xətt çəkdiyin o əqildən,
Qaçaq düşüb sığınıbdır
Qəzəb və kin arxasına...
Sən o boyda vücudunu
Axı necə sığışdırdın
Bircə xəttin arxasına?..

*İyul 1970*

## ELƏ BİR FİKİR Kİ...

Mən fikir acıyam, mən fikir acı,
Fikir möhtacıyam, fikir möhtacı.

Elə bir fikir ki, o mənə rəhbər,
Mən ona adicə bir əsgər olum.
Onun eşqi ilə doğsun səhərlər,
Mən onun yolunda səfərbər olum.
Yerimdən oynatsın məni top kimi,
Canımdan çıxartsın ətalətimi...

O fikir öz yolum, öz adım olsun,
O, mənim ən möhkəm qanadım olsun.
Dönüb ildırıma, qoy vursun məni,
Ulduzdan - ulduza uçursun məni.

Elə bir fikir ki, o mənə candan
Daha əziz olsun,
Can unudulsun.
Mənim günlərimə bir yön, bir sükan,
Mənim illərimə o, ünvan olsun.

Elə bir fikir ki, yansın od təkin
Zülmət içində də yol versin mənə.
Elə bir fikir ki, gördüklərimin
İçini, məğzini göstərsin mənə.

Onu su keçirib, od əritməsin,
Yolunda yay kimi hey gərilim mən.
Ömrümün sonuna çatsın, bitməsin,
Onu nəvəmə də verə bilim mən.

Elə bir fikir ki, arzu da, kam da
Onun havasıyla bəslənsin müdam.
Elə bir fikir ki, qulaqlarımda
Döyüş nəğməsi tək səslənsin müdam.

Elə bir fikir ki, o gülən kimi
Hikmətlər açılsın,
Mənа durulsun.
Nəyə toxundusa, bir iksir kimi
Onun dəyərini bildirən olsun.

Elə bir fikir ki, tapınıb ona
Yoluna güvənim,
Qürrələnim mən.
Uçum o amalın sonsuzluğuna
Zirvələr başında zirvələnim mən.

Gözə görünməyən ömür yolumdur
Xəyalla, imanla dolu fikirlər.
Mənim səhərimin dan şəfəqləri,
Sabahın körpüsü, yolu fikirlər!

Zülmətin içində ulduztək yanar,
Dəniztək qovrular, göltək çalxanar,
Axır mənzilini bir məbəd sanar
Müqəddəs fikirlər, ulu fikirlər.

Bəzən nalə çəkib tökər göz yaşı
Həmişə özümlə durar yanaşı.
Özümün hakimi, sözümün başı,
Eşqimin, arzumun qulu fikirlər.

*İyul 1970*

## TƏLATÜM

Təlatümsüz ürəkdə
Qan da sırsıra bağlar.
Təlatümdən yaranıb
Deyərdim sıra dağlar.
Su coşmasa,
                daşmasa,
Qranit qayalarla
                üz-üzə toqquşmasa,
Təzələnməz,
                durulmaz.
Duyğu dənizlərində
Çağlayan ürəklərə
Sinələr də dar olmaz...
Ömür burulğanından
Saxlamasın qoy məni
Anamın
                qapımızda
                yandırdığı üzərlik.
Mənim xoşbəxtliyimçin
Mənə gərək deyildir
Dəryaca bəxtəvərlik.
Həyəcansız
                dar gəlir
Mənə  köksün qəfəsi.
İnsan nəfəsi verin, mənə
                İnsan nəfəsi.
Neyləyirəm nəfəssiz
Sıra-sıra düzülmüş
Rəqəmi,

ədədi mən?
İstəmirəm, a qardaş,
Yüz-yüz yalan vədi mən...
Mənə rəngsiz, boyasız
Bircə doğru söz verin.

Min gecəni neylirəm,
Mənə hərəkət dolu
Min səsli, min duyğulu
Təkcə bir gündüz verin!

Yüz-yüz yalvarışlara,
Min-min təmənnalara
Dəyişmərəm
ürəkdən
Gələn səsi, səmri mən.
İstəmirəm yüz illik
İzsiz keçən ömrü mən.
Mənə
Həyəcan dolu
yalnız bircə gün verin.
Yüz ulduz sizin olsun,
Mənə bircə gün verin!
Hər şeyi bütün verin!

Zirvələrin başında
Zirvə kimi
tək olum!
Ağlayanda mən bulud,
Gülləndə şimşək olum.

*İyul 1970*

## LEYLAYA

*Sevimli sənətkarımız*
*Leyla Bədirbəylinin 50 illiyi münasibətilə*

Qadınlar, adınız sevgi, məhəbbət,
Hər yerdə yeriniz baş olur sizin.
Ən çox sevdiyiniz gənclik, təravət,
Ən çox qorxduğunuz yaş olur sizin.
Leyla! Sən qorxmadın yaşından...
Ömrün,
Ömürlər yükünü hey çəkən oldu.
Ayağın altında illər səninçün
Zirvəyə qalxmağa pilləkən oldu.

Sənət – qəhrəmanlıq, sənət – cəsarət,
O nə qorxu bilir, nə minnət bilir.
Bir günün sözünü söyləyən sənət,
Nə zaman tanıyır, nə sərhəd bilir.
Duydun bu hikməti öz sənətinlə,
Lap yüz yaşında da,məhəbbətinlə,
Sənət aləmində sən varsan, bacım,
Həmişə cavansan, baharsan, bacım.

*Mart 1970*

* * *

Gecənin yarısı
Kitab oxuyuram,
Maraqlı bir kitab.
Könlümdə düyünlənib daş olur
Özgənin çəkdiyi
Əzab, iztirab.
Birdən işıq söndü.
Ətrafım zülmətə,
Könlüm nura büründü.
Kitabı bağladım,
Könlümün kitabını
varaqladım.
Gördüm orda naxışlarını
Əzabın,
Kədərin,
dözümün...
İşıqda özgələrin ürəyini
Yaxşı oxuyuram,
Qaranlıqda özümün...

*İyul 1970*

## TARİXÇİLƏRƏ

Bir müzeydə dəbilqələr,
Əlvan, zərli əlbəsələr,
Daş yazılar,
Kitabələr.
Nələr, nələr...
Əyri qılınc, əyri oraq,
Qəbzələri yamaq-yamaq.
Hər biri xalq həyatının
Tarix olan nişanəsi.
Bir arzunun, bir əməlin
Yer altında batıb qalan
            donuq səsi...
Dinməz-dinməz yatır onlar.
            Əgər... əgər...
Başlarından keçənləri
Bir danışa bilsəydilər,
Nalələrdən dağılardı
Divarları bu muzeyin...
Yəqin... yəqin...
Qalxana bax!
Öz əsrinin gözlərilə
Əsrimizə
Maddım-maddım baxana bax...
Allah bilir, bu daş qalxan kimin olub?
Bəlkə, onun sahibi də
Özü kimi unudulub...
Bir nəfərə deyil,
                  bəlkə...
O, bu boyda məmləkətə

qalxan olub...
Əyri qılınc, əyri qılınc!
Hansı başı paralayıb,
Hansı dağı,
Hansı daşı yaralayıb?
Bəlkə, min-min qılınclara
o əvəzmiş...
Bəlkə... düşmən qılıncıdır,
məni kəsmiş...
Yüz-yüz illər, daş əsrlər,
Yer altına keçən izsiz qərinələr,
Bir müzeyə yığışıbdır,
Min-min illik tarixə bax,
Bura necə sığışıbdır?

Tarix təkrar olunarmı, görən, bir də?
Tarix olub şan-şöhrətim
Yatır bu gün muzeylərdə.
Ey tarixçi,
Yazırsan ki, filan kral,
Filan ildə yağmaladı
ölkəmizi...

Bu tarixmi?
Gəl, aldatma soyuq-soyuq rəqəmlərlə
Nə özünü,
Nə də bizi...
Sən yaz görüm, axı niyə
O cəbhəni biz yarmadıq?
Qolumuzu zəncirləyən,
Varımızı xəlbirləyən
O düşmənlə bacarmadıq,

bacarmadıq?
Qılınca bax!
Ancaq onun arxasında,
Tökülən, ya tökülməyən
o qanı gör!
Rəqəmə bax,
Ancaq onun gizlətdiyi
mənanı gör!
Yalana bax!
Düzünü yaz!
Özgəni gör, özünü yaz!
Bir budaqdan bərk yapışıb
Yüz budağı budalama.
Sən mənimçün
Rəqəmləri sadalama!
Mənanı yaz, səbəbi gör!
Məqsədə bax, mətləbi gör!
Sən de görüm, nə veribdir, nə verəcək
Babalardan miras kimi aldığımız
qeyrət mənə?
Tariximdən ibrət dərsi
Götürməyi öyrət mənə!

*Avqust 1970*

## MƏN KOMPASAM

Mən fikrə çevrilmişəm.
Yox, mən yoxam.
Mən fikirəm.
Bu fikrimdə, bu əzmimdə
Mən vahidəm.
Birəm, birəm!
Yollardakı ayrıcları,
Fikirdəki budaqları,
Arzudakı haçaları
İstəmirəm,
İstəmirəm!
Mən tapmışam öz yönümü,
Heç kəs mənə deyə bilməz
Ora dönüm,
Bura dönüm.
Mən kompasam,
Birdir üzüm,
Birdir yönüm!

*Sentyabr 1970*

## SƏHƏND QARDAŞIMIZA!

*Axdı gözlərimdən sel gizli-gizli.*
**B.Azəroğlu**

Səhənd! Mehrabımız ana Vətəndir.
Mehrabın başına dön, aşkar-aşkar.
Arzu çələngimi dan şəfəqindən
Hörürəm, qardaşım, mən aşkar-aşkar.

Deyirlər: «Səbr edin, susun, gözləyin».
Necə qışqırmayım, necə? Bir deyin.
Sıxır bədənimi bu kor fələyin
Əynimə biçdiyi don aşkar-aşkar.

Məni qorxutmayır qara gecələr,
Zülmətin təşvişi hədərdir, hədər.
Gecənin bağrından doğulur səhər,
Qızarır üfüqdə dan aşkar-aşkar.

Baba kölgəsinə daldalanmayaq,
Kül olub kül üstə biz qalanmayaq.
Çillə quşu kimi gizli yanmayaq,
Odundan od alım, yan, aşkar-aşkar.

Haqqımı tapdayan məni nə anlar?
Haqqımdan danışır haqqı dananlar.
Belə də dərd olar, siz ey qananlar,
Ağla gizli-gizli, qan aşkar-aşkar?

Kəndə səs düşməsə, itlər hürüşməz,
Könül istəməsə, əllər görüşməz.
Bir addım qabağa işığı düşməz,
İçindən yanmasa, can aşkar-aşkar.

Umur səhərini o yazıq Vətən
Bizim qəlbimizin öz atəşindən.
Belə gəlişini istəmirəm mən,
Gələsən, gedəsən sən aşkar-aşkar.

*1971*

## VÜSALDA HİCRAN

Məni görən kimi sən hönkürərək
Açdın qollarını...
Qucaqlaşdıq biz.
Bu gün qucaqlaşan qollarımız tək,
Nə vaxt birləşəcək bəs Vətənimiz?

Görüşdük, qardaşım, ilk dəfə bizdə
Ağladıq həm aşkar, həm xısın-xısın
Səni görməmişdən
ürəyimizdə
Səhənd dağı kimi sən ucalırdın.
O qədər uzağıq, bu qədər yaxın.
Görüşdük...
Həsrətə sonmu qoyuldu?
Ax!.. Yüz əlli illik uzun hicranın
Vüsalı, a qardaş, gün yarım oldu.

Dinlədik səsini öz könlümüzün,
Sükutda bu dərdi böldük, sevindik.
Sevincin içində ağladıq o gün,
Ağlaya-ağlaya güldük, sevindik.

Anabir, atabir qardaş!.. Dərdə bax,
Öz halal evində bir günlük qonaq!..
Biz elə baxırdıq sənə, elə bil,
Baxırıq min illik həsrətimizə.
Elə bil doğmaca elimdən deyil,
Özgə planetdən gəlmisən bizə.

Elə baxıram ki, çöhrən büsbütün
Güzgü tək əks edib könlümə düşsün!
Üzünün xətləri – o qaş, göz, tamam
Özümə bənzəyir... lap doğmasan sən.
Üzündə gəzdikcə gözüm, sanıram
Keçirəm Təbrizin küçələrindən...
Xuduyla əyləşib o gün dizbədiz,
Vaxtı, saatları dəyişdirdiniz*.
Sən ona qayıtdın, o sənə, qardaş,
Göz yaşı səpildi masanın üstə.
Deyirəm, bu dəmdə nə olaydı kaş,
Zaman da donaydı bu anın üstə.
Sən az danışdın,
Dinib alışdın.
Dedin, neyləyim?
Bütövlüyümə
Qıyırlar mənim.
Özümü parça,
Dilimi ləhcə
Sayırlar mənim...
Ağlayar bu dərdə dağ da, örüş də
Tapılar yenə də qınayan bizi.
Daha aydın gördük biz bu görüşdə
Amansız, gümansız həsrətimizi.

Xəncərim bir yana, pas atıb qını
Haray bu halıma, haray, hay-haray!
Vallah, görüşündə ayrılığını
Görən bədbəxtlərin halına vay-vay!

*Həmin gün görkəmli alim Xudu Məmmədovla Səhənd qol saatlarını dəyişdirmişdilər.

Məni görən kimi sən hönkürərək
Açdın qollarını...
                        Qucaqlaşdıq biz.
Bu gün qucaqlaşan qollarımız tək
Nə vaxt birləşəcək bəs Vətənimiz?

*1970*

## YOL – DAĞ

Addımlaya-addımlaya mən illəri,
Yol gedirəm
        Doğulduğum gündən bəri.
Yol gedirəm.
Pillələrim illər mənim, aylar mənim.
Öz məsləkim, düz məsləkim,
Ürəyimi
        zirvələrə haylar mənim...
Yol gedirəm,
        bilməsəm də,
Qarşıdakı addımların sayını mən.
Addımlarım qüvvət alır,
Xəyalımda gülümsəyən son pillədən.
Mənim yolum – bir məsləkin düz yoludur,
Mənim yolum – öz fikrimin öz yoludur.
Min hissim var,
Min arzum var.
        Yolum birdir,
                yolum haqdır.
Mənim yolum dağlar aşıb,
Zirvələrə çatacaqdır.
                        Bir ora bax,
Zirvəsində yol var dağın.
Dağ nə qədər uca olsa,
Yol üstündən aşar dağın!
Yol ucadır zirvədən də...
                        Yorularmı
Öz yolunu düz gedən də?
Ey yolunu, məsləkini

Tez-tez hava bürosuna girov verən,
İqlim üçün dəyişdirən,
Doğrudan da, çox zirəksən,
çox qoçaqsan.
Onu bil ki,
Yarı yolda qalacaqsan...
Yolu ota dəyişdirən
cığırlarda itər, batar.
Zirvələrin min ətirli çiçəyinə yetişməmiş
Yoncalıqda əl-qol atar...
Yol qabağa, yol zirvəyə!
Bu yolları yağış döyə, boran döyə...
Bu yollarda düz yol gedən
Əyilməyə!..
Əyilməyə!..
Son zirvəyə gəlib çata!..
Alqış dedim bu ömürə,
bu həyata!..
Bir ora bax!
Zirvəsində yol var dağın
Dağ nə qədər uca olsa,
Yol üstündən aşar dağın!

*Dekabr 1971*

## AZƏRBAYCAN

Azərbaycan,
Mənim eşqim,
mənim andım,
            mənim anam!
Biz ikimiz bir torpağıq,
Mən də sənin bir parçanam.
Ey qüdrətim, ey şöhrətim,
Sənsiz mənim nə qiymətim?
Torpağından qüvvət alıb
            yarandım mən.
Xəyalımın əvvəli sən,
            sonu sənsən!
Körpü saldıq biz bu gündən gələcəyə
Dünən vardıq,
Bu gün varıq,
Sabah varıq.
Biz dünənə güvəndikcə
Gələcəyə addımlarıq.
Atəşinə qızındıqca övladların
Boğulmadın tüstündə sən.
Ucalmısan
Çənlibellər üstündə sən.
Mən sabaha üz tutmuşam
Yolum aydın,
            eşqim dərin.
Qayaların qılıncımsa,
Qalxanımdır təpələrin.
İstəyirəm sənin aydın sabahına
Sinəm üstdən yollar çəkim,

Həyatımın mənasısan,
Ey əqidəm,
ey məsləkim!
Bir əlində qılınc olub,
Bir əlində saz tutmusan.
Nifrətini qurşun edib
Düşməninin sinəsində soyutmusan!
Azərbaycan, adın atəş,
Özün işıq,
sözün işıq.
Alovlardan yaranmısan
Biz adınla tanınmışıq.

Sən dosta dost,
Düşməninə göz dağısan.
Alnın açıq,
Üzün ağdır,
Yenilməzlik bayrağısan!

*1971*

* * *

İçimdə  fırtına var,
Fırtına var,
                fırtına.
Toxunma, gəl, toxunma
Hirsimin barıtına!
Dayanmışam önündə
Sakit, səssiz dağ kimi.
Hissim, həyəcanımsa
Alov tutub içimdə
Alışır ocaq kimi.
İnsan fikrə çevrilir
Könlündə pırıl-pırıl
Alışıb od yananda.
Gözəl olur,
                çox gözəl,
Dəniz dalğalananda...

*1972*

## AY – ULDUZLAR

Biz ayı da görürük,
Ulduzu da görürük.
Müəllimim deyir ki,
Ulduzlar Aydan böyük...

Adam inana bilmir:
Ulduz hara,
Ay hara?
Ölçülər də qarışdı,
Bir-birinə
      ay-haray!..

Bu böyüklükdə dünya,
Sığırkən bir cüt gözə
Dünya kiçik, göz böyük?
Mən bilə bilmirəm ki,
Ay böyük,
      Ulduz böyük?

Qoy ulduz böyük olsun,
Köksündə od olana,
Bu kiçiklik ar deyil,
Yeri işıqlandıran
Gecə
      Ulduzlar deyil.

*May 1972*

## AXTARIŞLARIM

Dünyadan od alır arzu da, kam da,
Könlümün içində necə gizlənim?
Gözüm də, könlüm də, qulaqlarım da
Gecəli, gündüzlü axtarır mənim...

Nə gecə tanıyır, nə gündüz könül
Axtarır,
  axtarır...
            «Yetər!» - deyəmmir.
Tapdığı incini doyumsuz könül,
Bu gün bəyənsə də, sabah bəyənmir.

Tapdım, uşaq kimi sevinirəm mən.
Özüm vuruluram sətirlərimə.
Sonra görürəm ki,
            tapdıqlarımın,
Heç biri könlümcə deyilmiş, demə!

İstərəm, həmişə aşıb-daşam mən.
Gecəli-gündüzlü axtarışımdan
Tapdığım ləzzəti
            tapdıqlarımda
            tapmamışam mən.
Gəzib axtarıram,
            Gördüklərim çox.

Min şeir gizlənib hər qarışımda.
Yox-yox!
Gözəlliyi tapdığımda yox,
Tapmışam əbədi axtarışımda.

*1972*

* * *

Halqa-halqa burulur başların üzərində
Tüstülər ağ şar kimi.
İri külqabıların kənarına düzülmüş
Papiros kötükləri,
                Sönən duyğular kimi.
Bu siqar kötükləri,
Hədəfinə dəyməyən arzu, niyyət oxları.
Ömürdən qopub düşən düşüncə qırıqları.
Papiros kötükləri –
Neçə arzu, neçə qəm.
Külqabıda zoğları, ürəklərdə kökləri.
Papiros atəşində ürəyini söndürüb
                Ümidini yandıran,
Fikrində, xəyalında
Qəzəbini yatırıb, bəxtini oyandıran
Adamlar ayaq üstə durub siqar çəkirlər.
Tüstü burumlarında halqalanıb dağılır
                Əlvan-əlvan fikirlər.
Adamlar gözlərini bir nöqtəyə dikirlər.
Bu nöqtənin adı nə?
Hansı bir qıfılınsa xəyaldakı açarı.
Hansı bir duyğununsa keçilməyən hasarı.
Bir fikirdə yüz təpə, hər təpədə yüz dərə.
Fikir gedir min yerə.
Adamlar heykəl-heykəl.
Ad vermək istəyirəm bu donmuş heykəllərə:
Bu – «fikir»,
                O – «axtarış»,
                        Bu – «arzu»,

O – «məhəbbət»
Bu – «atılmış», o – «həsrət».
Onlar sükut içində danışır, aşıb-daşır.
Danışmağa
İmkanı olmayanla danışır.
Onların qulağına gəlir
                                        Arzularının
Dodağıyla danışan
                                        Gözəl-gözəl xəbərlər.
Bu nöqtədə dağılır, çərçivələr, çəpərlər.

*Dekabr 1971*

## QATARLARDA GECƏLƏR

Həsrətini içində boğan qəriblər kimi,
Yaman hüzünlü olur vağzallarda gecələr.
Səbəbi bilinməyən dumanlı kədər kimi,
Qəriblik, kimsəsizlik vağzallarda gecələr.

Burda həyat, elə bil
Düşünür dərin-dərin.
Vağzallar sahilidir şəhər dənizlərinin.
Şəhər burda qurtarır,
Şəhər burdan başlanır.
Kədər burda qurtarır,
Kədər burdan başlanır...
Uzaqdakı qatarın əsrarəngiz fit səsi,
Ayrılığın,
                həsrətin,
                                qəm çiləyən nəğməsi!
Özgə dünyadan gəlir, elə bil ki, qatarlar,
Bizə tanış olmayan köhnə sərnişinləri,
Keçib kənddən, şəhərdən son məqsədə çatarlar.

Bəlli deyil, qatarın son mənzili, son yolu
Orda, burda gecələr...
Vağzaldakı yolçular, yuxulu gözlərilə
Sayıb dəqiqələri
Rəqəmləri hecələr.
Hər kəs öz qatarını – taleyini gözləyib
Vağzallarda gecələr.
Gözümüzdə arzumuz, könlümüzdə kamımız,
Ömür qatarlarında yol gedirik hamımız.

Önümüzə gah yaşıl,
Gah da al işıq çıxır.
Bu dolaylı yollardan
                    kimi yuxulu çıxır,
                    kimi də ayıq çıxır.
Məqsəd hamıya bəlli;
Ancaq neyləyəsən ki,
Tale yatır dərində.
Kimi düşür,
Adı da, ünvanı da bilinən
                    Paytaxt şəhərlərində,
Kimi düşür,
Tanınmaz yarımstansiyalarda...
Yol gedirik qatarda.
Qatarlar qatar-qatar
Kimi öz arzusuna
Tamam çatar,
Tam çatar,
Kimi yarımçıq çatar...
Yata bilmir,
Əsnəyir vağzallarda gecələr.
Ömürlər, mənzilini gözləyən yolçu kimi,
Qatarlarda gecələr.

*Noyabr 1971*

## ŞƏKİ

*«Özünüz şəkili olduğunuz halda,*
*hələ Şəkiyə bir şer həsr etməmisiniz».*
**Bir məktubdan**

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim, vurğunam Azərbaycana,
Deyirəm, heç zaman xırdalanmasın
Könlümdən ucalan bu avaz, bu səs.
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına «sevirəm» deməz,
Mən də deməmişəm, a Şəkim, mənim.

Sən öz keçmişini daim qorudun,
Babamın şöhrəti yaşayır səndə.
Bu eşqə eşq olsun!
Dünənlə bu gün
Çiyin-çiyinədir küçələrində...

Mən sənə borcluyam öz balan kimi,
Çox da ki şeirimdə görünmür adın.
Mənim oxuduğum nəğmələrimi,
Mənim qulağıma sən pıçıldadın.

Şeirimin mayası – bu qaynar nəfəs
Sənin öz çiçəyin, sənin öz barın.
Şeirimdə dil açıb danışmırmı bəs,
Sənin bulaqların, göy çinarların?
Mən həm bakılıyam, həm lənkəranlı,

Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv Vətənimə bütöv bağlıyam.

Mən sənin qoynunda gəldim cahana,
Məni bəxş elədin Azərbaycana.
Həmişə mən sənin həndəvərində
                    Üçan bir quşam.
Bir eldə doğulub
                    xoşbəxtəm ki, mən
Böyük bir Vətənə oğul olmuşam.

*Noyabr 1971*

## NƏNƏM –
## MÜƏLLİMİM

Vuruldum nağıllara,
İnandım nağıllara.
Dağların dalındakı
Nağıllar səpələnmiş
Kahalara,
Yollara.
Dəmir çarıqlarımla
Dərə keçib,
Düz keçib
Uca dağlar aşardım.
Nağıllarla bəzənmiş
        Bir dünyada yaşardım.
«Şəngülüm, Şüngülüm,
Aç qapını, mən gəlim».
Sanardım,
        doğrudan da,
Dağların arxasında
Dəmirçi var,
Keçi var,
Bir də...
        Yalan danışan
O hiyləgər canavar.
İnanardım
İtilənmiş dişlərə,
Canavarın qarnında
Ağlaşan çəpişlərə.
Xəyalımda gedərdim
Mən dağların dalına.

Ağlardım hönkür-hönkür
Çəpişlərin halına...
İstərdim, inanmasın
Bu balaca çəpişlər
Qurdun şirin dilinə.
Bilməzdim ki, sadələr,
Uyub,
          uyur,
                    uyacaq
          hiyləgərin dilinə.

Mənə elə gələrdi,
Hər dərənin, təpənin,
Hər cığırın,
          Hər yolun,
          Hər ağacın,
          Hər kolun
Dibində bir nağıl var.
Sehrlidir bu yollar,
Sehrlidir bu kollar.
Mən heyrətlə baxardım
Bu yollara,
          Kollara.
Nağıl olub girərdim
Özüm də nağıllara.
«Şəngülüm, Şüngülüm,
Aç qapını, mən gəlim.
Buynuzumda ot gətirmişəm,
Döşümdə süd gətirmişəm».

Yalvarardım nənəmə:
- Nənə, nənə, can nənə,

Qoy indi də çəpişlər,
Qurda inanmasınlar.
- Gözünə qurban, bala
Nağıl qurtarmayıb ki...
Axı hələ dalı var.
- İstəmirəm!
Kəsərdi
Nağılı burda nənəm,
Verməzdi çəpişləri,
Verməzdi qurda nənəm.
Bir gün də Şəngülümdən
Nağıl danışdı bizə
Bağça müəllimimiz.
Gözlərimiz bərəldi,
Qəhər tutdu... qorxudan
Hönkürüb ağladıq biz.
Müəllim də saxlayıb
Nağılı burda...
Dedi:
- Bu nağıldır, a bala,
İnanmazlar nağıla.
Nə keçi var,
Nə qurd var,
Nə dəmirçi, nə kaha...
İnanmadım nağıla,
İnanmadım bir daha.
Demə, nağıl, qurama...
Demə, elə nağıldı.
Ancaq neyləyəsən ki...
Mənim xoş röyalarım
Xəyallarım dağıldı.
Müəllimim düz dedi,

O, elə zənn etdi ki,
Bunu demək tez deyil.
Ancaq o bilmədi ki,
Hər düzü, hər doğrunu
Vaxtsız demək düz deyil.
O öz həqiqətilə
Bizim qəlbimizdəki
Ən şirin xülyaları
Tez taladı,
apardı.
O, gözəl uşaqlığı,
Yaraladı,
apardı...
Uşaqlığım qurtardı.
Müəllim! Ay müəllim!
Çox sevdiyindən bizi,
Apardın qəlbimizdən
Nağıl heyrətimizi...
Düz danışıb, düz deyib
Elə bilmə düz oldun.
Sən cinayət elədin,
Ancaq cinayətindən
Özün xəbərsiz oldun.
Nənəm: – Hələ nağılın
Axı dalı var dedi.
Sənin dediyin düzü
Nənəm niyə demədi?
Ey müəllim, müəllim,
Qoy uşaqlar həmişə
Nağıllara inansın.
Uşaqlığa qıyma gəl,
O, uzansın,

Uzansın.
O nə qədər uzansa,
Ürəklər də o qədər
Hiylədən uzaq olar,
Adamlar bir-birinin
Dərdinə ortaq olar.

*Noyabr 1971*

## PİYADA – SƏRNİŞİN
## (İKİ YOLÇU)

Baxdıq biz həmişə qabağa, önə.
Boylandı sabaha bu gündən illər.
Bir nəfər varmı ki, söyləsin mənə,
Necə gəlib keçdi ömründən illər?

Yayın bürküsündə, qışın qarında
Hamının qisməti bir olmur yəqin.
Ömrün əyri-üyrü dolaylarında
Kimi piyadadır, kimi sərnişin.

Piyada keçmişəm mən bu yolları,
Köməyi ummuşam ayaqlarımdan.
Qəlbimin oduyla şaxtanı, qarı
Əritdim, ömrümün ilk çağlarından.

Yanımdan maşınlar, qatarlar ötüb,
Mənə əl ediblər pəncərələrdən.
Onların başından yağış, qar ötüb
Göylərin altında islanmışam mən.

Sərnişin yol getdi, yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ-kötür var.
Ancaq piyadanın, xəbər-ətərsiz
Alnında iz açdı getdiyi yollar.

Yol özü apardı sərnişinləri,
Yolda nə iz qaldı, nə də toz oldu.
Ancaq piyadalar gördü dünyanı,
Sərnişin dünyadan xəbərsiz oldu.

Sürəti nə qədər yeyin olsa da,
Sərnişin mənzilə dolama çatdı.
Dağların başından aşdı piyada
Yolu kəsə getdi, yolu qısaltdı.
Yolu özü açan zirvədən keçər,
Yolu yolla gedən dağdan gen keçər.

Qovuşur ay aya, dolur il ilə
Mətləbi eynidir bu yarışın da.
Qəribə dünyadır,
sərnişin ilə
Piyada görüşür mənzil başında.

Ömür yollarında «rahat» gedənlər,
Zirvələr başına ucala bilməz.
Təkərlər üstündə diyirlənənlər,
Çatdığı mənzildə bənd ala bilməz.

Biri təkər üstə gətirildisə,
Birini gətirən ayaqlar oldu.
Kimi bu mənzildə kirədar isə,
Kimi bu mənzildə sahibkar oldu.

*Avqust 1972*

## HEYRƏT!

«Heyrət, ey büt!»* dedi dünyaya qələm
Aləmi bir seyrim yüz heyrətimdir.
Mən heyran olmasam, yaza bilmərəm,
Mənim nəğmələrim – öz heyrətimdir.

Bəzən deyirlər ki, dəyişib zaman
Hər şey adiləşib...
Nə sevinc, nə qəm!
Elə bir möcüzə tapılmaz,
                                        insan,
Ona heyrətlənə...
Heyrətlənmirəm!

Əgər belədirsə, küsmə zamandan.
Qəlbinə yaxşı bax!
Qəlbin çox soyuq!
Heyrət qurtarıbsa, demək, cahandan
Gözəllik köçübdür, xəbərimiz yox!..

Görə bilmirsənsə gözəllikləri,
Bu aləm səninçün günahkar olur?
Gözü buz bağlayan bulaqlar kimi,
Soyuq adamın da qəlbi kor olur.

Göylər damar-damar,
Yer lağım-lağım...
Bu heyrət, sualla dindirib məni.

---

*Füzulinin "Heyrət, ey büt, surətin gördükdə lal eylər məni" misrasına işarədir.

Hələ körpəlikdən öz heyranlığım,
Sual köhləninə mindirib məni.
Mən öz heyrətimin çəmənliyindən,
Cavablar axtardım, suallar dərdim.
Heyran qalmasaydım bu dünyaya mən,
Heyrətsiz halıma heyrətlənərdim.

Heyranam açılıb hey varaq-varaq
Saçılan güllərin min-min rənginə.
Siz deyin, mümkünmü heyran qalmamaq,
Ahəngsiz dünyanın öz ahənginə?..

Hansını söyləyim?
                                Hansını sayım?
Dünya başdan-başa min sirr, möcüzə.
Siz deyin, mən necə heyran qalmayım,
Yerində deyilən gözəl bir sözə?..

Heyranam həmişə yanan könlümə,
Alovu şeirimdir, külü görünmür.
Heyranam al-əlvan güllərə, tuma,
İçini görürəm, çölü görünmür.

Otun pıçıltısı, küləyin ətri,
Torpağın nəfəsi – heyrət nidası!
Bülbülün cəh-cəhi, çiçəyin ətri,
Suyun zümzüməsi – heyrət nidası.
Heyrandır!
                  Budaqlar yarpağa heyran,
Torpaq daşa heyran,
Daş dağa heyran.
                  Sel dənizə heyran,

Su gölə heyran,
Çöl çəmənə heyran,
Gül gülə heyran!
Özünə heyrankən bu cansız aləm,
Ey insan!
Demə ki, heyrətlənmirəm!

Həmişə qorxmuşam biganəlikdən,
Yaşa heyran-heyran, öl heyran-heyran!
Məni soyuq-soyuq dindirincə sən,
«Can» deyib canımı al, heyran-heyran!

Sən odu, atəşi özgədən umma!
Aləm tutmayıbsa, köz ürəyində.
Bəsirət gözünü aç bu dünyaya,
Axtar heyrəti də öz ürəyində.

Heyrətim yaşayır dərdi-sərimdə.
Ölsəm...
                    gözlərimi qapamayın tez.
Baxın gözlərimə!
                    Bəbəklərimdə
Bir heyrət işığı görəcəksiniz.

*Noyabr 1971*

## SƏHVLƏRİM, SƏHVLƏRİM!

Şübhələrim, gümanlarım,
Səhvlərim, nöqsanlarım,
Fəryadlarım, əzablarım, amanlarım!
Mən qaçdıqca əlinizdən,
Əməlimə
                    Yağış kimi yağırsınız.
Neyləyim ki,
Siz özümdən ağırsınız.
Salıb məni əzablara
Mənə gendən baxırsınız
                    bir yad kimi.
Mən gizlədə bilməmişəm ömrüm boyu
Dodağımın arxasında ürəyimi...
O alışıb.
                    O danışıb.
Yanımda dost olmayanda
Danışmışam özbaşıma.
Ürəyimin pıçıltısı
Dəyib mənim öz başıma
Toxmaq kimi...
Nə sevgimi gizlətmişəm,
Nə kinimi...
Əzab verib günlər mənə,
                    aylar mənə.
Adam var ki, ömrü boyu
Dodaqları təbəssümlü
Təbəssümü,
Bir pay kimi paylar sənə,
                    paylar ona,

paylar mənə...
Dili ilə ürəyinin arasında
Yüz-yüz illik yollar durur.
Dodağında güllər açıb
Ürəyində kollar durur.
Hər sözünün əvvəli «can», axırı «can»
Belə yaşar axıracan.
Ürəyi buz,
Sözü isti,
Özü ılıq.
Çəkməmişdir ömrü boyu
Bircə dəfə peşmançılıq.
Bilməmişəm,
Nə çox imiş
Bircə qırıq nöqsanımı
şişirdənim.
Bir dəryaca kədərimdir
Bir damlaca səhvim mənim.
Başqaları keçər, bəlkə, təqsirimdən
«Günahkaram, keç!» - sözümə.
Bağışlaya bilməmişəm
Öz səhvimi mən özümə.
Səhvlərim boğazımdan bərk yapışıb
Yuxumu da dara çəkir.
Vicdanımı ora çəkir, bura çəkir.
Ürəyimdə vuruş gedir
Mən kiminlə vuruşuram,
heç bilmirəm.
Yıxılıram, əyilmirəm.
Heç bilmirəm bu vuruşun adı nədir,
qəsdi nədir?
Qəribədir,

qəribədir!
Səhvlərim – alnımdakı qırışlarım,
Qəlbimdəki vuruşlarım.
Əzablarda mən özüməm,
Mən könlümün öz səsiyəm,
Rahatlıqda özgəsiyəm...
Səhvlərim – ürəyimin dilimdəki
Həm sevgisi,
Həm nifrəti.
Səhvlərim – dost danlağı,
yad töhməti.
Səhvlərim! Siz mənsiniz,
Mən də sizəm!
Mən səhvimdə səhvsizəm!

*Noyabr 1971*

## ƏLİ KƏRİMƏ

Ölür ulduzlar da adamlar kimi.
Ölürkən ömrünü verir bizlərə.
O, göydə sönsə də yer onu bilmir
Süzülür işığı yüz illər yerə.
Öləndən sonra da o sönmür nədən?
İşığı yaşayır, özü var kimi.
Qəlbinin odunu xalqa bəxş edən
Adamlar kimi...
Həyatda həlim,
Sənətdə dəlim,
Ay mənim Əlim,
Sənətdə əbədi yaşamaq üçün
Həyatda öldün.
Boz külün altında yanan qor kimi
Söz bəzən görünmür gözlərimizə.
Tez ölüb gec sönən ulduzlar kimi,
İşığın,
Sonralar çatacaq bizə.

*Yanvar 1973*

## YAZIĞIM GƏLİR

*İmzasız məktub yazanlara*

Nə qədər miskinsən, zavallısan sən,
Vallah, mənim sənə yazığım gəlir.
Məni alçaltmaqdan ucalıq uman
Qüdrətsiz düşmənə yazığım gəlir.

Yıxıb özgəsini, məqsədə çatmaq!..
Neçin?
Düzlük üçün!
Bu düzlüyündür?
Barı bunu anla, satmaq, şər atmaq,
Sənin gücün deyil, gücsüzlüyündür.

Yox! Sən tək deyilsən, mən neçəsində
İşığın üstünə hücumu gördüm.
Sənin nifrətinin dərəcəsində
Mən öz qüdrətimi, gücümü gördüm.

Mənim gərəyimdir qüssə də, qəm də...
Qorxmuram, ilhamım qəmdən süd əmmiş.
Hər yeni zəfərim, hər qələbəmdə
Mən səni neçə yol öldürürəmmiş...

Bu gün deyilsə də bir sabah yəqin,
Məhv edər bu nifrət, bu acıq səni.
Yıxılsam,
De, nəyin artacaq sənin
Göstər qazancını, sonra yıx məni.

Sevgim, məhəbbətim ucaldır məni.
Görək, nə verəcək qəzəb, kin sənə.
Ay yazıq! Görmürsən sən öz çevrəni
Nifrətlər gətirir nifrətin sənə.

Qəzəblə, nifrətlə ucalmaz heç kim,
Sən mənə nə qədər qəzəblisənmiş.
Sənin kimilərə baxanda dedim,
İnsan, doğrudanmı, bu qədər enmiş?

Tutaq ki, baş tutdu sənin məqsədin,
Bununçun sənə də «əhsən» deməzlər.
Qəlbində bəslənən ilan, əqrəbin
Yemi deyilmidir umduğun zəfər?

Kəsdilər yolunu, qırıb qolunu.
Yazıq! Hədər getdi vaxtın, zəhmətin.
Səndə ki bu qədər kin var,
sən onu
İşə çevirsəydin, dahiydin yəqin!

*Fevral 1971*

## HEÇ OLMASA

Böldünmü Vətən dərdini qardaşlarımızla?
Çəkdinmi hesab bir dəfə namus, arımızla?
Heç olmasa, fəryad çəkəlim, söndürəlim biz
Vicdanda yanan atəşi göz yaşlarımızla.

*İyul 1972*

## İMKAN – ARZU

İmkan güldü arzuya
Dedi, - əməl, iş mənim,
Boş-boş xəyallar sənin.
Elə başından böyük
　　　　　　　　Danışmağın var sənin.
Mən sənin sərhədinəm,
Sən qaynaya bilərsən
　　　　　　　　hökmün varsa, daş, görüm.
Hüdudumu,
　　　　　　　　həddimi
Dildə aşa bilərsən,
　　　　　　　　Əməlində aş, görüm.
Arzu dedi imkana:
　　　　　　　　- Sən kiçiksən, mən böyük.
Danışmayım, neyləyim
　　　　　　　　Bəs mən başımdan böyük?
Bir başa ki, sığışır,
　　　　　　　　Bu kainat,
　　　　　　　　　　　　bu aləm,
Mən başımın içində
　　　　　　　　　　　　Dustaq ola bilmərəm.

*Noyabr 1971*

## FEİL

Çox sevirəm feilləri.
«Gəldi», «getdi»,
«Aldı», «çaldı»...
«Endi», «ucaldı»...
Feil – hərəkət,
Feil – surət!..
Canlıdır, diridir.
Feil – insan əməlləridir...
Feil – həmişə döyüşdə,
Həmişə at belində.
Öz dostu var,
Düşməni var
Dilin də...
İsim, sifət döyüşlərdə çox zaman
Karıxır...
Feillərsə döyüşlərdən həmişə
Qalib çıxır.
Çox sevirəm igid kimi döyüşən
Kəlməni mən,
Sözü mən.
Feil olmaq istəyirəm
Düzü mən!..

*May 1970*

## GƏL, ANA TƏBIƏT

***(«Təzadlar»dan)***

Yorulduq,
bir dayan,
maşını saxla!
Nə qədər yol gedək rezin «ayaqla?»
Səhərdən bu yerə səfərdəyik biz.
Maşın da adam tək yorulur yəqin.
Deyirəm, nə olar ayaqlarımız
Bir az da bu qara torpağa dəysin!

Təkərlər fırlanır.
Yol gedirik biz,
Dikib uzaqlara gözlərimizi.
Təkərlər fırlanır,
haray-həşirsiz,
Bu eldən o elə aparır bizi...
Ağappaq yollardan elə bil bu an
Ağ mərcan taxıbdır dağlar boynuna.
Çıxmışıq şəhərin dar qucağından
Ana təbiətin geniş qoynuna...

Görürsən, ürəyə söz dəyəndə də
Tutulur, kövrəlir, küsür hamıdan.
Bəzən adamlardan inciyəndə də
Dağlara, daşlara üz tutur insan.

Söz də xəncər kimi işləyir cana,
Qanı laxtaladır əzab, iztirab.
Şəhərin sözünə, suallarına
Ana təbiətdən umuruq cavab.

Güllərin şəbnəmi, otların şehi
«Gəl məni duy!..» - deyə bizə göz dikir.
Dağların küləyi, bağların mehi
İncik ruhumuza bir sığal çəkir.
Nə qədər çalışır, vuruşur insan
Adamlar içində yer tutmaq üçün.
...Nərgizə baxıram, mənə kəm baxan
Nadürüst gözləri unutmaq üçün.
Haçalı dağlara baxıram, mənə
Qıcanan dişləri unutmaq üçün.
Baxıram üfüqün genişliyinə
Soyuq baxışları unutmaq üçün.

Baxıram sıldırım, daş qayalara
Yolum üstünə
Atılan daşları unutmaq üçün.
Baxıram dağların məğrurluğuna,
Əyilən başları unutmaq üçün.

Gəl, ana təbiət, qovuşum sənə.
Sənin bir parçandır, axı ilkimiz.
Nolar, əslimizə qayıdaq yenə,
Axı bu torpaqla bir vəhdətik biz.

Mayam da, südüm də, səndəndir mənim,
Bu yorğun ruhumu, gəl, dindir mənim...
İlkimiz təmizdir təbiət qədər,
Əmdiyi süd kimi safdır körpələr.

Güllərin şəbnəmi, otların şehi,
«Gəl məni duy!..» - deyə bizə göz dikir;
Dağların küləyi, bağların mehi
İncik ruhumuza bir sığal çəkir.

Keçidlər adlayıb dağlar aşdıqca
Böyüyür anbaan ürəklərimiz.
Ana təbiətə yaxınlaşdıqca
Dönüb özümüzə qayıdırıq biz.
Yəqin ki, oxuyur quşlar dərədə,
Eşidə bilmirik motor səsindən.
Laləli, nərgizli çəmənlərə də
Baxırıq maşının pəncərəsindən.
Olsaq da torpağa bu qədər yaxın,
Hələ yol gedirik öz yerimizdə.
«Qutular» içində olur, bir baxın,
Ana təbiətə səfərimiz də...

«Qutular» kiçiltdi ürəyimizi
Sıxdı ürəyi də, sıxdı canı da...
Yağışdan, yağmurdan qoruyub bizi,
Aldı əlimizdən bol havanı da...

Hərdən həkimlərin məsləhətilə
Çıxırıq bulvara bir tələb kimi.
Uduruq havanı biz gilə-gilə
Aptekdən alınan sarı həb kimi.

De düşək, qurtaraq benzin iyindən
Nola bir yel əsib tufan qoparsın.
Dərək bu döşlərin gül-çiçəyindən
Validol iyini bizdən aparsın.

Kiçik otaqlara çəkilib qış, yaz
Gəzdik dahilərin söz bağlarını.
...Dedik kitabları qapayıb bir az,
Çevirək çöllərin varaqlarını...

Enişdə, yoxuşda əldən salıbdır
Bizi, bir-birinə calanan yollar.
Elə bil dağları əsir alıbdır
Dağların belinə dolanan yollar.
Yolların önündə baş əyir dağlar
Dağların qoynunda obalar yeni.
Əyləşib gedirik... indi ayaqlar
Təkərlərə verib vəzifəsini.

Əyləşib gedirik göydə, yerdə biz,
Uzanıb üzürük gəmilərdə biz.
Fikrimiz öndədir həmişə bizdən,
Səyyahıq...
                    Xəyal ki, görünmür gözə.
Alıb hərəkəti bədənimizdən
Verdik beynimizə, ürəyimizə.

Beynin haqq-hesabı candan sorulmur
Fikirlər qoynunda yol gedirik biz.
Odur, bədənimiz çox da yorulmur,
Yorulur beynimiz, ürəklərimiz.

Min arzu,
Min qayğı,
                    hələ üstəlik,
Dava təhlükəsi,
Atom hədəsi,
İnfarkt, qan təzyiqi!..
                    İki xəstəlik –
Əsrin gərginliyi, əsrin zədəsi!

Düşürük maşından biz gülə-gülə,
Dəyir nəm torpağa ayaqlarımız.

Sükut layla çalır çəmənə, çölə,
Sükut!..
Cingildəyir qulaqlarımız.

Oxqay!
Havaya bax, necə təmizdir.
Burdan qaçaq düşər azar, bezar da.
Bakı canımızdır, ciyərmizdir,
Ancaq... Bu havaya həsrətik orda...

Elə bil nur yağır havadan yerə,
Xoşbəxtlik gölündə üzür bu çöllər.
Deyirəm, yəqin ki, burda bir qətrə
Radioaktiv zəhərdən tapılmaz əsər.

“Radioaktiv” sözündən gözüm qaraldı
Bu söz ağlımı da başımdan aldı.
Qopdu ürəyimdən bir yanıqlı səs:
- Qrenlandiyada, deyirəm, görən,
İtən bombaları tapdılarmı bəs?

Sual hamımızı çaşdırdı bu dəm,
Bu təmiz hava da zəhərə döndü.
Dönüb gözümüzdə qaraldı aləm,
Laləli yamaclar oda büründü.

Elə bil dəyişdi hamının rəngi,
Aldı çöhrələri narın bir kədər.
Hava çox gözəldir,
                        neyləyəsən ki,
Könül havamızı zəhərləyiblər...

* * *

- Başım ağrayır.
- Əsəbdəndir.
- Ürəyim ağrayır.
Əsəbdəndir.
- Gözüm ağrayır.
- Əsəbdəndir.
Əsəbdəndir, əsəbdəndir!
Deyən yoxdur can, nədəndir?
Zaman bizi bir duyğusuz
                daşmı sayır?..
Zaman bizim, əsəblərin üstü ilə
                addımlayır…
                addımlayır…

*1971*

## İLK ANDIM –
## VƏTƏNİMDİR!

Dövr eləyən qanımdır
Kürüm, Arazım mənim.
Küləklər mizrabımdır,
Ağaclar sazım mənim.

İlk andım Vətənimdir,
Mən həm odam, həm suyam.
Bu torpaqdan yarandım,
Bu torpağa borcluyam.

Ağ zirvəli dağlarım
Əyilməz başım, mənim.
Tarixdən də qədiməm
Bilinməz yaşım mənim.

Xoşbəxtəm ki, Vətənim
Azərbaycandır mənim!

*1972*

## QORUQ

Tap-tarap!
Daş dələn güllə səsindən
Kişnəyir qayalar,
Qızarır kollar.
Bir anlıq ləzzətin təntənəsindən
Çöllərdə nə ceyran,
Nə qırqovul var.

Neçəsi tərk olur bircə saatda
Bilmirəm,
İnsanda bu, nə həvəsdi?
Bir anlıq sevincin ayağı altda
İnsan, gözəlliyi qurban da kəsdi.

Göydə qanad çalan turacı birdən,
Göydən endirməyi o, hünər bilir.
Bəs niyə bilmir ki,
                    bü əyləncədən,
Axı gözəlliyin nəsli kəsilir.

Maral tora düşər buynuzlarından,
Onun gözəlliyi – düşməndir ona.
Hələ tapılmayıb elə bir insan
Ox ata qarğaya, ya da quzğuna...
Alimlər,
            ariflər,
                    hey zaman-zaman
Çarələr, tədbirlər düşündü min-min.

Ana təbiətin qulaqlarından
Hüsnün bu sırğası qopub düşməsin.

Qoruqlar düzəltdik,
Gözəl qoruqlar,
Qoruduq quşları qoruqlarda biz.
Yalçın qayalarda
hər qış,
hər bahar,
Yenə qaqqıldadı kəkliklərimiz...

Qoruqda qoruduq,
Sevdik onları,
Gözəllik dağlardan itməsin, – dedik.
Ceyrana, cüyürə kəm baxanları
Qanunun əliylə cəriməlédik...

Adamlar, adamlar
hərəsi bir cür.
Kimi yaşadır,
Kimi öldürür...
Ceyrana, cüyürə daş atan da o.
Qoruqlar yaradıb yaşadan da o.

Ceyranı, cüyürü qoruyur hər an
Gözəllik naminə bizim qoruqlar.
Ancaq millətləri,
qoruq içində
Saxlayıb məhv edən ölkələr də var.

«Azadlıq ölkəsi!»
Azadlıqmı bu?
Vətəndaş dustaqdır öz vətənində.
Azadlıq, ədalət yerinə hindu
Alır qucaq-qucaq söz vətənində.
Ədalət naminə zülmün, zillətin
sazını çaldın,

Gettolar içində sən bir milləti,
Qoyun sürüsü tək hasara saldın.
Cəllad, söylə sənin damarlarından
Axan buzlu sumu, yoxsa qanmıdır?
Quşların nəslini qoruyur insan,
Xalqları əritmək insafdanmıdır?

*1972*

## SEVDİM,
## BİLDİM Kİ...

Yurdum, Vətənim, şöhrətim, andım!
Bir vaxt ki, sənin eşqinə yandım,
Bildim, mən əsil insanam, insan!
Bildim ki, nədir
                    istəyim, arzum bu cahandan!
Sevdim səni,
Həm nəşəni,
                    həm dərd-qəmi tapdım!

Sevdim səni, mən qibləmi tapdım!
Sevdim səni, bildim ki, mənim
                    öz sifətim var.
Bildim oğulam,
                    öz anam, öz məmləkətim var!
Bildim ki, Vətən naminə ölmüş
Tək-tək doğulanlar niyə min-min.

Bildim ki, nədir mayəsi hər qüdrətin, əzmin!
Bildim ki,
Neçin qeyrəti yoxlar səni danmış...
Bildim ki, Vətən naminə ölmək də asanmış!
Bildim, sənin eşqinlə öyünmək və öyülmək
                                        nə deməkdir?
Bildim,
Vətən uğrunda da ölmək nə deməkdir!
Xalq sevdi məni,
Ey mənim öz şöhrətim, andım,

Sevdim və sevildim!
Bu böyük sevgini yalnız
Hər gün daha çox
mən səni sevməklə qazandım!

*Dekabr 1973*

## USTA NİYAZİ

Ocaq tikən, yuva quran
cavan usta,
Hasar çəkən, divar hörən
cavan usta,
Az danışıb çox iş görən
cavan usta,
Kələ-kötür boz daşları
Nizamlayıb sən hörürsən
muğam üstə.
Yuva-yuva tikdiyin ev –
Muğamatın guşələri...
Yola salır neçə-neçə-
xeyri, şəri...
Muğamdakı həzin-həzin pərdələrdən
Divarların dönəminə naxış vurdun.
Daşlardakı neçə rəngi
Bir-birilə danışdırdın,
uyuşdurdun.
Özün susur, danışmırsan,
İlhamının gur selinə
Qarışaraq sən aşırsan,
sən daşırsan.
Lal daşları danışdırır,
Sən özün də
O daşların dili ilə
danışırsan!
Ədabazın əməli yox,
Sözü, dili danışmalı,
İnsan adı daşıyanın
Öz əməli danışmalı!
Usta, sənin o daşlaşan əllərini

sıxanda mən,
ürəyimdən
Keçənləri
Əllərimlə çatdırdımmı ürəyinə?
Əhsən dedim,
Özgəsinə yuva tikən,
ocaq quran əməyinə!
Yoxdur dedim,
Yaradanın dərdi-səri,
Mənim şirin kəlmələrlə
Yaratdığım şeirləri
Sən daşlarla yaradırsan!
Boy verdiyin daşlarla bir
Sən özün də boy atırsan.
Mənimki söz,
Səninki daş.
Sözlə nəğmə yaratmağa
nə var, qardaş?
Qələmin daş,
Dəftərin daş.
Qəlbindəki bu zəriflik, bu incəlik
bəs nədəndir?
Nəfəsinlə
O isinən daşlardakı nəğmədəndir!
Daşı daşa yapışdıran
Palçıq deyil, öz arzundur,
O daşların arasında
Qəlbin durur, hissin durur.
Nəbzin vurur,
Daş canlanır.
Tüstülənən hər ocaqda
Hər buxarı bacasında
Eşqin yanır,  arzun yanır!

*Avqust 1973*

## ÖZÜDÜR

Dağlar – əzəmətilə,
Bağlar – naz-nemətilə
Sular – hərəkətilə
özüdür.
Qoca – söz-söhbətilə,
Cavan – şücaətilə,
Qız da – öz ismətilə
özüdür.
Yalan – quduzmağıyla,
İnam – öz susmağıyla,
Şübhə də – yozmağıyla
özüdür.
Ürək – öz düzlüyüylə,
Sevgi – sözsüzlüyüylə,
İnsan da – özlüyüylə
özüdür.
Şair – axtarışında
Fəhlə – dəzgah başında,
Ana – beşik başında
özüdür.

*Yanvar 1974*

## AŞIQ ŞƏMŞİRƏ

*Səksən illiyinə*

Mizrabı sazının telinə vurma,
Qəlbinin telinə vur, qoca dostum.
Həkimdən, loğmandan sorma ömrünü,
Sazından, sözündən sor, qoca dostum.

Sevda qazanında yaman bişmisən,
Özün öz qəlbinlə çox döyüşmüsən.
Eşitdim səksəndə eşqə düşmüsən
Yüzündə beləcə dur, qoca dostum.

Bu yaşda yorğalıq gəlməsin gözə,
Sənə adidirsə, bizə möcüzə.
Yoxuşa qalxmışdın, enirsən düzə,
Bu sirri bizə də ver, qoca dostum.

Bəxtiyar şairəm, bizi el sevər,
Sən də bəxtəvərsən, mən də bəxtəvər.
Sinəndə açılıb təptəzə güllər,
Başına yağsa da qar, qoca dostum.

*1973*

## DÜŞÜNCƏ

Kal alma kimi bir üzü torpağa düşüncə
Gördüm ki,
yatır hər otun altında düşüncə.
Göylərdə fələklər düşünür,
Yerdə çiçəklər.
Gördüm,
düşünür güllərə qonmuş kəpənəklər.
Axşam çağı dağlardakı qaşlar da fikirli,
Torpaq da,
ağaclar da
və daşlar da fikirli.
Hər şey yaranıb
Varlığa çevrilmədən öncə
Başdan-başa mənalı, müəmmalı düşüncə...

*Aprel 1973*

## KAŞ

Çəpərlənib qayğılarım
Kirpiklərin çəpərində.
Yol vermir ki, gözlərimə
dola yuxum.
Fikirlərlə gedə bilmir
yola yuxum.
Qayğıların alovuna
yana-yana
Çevrilirəm gah o yana,
gah bu yana.
Səhərimə yol istərəm,
Yön istərəm gecələrdən.
Taxtapuşun taqqıltısı
Yarpaqların hənirtisi
Diksindirir məni hərdən.
Otağıma gətirmişəm
həm göyü mən,
həm yeri mən.
Bax, görürəm səsləri mən,
Eşidirəm rəngləri mən,
Çevrilirəm gah o yana,
gah bu yana.
Zənn edirəm, dardı yerim.
Pəncərədən işıq düşür.
Divarlarda rəqs eləyir fikirlərim.
Dan sökülür yavaş-yavaş.
Düşünürəm:
Yaşamaq da sevmək kimi
Qəlbimizcə olaydı kaş!

*Noyabr 1973*

* * *

O dedi, yel əsir boş ürəyimdə,
Elədi könlümü talan qocalıq.
Dəyməz cavanlığın bircə gününə
Ömürdən bir parça qalan qocalıq.

*1973*

## YAŞDAN GİLEYLİYƏM

Mən on beş yaşımda, iyirmi yaşımda
Elə bilirdim ki, qırx qocalıqdır.
Əlliyə çatıram,
ancaq başımda
Uşaqlıq havası hələ qalıbdır.

Elə bil dünəndir, çiynimdə çanta
Qorğa yeyə-yeyə dərsə getdiyim.
Elə bil dünəndir, o qamış atda
Nəzil qamçı vurub «at» səyirtdiyim.

Hiss edə bilmirəm yaşımı neylim,
Ürək o ürəkdir, həvəs o həvəs...
Gah arana düşür, gah dağa meylim,
Nədir könlümdəki bu duyğular bəs?

Elə bil dünənin uşağıyam mən,
Bu eşqə, həvəsə bəzən gülürəm.
Ancaq qınamıram özümü bəzən,
Axı nə yatdım ki, nə yuxu görəm?

Gənclikdən əlimiz üzülən kimi
Dünyadan dörd əllə yapışırıq biz.
Yaşımız ötdükcə, ağaclar kimi
Dərinə işləyir rişələrimiz.

Odur bax... həyətdə qopub vəlvələ
Uşaqlar oynaşır, dırmaşır dama.
Mən də onlar ilə tutub əl-ələ
Qaçmaq istəyirəm uşaqlığıma.

İstərəm «gizlənqaç» oynayım yenə,
Başıma götürüb çölü, çəməni.
Elə gizlənim ki, düşüb izimə
Heç tapa bilməsin qocalıq məni.

Ancaq yaş özünü göstərir hərdən,
Ürəkdə çox gizli döyüntülər var.
Küçədə, bayırda tövşüyəndə mən
Sanıram, yoxuşdu, daşdı günahkar.

Yolda balalardan geri qalanda
Neyləsin bu yoxuş, bu daş bilirəm.
Ancaq gözəlliyə heyran olanda,
Özümü oğlumla həmyaş bilirəm.

*Noyabr 1971*

## ATA YURDU

Şəkidə məhlə var nə qədər desən,
Gəldim bu dünyaya «Yuxarıbaş»da*.
Bir göz evimizdə nə desən vardı,
Taxça aşağıda, buxarı başda.
Çıxdı ahıllığım o evdən çölə,
Amma uşaqlığım yuxarı başda.
İndi mən həsrətəm ata yurduma,
Odu ürəkdədir, buxarı başda!

*Yanvar 1974*

*Şəkidə məhəllə adıdır.

## BAĞÇAMDAN
## AXAN SU

Yuxuma şəkər qatır,
Gecənin pıçıltısı.
Şırıl-şırıl axan su.
O torpağın arzusu.
Ax suyum,
axar suyum,
Torpağın od bağrını sərinlədər,
səsiylə
Könlümü yaxar suyum.
Özümə layla çalar,
Duyğuları oyadar
mənim nəğməkar suyum.
Dilin,
körpəliyimdən
axı mənə tanışdır.
Danış, suyum,
məni də,
gecəni də danışdır.
Hər şeyin əvvəli tək
axırı da var, suyum.
Atan – buludlar, suyum,
Balan – göy otlar, suyum.
Təmizliyi axtaran səsində tapar, suyum.
Könlümü də
özünlə əmanət apar, suyum.
Qorxunc yuxularını
niyə sənə danışdı
həmişə nənəm mənim?

Dedi, yuxularımın
qorxusunu sən apar,
içindəki qəm mənim.
Ax, suyum, axar suyum.

Mənim sehrkar suyum.
Ax ki, gülsün, boy atsın
Arzu gülüm, gülşənim.
Padişahın bağından
Mənə alma gətirən
selim, suyumsan mənim.
Nağıl yuxumsan mənim!

*Sentyabr 1973*

## İNTİZAR

Yayda qışı gözləyirik,
Qışda yazı,
Azda çoxu istəyirik,
Çoxda azı.
Uşaqlıqda cavanlığın
        həsrətilə yaşayırıq,
        cavanlıqda uşaqlığın.
Arzu birmi,
        beşmi,
                onmu?
                        yığın-yığın!
Gözləyirik,
Özümüzdən çox güclüdür
                        həsrətimiz.
Gözləyirik xoşbəxtliyi,
Xoşbəxtliyin içində biz.

*Oktyabr 1973*

## BABAMIN KOMASI

*«Kollu koxa» povestinin*
*müəllifi İsa Hüseynova*

Ay mənim ilk beşiyim,
İlk nəfəsim, ilk sözüm,
İlk gecəm,
İlk gündüzüm.
Könlümün bu həyatla
İlk böyük qafiyəsi –
Ay babamın dəyəsi!..
Səndən əlim çıxalı
İstəmişəm həmişə
Səni duyğularımın
Bəstəsində gizləyim.
Sən ey mənim ən ülvi
Saflığım, təmizliyim!
Mənim duyğularımın
Ən nəğməli, ən həzin
Pərdəsində durmusan.
Toz kimi səpələnmiş
Kövrək xatirələrdən
Bir aşiyan qurmusan.
Sən şeirimin ilk sözü,
İlhamımın mayası,
Babamın beli kimi
Daş-divarı əyilmiş
Ay atamın koması!..
Uçuq barılarında
Kərpiclərin qum kimi.

Göyərən vəhşi güllər
Çığıran arzum kimi...
Necə belini bükdü,
Ocağını qaraltdı
Amansız zaman sənin.
Yeddi oğul çıxardı
Bir vaxt qapından sənin.
Əyilsən də,
                durursan
Yenə də öz yerində.
Uçanlar qayıtmadı
Ay babamın koması,
Əlin bizə çatmadı.
Sənə salam verən yox.
Nə gələn, nə gedən var.
İndi uçuq qapını
Tıqqıldadar yağışlar.
Şəhərlərə uçalı
Bəyənmədik biz səni.
Qoymuşuq yalqız səni,
Ay babamın koması,
Mənim ilk nağıllarım,
Meşələrdə qurtaran
Ay mənim ilk yollarım,
Kölgəsi bənövşəli,
Ay böyürtkən kollarım,
Hər dərədən, təpədən
Mənim dəstə tutduğum
Al-əlvan çiçəklərim,
Lampanın dövrəsində
Uçan kəpənəklərim,
Hardasınız,

Siz harda?
Ürəyimə köçdünüz.
Siz indi yaşarsınız
Çığıran duyğularda...
Ay rəfləri kasalı,
Ay taxçalı, boxçalı,
Ay bağlı,
Ay bağçalı,
Qoşa pəncərələrdə
Pərdələri saçaqlı
Buxarılı,
Ocaqlı,
Alaca komam mənim,
Balaca komam mənim.
Təmiz duyğularıyla
Ürəyimi, hissimi
Gündə bir boy ucaldan
Ay uca komam mənim.

Sən vermisən,
Sən dedim
Ömrümün yollarında,
Ağır duyğularımda,
Daşıdığım yükü sən.
Beşinci mərtəbədə
Yaşasam da indi mən,
Evimin də kökü sən,
Şeirimin də kökü sən!..

Avqust 1970

## GETMƏZ SÖZ YARASI

Bir  soyuq baxışın odu, həniri,
Körpülər yandırdı, külü qaraldı.
Bir an baxıb ötdün...
                              Baxışın yeri
Çapılan könlümdə ömürlük qaldı.
Anın zərbəsini bir ömür yedi,
Nələr etdiyini an heç bilmədi.

Yoxdur ikincisi tək ömrümüzün,
Niyə zəhərlədin bir ömrü, niyə?
İsti bir baxışa möhtackən özün
Bəs niyə qıymadın onu özgəyə?..

Yaddaşdan bir yolluq silinib itər
Hər ömrün, hər günün min macərası.
Güllə yarasına nə var?
                                        tez gedər,
Getməz söz yarası, eyham yarası.

Niyə danışmadın, niyə ürəklə?
Xoş sözə hamının ehtiyacı var.
İnsan yaşamamış yalnız çörəklə,
Sınan ürəklərin öz əlacı var.

Gözümüz önündə arzular, kamlar,
Narahat dünyada dinclik olarmı?
Ürək sındırmayın siz, ey adamlar,
Bülbül yuvasına daş atılarmı?!

Sınan bir könülə necə deyək: «Döz!»
Yamasaq bilinər sınığın izi.
Bəzən xoş bir baxış, xeyirxah bir söz,
Günlərlə, aylarla yaşadır bizi.

Dağsansa, sən danma təpəni, düzü,
Bu darkönüllülük nə verər bizə?
Xoş bir təbəssümü, gözəl bir sözü
Bəzən biz qıymırıq bir-birimizə?

Ürək də qocalır, axı ilbəil,
O bizə həmdəmdir, biz ona sirdaş.
İnfarktdan qorxursan?
                                        Ürək daş deyil,
Özgənin qəlbini sındırma, qardaş!

Mən səndən intiqam, sən məndən qisas?..
Alır verdiyini onsuz da zaman.
Adamlar, adamlar,
                                        düşünsək bir az,

Hamıya yer çatar, genişdir cahan.
Əcəl başımıza kölgə salmamış
Sizdən «can» eşidim, sizə «can» deyim.
Adamlar, adamlar,
                                        yalnız xoş baxış,
Bir də təbəssümdür sizdən istəyim.

*Yanvar 1974*

## QIRQOVULA GÜLLƏ ATANLARA

Qolların qurusun ovçu, bir dayan!
Qanla yazı yazma çılpaq kollara.
De, necə qıyırsan, güllə atırsan
Çöllərin bəzəyi qırqovullara?..

Sənin qanın isti, ürəyin soyuq.
Təbiət hüsn ilə kamala çatmış.
Ətini yeməkçün yaratmayıb, yox!
Gözəllik naminə onu yaratmış.

Ətindən həzz aldın?
                    Bir vəhşisən sən.
Ürəkdən üstünmüş səninçün qarın.
Həzz ala bilmədin gözəlliyindən,
Gözəllik naminə yaranmışların.

Təbiət düşməndir tökülən qana.
Qanın olsun!
                    Qandan alma nəşə sən.
Onu yaradıb ki, baxasan ona
Sən də onun kimi gözəlləşəsən!

*Noyabr 1973*

## BİR SUALA CAVAB

Hər nə desən qəlbində var,
Sən dünya bil, gəz qəlbini.
Taybatay aç, qoy basmasın
His qəlbini, toz qəlbini.

Ona, buna sığınma çox
Kölgəlikdən bir üzə çıx.
Məramını söylə açıq
Qoy deşməsin söz qəlbini.

Yağdı yağış, vurdu dolu,
Qəza tutdu sağı, solu,
Ömür ki var, sevgi yolu
O yola ver öz qəlbini.

*1973*

## GƏLƏN ƏSRLƏ GÖRÜŞ

Bu dağ mənim,
O dağ sənin,
Ömrüm boyu yürüşdəyəm.
Bu gün isə
Nəfəsimi dərim deyə,
Dayanmışam bir mənzildə,
Dünyamızın gələcəyi balalarla
görüşdəyəm.
Vətənimi vəsf eləyən şeirlərim,
Çiçək olub dəstələnir
qucağımda.
Qəmim yoxdur
Bu dəmimdə,
bu çağımda.
Mən özümü,
öz səsimi,
öz duyğumu
Eşidirəm
cavanların gur səsində.
Mən onlara bəxş etdiyim
şeirlərin əvəzində
Çiçək yaşlı, gül ətirli
gənc balalar,
Bu gün mənə çiçək verir.
Çiçəkmi?
Yox!
Yaşamağa, yaratmağa
İnam verir, ürək verir
Sevinci var ürəyimdə,

Göyün,
Yerin!
Mən bu əsrin adamıyam,
Bu gənclərsə gələn əsrin!
Dad çəkiblər,
Dad çəkirik
Vaxtın belə axışından.
Qarşıdakı əsrlərə boylanıram
Mənə çiçək bağışlayan
Balaların baxışından.
Bu əsrdə ayaq izim,
O əsrdə nəfəsim var.
Mənim isti nəfəsimi
Gələn əsrə çatdıracaq
bu balalar!

*May 1973*

## GÖYNƏRTİ

*Atalarımızın xatirəsinə*

Mənim atam
Öz qəlbində dəfn etmişdi
öz-özünü.
İçəridən alışardı
Öz ahıyla dağıdardı
tüstüsünü.
Nə dərdini bildirərdi bir kimsəyə,
nə qəmini.
Saçlarında ağardardı sitəmini.
Hər acıya qatlaşardı,
o aşardı
Aşılmayan sirti, dağı,
Onun üçün ən dəhşətli bir əzabdı,
Əzabından danışmağı...
Bir pərdəyə köklənmişdi onun qəlbi,
Axşamı da, səhəri də,
Sevinci də, kədəri də...
Salammadı onu bir an
Bu dünyanın nə sevinci,
Nə ağrısı, nə acısı
Salammadı onu bir an
Dayandığı məqamından...
Vaxt ötdükcə...
Zaman onu xəmir kimi
İstədiyi yönə salıb
kündələdi.
Yaman onu rəndələdi...

Qırışlandı illər onun
sifətində,
Zaman onun qəlbində də
cığır açdı.
Ürəyi də yuxalaşdı...
Bulud kimi hey boşalıb
doldu kişi,
Dəymə-düşər oldu kişi.
Görürdük ki, gah açılır,
gah tutulur.
O, hamıdan sevgi umur,
qayğı umur.
...Mən də onun özü kimi
Xəsis idim
öz sevgimi bildirməyə.
Utanırdım, sıxılırdım.
Ürəyimi bildirməyi
Öz-özümə ar bilirdim.
Mənə elə gəlirdi ki,
Onu öpüb-qucaqlamaq
Yüngül çıxar,
Çox şit çıxar.
O, karıxar,
O, darıxar.
Nə biləydim,
Elə bunu gözləyirmiş
Bəlkə məndən
o, dolanda,
Bulud kimi tutulanda...
Adicə bir övlad kimi,
Mən atama
nə qayğımı bildirərdim,

Nə sevgimi...
Ürəyinə baş vurmadım,
Qulluğunda heç durmadım...
Bilmədim bir istəyini,  diləyini.
Öz sevgimlə
İsitmədim ürəyini...
              yaşayarkən
              mənim ona kiçicik bir təbəssümüm
Süzülərdi ürəyinə
Könül açan bir nəğmə tək.
O öldümü?
Bundan sonra
Təəssüflə axıtdığım göz yaşlarım
Kimə gərək,
Nəyə gərək?
Bəli, artıq keçmiş ola!
Kim görüb ki,
Təəssüflə qəlb boşala?
Hayıf! Hayıf! Nidasına
Çatır ancaq qüdrətimiz.
Əlimizdə olan zaman
Biləmmirik heç bir şeyin qədrini biz.
Ey övladlar,
ayıq salmaq istəyirəm
                                indi sizi.
Gizlətməyin atanıza, ananıza
                                sevginizi.
Doğmalara sevginizdə,
Heç vaxt duman, sis olmayın…
Nədə xəsis olsanız da,
Sevgidə xəsis olmayın!
Əbədilik bir ağrı tək

Sonra sizi yandıracaq,
göynədəcək.
Toydan sonra bu nağara
Kimə gərək,
Nəyə gərək?..
İtirdiyin doğmaları, əzizləri
Qaytara ki, bilməyəcək.
Qəlbinizdə düyüləcək
Özünüzün özünüzə atdığınız
töhmət daşı,
Gözünüzdə həsrət tozu...
Ondan sonra
Kimə verə bilərsiniz
Bağrınızda sızıldayan
Qayğı, sevgi borcunuzu?..

*Noyabr 1973*

## DOĞUM EVİ

Siqnal vermə, ey sürücü,
dayan, dur!
Bu binada dünyamıza
hər an,
hər gün,
Neçə ulduz doğulur.
Sonra dönüb gün olur.
Yeni-yeni düşüncələr,
yeni-yeni fikirlər,
Neçə-neçə möcüzələr
və sirlər,
Yazılmamış kitablar,
Açılacaq qapılar,
Sarsıntılar,
Əzablar,
Yeni-yeni şəhərlər,
Muştuluqlu səhərlər,
Sabahımız – gələcək
Bu binada doğulur.
Siqnal vermə, ey sürücü,
Bu binanın qarşısında
Səcdəyə gəl,
dayan,
dur!

*Oktyabr 1973*

## ANA VƏ BALALAR

Uşaqlar ananı tutdu danlağa,
Başqadır, özgədir sənin zəmanən.
Səni başa salmaq çətindir, ana,
Bizi suallarla çox incitmə sən.

Ana cavab verdi, ağıllandınız?
Nə tez böyüdünüz, məni dandınız?
Diliniz yox ikən «inqa» səsindən
Kiçik ürəkdəki arzunu gördüm,
Yalnız dodaqların büzülməsindən
Mən sizi bəs necə başa düşürdüm?

*Yanvar 1973*

## EHTİYAT

*Cəsurların dəliqanlılığına*
*şərəf nəğməsi oxuyuruq.*
**M. Qorki**

Ehtiyat sözündən ehtiyatlıyam,
Ehtiyat hər yerdə ehtiyac olmur.
Hər sözdən özünü qoruyan ilham
Ayaqda sürünür, başda tac olmur.

Ehtiyat güdəndə yazdım könülsüz,
Eləsi qəlblərə çətin yol tapır.
Ürəklə, cürətlə dediyim hər söz
Hələ qorxaqla da asan dil tapır.

Sənətin, ilhamın, eşqin gur səsi,
Qorxaq ürəklərdən niyə gen düşür?
Ehtiyat güdəndə sözün gülləsi
Həmişə hədəfdən didərgin düşür.

Ehtiyat güdənlər, asta gedənlər,
Heç sizi görmədim mənzil başında.
Ey fikrin önünə daş gillədənlər,
Əliboş qaldınız siz il başında.

Yolu gedə-gedə addım sayanlar,
Yolunuz yarıda niyə səhv olur?
Ancaq cəsarətlə addımlayanlar
Ya hər şeyi alır, ya da məhv olur.

Ehtiyat – birtəhər baş dolandırmaq,
Cəsarət – ya həyat, ya ölüm ancaq!

Ehtiyat vergüldür, nöqtə deyil, yox!
Ehtiyat çalardır, rəng ola bilməz!
Deyirəm dünyada bir qəhrəmanlıq
Kölə ehtiyatdan doğula bilməz.

Qorxur cəsarətdən qorxu da şəksiz
Onun övladıdır igidlik, hünər.
Axı cəsarətsiz, axı ürəksiz
Qapını döyməmiş hələ bir zəfər.

Cəsarət çətindir, ehtiyat asan,
Qorxudur alçaldan, axı hər kəsi.
Cürətdən qorxmayaq qorxaq qorxudan
Qorxu itaətin dayaq nöqtəsi!

Dolandım yüz ölçüb bir biçəndə mən,
Yaşaya bilmədim bircə an, ancaq.
Mən ziyan çəkmədim cəsarətimdən,
Qorxudan qorxuram, qorxudan ancaq!

*May 1970*

## QƏRİBƏDİR

Araz axır, fəryad edir
Kürə baxmış balacadır.
Amma yaman haraylıdır,
            həşirlidir.
Araz axır coşa-coşa,
            daşa-daşa.
Qaqqıldaşa-qaqqıldaşa,
Sinə gərir gah bu daşa,
            gah o daşa.

Araz axır...
Nərildəyə-nərildəyə,
«Mən də varam, varam!» - deyə
Araz axır,
            Kürə çatır.
Birləşirlər
Burda itir onun adı.
Bundan sonra axan çaya
            Kür dedilər,
Araz deyən heç olmadı.
Qəribədir,
Qəribədir!

*May 1970*

## İNAD

Saatımın əqrəbini
Düyünləyib arzulara
Vaxt olub ki,
Ötən vaxtın qabağını
mən kəsmişəm.
Bu günümü yaşamadan,
Sabahıma tələsmişəm.
Məqsədimə çatmaq üçün
Ürəyimdən od almışam,
yeldən qanad.
İndi təzə ad almışam:
İnad,
İnad!

*1973*

## VURUŞ

Bu dünyanı dərk edəli,
ürəklə biz
Vuruşuruq
dənizlə biz,
küləklə biz,
fələklə biz!
Yol çəkirik,
Ev tikirik,
İlan mələr səhralardan
gül dəririk.
Uçururuq
sal, qranit qayaları
Uzaqları
Yaxınlığa döndəririk.
Vuruşuruq
təbiətlə,
Zamanla biz.
Vuruşuruq
yalanla biz,
böhtanla biz.
Vuruşuruq göylə, yerlə.
Vuruşuruq haqqımızı yeyənlərlə...
Vuruşuruq
özümüzlə,
nəfsimizlə
Bu dünyaya gələli biz.
Vuruşuruq!
Bizdən öndə dayanmışdır
məramımız,
məqsədimiz!

*Sentyabr 1973*

## GECƏLƏR

Necə gözəl olur, necə xoş olur
Ruhumla həmavaz olan gecələr.
Duyğumun, arzumun çıraqları tək
Göyləri ulduzla dolan gecələr.

Qəlbim qanadlanar, gözüm dincələr,
Fikrim genişlənər, ruhum incələr,
Uzana biləydi kaş ömrüm qədər
Hər dəmi xatirdə qalan gecələr.

Bir arzu, bir sükut, bir gecə, bir mən
Dördümüz baş-başa... yox gəlib-gedən.
Özümü özümə qaytarır nədən,
Qəlbimi qəlbimdən alan gecələr?

*1973*

## ŞƏHİD MƏZARLARI

Gəlirik dünyaya bir amal üçün
Gedirik...
Yaşayır bu yurd, bu torpaq!
Ölər bizim kimi vətən də bir gün,
Vətənçün ölümə hazır olmasaq!

Vətəni sevmirlər quruca sözlə,
Vətəndir yaradan, yaşadan bizi,
Biz də yeri gəlsə,
Ölümümüzlə
Gəldik, yaşatmağa Vətənimizi!

Neçə əsrlərə bəs edər bəzən,
Vətənə hay verən bir uca səs də.
Dünən də, bu gün də yaşayır Vətən,
Babəkin qırılan qolları üstdə.

Şəhid məzarları... Düşmən qənimi!
Vətənin köksündə vüqarla durub
Mənim varlığımı bir təsdiq kimi
Yurdun sinəsinə möhürlər vurub.

Şəhid məzarları...
Bu məqbərələr
O əsrin bu əsrə uzanan əli.
Basqınlar...
Hücumlar,
Vuruşlar,
Nələr!
Bir xalqın tarixi...

Eşqi, əməli!
Şəhid məzarları...
                                        Məni,
                                        Həm səni,
Bir yola çağırır,
Tək bir söz deyir.
Bütün əsrlərin fikirlərini,
Bir fikrin oduna şölələndirir.

Şəhidlər nur saçır amalımıza.
Həmişə yenilməz,
Həmişə məğrur!
Onlar qonaq gəlir xəyalımıza,
Onlar ruhumuzda binələr qurur.

Şəhidlər sıçrayıb xəyalımızdan
Ötür mahnısını ötən çağların.
Xeyir-dua verir bizə hər zaman,
Başına dolanıb od-ocaqların.

Şəhidlər boylanır dünənimizdən,
Dolanır zəmanə,
Dönür qərinə.
Necə yaşamağın, necə ölməyin,
Təhrini öyrədir nəvələrinə.

"Vətəni sevirəm" - deyən çox olar,
Deməyə nə var ki, dil yorulmasa.
Vətən də bizim tək ölər, yox olar,
Vətənin yolunda ölən olmasa!

*Avqust 1975*

## TƏLƏBƏLƏRİMƏ

Uçun, uçun,
Xəyaldakı zirvələrdən atlanın,
Tələbələrim mənim.
Bu gün mənə güvəndiniz,
Sabah sizə güvənim.
Bu gün önümdəsiniz,
Sabah isə ayaq açıb dünyamızı
gəzən şirin sözlərim...
Vətənimə səpələnmiş
Mənim dan ulduzlarım...

Mən öyrədən,
Siz öyrənən,
Zaman keçir, yer dəyişir
Bu müqəddəs dövrədə...
Bu dünyanı öyrənmişəm
Mən öyrədə-öyrədə...
Mənə heç vaxt yad olmayıb
Sevinciniz,
Qəminiz.
Xəyallarla nəfəs alan
Cavanlıq aləminiz.
Hissinizə, duyğunuza
dola-dola,
Sizin ilə addımladım
Qol-qola...
Suyu hər il dəyişilən
Bir dəniz var önümdə.
Suyu axır,

Durulur.
Bir tərəfdən boşalırsa,
Bir tərəfdən o, dolur.
Gənclik axır,
Bu axına qoşuldum.
Yaşım artdı...
Ancaq yenə
Sizinlə həmyaş oldum.
Elə dedim, bu dünyaya
Nə baxdım ki, nə görəm.
Beş il açıb örtdüyünüz qapıları
Otuz ildir
Mən açıram,
örtürəm.
Sizin üçün bitən bir şey
Bitə bilmir mənimçün.
Öyrədirəm,
Öyrənirəm,
günbəgün.
Mən həmişə
Sizin ilə həmyaşam.
Hamınıza yoldaşam!

El-obada ayaq açıb
Mənim gəzən sözlərim,
Vətənimə səpələnmiş
Ay mənim ulduzlarım,
Fikrimizdən, sözümüzdən
Aldığınız işığı,
El-obada uşaqların
Ürəyinə səpin siz,
Biçin olmaz səpinsiz.

Bugünkü dərs
Tək bu günün dərsidir.
Tək bu günlə
Siz gəlməyin vəcdə,
yox!..
Sizdən hörmət gözləyirəm,
Səcdə, yox!..
Səcdədə bir hərəkət yox,
Çırpıntı yox,
Alov yox!
O, həm sakit,
Həm donuq!
Sən önümdə donursansa,
Mən də yoxam, sən də yox!
Başqa simdə çalmalısan
Mənim köhnə havamı.
Sən mənmisən?
Yox!
Fikrimin,
Əqidəmin
davamı!
Sizin mənə sevginizdə tapmışam
İtirdiyim nə varsa.
Mənim sizə dediklərim
Ruhunuzda yaşarsa,
Sizin ayaq basdığınız
hər obada mən varam,
Qəlbinizdə çağlaram,
Dilinizdə qaynaram.
Gələcəkdə yaşaram!
Sabir olub,
Puşkin olub,

Vurğun olub
Hər dərsimin ön sözü.
Bəs nə imiş
Məramımın, mətləbimin
Son sözü?
Harda bir ev uçubdursa,
Biz o evə
Dirək olaq,
Daş olaq.
Adicə bir insan deyil,
Bu Vətənə,
Əsl vətəndaş olaq!

*1974*

* * *

Mən insanam
Min arzum var, min kamım var.
Ancaq bircə inamım var.
Bu dünyaya gətirsə də anam məni,
Yaradıbdır inam məni!
Mən inamın övladıyam,
Onunkudur ömrüm, günüm.
O kompasdır,
Əqrəbinin ucundadır
yolum, yönüm.
İnam yoldur, yönü də bir...
Bütün yollar haçalıdır,
Tək bu yolun haçası yox.
Biz bu yolla, biz bu yönlə
Açılmayan qapıları açasıyıq.

*İyun 1975*

## O NƏDİR?

«Dünya ulu tanrının yuxusudur» -
dedilər.
Onu şirin yuxusundan ayıltmayın, -
dedilər.

Onun oyanmasını
Niyə istəmədilər?
O, nə qədər yatacaq
Dərin, şirin yuxuda?
İntəhasız olarmı,
Vaqiə də, yuxu da?
Milyon-milyon ildi ki,
Fırlanır,
Yer kürəsi...
Nə bezini tükənir,
Nə odu, nə qüvvəsi,
Hara gedir o belə?
Yerindədir yer elə...
Dönür günün başına
Qüvvət alıb o, gündən.
Nə öz oxundan çıxır,
Nə də öz məhvərindən...
Fırlanır...
Getmir ancaq
Nə irəli,
Nə geri...
Fırlanıb sapa düzür
O, ayları, illəri.
Yerin gözü yoxdumu?

Onun da
İnsan kimi
Var olsaydı gözləri,
Tərpənərdi yerindən,
Çıxardı mehvərindən.
Tanrının da yuxusu
Dağılardı o zaman.
Təzə,
Başqa bir yuxu
Uydurardı yuxudan.
Yer qopmadı yerindən.
İnsan qopdu...
Qanadı
Aldı əməllərindən...
Möcüzələr yaratdı,
Kainata ip atdı,
Uçub Aya da çatdı.
İnsan çıxa da bildi
Yerin cazibəsindən...
İnsanın:
«Mən insanam,
Mən qadirəm» -
Səsindən
Tanrı diksindi, durdu.
Boylandı dövrəsinə...
Gördü:
İnsanın özü
Dönüb Yer kürəsinə.
Ancaq...
O, kürə kimi
Fırlanmır öz yerində.
O yeriyir, o uçur

Ağlın üfüqlərində...
Yer kürəsi
Tanrının
Uydurduğu yuxudur,
Nağıldır,
Əfsanədir...
Bəs boylanıb yuxudan
çıxan insan?..
O nədir?

*1974*

## İÇƏRİ BAX

Aç gözünü dünyaya bax.
Bu çəməndir,
Bu çöl, bu bağ,
Bu nərgizdir, bu qızılgül.
Bu yarpızdır, bu qərənfil.

Bəs arzumu, niyyətimi,
Bəs sevgimi, nifrətimi,
Dəhşətimi,
                    Heyrətimi
                    Hansı gözlə görəcəksən?

Fikirləri, duyğuları,
Hissləri, arzuları
                    Görə bilsən,
Sən çölün də, çəmənin də,
Sən mənim də, sən «sən»in də
Öz boyasız qiymətini verəcəksən.

Sən görürsən məni, dostum,
Yalnız görə bildiyin tək.
Görmək deyil bu qədəri görə bilmək.
Sənin görə bildiyindən o yanını,
O yandan da o yanını görmək çətin!

Torpaq altda, tum içində oyananı
                              Görmək çətin!

Gözlə görə bildiyinə
Ötəri bax, ötəri bax.
Sən çölü də yaxşı görə bilmək üçün
İçəri bax, içəri bax!

*Oktyabr 1975*

## DÜŞÜNCƏ – SÖZ

Özümə də görünməyən
          Könlüm mənim,
                    Duyğum mənim,
                              Sövdam mənim –
Azadlığım – öz mənəvi dünyam mənim.
Öz içimdə, öz dünyamda
Hakim də mən,
Məhkum da mən.
Neçə yerə qol atıram
Bir özəkdə, bir tumda mən...
O coşqundur,
O daşqındır.
Min rənglidir,
Sürəklidir.
Söz fikrimin,  düşüncəmin
                    Qəlibidır,
                              Öz şəklidir.
Düşüncələr havadakı  quşa bənzər.
Sözlər quşa atdığımız daşa bənzər.
Dəyə bilsə səninkidir,
Dəymədisə,
                    Daşdan küsmə,
                    Özündən küs.
O incidən əlini üz.
Ürəkdədir o qönçələr...
Hansı gözə görünübdür
                    düşüncələr?

*1975*

## ŞEİRINI OXUDUM

*Şair dostum H.Arifin 50 illiyinə*

Torpağa vurulub vurğunu olduq
Vətən nəğməsinin, vətən sözünün.
Şeirini oxudum...
                    Düz demədim, yox,
Dağları, daşları oxudum bu gün.

Adladım dərəni, dolaşdım düzü
Əridi könlümdə kədər də, qəm də.
Şeirinin alovu, şeirinin közü
Atəşə çevrilib yandı dilimdə.

İsti bir ürəyin isti sözləri
Soyuq könüldə də bir tonqal qalar.
Şeirini oxudum...
                    Alıdan bəri
Aşıqlar başıma topalaşdılar.

Şeirini oxudum... Çiçəklər həkim,
Dərdimin dərmanı gül qonçalandı.
Durdu qulluğumda təbiət mənim,
Lilpar dolçalandı, çöl xalçalandı.
Şeirini oxudum... qopdu qasırğa,
Palıd əyilmədi, qovaq əyildi.
Şeirini oxudum...
                    Qulaqlarıma,
Durna qatarının köç səsi gəldi.
Şeirini oxudum...

Hər kəlmən sənin,
Ürəyin vurğusu, ürəyin səsi.
Pozdu sükutunu sakit meşənin,
Uzaqdan atılan ovçu gülləsi.

Torpaqdan göyərir şeirinin sətri
Hər sözün, hər kəlmən dərindən gəlir.
Torpağın oğlusan...
Torpağın ətri,
Torpağın nəfəsi şeirindən gəlir.

Qalın kitablarda çiçək-çiçəkdi
Torpağın üstdəki ayaq izlərin.
Anam təbiətin şəklini çəkdi
Səttarın rəngləri, sənin sözlərin.

Torpağın eşqilə yandın, alışdın
Bu gizli yanğıdan ibrət götürdük.
Qayadan danışdın, daşdan danışdın
Sözünün məğzində insanı gördük.

*1974*

## MƏNİM XALAM

*Mina xalama*

Anam öldüsə də, öz taleyimdən
Küsmədim,
yerində xalam var mənim.
Ona güvənirəm,
Sanıram ki, mən
Arxamda alınmaz qalam var mənim.

Elə ki, darıxdım,
Minib maşina
Gedirəm Ağdaşa, düz xalamgilə.
Yaxşı deyirlər ki, hamı bir yana,
Anaların ətri xaladan gələr.

Bu necə ətirdi, bu necə ətir,
Ruhum sakit olur, ürəyim aram.
O ətri duydumsa əriyir illər,
İlkimə qayıdıb uşaq oluram.

Bu necə ətirdi, oyanır mənim
Könlümdə ən şirin, ən dadlı çağlar?
Niyə göz önümdə dayanır mənim
Qalanan təndirlər, yanan ocaqlar?

Bu necə ətirdi,
İlkin duyğular,
Köhnə binəsinə qayıdır yenə?
Bu necə ətirdi, onda nə sirr var,

Məni məndən alıb qaytarır mənə.
Bu necə ətirdi, bu necə ətir,
Məni göyüm-göyüm niyə göynədir?
Bu nə göynərtidir? Deyə bilmirəm,
Niyə göynəyirəm, niyə, bilmirəm?

Niyə bu göynərti, niyə bu ağrı,
Alır öz əlimdən ixtiyarımı?
Bu sızı, hamıya əziz olduğum
Qayğısız günlərin intizarımı?

Tutmaq istəyirəm baxışlarını
Min mətləb gizlənir hər qayğısında.
Ötən günlərimin naxışlarını
Görürəm xalamın kəlağayısında.

Ay oğul, saçını nə tez ağartdın?
Deyə, əllərini çəkir başıma.
Deyirəm, tez niyə, əlliyə çatdım.
Yox! İnana bilmir xalam yaşıma.

Anamın diliylə o, məni oxşar,
Nəsihət eləyər hər görüşündə.
Mənim özüm boyda uşaqlarım var,
Xalam «uşaq» deyir mənə bu gün də.

Yox! Heç nə yayınmaz onun gözündən,
Dərdimi üzümdən oxuyar mənim.
Xalama güvənib sanıram ki, mən,
Arxamda alınmaz qalam var mənim.

O necə qaladır? Uludan ulu.
Hansı bir qüvvəti özündə gizlər?
Qayğıyla, sevgiylə doludur, dolu

O titrək dodaqlar, o yaşlı gözlər.
O necə qaladır? Zəif bir vücud!
Üfürsən yıxılar,
Gücsüz bir qarı.
Qoluma güc gəlir, könlümə ümid
Çiynimə qonanda zəif qolları.

O elə qala ki, baş əyməz yada,
Könül çiçək açır hərarətindən.
Dünya şər qüvvəyə dönüb axsa da,
Onun qucağında amandayam mən.

Köksünə baş qoydum, dedi, qadası!
Sandım ki, çiynimdən yük endirmişəm.
Xalamın sinəsi – sevgi qalası
Mən bu istiliyi harda görmüşəm?

Xalam uşaqları, sizə sözüm var
İndidən yanmayan sonra bərk yanar.
Düzünü deyim ki, anam sağ ikən,
Qədrini o qədər bilməmişəm mən.

Ayıltmaq istərəm indidən sizi
Yaman nigaranam xalamdan yana,
İndidən yandırın ürəyinizi
Qoymayın od tutub sonradan yana.

Siz də olarsınız ikiqat yetim
Yaxşı başa düşün, yaxşı, siz məni.
Anasız qaldığım bəsimdir mənim,
Amandır, qoymayın xalasız məni.

*1976*

## HARA QAÇIRSAN?

*Dünyada keçməsin boş cavan çağın,*
*Yol get ki, güclüdür indi ayağın.*
**Nizami**

Bir qoca görürəm, hər səhər erkən
Küçəmizdə mən.
O, məhəl qoymadan dosta, tanışa
Küçənin boyunca qaçır o başa,
Qaçır bu başa...

Oğlum mat-mat baxıb soruşur məndən
- O hara tələsir? O, niyə qaçır?
- O, ömür payını yeyibdir çoxdan,
Əlavə pay üçün növbəyə qaçır.

Özündən soruram, bu qaçış nədir?
- Görmürsən, bədənim hərəkətdədir.
İdmanın xeyri var cana səhərlər.
- Bu boş hərəkətdən, axı, nə fayda?
Qabağa qaçırsan...
Bilmirsən məgər
Sənin nəyin varsa, qalıb arxada?

Məni eşitmədi, o ötdü çoxdan,
Mənə əl elədi dönüb uzaqdan.
Hərəkət, hərəkət,
Hərəkət nədir?
Axı qiymətlidir ömrün hər dəmi.
Bədəni, doğrudan, hərəkətdədir,

Bəs beyni, bəs fikri hərəkətdəmi?
Bumudur hər eşqin, arzunun sonu?
Ömrünü, gününü artırır qoca.
Nəqd ömrü itirir,
Bu zalım oğlu
Qaçır gör necə də nisyə dalınca.
Nəqd ömrün qədrini bilmədin bir an
Eh... Suya vermisən sən çoxdan gönü.
Qaçışla ömrünə ömür artıran,
Nəyə xərcləmisən bəs nəqd ömrünü?

Səni tanıyıram... uzun ömrünü
Qədəhə doldurdun, başına çəkdin.
Boş bir nağarasan...
Sən ömür-günü
Kefdən özgə nəyə xərcləyəcəkdin?
Bütün yaşıdlardan geri qalmısan,
Ömrün zirvəsində sən ayılmısan.

De, hara qaçırsan?
Çox gecdir artıq.
Qayıtmaz geriyə bir də ömür-gün.
Min addım qaçırsan, bircə addımlıq
Ömrünə əlavə qazanmaq üçün.
Bacara bilmədin özünlə cəngi?
Qaçmaqla çatdınmı cavanlığa sən?
Bu qədər yaşayıb neynəmisən ki,
Beş il də çox yaşa, neyləyəcəksən?

Hərəkət?
Bununçun sənə səhərlər
Qaçışdan özgə şey tapılmır məgər?

O yanan ağaclar yandırmır səni?
Əlinə bel götür,
Sula onları.
Güldürə bilmədin insan qəlbini,
Gündə bir ağacı sevindir barı.

Havaya sovruldu gənclik çağları,
Qaçırsan dalınca ötən anların.
Qaçışda olubdur bir ayaqları
Yaşamaq xətrinə yaşayanların.

Sağlamlıq ən böyük dərdin, məlalın,
Səninçin həmişə keçib xoş ömür.
Ömrü uzatmaqdır amalın sənin,
De, nəyə gərəkdir belə boş ömür?

Mədəni, qarnını heç unutmadın,
Ruhunu, qəlbini düşünmədin sən.
Ölümdən qaçırsan... Xəbər tutmadın
Ay yazıq, diriykən ölülüyündən.

*1975*

## ÖZGƏ HƏRARƏTİ

Yaşadı həmişə qoltuqlarda o,
Bədəni özünün, özü özgənin.
Dindi, təkcə səsi özünün oldu,
Mətləbi özgənin, sözü özgənin.

Üzlərə dikildi gözü həmişə
Üzünə üzlərdən üz çəkdi, dindi.
Üzünün astarı köhnəldisə də,
Hər saat üzündə üz təzələndi.

Təbəssüm payladı o hər tərəfə,
Yorğanın altdasa «mən, mənəm» dedi.
Bircə addımını hələ bir dəfə
Ağlının əmrilə ata bilmədi.

Durdu yaltaqlığı başda çətirtək
Düşmədi üstünə yağış bir gilə.
Qoltuqda isinən termometrtək
Qızındı özgənin hərarətilə.

*Noyabr 1975*

## MƏHƏK DAŞI

Gəl kəsək dostluğu, elə indidən
Sözüm başqa yerə yozulacaqsa,
Nəyimə gərəkdir, şirin sözlərin
Astarı çevrilib üz olacaqsa.

Qaçdın bəd günümdə...
                                        Bəs hanı ilqar?
Ey yaxşı günümün yaxşı yoldaşı.
Xoşbəxtlik – adama dost qazandırar,
Bədbəxtlik – dostluğun bir məhək daşı!

*1975*

* * *

Duyduqlarımın nuru şəfəq tək saçılır hey...
Qəlbimdə mənim tazə üfüqlər açılır hey...
Təp-tazə üfüqlər, məni ənginliyə atdı,
Dünyamız üçün öz yeni dünyamı yaratdı.
Yağdıqca ümid güllərimin üstə yağışlar,
Yaz eşqinə könlümdə civildəşmədə quşlar.
Xoş duyğularım nəğməli quşlar kimi ötkün,
Könlümdə mənim tazə üfüqlər açır hər gün.

Dünya səni dindirməsə...
                                        Dur,
                                        Sən onu dindir.
Dünyanı sevirsənsə, bu dünya da sənindir.
Mən öylə ki, qəlbimdə ötən səsləri duydum,
Dünyanı öz eşqimdə tapıb mən ona uydum.

*Dekabr 1973, Mərdəkan*

## HÖRMƏT ÜÇÜN?

İşıq onsuz da işıqdır, uludur.
O, qaranlıqlara xəncər çəkən atəş yoludur.
Çıraq, evlərdə tavandan asılır,
                Hörmət üçün?
Ona hər kəs güvənir, səcdə qılır,
                Hörmət üçün?
Feyzi hörmətdən aşan xilqətə hörmət,
                Nə demək?
İşıq onsuz da işıqdır, ona tərif
                Nə gərək?
Onu baş ucdan asırlar tavana,
Ki, bütün dövrəsi ondan nur alıb faydalana.

*Avqust 1974, Şəki*

## GERÇƏK ÖLÜMLƏ

*Alim dostum Qoşqar*
*Əhmədlinin xatirəsinə*

Nə qədər dünyada yaşayırıq biz,
Ölüm sanırıq ki, bizdən uzaqdır.
Elə bilirik ki, bizim ömrümüz
Ömürdən o yana uzanacaqdır.

Belə düşünürük... ötür fəsillər.
Ölüm?
Bir səs deyir, yox, hələ tezdir.
Onu da bilirik, axışan illər,
Ölümə uzanan əllərimizdir.

Bizim ömrümüzün hər qarışında
Övladlar böyüyür... qocalırıq biz.
Onların ilbəil artan yaşında
Dolayı yollarda itirdiyimiz
İlləri görürük aydınlıqla biz...

Görürük, dünənki körpələrimiz
Bizim keçdiyimiz yollardan keçir.
Balalar ərləşir, töyşüyürük biz
Onda bilirik ki, ömür gün keçir.

Qoşqar, sən də elə... Sən yaşayırkən
Ölümü ömrünə yaxın bilmədin.
Ölüm döşəyində bilirəm ki, mən
Ölümün önündə sən əyilmədin.

Həyatın ən şirin məqamında da
İnsan ölüm ilə daim əlləşir.
Ölüm zirvəsində, lap son anda da,
Həyat olduğundan çox gözəlləşir.

Yaşadın kişi tək sən yaşayırkən,
Üz-üzə gəlsən də, kədərlə, qəmlə.
Ölmədin bir dəfə ölümdən erkən,
Sən bir dəfə öldün gerçək ölümlə.

## ARİFİN
## VAXTSIZ ÖLÜMÜNƏ

*H.Arifə*

Danışa bilmədin telefonda sən,
Bitirə bilmədin cümləni, qardaş.
Balanın toyuna çağırmalıykən,
Qırxına çağırdın sən məni, qardaş.

Boyun bərabəri oğul yetirdin,
Boylara həsrətlə baxmaq üçünmü?
Toyunu görməmiş bala itirdin
Toylara həsrətlə baxmaq üçünmü?

Nə sönməyə yer var, nə də yanmağa,
Acizik əlində bu qansız hökmün.
Sən oğul böyütdün budaqlanmağa,
Oğul böyütmədin budanmaq üçün.

Nə deyək? Bu hökmə tale yol verib
Cavabı sualdır, sualı cavab.
Dərd aldın, ölümə sən oğul verib
Verdiyin can oldu, aldığın əzab.

Dərd var, taxdadakı odu andırır,
Zamanın hökmüylə qaralır közü.
Dərd də var, gün-gündən alovlandırar,
Üfürə-üfürə zamanın özü.
Bu dərdin nə ilki, nə də sonu var
Bu dərddən dərdlər də od alıb yanar.

Dünyanın yarası yaramdır mənim,
Əgər bu dünyada mən də varamsa...
Bəs necə şairəm?
                                        Şair dostumun
Dərdini dərdim tək danışmıramsa?

Ortağam, şərikəm dərdinə, qardaş.
Nə qədər ağırdır bu itki, bu qəm.
Özüm də bilirəm,
                                        Mən sənə, qardaş,
Təsəlli verirəm, oğul vermirəm.

Sənə neçə dostun yol göstərsə də,
Başqadır bu dərdin yükü, dəhşəti.
Yüz oğul bu yükə çiyin versə də,
Sənin çiynindədir yenə siqləti.

Döz, qələm yoldaşım,
                                        Bu qalan ömrü
Öz sənət balana ver yavaş-yavaş.
Arifin yarımçıq qırılan ömrü
Şeirində canlanıb yaşasın, qardaş!

*2 noyabr 1976*

## İYİRMİ BEŞ İL

*Ömür yoldaşıma*

Elə bil dünəndir Sabir bağında
Çıxdın qabağıma ağ çiçək kimi.
Elə bil dünəndir, ağ paltarında
Qondun evimizə kəpənək kimi.

Nə tez başa gəldi iyirmi beş il?
Balalar yetişir, qocalırıq biz.
Nələri itirdik, qayıdan  deyil,
Görəsən, nə imiş bəs qazancımız?

Sönməmiş könlümün odu, həvəsi,
Balalar səslənir: «Bəsindir dayan!»
Oğlumuz toy umur, bizim toy səsi
Hələ getməmişkən qulağımızdan.

Bu necə dünyadır? Yolu bir qarış,
Ayıra bilmirsən çoxunu azdan...
Həzzindən, zövqündən hələ doymamış
Çəkirlər süfrəni qabağımızdan.

Bu necə dünyadır anlamıram mən,
Nə gəliş bəllidir, nə gediş bizə.
Xəbərimiz olmur gəlişimizdən,
İnana bilmirik getməyimizə.

Vurduq bir zindana iyirmi beş il,
Ötdü günlərimiz ağlı, qaralı.

Sənin duyğuların bir nəğməli göl,
Mənim duyğularım min macəralı...
Sən nə dalğalandın, nə çalxalandın,
Haldan-hala düşdüm mən hər dəm, gülüm,
Sən məni bir dəfə sevib dayandın,
Mən səni hər rəngdə sevirəm, gülüm.

Daş atdım,
Əlimdən çıxdı bir xata.
Bulana-bulana yenə duruldun.
Könlümdən keçəni duymadınsa da,
Ömrümə, günümə havadar oldun.

Düşdü yuvamıza, düşdü qan-qada,
Başımız üstündə ildırım çaxdı.
Səsimiz, nəğməmiz bir olmasa da,
Suyumuz, selimiz bir arxdan axdı.

Ata ocağının qələmdən çıxan
Çörəyi mənəmsə, ürəyi sənsən.
Başında çal-çarpaz ildırım çaxan
İsti yuvamızın dirəyi sənsən.

Mənim xəyallarım uçdu havada
Sən məni göylərdən endirən oldun.
Bizim qurduğumuz isti yuvada
Fəhlə mən oldumsa, usta sən oldun.

Elə ki, bəxtimin gözü yumuldu,
Yoluma nur saçan çilçıraq oldun.
Mənim nəşələrim özümün oldu,
Ancaq dərdlərimə sən ortaq oldun.

Başıma dolanan dərdi-sərimin
Odunu qəlbindən keçirən oldun.
Səndən gileylənən şeirlərimin,
Sahibi mən oldum, qulu sən oldun.

Yanıb yaxılanda şeirim üçün mən,
Sən elə bildin ki, gizli qəmim var.
Ayrıla bilmədin öz aləmindən
Bilmədin, mənim də öz aləmim var.

Gülüm, aynasıdır üzüm üzünün,
Məni əldən saldı axtarışlarım.
Üzünə əks etdi mənim günbəgün,
Üzümdə açılan sərt qırışlarım.

Fikrim dərə keçdi, təpələr aşdı,
Ardımca bir addım gəlmədin ancaq.
Sən məni dindirdin,
Dilim danışdı,
Şeirimi dindirə bilmədin ancaq.

Ötdüyün mahnını bir yol çaşmadın
Mən çaşdım...
Dərədən boylandım dağa.
Öz könül mahnını sən çalışmadın,
Mənim iniltimə uyuşdurmağa...

Elə bil dünəndir, Sabir bağında
Çıxdın qabağıma ağ çiçək kimi.
Elə bil dünəndir, ağ paltarında
Qondun evimizə kəpənək kimi.

Aradan nə keçdi? İyirmi beş ildə
Qara saçımızda ağardı illər!
Təkcə istəyimiz qaldı könüldə,
Qalan nə vardısa, apardı illər.

İndi xəyal yorğun, könül şikəstə...
Gəncliyi dadmamış qocalırıq biz.
Övlad qayğısında, bir murad üstdə
Birləşir uyuşmaz nəğmələrimiz.

Eyni yük altında neçə yoxuşu,
Arzumuz, qəsdimiz birgə aşıbdır.
Özgə budaqların iki yad quşu
İndi bir budaqda doğmalaşıbdır.
Budağın eşqinə darda, çətində
Nəfəsin könlümə qol-qanad vermiş.
Zaman ötüşdükcə
Məhəbbətin də
İlk rəngi, ilk dadı dəyişilərmiş.

Demə qocalmısan, gülüm, doğrusu
Mənimçün bir az da sonalaşmısan.
Balamın anası, nə sirrdir bu?
İndi mənimçün də analaşmısan.

*Dekabr 1974*

## ALQIŞ

Alqış, Vətən yolunda ölən mərd oğullara!
Alqış, bizim o keçdiyimiz şanlı yollara!
Yollar əzablı, qovğalı, illər ağır, çətin.
Yollarda qaldı gözləri ərsiz gəlinlərin.
Yollar Vətəndə başladı, qurtardı cəbhədə.
Köksüm Vətən yolunda dəmir yardı cəbhədə.

Səngərdə biz inamla çox andıq bu günləri,
Candan keçib hünərlə qazandıq bu günləri.
Dözdük əzaba biz, sinə gərdik fəlakətə,
Səngərdən açdıq əzmlə yollar səadətə.
Vurduq sitəmli illəri mərdilklə biz başa,
Məslək, yaşa, inam, yaşa, insan, yaşa, yaşa!

*1976*

## QAYƏ

İradəmin ağasıyam,
Əqidəmin köləsiyəm.
Əqidəmin yolunda da öləsiyəm.
Neçin, necə yaşamağı o, öyrədib,
Həyatımı məna ilə naxışladı.
Məni mənə tanıtdırıb,
Məni böyük bir Vətənə bağışladı.
Qayə ki var, kimi üçün həyat yolu,
Kimi üçün tapmacadır.
Bu dünyanı dərk edənçün
Həyatdan da o, ucadır.
Başım üstə dalğalanan
O bayrağın kölgəsində
Ölüm belə xoşdur mənə.
Ömrüm, günüm qurban ola
Ölümü də həyat qədər
Mənə gözəl göstərənə!

*Mart 1978*

## QƏLBİMİZDƏ DAN İŞIĞI

Masam üstdə dan işığı...
Eşidirəm qəlbimdəki danışığı.
Bunlar nədir?
Bilinməyən həqiqətin
          Önümdəki şəkilləri,
                    Duyğumdakı pərdələri.

Aydın deyil
Qəlbimdəki nə o söhbət,
Nə də masam üstündəki
Al günəşin cilvələri.

Bütün bunlar, bəlkə, gizli duyğulardır
Duyğuların dili vardır.
Anlamırıq o dili biz.
Bu dəryada hey üzürük, hey üzürük,
Görəmmirik sahili biz.
Bir biləydik
Min şəkildə, min boyada üz göstərən
O füsunkar pərdələrin araxasında
Nə var, görən,
Nə var, görən?

*Fevral 1978*

* * *

Oda da, suya da özünü verdi,
Sevib sevilincə bu qara torpaq.
Sirrini vermədi,
                    tozunu verdi
Nər-nər nərildəyən rüzgara torpaq.

*Fevral 1977*

## YOL – ÜRƏK

Gələcək eşqinə yola çıxmadan
Bu yolun sonunu görən göz gərək.
Açılan yollarla getmək çox asan,
Açaq yolumuzu özümüz gərək.

Əridib özünü sən gilə-gilə
Yoluna işığı sal ürəyindən.
Niyyət çatdıracaq səni mənzilə,
Əgər başlanırsa yol ürəyindən.

*1977*

## ÖZÜM ÜÇÜN YAŞAYANDA…

Təklik deyil, otağında tək olmağın,
Öz içində
 neçə-neçə fikirlərin
 alovunda qovrulmağın.
Başqasının əzabını
Özün üçün dərd sayanda
 Tək olsan da,
 Sən tək deyil, çox olursan.
Əlvan-əlvan duyğuların caynağında
 eşilirsən,
 oyulursan...
Özün üçün yaşayanda
Səsli, küylü bu dünyada
 tək olursan,
 tək olursan!

*Sentyabr 1976*

## MƏN KİÇİK BİR ÜRƏYƏM

Yenə Şəkiyə gəldim bir az dincəlim deyə,
Özümə gəlim deyə.
Ancaq... bir gün, bir saat dincələ bilmədim mən
Ürəyimin səsindən...
O səs... O səs izlədi hara getdimsə məni,
Gülərüzlü görmədi burda bir kimsə məni.
O səs qulaqlarımda bir top kimi gurladı,
Fərəhimi həbs edib, nəşəmi oğurladı.
Pozdu rahatlığımı,
dincliyimi,
yuxumu...
Dedim, dincəlmək bumu?
Dedim, ürək, ay ürək,
Bircə ay məndən əl çək.
Axı mən də insanam,
Mənə nəsib deyilmi bəs həyatın nəşəsi?
Qəlbin dərinliyində duydum yenə o səsi:
- Dünyada yaşamayan dünyadan dinclik umar,
Yanmağında tapmalı dincliyini sənətkar.
Dedim, bəs bu nədəndir
Çoxaldıqca yaşım da
Azalmadı arzular,
Aşıb-daşdı arzular,
Başdan aşdı arzular.
Bahar oldu, qış oldu,
İtirdiyim ömür, gün,
Qazandığım yaş oldu.

İndi nə istəyirsən?
Dedi, demə heç zaman «istəyin nədir?» mənə,
Dünən zirvə bildiyim, bu gün pillədir mənə.
İstəyim birmi, onmu?
Köhnəsinə çatmamış təzə arzular gəlir,
Köhnə arzularımın saçlarına dən düşür.
Dünənimin istəyi bu gün gözümdən düşür.
Bir çuxurda lillənən,
Bircə çırtma daşından
Üzü səpən, güllənən
Göl olmaq istəmirəm.
Əvvəlini dağların zirvəsindən götürən,
Dağlarda qah-qah çəkib, dərələrdə hönkürən,
Saçı dağda, təpədə köpük-köpük ağarıb
düzənlərdə qaralan,
Əvvəli müdrik qoca, sonrası cavan olan
Sel olmaq istəyirəm.
Qışdan bahara gələn yol olmaq istəyirəm...
Əməllərimin adı mənim adım olaydı.
Əbədi yol gedəydim
Gecə-gündüz,
Günəş, Ay
Sağım-solum olaydı.
Ulduz kəhkəşanları mənim yolum olaydı.
Mən il, ay bilməyəydim,
Vaxtın çərçivəsindən çıxaydı ömrüm, günüm.
Əbədiyyət ən kiçik ölçüm olaydı mənim...
Mən sahili olmayan dənizlər istəyirəm.
Axşamları olmayan gündüzlər istəyirəm.
Xəyallar aləminə məni daim səsləyən

Cilvələr istəyirəm.
Zirvənin özündə də zirvələr istəyirəm.
Mən kiçik bir ürəyəm,
Bu dünyanın, həyatın
bəzəyiyəm,
süsüyəm,
Mən kiçik bir ürəyəm,
sonsuzluq ölçüsüyəm.

*1965-1974*

## DANIŞIR BAKI

Başımdan ötüşüb min qan, min qada,
Yarandım cahanın bir qitəsində.
Mənim öz yerim var,
                    kiçik olsa da,
Dünyanın o nəhəng xəritəsində.

Əzmimlə, gücümlə, öz hünərimlə
Həqiqət olubdur xəyalımdakı.
Hava dalğasında bu böyük ərzin
Mənim də səsim var, danışır Bakı!

*1974, Moskva*

## SALAM, NƏSİMİ

Heykəlin mübarək, Nəsimi, salam,
Doğma Vətəninə sən xoş gəlmisən.
Ayağın altdakı uca potsdam,
Eşqindir, üstündə sən ucalmısan.

Güddü dərisini çoxu dünyada
Sən verdin özünü öz əqidənə.
Dərini soyunub büründün oda,
Büründün eşqinə, düz əqidənə.

O cür yaşamağı, bu cür ölməyi,
Özün bəyənmisən, özün seçmisən.
Həyatın bir yana, danıb hər şeyi,
Sən öz ölümündə heykəlləşmisən.

Bayrağa çevirdi sənətin səni,
Əsrindən yüz illər durdun öndə sən.
Həyatında deyə bilmədiyini
Dedin ölümünlə, ölümündə sən.

Sənətin sığmadı dövrə, zamana
Əsl şeİrdən də hünər umuldu.
Hünərin bir yana, şeirin bir yana,
Hünərin şeirinə yaraşıq oldu.

Dünənin ağrısı, dərdi-səridir,
Zülmə qul olanlar, boyun əyənlər.
Xalqın sənin kimi igidləridir,
Xalqın varlığını təsdiqləyənlər.

Həyata diz çökən, zülmə baş əyən
Yaşamaq xətrinə yaşayır, ancaq
Sənin ölümünə həsəd çəkməyən,
Sənin həyatından nə anlayacaq?

Zamandır yaradan qəhrəmanları,
Tarixdən nə qədər dərs götürmüşük.
Qırx il kişilikdən dəm vuranları
Bir anlıq ölümdən qorxan görmüşük.

Tarixə örnəkdir eşqin, hünərin
Biz səni dindirək, sən bizi dindir.
Şeirini daşlayan həməsrlərin,
Bu gün alqışlayan nəvələrindir.

Bü gün salam verir sənə öz elin
Qürbətdə dolaşdın əqidənlə sən.
Yurdunu, yurduna köçürdük bu gün
İyirminci əsrə sən xoş gəlmisən.

Zülmə qəh-qəh çəkdin, ölümə güldün
Dünən də var idin, varsan bu gün də.
Mən sənin səsini eşitdim bu gün
Cavan bir şairin sətirlərində.

Heykəlin mübarək, Nəsimi, salam
Doğma Vətəninə sən xoş gəlmisən.
Ayağın altdakı uca potsdam,
Eşqindir, üstündə sən ucalmısan.

*1978*

## ÖZÜNƏ QƏSD

*Cek Londonun xatirəsinə*

Deyirlər, filan il, filan, filankəs
Özünü öldürmüş...
İnanmıram mən!
İnsan öz-özünü öldürə bilməz,
Ayıraq hədəfi, gəlin, güllədən.

Könüllü vaz keçmək gün işığından?
Axı iki deyil, tək birdir ömür.
Yox, öldürə bilməz özünü...
İnsan
İstəmədən ölür, ya öldürülür.

İnsan bu dünyadan doymamış gedər,
Yüzillik ömrü də o, sanar bir an.
Dünyaya özümü gəlmişdir məgər,
Apara özünü özü dünyadan?

Özünü öldürmək?
Nə qədər ağır!
Gerçəkdir,
Neyləyim, inanmıram mən!
Zamanın vəhşəti, haqsızlığıdır
Onun öz əlilə onu öldürən!

*1976*

* * *

Məktəbim sükutdur,
Qələmim fikir.
                    Bu nə səs?
                    Bu nə küy?
Mənə sükut ver,
Dalım öz fikrimin dərinliyinə.
Bilim, müddət nədir, əbədiyyət nə?
Sükut istəyirəm...
                    Dil lal,
                    Qulaq kar.
Sükutun anına yüz illər sığar.

*İyun 1975*

## ANA YURDUM

Anaların laylasından,
Babaların tarlasından,
Nənələrin qorxuluğu almaq üçün
Cəftə suyu içirdiyi kasasından
Səni içdim udum-udum,
Ana yurdum, ana yurdum!

Bağ gülündə, dağ qarında,
Sel-suların axarında,
Palıdların vüqarında
Səni gördüm,
Ana yurdum!

Tarixini uğuldadan dağ mehində,
Quşlarının cəh-cəhində,
Yurddaşların kədərində, fərəhində
Səni duydum,
Ana yurdum!
Füzulinin «ah» səsində,
Üzeyirin nəğməsində,
Ələsgərin nəfəsində
Səni andım, ana yurdum.
Mənim andım – ana yurdum!

*İyun 1978*

## SÜKUTU YAZA BİLƏN...

İçimdəki sükutu, o səsiz qışqırığı
Kim eşidir?
Mən özüm...
Cavabı tapılmayan sorğular düzüm-düzüm.
Bütün suallarımı bükərək sükutuma
Gələcəyə atmışam.
Onun düşdüyü yerdə hər arzuma çatmışam.
Belə sükut nalədi, qışqırıqdı, haraydı...
Sükutu yaza bilən maqnitofon olaydı...

*1977*

* * *

Ömür yolum, içimdəki vuruşlarım.
Mübarizəm, tale ilə yarışlarım.
Qədərimin yazıları, alnımdakı qırışlarım.
Kaş, onları pozan ola!
Təzəsini istəyimcə yazan ola!

Tutuşmuşam, çaxmaq yoxdur alışmağa.
Qaynayıram, təpərim yox nə coşmağa,
Nə daşmağa.
Ürəyimin sözlərini oba-oba danışmağa
Dədə Qorqud timsalında ozan ola,
Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola!

*1977*

## ÖRTMƏ PƏNCƏRƏNİ...

Örtmə pəncərəni!..
Necə? Sətəlcəm?
Qorxmuram, qoy külək içəri dolsun.
Açıq qəlbim kimi qapım, pəncərəm
Dünyanın üzünə qoy açıq olsun.

Örtmə pəncərəni... Gəlir ilk bahar,
Gör, çölün havası necə təmizdir.
Açıq pəncərələr, açıq qapılar
Dünyaya açılan gözlərimizdir.

Təzə bir havaya həsrət qalıb söz,
Söz də təzələnmək istəyir, dayan!
Dolsun otağıma, gəlsin iznsiz
Yellər pəncərəmi taqqıldatmadan.

Tufan istəyirəm, yandıra bilsin
Könlümün qaralan ocaqlarını.
Gəlsin, qarışdırsın, alt-üst eyləsin
Yazdığım, pozduğum varaqlarımı.

Masa arxasında gecəbəgündüz
Bir ömür əritdim təzə söz üçün.
Gəlsin təzə fikir, gəlsin təzə söz
Dünən yazdıqlarım köhnəlir bu gün.

İstərəm sabahı bu gündən bilim,
Könlümə nur axsın, işıq çilənsin
Örtmə pəncərəni, örtmə, sevgilim,
Hava təzələnsin, söz təzələnsin.

*İyul 1978, Şəki*

* * *

Şirincə-şirincə danışan zaman
Sözümü kəsə də bilərsən... Nə qəm.
Danışsam hamının,
                    Susdumsa, dayan!
Məni danışdırma, özümünküyəm.

*1977*

## BƏLKƏ...

Həqiqət ummadım min üzlü bəlkədən,
İnkarla təsdiqin arası bəlkədir.
Yalanın, doğrunun bütövü gözəldir,
Gerçəyin yarısı, parası bəlkədir.

Bəlkənin dadı yox, duzu yox, sözü var,
Gözə kül üfürür, dalında közü var.
Özü bir kəlmədir, bətnində yüzü var,
Utanan gerçəyin çarası bəlkədir.

Gah şübhə fitinə inamın azması,
Gah ümid nurunun balaca sızması,
Gah acı gerçəyi yalana yozması,
Həqiqət üzünün qarası bəlkədir.

Şübhələr, əzəldən düşməni gözümün,
Arzuya çatışdır meyvəsi dözümün.
Tənəkdə alışan kəhrəba üzümün
Şirəsi şərabdır, qorası bəlkədir.

Uymasın yuxuya şirincə yuxular,
Uyanın arzusu puç olar, yox olar.
Mərdlərin ya «hə»si, ya da ki «yoxu» var,
Namərdin, qorxağın tanrısı bəlkədir.

İnama qurbanam, inada qurbanam,
İnamın verdiyi qanada qurbanam,
Qanadım var isə həyata qurbanam,
Bu həyat eşqinin harası bəlkədir?

*İyun 1978*

## QIZIM GÜLZARA

*Toyundan sonra*

Gəlirsən, gedirsən...
                    Gözüm üzündə,
Bilmirsən nə sorur, nə deyir atan.
Üzündən, gözündən,
                    hər bir sözündən
Qəlbini oxumaq istəyir atan.
Gəlirsən, gedirsən... heç nə sormuram
Baxışlar danışır, baxışlar ancaq.
Bilmək istəyirəm, a mənim balam,
Səni isidirmi qonduğun budaq?

Qınama, bələdəm mən bu həyata,
Kim çərxi geriyə döndərə bilmiş?
Qızına qızıldan taxt verər ata,
Qızıldan bəxtini kim verə bilmiş?

Gəlirsən, gedirsən. Dəyişmiş bizim
Sözümüz, sorğumuz...
                    Bu sən,
                    Bu da mən.
Elə gəlirsən ki, elə bil qızım,
Bu evdə doğulub böyüməmisən.
Bir az yad olmusan,
Bir az utancaq
Əvvəlki ərkini istərəm yenə.
Gələndə qonaqsan, gedəndə qonaq,
Nə tez özgələşdi bu ocaq sənə?

Sənin xislətin də necə dəyişdi,
Demə gileyliyəm, yox, yox, şadam mən.
Sev ki, sevilləsən...
                    Bizimki keçdi,
İndi sənin üçün narahatam mən.

Qoru hər ləkədən məhəbbətini,
Hər yerdə,
         həmişə,
                    hər zaman, qızım.
Arxan – atan evi...
                    Səadətini
Qonduğun budaqda tapasan, qızım.

*May 1978*

## FİKİR AXTARIŞI

- İsa!
- Musa!
- Tapdın?
- Yox!
İsaq-Musaq quşları
Nəyi isə axtarır
Sübhə qədər
Gecələr.
Gecələrin özündən sirr gizlədər gecələr.
Ömrü boyu axtarır İsaq-Musaq quşları.
Bahar gecələrini
Suallara döndərər
Gizli axtarışları.
Axtarır,
Tapa bilmir,
hey axtarır,
hey gəzir.
Əbədi axtarışdan
Nə yorulur,
Nə bezir.

Toyuq da dən içində
Eşələnir,
axtarır.
Dən topası üstünə qalxır,
enir,
axtarır.
Tapır, yeyir,
o yenə

yeyə-yeyə axtarır.
Axtardığı, gəzdiyi gözlərinin önündə,
Bəs o nəyi axtarır, bəs o niyə axtarır?
Tapır,
yenə axtarır.
Mədəsinə deyil, yox,
Fitrətinə axtarır.

Dolaylarda əridib
dəmir çarıqlarını,
Aşıb sirr dağlarını,
Nəyi isə axtarıb ulu babalarımız,
Ürəyi axtarışla dolu babalarımız.
Mən də axtarışdayam,
Obaları, elləri dolanıb qarış-qarış.
Bəlkə mayamızdadır bu əbədi axtarış!
Adamların gözündə həsrət işım-işımdır.
Mənim sonsuz həsrətim, mənim axtarışımdır.
Axtarıram,
Özümdən o yanı görüm deyə.
Zərrədə qərar tutan dünyanı görüm deyə.
Gecənin zülmətində sübhə iz axtarmışam.
Min bir sözün içində
hələ heç deyilməmiş
təzə söz axtarmışam.
Sabahımın eşqinə bu günümü danmışam.
Kiminsə gözlərindən qəlbinə boylanmışam,
O qəlbdə məşəl tutan duyğunu görmək üçün.
Başqasının xeyirxah, gözəl əməllərindən
ibrət götürmək üçün
Özümdə olmayanı özgədə axtarmışam.
Fikirlərin tərkinə, arzuların ilkinə,

Əməllərin rüknünə, özəyinə varmışam.
Bəzəklərdən vaz keçib axtarmışam özəyi.
Mən axtara-axtara itirmişəm çox şeyi.
Dünya – axtarış evi...
Kimi sərvət axtarır,
Kimi fikir axtarır.
Kimi də ürəklərin axtarış həvəsində
Sirr görür, sirr axtarır.
Sərvət, fikir!
                    Fərqə bax!
Sərvət fikir deyilsə,
                    fikir sərvətdir ancaq.
Bir fikir, bir söz yatır
                    yerin hər qarışında.
Bizə uğurlar olsun fikir axtarışında!

*Fevral 1978*

## QARABAĞ ATI

*"Zaman" adlı Qarabağ atı İngiltərə kraliçasına 1956-cı ildə hədiyyə göndərilmişdi.*

Cıdır düzü...
Sinəsində at oynaqlar,
Cıdır düzü,
İgidliyin arayışı.
Üstündə də nal ləpiri möhür bağlar.
Qarabağın cins atları,
hünərimin kişnərtisi,
Toppuzların gurultusu,
Qılıncların parıltısı,
Neştər səsi!
Qarabağın kürən atı,
Döyüşlərdə arxasıdır
Koroğlunun,
Bayandurun.
Cilovunu gəmirdimi,
hünəriniz varsa əgər o qızmışı,
Qamçıların hədəsinə dayandırın!
Kişnədimi o uçacaq.
Kişnərtisi qanadları!
Qamçı vurma!
Qamçı yola gətirərmi cins atları?
Zaman keçdi,
Zəmanəmdə «Qırat», «Dürat», «Zaman» oldu
İgidliyi kitablara köçürüldü.
Yaddaşlarda unuduldu.
«Zaman» atım, aman atım!

Keçmişimdən bu günümə amanatım!
Avtomobil zamanında
Niyə, axı sənin adın «Zaman» oldu?
Geriyəmi döndü zaman,
Məgər raket - kaman oldu?
«Qırat», «Dürat»
İndi nədir?
                    Ekzotika, eksponat!
Dövrümüzdə nə deməkdir
                    Kral, ya da kraliça?
Öz əvvəlki hökmündəmi
                    bu gün yenə
                    Britaniyada kraliça?
Kraliça Yelizaveta
                    Yelləndikcə
                    Arasında göyün, yerin,
Nəfəs alır havasıyla
Ötüb keçən təmtəraqlı əsrlərin.
O bəyənmir
Asfalt üstə quş tək süzən maşınları,
Göydə gəzən maşınları.
İstəyir ki,
Əsrin dəli sürətini unuda o,
Keçən əsrin duyğulara sığal çəkən
Ahənginə dəm tuta o.
Karetada seyrə çıxır,
At saxlayır.
O, dünənin ölüsünü
                    kəfənləmək əvəzinə
Sabahının körpəsi tək qundaqlayır.
Öz kökünə qayıtmaqla
                    güman edir

Öz əsrini qabaqlayır.
Ekzotika vurğunudur
                    Kraliça Yelizaveta.
Səyahətə çıxan zaman
                    qamçı vurmaz o hər ata!
Meyl salıb Qarabağdan
                    Töhfə kimi gətirilən
                    Kəhər ata!
«Zaman» yatmır ipə, sapa,
Dirək olub kişnərtisi yerə, göyə.
Nə qamçıya boyun əyir, nə hədəyə.
O gəmirir cilovunu,
Kraliça seyr eləyir gendən onu,
Ayaqları eşir yeri,
Yaxın qoymur həndəvərə mehtərləri.
Nə etməli?
Gəlir bir-bir
Cıdırlarda ad qazanan,
                    Rekord vuran minicilər.
Nə faydası,
                    O ram olmur.
Kraliça aram olmur,
Qəzəblənir:
- Britaniyada yoxmu məgər
                    bircə kişi,
Ram eyləyə bu qızmışı?
Kraliça yana-yana
                    baxır ona,
Ceyran kimi duruşuna,
Hirslə yeri eşməsinə,
Heyran qalır
Kişnəyəndə gur səsinə.

At duyur ki,
Gözəlliyi heyran qoyub
Maddım-maddım baxanları,
Neçə-neçə yarışlardan
Qələbəylə çıxanları.
Belə heyran baxışlardan
at iyrənir,
İstəyir ki,
belindəki
Onun ceyran hüsnünə yox,
Qaçışına,
Duruşuna heyran qala.
İstəyir ki,
ayağının altındakı
Böyüdüyü torpaq olsun.
İstəyir ki,
belindəki
Yarışlarda nəmər alan jokey deyil,
Vuruşlarda zəfər çalan
igid olsun!
İstəyir ki,
yüyənini gəmirəndə
Cilovunu çəkib yığan
igid olsun.
İstəyir ki,
sahibi də
Atılmaya beldən-belə.
Kişnəyəndə
sahibi də
Kişnərtiyə cavab verə
Koroğlunun nərəsilə.
O, belində kraliça qəmzəsi yox,

Vuruş istər, hünər istər.
O, belində
aynalılı Həcər istər.

Günlər keçdi, aylar ötdü,
Qarabağın köhləninə
Qışda kişmiş,
Yazda yaşıl ot verdilər.
Səhər-səhər
Çəmənlərdə gəzdirdilər,
O yemədi, o içmədi.
Qızıl yüyən laqqıldadı çənəsində,
Dolandıqca yad torpağın sinəsində
Arıqladı o günbəgün.
Xiffətini çəkirdi at
Şahbulağın,
Cıdır düzün.
Ürəyində
Sarı dağdan enən daşın
səsi dindi,
Gözlərində Daşaltının ağ suları gilələndi.
O dözmədi,
yox, dözmədi,
Bu xiffətdə çox hikmət var.
Yad iqlimə dözə bilməz
Öz-özünü tanıyanlar!

*Avqust 1976, Şəki*

## QARANLIQ

Yolumu azmadım,
                    fəhmimlə tapdım,
Çökəndə cığıra,
                    dizə qaranlıq.
Yananda idrakın gur çıraqları,
Ən parlaq işıqdır bizə qaranlıq.
Ulduzlardan ötən o sonsuzluğu
Sığdırır ikicə gözə qaranlıq.

*Sentyabr 1973, Şəki*

## MƏLƏZ AT

*Ə.Nəzərliyə*

Kürən atlar,
qızıl atlar,
ağ atlar,
Hər birinin öz sifəti, adı var.
Ərəb cinsi,
Bu Qarabağ,
Bu Qazax.
Görkəmindən bir-birinə
Həm yaxındır, həm uzaq.
- Bəs bu nədir?
- Bu mələz!
Cinsi bəlli olanlara bənzəməz,
Nə ondandır, nə bundan,
Gözəldir boy-buxundan.
Ürəyinə yatmasa da,
gözə xoş.
Nəfəsi təng,
Yerişi ləng, içi boş.
Əsli, kökü bilinməz.
O mələzdir, o mələz.
Qaça bilmir, uça bilmir,
Yerişinə haram qatmaz,
İstəyirsən belində
Qazan kimi qaynayasan, daşasan!
Gərək onu arabaya qoşasan.
Öz sifəti olan atı
Ötə bilməz maşın da.

Öz sifəti olmalıdır
Qara, çopur daşın da.
Daşı daşa yaxşı vur!
Odu varsa
Biləcəksən,
                bu daş hansı qayadan
Hansı dağdan qopubdur.

*1973*

## GİLEY

Deyirsən, dost sözü, dost gileyləri
Üzə deyilirsə, nöqsan sayılmaz.
İncidin, sözümü götürdüm geri,
Bir sözdən bu qədər incimək olmaz.
Deyirəm, könlümə toxundun sən də,
Demirəm, günahın çoxdu, böyükdü,
Ancaq bunu bil ki, külək əsəndə
Təkcə bir yarpaq da ağaca yükdü.

*Mart 1978*

## EL – GÜN

*«Göydəki günəşdən, yerdəki elimdən doymadım».*
**Orxon-Yenisey yazılarından**

Ulu babaların məzar daşları,
Yaşamaq eşqinin çırpınışları!..

Nə qədər ağırdır həyat qayğısı,
Dünyaya hər gəliş, getmək üçündür.
Giriş qapısıyla çıxış qapısı
Bir addım yol imiş, bir anlıq ömür.

Xəyali cənnətə babam uymadı,
Zövq aldı, həyatın gözəlliyindən.
Ruha bax!
Zövqə bax!
Babam doymadı
Yerdəki elindən, göydəki gündən.

Bu sözdə səslənir dərdi, qayğısı
Dünyadan doymayan bəşəriyyətin.
Öləndən sonra da könül ağrısı
Dililə danışdı eşqin, heyrətin.

Elindən doymayan elindən ötrü
Keçər varlığından, keçər varından.
Bir ömrün içində yaşar yüz ömrü,
Günəşə boylanar arzularından.

*1977*

## YAŞAMAQ ÜÇÜN

Nağıl istəyirəm, bilmirəm nədən
Gün dağdan əyilib qaş qaralınca.
Xəyal dünyamıza dar gəlir zaman
Qaçırıq həmişə nağıl dalınca.

Nağıl istəyirəm, gözəl bir nağıl
Özümlə, fikrimlə yalqız qalınca.
Gündə bir möcüzə yaradan ağıl
Aya gedib çıxdı nağıl dalınca.

Nağıl istəyirəm, nağıl mən hər gün
Nağılsız ağıldan işıq doğulmur.
Nağıl istəyirəm yaşamaq üçün,
Görünür, nağılsız yaşamaq olmur.

*1975*

* * *

Bizi insan kimi
yetkinlədi yetdiklərimiz,
Hələ var
aşmalı çox dağlarımız,
diklərimiz.
Bu yoxuş yolları,
aşrımları,
qət etmək üçün
Bizə qüdrət,
bizə qüvvət verir etdiklərimiz.

*Fevral 1978*

* * *

Mən dünyanın bir parası,
Bir parçası, qitəsiyəm.
Bircə yerdə ölüb, ancaq
Min-min yerdə bitəsiyəm.
Mən bilirəm qüdrətimi,
Öz-özümü ötəsiyəm.
Əqidəmin gur səsini,
Qanadlanmaq həvəsini,
Ürəyimin nəğməsini
Çox ötmüşəm, ötəsiyəm.
Mən bilirəm qüdrətimi,
Özümü də ötəsiyəm.

«Günəş bayraq, göylər çadır»,
Arzu mənə gendən baxır,
Necə olsa, əvvəl-axır
Mən ona da yetəsiyəm.
Mən bilirəm qüdrətimi,
Öz-özümü ötəsiyəm.

*Mart 1978*

## MƏNƏVİ DAĞLAR

Füzuli,
        Koroğlu,
                Sabir,
                        Nəsimi
Vətənin bağrında ucalan dağlar!
Hər biri bir əsrin tarixi kimi,
Bizi əsrimizdən özünə bağlar.

Bu mənəvi dağlar ucalır hər gün,
Yerüstü dağlarsa gəldi-gedərdi.
Onların hər biri elin, ulusun
Bağrından cücərib qabaran dərdi!

Dərəyə, təpəyə,
                        yamaca, düzə
Uzaqdan baxanda görünmür gözə.
Dağlardır şöhrəti, şanı torpağın,
Zirvəsi uzaqdan görünür dağın.

Bizi zirvələrə çağırır hər gün,
Mənəvi dağlardan biz də dərs alaq.
Deyirəm həyatda alçalmamaqçün
Həmişə dağlara baxaq, ucalaq!

*İyul 1978, Şəki*

## BULUDLAR – XATİRƏLƏR

Elə yol gedirəm...
Ötüşən illər
Yanından ötdüyüm dağlara bənzər.
Hərəsi bir boyda silsilə dağlar,
Hər biri könlümü bir ilə bağlar.

Dəyişir duyğular hey zaman-zaman
Həmişə dəyişən bu dövran kimi.
Dağların başına dönüb dolanan
O kövrək buludlar xatirələrmi?

O kövrək buludlar doluxsunaraq
Dağların başından boylanır yerə.
Necə də uzaqdır, məndən çox uzaq,
İllərin izləri neçə xatirə.

Ayrıdır istəyin, ayrıdır kamın,
Ayrı gözlə baxır bu gün dünənə.
Dünənki həvəsin, eşqin, məramın
Zaman dəyişdikcə yad olur sənə.

Onlar özgələşir sənə ilbəil,
Deyirsən, o məndim?
İnanmıram mən.
Yox, tutduğun o iş özgənin deyil,
Sən özün özünçün özgələşmisən.

Qızaran, bozaran buluda bənzər,
Qızıl xatirələr, boz xatirələr,

Zaman ötüşdükcə yad olur bizə,
İnana bilmirik dünənimizə.
İdrakın hökmündə, bir hədəsində
Min gün əzab çəkər,
Yanıb yaşarıq.
Bu nədir?
                    Bu ömrün hər pilləsində
Əvvəlki pilləni danıb yaşarıq.

Dərini görməli sərrafın gözü,
Dərinə enəndə böyüyər balıq.
Təzə bir pillədə biz özümüzü
Dananda bilirik nədir ucalıq.

Yol aydın görünər dağ zirvəsində,
Əyridən seçirik doğru yolları.
Deyirik biz ömrün hər pilləsində:
«Təzədən keçəydik kaş bu yolları».

Min arzu eşqinə vurur bir ürək,
Əlvan boyalıdır diləklərimiz.
Dəndən sünbül olur,
Sünbüldən çörək,
Bir ömür içində yüz adamıq biz.

*1976*

## NƏNƏLƏR

Sal qayadır, lal qayadır dözümdə,
Hər ağrıya sinə gərər nənələr.
Ötənlərdən misal çəkib astaca,
Bizə doğru yol göstərər nənələr.

Gec yatsa da, hamıdan tez oyanar,
Nəvəsinin tərəfində dayanar,
Balasıyla bəhsə girər nənələr,
Qulaq burar, öyüd verər nənələr.

Nəsilləri qucağında bəslədi,
Nəvələri yaxşılığa səslədi,
Gül qoxulu, bal ətirli nənələr,
O yuxalı, o fətirli nənəlr.

Özü kökdür, budaqları nəvələr,
Dodağında şirin-şirin şivələr,
Ey nağıllı, bayatılı sinələr,
Ey taxçalı, ey boğçalı nənələr!

*1976*

## QURBANLIQ QUZU

*MƏR prezidenti Ə.Sadat İsrailin baş naziri Beginlə separat danışıqlar aparmaqla ərəb dünyasına xəyanət etmişdir.*

Ənvər Sadat
İsrailə qonaq gəldi,
Qucaqladı düşmənini.
Qucaqladı
Öz hakimlik məqamından düşməyini.
Öpüb qoydu göz üstünə
alçaqlığı,
rəzaləti,
O, dəyanət zənn elədi xəyanəti,
Qucaqladı düşmənini.
Düşmənindən «dost» qazanıb
O, itirdi öz «Mən»ini.
Vətən üçün candan keçən
Şəhidlərin incik ruhu
İnildədi:
«Nəyi aldın, nəyi verdin?
Düşmənlikdə sən var idin,
«Dost» qazanıb, varlığını sən itirdin».
Özün yoxkən, nəyə lazım qazandığın?
Bu gün sənə küfr oldumu
Dünənəcən inandığın?
Dünən sənə güllə atan,
Torpağına sahib olub
Millətini qırıb çatan
o şarlatan
Bu gün sənin dostun olub?
Bəs bu günün səfasında

Dünəninin cəfaları unudulub?
Axı hələ sağalmayıb
Dost dediyin o düşmənin
Sinən üstə şırım açan yaraları.
Axı hələ qanlı axır Nil suları.
Sənin andın, sənin qəsdin
Kimlərinsə əllərində bir alətmiş,
Sən inandın, demə, qüvvət ədalətmiş.
Yandı ürək, çaşdı ağıl,
Sən qüvvətin qabağında namaz da qıl!
Yox! Niyə də qılmayasan?
Öz Məkkəndən üzün dönmüş,
Demə, qara siyasətlər canamazın,
Qüvvət sənin möhürünmüş!

Gülə-gülə
Bir qurbanlıq quzu ilə
Qüdsdəki göy məscidə
Salam verdin qurban günü.
İmam səni qarşıladı,
Dedi, ancaq öz sözünü.
Dedi, cənab prezident,
Qəbul etdik bu qurbanlıq quzunuzu.
Düşməninin qabağına bu gəlişlə
Bildirdiniz qəsdinizi, arzunuzu.
Sizdən ümid gözləyirdik,
Sizsə bizə dərd verdiniz.
Beginə də tamam başqa
Bir qurbanlıq gətirdiniz.
Bizim bədbəxt Fələstindir o qurbanlıq.
Yaxşılığın sənin olsun,
Nə deməkdir bu yamanlıq?
Dünən sənin ocağını qaraldan əl
Gül uzadır indi sənə.

O güllərin arxasında
Açılmamış güllələri bir görsənə!
Yox, görmədin!
O əlləri öpdün də sən.
Bu zavallı halın ilə
Bilirsənmi nə gündəsən?
Vətənini qəsb eləyən
düşməninin qəbri üstə
Qoydun sənə bağışlanan gülləri sən.
Öpdün ərəb gənclərini
Al qanına qəltan edən əlləri sən.
Bu hörmətmi, təşəkkürmü?
Bu təşəkkür deyirdi ki:
- Sağ olun ki, anamızı ağlatdınız,
Sağ olun ki, bizim isti aşımıza
su qatdınız.
Sağ olun ki, bizim doğma torpaqlarda
bənd aldınız.
Sağ olun ki, bizi əzib,
Çiynimizdə ucaldınız.
Sağ olun ki, siz ağa, biz qul olmuşuq.
Gəlin, keçin üstümüzdən,
Ayaqlara yol olmuşuq.
Sağ olun ki,
Bizi doğma qardaşlardan ayırdınız.
Amma bir vaxt özünüzə
Məni düşmən sayırdınız.
Gördünüzmü?
Bilə-bilə,
Qana-qana
Su tökürəm indi sizin dəyirmana.

*Fevral 1978*

## SÜLH MÜKAFATI

*Misir prezidenti Sadata və İsrailin baş naziri Beginə Nobel sülh mükafatı verilmişdir.*

**Qəzetlərdən**

Sadata sülh mükafatı!
Düşməninin qabağında
Vüqarını əyə bildi.
Beginə sülh mükafatı!
Başçısında baş olmayan
Bir milləti döyə bildi!
Bilməmişdik,
İndi bildik
«Hikmət» varmış bu bilməkdə.
Döymək də bir şərəf imiş,
Döyən qolun qabağında əyilmək də.
Vətən üçün candan keçən igidlərin,
Şərafətli bir ölümü
Əyilməkdən üstün tutan şəhidlərin
Qan pulumu bu mükafat?
Söylə, Sadat!..
Unut düşmən gülləsinə
Sinəsini sipər edən oğulları.
Vaşinqton bankına qoy
qan bahası o pulları!
Faizinə bir papaq al, qoy başına.
Qardaş söylə düşməninə,
Düşmən söylə qardaşına!
Qəribədir, çox qəribə!
Daş əriyib suya dönmüş,
qum göyərmiş!

Zalım məzlum paltarında
                    gözümüzə dürtülərmiş!
Qan hərisi Beginə sülh mükafatı!
Alan cəllad, verən dəli!
Ət qoxusa duz vurmalı,
Duz qoxusa neyləməli?

Siz ey miras mükafatı
Dədənizin malı kimi paylayanlar,
Haqsızlığın özünün də bir həddi var.
Siz karsınız, ya korsunuz?
Məsafəni tərəziylə ölçürsünüz.
Yoxsa, başa sığal çəkmiş
Nəfəsilə od püskürən?
Sizin ölçü vahidiniz nəymiş, görən?
Arif deyin siz cahilə, siz nadana!
Əhsən deyin,
                    əli bağlı,
                    dili bağlı
                    Bir millətin anasını
                              ağladana!
Mükafatın biri azdır,
O cəllada üç də verin,
                    beş də verin.
Əllərinə daş da verin!
Qoyun, atsın!
Qan tökməklə «sülh» yaratsın!
Bu ayaqdan
                    Siz Hitleri unutmaqda
                    səhv etdiniz,
Bu cəlladı alqışlayıb,
O cəlladın ruhunu siz
Axı niyə incitdiniz?

*Noyabr 1978*

## NEYTRON BOMBASI

*Son zamanlar ABŞ-da buraxılan neytron bombasının xüsusiyyəti belədir ki, partladığı yerdə bütün canlıları məhv edir, cansızlara toxunmur.*

Geyib dəmir çarığı,
Alıb dəmir əsanı,
Dərə keçdim,
Dağ aşdım,
Dünyanı çox dolaşdım.
Gəlib çıxdım, nəhayət,
Bir qəribə şəhərə.
Gəzdim küçələrini
Neçə yol, neçə kərə.
Bir insan bəndəsinə
        rast gəlmədim şəhərdə,
Demə, nəsli kəsilmiş
        canlıların bu yerdə.
Şəhər lal,
Şəhər donuq.
Həyat əlamətindən
Şəhərdə bir əsər yox!
Nə bir ağac, nə bir quş,
Nə çiçək var, nə bir ot.
Şəhərin hökmdarı
Bir ölümdür, bir sükut.
Həyat yox,
        şəhər ölmüş,
Ölüm səltənətindən

Sükutun fərmanıyla
zaman sürgün edilmiş.
Quruyubdur bulaqlar,
Sükutun laylasına
Daş binalar qan ağlar.
Bu şəhərin dərdinə
Oğul istər dayana!
Mağazalar, dükanlar,
Fabrikalar, zavodlar
Dayanıbdır yan-yana.
Nə gələn var,
Nə gedən.
Şəhər dərin yuxuda,
Yoxdur onu tərpədən.
Ayaq tappıltısına
Həsrət qalıb səkilər,
Şəhər başdan-ayağa
Bir daş heykələ bənzər.

Diksinib ayılınca
Sükutun vəhməsindən
Gördüm sinəm üstündə
Bir qəzet var...
Bir az əvvəl
Oxudum, silkələndim.
İnanmadım gözümə.
«Bu icad yüksəlişmi,
alçalışmı?
Bilmirəm?»
Dedim özüm-özümə.
Sarsıldım bu vəhşətə,
Biz-biz oldu tüklərim.

Qəzetdə yazılıbmış
Yuxuda gördüklərim:
Təzə bomba yaranmış,
            onun ölüm nəfəsi
            ərşi silkələndirir.
Cansızlara toxunmur,
Canlıları bir anda
Yaxıb
            Külə döndərir.
Nə qəribə bombadır.
Nə «ağıllı» bombadır.
            Ağlı «Ağ evdən» gəlir.
Fitvasını verənin
            Ağlı ilə tən gəlir.
Cansızı əsirgəyib,
            Canlıya qənim olan
Siz ey «ağıllı başlar»
Nə deməkdir
            Sizdəki
Həyatı məhv etməyə
            Bu həris çırpınışlar?
Dünyaya gəlməsində
            İnsan günahkarmıdır?
Quruca daş divarda
Nə yaman gözünüz var,
Dünya sizə darmıdır?
  «İnsan hüquqlarını»
Bayraq edən cənablar,
Bəs nə deməkdir sizin
            İnsana verdiyiniz
            müsibətlər,
            əzablar?

Nə deməkdir, nə demək,
Cansızlara qıymayıb,
Canlını kül eləmək?
Bilmirdik,
                öyrətdiniz
Gündüz qətran tək qara,
Gecə ağappaq imiş.
Daş-divarı qoruyub,
İnsanı kül eləmək
İnsan hüquqlarını
Güdmək, qorumaq imiş!

*İyul 1977*

## KÜLƏK – OT

*«Hökmdar küləyə, xalq ota bənzər. Külək hardan əssə, ot başını o tərəfə əyər».*

**Konfusi**

«Hakim dəli bir küləyə,
Xalqsa onun qabağında
Tir-tir əsən ota bənzər.
Hansı yandan külək əssə,
O tərəfə ot baş əyər».
Konfusinin bu ehkamı
Əsrlərlə oldu bütün hakimlərin
öz hakimi.
Dolandırdı öz başına
məmləkəti məhvər kimi.
Kəlama bax!
Yüz-yüz illər
Bir ölkənin bayrağında
dalğalandı,
Külək əsdi səmum kimi,
Ağızlara daş tıxandı,
Beyinlərdə fikir dondu.
Ürək yandı.
Kəlam dönüb
Hakimlərin əllərində
məşəl oldu.
Ağızlarda məsəl oldu.
Gözəl, çirkin damğasıyla
damğalandı,

Çirkin dönüb gözəl oldu.
Yerin bağrı cadar-cadar,
Axmazlarda donub qaldı,
süzülmədi həqiqətin birdamcısı.
Yalan dövlət maşınının sükançısı!
Kəlama bax!
Ehkama bax!
Haqsızlığı
Yüz-yüz illər sığışmadı
Yerə, göyə.
Nə deyəsən
Bu sözdəki dırnaq içi
«böyüklüyə»,
«müdrikliyə»?
Külək əsdi
Gah imandan, gah gümandan,
Gah o yandan, gah bu yandan
Otlar əydi başlarını
Öz içindən yana-yana.
Gah o yana, gah bu yana
Külək əsdi...
Ot əyildi...
Külək əsdi,
elə bildi,
Qüdrətinə bir səcdədir bu əyilmə.
Zalım külək,
Zülmə olan əyilməni səcdə bilmə!
Qorxudandır
Bu titrəmə,
bu əyilmə!
Özgəsini qorxu ilə qorxudanın
özü qorxur.

İnanmırsan?
Aç qəlbini sən ondan sor!
Bu qorxunun qabağında
Sən özün də
Qorxuzduğun ot kimisən.
Sən qorxuyla qorunmazdın
Bu qorxunun dəhşətini
Bilməsəydin ot kimi sən.
Ancaq bunu bilməlisən.
Məhəbbətə hörmət olar,
Qorxuyasa nifrət olar.
Nifrət sızar damcı-damcı
Nəhayətdə dağ dağılar,
Daş oyular.
Zalım külək,
Unutma ki, geci-tezi suya dönür
Nərildəyən,
Guruldayan
Şimşək olub çaxan bulud.
Əgər sağdan əsirsənsə,
Sağa deyil,
Sol tərəfə əyilir ot,
Bu tərəfə əyilmənin sirri nədir?
Bu, hörmətə əyilmə yox,
Bu, yalana dal çevirmə,
Həqiqətə əyilmədir!

*1976*

## ŞAN-YAN DEYİR...

Əsrlərin arxasından
Fəryad çəkir bizə Şan-Yan*,
«Müdrikanə» kəlamını
İrs qoyubdur
Çinə Şan-Yan:
«Bir ölkədə əgər dövlət oyaqdırsa,
Mürgü döyər xalq hələ də,
Yatan xalqı oyadammaz
zəlzələ də.
Xalq oyaqsa, dövlət yatır!
Yatan dövlət nə dövlətdir?
Xalqı şirin vədlərlə yatırmasan
Məmləkətçün müsibətdir».
Şan-Yan deyir:
Yat, ey xalqım, rahat-rahat.
Gözlərini yum, hələ yat.
Əgər gözün açıq olsa,
Sən görərsən.
Görə bilsən,
Gördüyünə tüpürərsən.
Yat, ey xalqım,
Heç bilmə ki, nədir həyat,
Nə gözlərin görsün sənin,
Nə də könlün bulansın, yat!
Oyaq olsan, ağlayarsan
Öz halına hönkür-hönkür.
Yat, arzunu yuxunda gör.
Şirin, dadlı yuxular da özgə nemət!
Sən yatmasan, çiçəklənməz bu məmləkət.
Oyaq olsan sən qanarsan,

*Qədim Çin filosofu.

Öz gücünə inanarsan.
İnandınmı?
Başqa fikrə düşəcəksən.
Bu inamla eşiləcək,
Fikirləri çözəcəksən,
eşəcəksən,
Onda sənin vay halına!
Qazan kimi qaynayacaq, daşacaqsan,
Düşüncənin o tayına aşacaqsan.
Rahatlığın gedəcəkdir öz əlindən,
Özün bezar olacaqsan əməlindən.
Ağlı olan qanarmı heç?
Qananların xoşbəxtliyi,
de, varmı heç?
Yat, ey xalqım,
oyaqlığın ləzzəti nə,
Dadı nədir?
Yatmaq sənin xeyrinədir.
Oyaq olsan, dərdin olar,
Sən yat, sənin dərdini də
Dövlət çəkər əvəzinə.
Belə böyük xoşbəxtliyin
Bu dünyada əvəzi nə?
Oyaqlığın dəhşətini dərk etməyən,
Oyaqlıqla öz-özünü incitməyən,
Oyaqlardan bir bu qədər həzər etməz.
Şirin-şirin yuxularda güzər etməz.
Şan-Yan deyir:
Kəlamlarım qoy şahların
İşrətinə, ləzzətinə dayaq olsun.
Dünya özü yuxusuymuş allahların
Bəs insana nə düşüb ki, oyaq olsun?

*1976*

* * *

Bulud əllərini açır çöllərə
Düşəndə çiskinə, borana dağlar.
Öpür qayaları, öpür daşları
Bala sevgisiylə bu ana dağlar.
Nə yaman qışqırır sular dərədə,
Səfərə çıxıbdır arana dağlar.

*İyul 1977, Şəki*

## SU

Bir mövsümün yüz halı var,
Yağış da su, dolu da su.
Çuxurlarda gölə dönüb
Ayna tutar buluda su.

Göy üzünü səhər-axşam
Şəkil-şəkil naxışlayır,
Elə bil ki, yer xışlayır.
Ancaq yerə enən kimi
Çiçək olub alqışlayır
Torpaq ilə vəslini su.

Ağ buludlar varaq-varaq,
Göy gurlayır şaraq-şaraq.
Yağış yağır,
                daraq-daraq
Yer xışlayır,
                göy darayır,
Hey axtarır, hey arayır
Göydə, yerdə əslini su,
                əslini su.

*1977*

## SƏHƏR

Günəş cida boyu qalxır üfüqdən,
Əvvəl zirvələri döyür şəfəqlər.
Hansı düyünləri açacaq, görən,
Üfüqdən dünyaya boylanan səhər?
Günəşin doğuşu!..
Üfüqdə ilkin
Od tutub alışan şəfəqlər gözəl!
Gedəni ötürmək nə qədər çətin,
Gələni seyr etmək o qədər gözəl!

Günəşin doğuşu!..
Ölən zülmətin
Doğulan işıqla boğuşudur bu!
Yeni gözəlliyin, yeni heyrətin,
Yeni diləklərin doğuşudur bu!

İşıq bir hücumdur kədərə, qəmə,
Qoy dolsun işıqla günüm, gündüzüm.
Doğulan səhərlər öz zəmanəmə,
Əsrimə, dünyama yeni bir sözüm!

Baxaq bu dünyaya öz könlümüzlə,
Ürəkdə ulduzlar işım-işımdır.
Hər doğulan səhər
bir təzə gözlə
Dünyanı yenidən qavrayışımdır!

*1977*

## ÇAY

Alıb sürətini dağ zirvəsindən
Yastı təpələri üstələyir çay.
Dərədə dolaşan gur saçlarını
Düzlərdə bir yerdə dəstələyir çay.
Dağlardan başlanan nəğmələrini
Daşların üstündə bəstələyir çay.

Dodağı çatlayan aran yerinə
Dağların qarından su çiləyir çay.
Nə gözəl qurulub gediş-gəlişlər,
Dağları aranda dağ eləyir çay.

*May 1977*

## BİRLİK
*(rəvayət)*

*El bir olsa zərbi kərən sındırar*
**Atalar sözü**

Qılınc götürəndə əlinə dövran,
Ürəkdə boy atır el niyyətləri.
Xalqlar ən müqəddəs arzularından
Yaradır həmişə rəvayətləri:

Sevincin, fərəhin qolları bağlı,
Dərd meydan sulayır, qəm azad gəzir.
Fikrin, düşüncənin yolları bağlı,
Könüllər bu dərddən bir imdad gəzir.

Nə qədər gəzdilər, yol tapılmadı.
Qəmlər azad oldu, insan olmadı.

Sordular zamandan söylə, nə zaman
Güldürə biləcək bu dövran bizi?
Dedi ki, gələcək Sahibəzzaman,
Sahmana salacaq zəmanəmizi...

Bəs nə vaxt gələcək? –
deyə sordular.
Osa qəh-qəh çəkib güldü könüldən.
Söylədi, hər dərdin öz əlacı var.
Amma səs çıxmayıb hələ tək əldən.

Üç nəfərin sözü bir olan zaman,
Zühür edəcəkdir Sahibəzzaman.

Bu böyük arzuyla o gündən bəri,
Götür-qoy elədi bir cavan oğlan.
Yuxuda gördü ki, Cümə günləri,
Gəlir Loğmangilə Sahibəzzaman.
Oğlan bu arzuyla bir cümə günü
Gəldi Loğmangilə...
Sevindi Loğman.
Qocanın gözünə dikib gözünü,
Danışdı yuxunu, danışdı oğlan.

Yuxun həqiqətdir, söylədi Loğman
O, gözə görünür hər cümə günü.
Onunla həmfikrəm xeyli zamandan,
Ancaq tapammırıq üçüncüsünü.

Oğlan tez dikəldi, üçüncüsü mən!
Gəlmişəm yanına bu mətləb üçün.
Denən, zühur etsin Sahibəzzaman,
Dünyanın işləri sahmana düşsün.

Loğman gülümsündü...
Keçdi bir qədər
Təsbehli bir qoca girdi qapıdan.
Qalxıb ağsaqqala yer göstərdilər,
Cavanın qəlbində təlaş, həyəcan...

Oğlan ağsaqqalın tutub qolundan,
Dedi, üç nəfərin sözü bir olmuş.
Biri sən, biri mən,

biri bu Loğman,
Zühur et, səbrimin kasası dolmuş.

Qoca təsbehini atdı əlindən,
"Razıyam" - deyincə, titrədi göy, Yer.
Elə bil Yer qopdu öz təməlindən,
Alovlar hayqırdı, kişnədi göylər.

Alov hücum çəkdi. Qocayla Loğman,
Atıldı atəşin qoynuna birgə.
O cavan oğlansa qorxub alovdan,
Qaçdı təngənəfəs birbaş evinə.
Gəldi Loğmangilə o, ertəsi gün,
Kişini sağ görüb mat qaldı, dondu.
Dedi, bir sirdir bunlar mənimçün,
O nə yanğın idi, bu nə oyundu?

Loğman gülümsünüb dedi, sınaqdan
Sən çıxa bilmədin, tab gətirmədin.
Sən, ey bizim ilə həmfikir oğlan,
Bəs oda bizimlə niyə girmədin?

*1976, Mərdəkan*

## OXŞARLIQ

Bir zamanlar
Özüm kimi bir dağ idim,
Öz mədənim vardı mənim,
Öz çiçəyim,
        Öz çəmənim vardı mənim.
Şəlaləydim,
        Öz yatağım
                Əl-qoluma dardı mənim.
Ulduz idim,
Öz işığım vardı mənim.
Tək özümə bənzəyirdim.
                Öz baharım,
                        Öz nübarım,
Heç kimsəyə
        Yoxdu mənim bir oxşarım!
Bəs aradan nə keçdi ki,
Öz-özümü danan oldum?
Damcı-damcı daman oldum.
Bircə sözlü gerçək idim,
Neçə sözlü güman oldum.
Bir qərarda damcı-damcı
                        hey damıram,
Ona, buna oxşasam da,
Tək özümə oxşamıram.
İndi mən də mən deyiləm, oyam, buyam.
Öz ömrümün oğrusuyam.
Başqasıyçın öz ömrümdən vaxt qapıram.
Hamı ilə görüşməyə vaxt tapıram.
Öz-özümlə görüşməyə,

İçimdəki ağrıları
Ağlım ilə ürəyimin arasında bölüşməyə
Vaxt tapmıram.
Günüm keçir orda, burda
Ərimişəm qayğılarda.
Bu oxşarlıq, bu eyniyyət çəmənində
          Mən özümü itirmişəm,
                                        Karıxmışam.
İndi dönüb özüm üçün darıxmışam,
                                        darıxmışam.

*1979*

## TƏZƏLİK

*Əziz dost Sabir Rüstəmxanlıya*

Bir rəngli saatlar, bir rəngli günlər
Çox qoca göstərir bizə dünyanı.
Ey doğan al günəş, açılan səhər,
Təzə bir xəbərlə bəzə dünyanı.

Təzə söz, təzə ruh bir ehtiyacdır,
Xəyala, duyğuya, ürəyə, gözə.
Acdır qulaqlarım yamanca acdır,
Təzə bir xəbərə, təzə bir sözə.

Şeirimə, sözümə baxıram hərdən,
Görürəm, mətləb də, söz də köhnəlib.
Çıxmaq istəyirəm bu qəliblərdən
Görürəm, şeir də başqa cür qəlib!

Gözlərim yoldadır...
Ömür çox gödək.
İmanım, gümanım, nə gəlməz oldun?
Desəm dil alışar, deməsəm ürək,
Dilimin ucunda deyilməz oldun.

Hər gün istəyirəm, qapım döyülsün,
Qayəmdir, eşqimdir bu güman mənim.
Günəş pəncərəmdən içəri dolsun,
İstəyim boylansın qapımdan mənim.

Açılsın bağlarda təzə gül-çiçək,
Təzəlik gətirsin, təzəlik yenə.

Açan gül təzədir, ancaq neyləyək,
Rəngi də köhnədir, ətri də köhnə.
Hər sevən özü tək sevir, yaxşı bax.
Hər aşan zirvəni özü tək aşır.
Sevgi də qocadır, görürsən, ancaq
Hər sevən ürəklə o, cavanlaşır...

Yenilik həvəsi! Bu elə qəm ki,
Könül duyduğundan əl götürməyə.
Elə bir təlatüm istəyirəm ki,
Dünya silkələnə, təzə don geyə!

Əl açdı, üz tutdu min il yer göyə.
O sağır göylərdən gəlmədi cavab.
Cavanlıq gətirdi qoca ölkəyə,
Bir günün içində qızıl inqilab!

İnqilab hərəkət, inqilab həyat.
İnqilab zülmətdə çıraq yandırır.
Donmuş fikirləri, düşüncələri
İnqilab yenidən dalğalandırır.

Nifrətim, qəzəbim sığmır həddinə
Əsəb tellərimi çəkib tarıma.
İnqilab istərəm, inqilab yenə
Şeirimə, hissimə, duyğularıma.

Şəlalə! Şəlalə istəyirəm mən,
Yalçın qayalarla döş-döşə gəlsin.
Könlümdə göllənən, donan, lillənən
Köhnə duyğularla döyüşə gəlsin.

İnqilab istərəm! Damarlarımdan
Axan qızıl qanım tərsinə dönsün.
Bu köhnə dünyamız qoy zaman-zaman
Mənim gözlərimə təzə görünsün.

*Fevral 1979, Mərdəkan*

## AXTARMA

Duydunmu, gülüm, qarda, sazaqlarda baharı?
Öz dövrənə bax, gəzmə uzaqlarda baharı.
Bax göydə aya, fəhm elə, qəlbində günəş gör,
Arzunla yarat buz tək otaqlarda baharı.
Könlündə bahar cilvəsi yoxdursa nahaqdır,
Axtarma nə bağlarda, nə dağlarda baharı.

*1979*

## SATQINLIQ

Səhl-Sumbat*,
Sata bildin
nəyi nəyə, kimi kimə?
Tək olsaydın,
heç adını tutmaz idim,
Mikrob kimi
ələnmisən tariximə.
Babəklərin sinəsilə yol açdığı
Zirvələrə çatmaq üçün,
Dərə keçdik,
Təpə aşdıq.
Bu yollarda
Neçə-neçə həmzələrlə,
Sumbatlarla qarşılaşdıq.
Satqınların hiyləsindən
Neçə kərə
Tarix endi zirvələrdən dərələrə.
Bu hiyləgər xəyanətlər
Tariximin neçə-neçə varağını
ləkələdi,
qaraladı.
Bir ölkəni yaraladı,
Neçə yerə paraladı.

Mənə açıq düşmən deyən bir düşmənin
İçi də bir, çölü də bir.
İçindəki nifrətini
Üzündə də o, gizlətmir.
Niyə qorxum bu düşməndən?

*Xalq qəhrəmanı Babəki düşmən əlinə verən.

Bu meydanda ya o, ya mən!
O düşməndən qorxuram ki,
İçindəki zülmətini,
Qəzəbini, nifrətini
Üzündəki gülüş ilə
örtə bilə!
Səhl-Sumbat!
Yollarıma diyirlədin
Xəyanətin ilk daşını.
Üzündəki gülüş ilə
Sən axıtdın
Bir ölkənin göz yaşını.
Bu gülüşlə
Xəyanətin zəhərinə
bal qatmısan
Bu gülüşlə
anamızı ağlatmısan.

Sən həmişə yanımızca hərlənirsən,
Sağımızda Səhl-Sumbat,
Solumuzda Səhl-Sumbat.
Can atırıq zirvələrə,
Yolumuzda Səhl-Sumbat.
O Sumbatdan törəyənin
Soyu-Sumbat.
Huyu-Sumbat.
Dili-mənim,
Əli-qənim.
Qazır mənə quyu Sumbat!
Gah quzeydən, gah güneydən
Baş qaldıran yel kimisən.
Namərdliyin yol yoldaşı,
Kişiliyin qənimisən.
Yüz qızıla, bir «sağ ol»a

Sata bildin kişiləri,
Özün söylə,
Aldıqların satdığına
dəyərdimi?
Aldığınla
arzuların göyərdimi?
Qızıl getdi, «sağ ol» itdi,
Özün öldün.
Xəyanətin
Tariximin kürəyində
Damğa kimi durur ancaq.
Gücünə bax,
Əsrimizə çatdı səsi.
Satılanın böyüklüyü,
Satqınlığın dərəcəsi!
Düşdü gələn əsrlərə
Xəyanətin boz kölgəsi.
Neçə-neçə Səhl-Sumbat
baş qaldırdı o kölgədən,
Səsi gəldi o ölkədən, bu ölkədən.
Səhl-Sumbat,
Dünən maskan gülüş idi,
Bu gün nədir?
Gəliri də, çıxarı da,
Mayası da,
Maskası da
bilməcədir,
bilməcədir!
Səni çox da qınamıram
Satqınlığı vaxtın özü
hünər saydı.
Məgər satan olardımı
Əgər alan olmasaydı?!

*Avqust 1979*

## BƏLİ, ƏSƏBİYƏM

Mənə «əsəbisən» deyən düz deyir.
Mənim nöqsanımı demək istəyir.
Söz atdın...
                    Könlümdə qopdu zəlzələ,
Bilmədim, nə zaman çıxdım özümdən.

Toxundun könlümə
                    üstəlik hələ
Deyirsən, lal olum, qışqırmayım mən?
Dəmir dəmirdi ki, toxunsan əgər
O da cingildəyər, o da səslənər.

Mən ki istəmərəm bir ürək sına,
Əsəbiyəm,
                    çünki həyəcanım var.
Hardasa bir haqqın tapdanmasına
Mən dözə bilmərəm, isti qanım var.

Mənə biganədir soyuqqanlılıq,
Hər şeyə öz ölçüm, öz tərəzim var.
Sənin qərəzinin mənə dəxli yox,
Mənim öz görüşüm, öz qərəzim var.

De, necə od tutub alışmayım mən,
Fikirsiz, məsləksiz ölü canlara?
Bəli, əsəbiyəm,
                              heç çəkinmədən
Mənim əqidəmə toxunanlara.

Dünyaya gəlmişəm, qanam.
Anladım,
ürəyim od tutub alışar yanar.
Bəli, əsəbiyəm, çünki insanam,
Mənim nifrətim var, məhəbbətim var.

Quzuya da bəli,
Qurda da bəli?
Deyirsən, olmasın baxışım mənim?
Nöqsanım budursa əgər...
deməli,
Ancaq naxışımdır yanlışım mənim.

*İyul 1979*

## NİDA – SUAL

Belini dik tutub, nida cavandır.
Həmişə qocadır əyribel sual.
Cavan elə bilir, hər şey əyandır,
Qoca yaxşı bilir, dünya – bir sual.

Nida işarəsi!
Sən dik dayandın,
Özünü hamıdan qüdrətli sandın.
Sual işarəsi! Baxmadın göyə,
Əyildin, torpağı dərk edim – deyə.

*Mart 1979*

## MƏN ÖLƏNDƏN SONRA...

- Mən öləndən sonra dünya dağılsın.
Sağ ikən özünə sən bir gün ağla –
Dedin,
utanmadın.
Vallah, "oğulsan",
Bu dünya sənindir bu qanacaqla!

Heç demə, başlanır, bitir səninlə
Dünyanın əvvəli,
Həyatın sonu.
Biz hardan biləydik,
dünyanın belə
O «günəş» başına dolandığını?
Sən bu dünya üçün deyil,
işə bax,
Dünya səninçünmüş, səninçün ancaq!

Həyat kimi üçün bir yuxu, röya.
Kimi yuxuda da yanar, yaxılar.
Sənin anan ölsün, a qoca dünya,
Gör necə «qeyrətli» oğulların var.

Özgəyə qıymayıb özünə qıyıb
Gələcək eşqinə daim yananlar,
Dünyanı özünə borclu sanmayıb,
Özünü dünyaya borclu sananlar
Yaşayır, yaradır dünən, bu gün də.
Sabahın günəşi doğmaz dünənsiz.
Bir ev tikmisənsə...

kərpiclərində
Yaşar əllərinin istisi sənsiz.
Bir arx çəkmisənsə bu dünyada sən,
Suyun nəğməsində səslənəcəksən.

Düşünə bilmədin sən uzaqları.
Sənin gecən gündüz,
Qışın yaz oldu.
Hərə öz qəlbində aşdı dağları,
Dərin dərələrə enən az oldu.

*İyul 1979*

## CEHİZ

*«Gəlin köçən qızlarımıza Nizaminin «Xəmsə»sini cehiz verək»*

**Bir məktubdan.**

Gəlin, baba Nizaminin
öz ruhu tək,
öz səsi tək,
Ata-baba ocağının
nəfəsi tək,
Biz «Xəmsə»ni
Ər evinə köçənlərə cehiz verək.
Bəlkə, dodaq büzürsünüz
Bu cehizə, ey atalar, ey analar.
Bu cehizdə bir hikmət var.
Xalça da ver, palaz da ver,
Kürsü də ver, dolab da ver,
Nə olar ki,
Kökümüzdən xəbər verən,
Bizi bizə tanıtdıran
Kitab da ver.
Sən dediyin cehizləri qoy işlətsin,
Gərəyidir,
Mən dediyim cehiz isə bəd ayaqda
Köməyidir.
O kitabla qədim-qədim
Ocaqlarda tüstülənən,
Əsrimizə axıb gələn
Ruhumuzu bəxş edərik
balamıza.

Biz deyərik köçən qıza:
Şərə düşsən, aç «Xəmsə»ni
Xilas edər «Xəmsə» səni.
«Xeyirlə Şər» dastanına pənah apar.
Görəcəksən, şər nə qədər hökm eləsə,
Bu dünyada xeyir də var!
Görəcəksən,
Əvvəl susur həqiqət də, ədalət də.
Biləcəksən,
Şərin gücü hiylədəsə,
Xeyirinki ədalətdir
Şər Xeyirin gözlərini
kor elədi.
Bu zülmüylə
Öz ömrünü Şər özünə gor eylədi.

Ədalətin susduğunu görsən əgər,
Batma qəmə, batma yasa,
Başın üstə şər qılıncı
şaqqıldasa,
Şər qalxanı qaldırma sən.
Əl götürmə
Öz xeyirxah əməlindən.
«Xəmsə» deyir:
Zülm hökm edər, haqq əyilməz.
Şər, xeyiri kəsə bilməz.

Haqqı bükmə qorxuya sən,
«Xəmsə» sənə öyrədir ki,
Vərdişini hünər bilən
Lovğalara
Fitnə kimi dərs verəsən.

Bu kitabdan oxu, öyrən,
Sən Leylinin vəfasını:
Bizim ulu nənələrin
Dözümünü, bizə xeyir-duasını
Bil ki, sən də bir yuvanın
dirəyisən.
Bacar, qızım,
Leyli kimi, Şirin kimi
sevməyi sən!
Sərvət üçün,
Zinət üçün
Başlar kəsib qan tökdürən
Şahlar şahı İsgəndəri
Haqq önündə diz çökdürən
ulu şair
Nüşabənin dili ilə
Sənə deyir:
Yaşa, ancaq bil, nə üçün!
Sənin müftə qazandığın bu ömür-gün
Özü sərvət, özü dövlət!
Bu sərvətin dəyərini anlamadan
xərcləyənə
Bu sərvətin xeyiri nə?
Ömür də bir ticarətdir.
Bilməlisən,
Nəyi aldın, nəyi satdın.
Qızıl vaxtı xərclədikcə
Sən idrakın göylərində
hansı qızıl qata çatdın?
Satıb ömür sərvətini daş-qaş alan
yazıq insan,
Bu alveri başlayanda uduzmusan.

Bu ruh ilə biz böyüdük,
biz ucaldıq.
Nizaminin, Füzulinin
Hikmətindən ibrət aldıq.
Bu hikmətdən,
sədaqətdən,
bu qeyrətdən,
səxavətdən
Maya tutdu cövhərimiz.
Gəlinlərə cehiz verək
bu cövhəri,
bu ruhu biz!

*Fevral 1979, Mərdəkan*

## QARA ZURNA

*Məhşur zurnaçı*
*Ələfsərə ithaf edirəm.*

Qəhqəhəylə şaqqıldadı qara zurna.
Uçub gəldi qatarına
Qatarından ayrı düşən bala durna.
Bu səs düşmən qulağında
Bir qəhqəhə,
Bir gülüşdü.
Qənimimə divan tutan,
Hüdudlardan çölə atan
Oğuz babam yada düşdü.

Səsləndimi qara zurna,
Damarımda qan oyandı,
nəğmələndi.
Ürəyimə od çiləndi.
Dədələrin at çapdığı geniş düzlər
ləpələndi...
Ala dağdan Ağrı dağa yallı getdi,
Tariximi yaradanlar,
Ulu bəylər, ulu xanlar,
Bamsı Beyrək qılıncını bülöylədi,
Ulu soyum soy soyladı, söz söylədi.
Məşəl yandı qalalarda.
Alaçıqlar tüstüləndi talalarda.
Dədəm Qorqud saz köklədi.
Xan Bayandır köhlənini hörüklədi.
Yad ellini

Hüdudlardan uzaqlara
sürüklədi.
Qara zurna!
Maya tutdun,
Düşmən üstə, qılınc çəkən Qazan xanın
Nərəsindən,
harayından.
Öz səsimsən,
Nəfəsimsən.
Nəsim kimi sən əsirsən
Əsrlərin o tayından.

*İyul 1979, Şəki*

## BƏS BU NECƏ GÜLÜŞDÜ?

*M.Ə.Sabirin xatirəsinə*

Vətən üçün ağlamaq
Sənin payına düşdü.
Gördüyün zülmət gecə,
Eşitdiyin söyüşdü.
Ağacda budaq quru,
Budananlar höyüşdü.
Güldün bu ziddiyyətə,
Bəs bu necə gülüşdü?

Zülümlər ədaləti
İtirdi ilim-ilim.
İnsan haqqı, hüququ
Ayaq altda bir kilim.
Günahkar ittihamçı,
Günahsızsa müttəhim.
Aşağının haqqını,
Yuxarılar bölüşdü.
Güldün bu müsibətə,
Bəs bu necə gülüşdü?

Balaların evdə ac,
İçin, çölün ehtiyac.
Sən çörək istəmədin,
Sən ədalət istədin.
«Mən göydəki günəşi
Dana bilmirəm», - dedin.

Quduz itlər üstünə
Dörd tərəfdən hürüşdü.
Güldün bu fəlakətə,
Bəs bu necə gülüşdü?
Əsarətin ağrısı,
Qəlbini dağlayırkən,
Hər sətirin, hər sözün
Cəhalətlə döyüşdü.
Ürəkdə ağlayırkən,
Sən güldün cəhalətə
Bəs bu necə gülüşdü?

*İyul 1979*

## DÖZÜM

Ağıl – quzu kimi yatan bir dəniz.
Könül – bir fırtına,
Könül – bir tufan.
Necə zəhləm gedir, necə biləsiniz,
Dənizin sakitcə uyumasından...

Könül dilləndimi, qurtarır dözüm.
Xəbərim olmayır özümdən mənim.
Dözüm – köləlikdir, nökərçilikdir,
Necə zəhləm gedir dözümdən mənim.

Ürəyin istəyi rəng-rəng, qatbaqat,
Yaşayır qaydasız, istədiyi tək.
Ağıl dözümlüdür, ürək dözümsüz,
Yaşasın dözümsüz yaşayan ürək!

Dözüm – başdan-başa əzab, şikayət,
Özün de, budurmu yaşamaq məgər?
Dözməmək – azadlıq,
Dözmək – əsarət,
Bir günlük azadlıq bir ömrə dəyər!

*Mart 1979*

* * *

Bərəyə çatmamış yolu itirdin,
Ovu tanıyasan izindən gərək.
- Kölgənin altında dolanaq, - dedin
İgidin kölgəsi özündən gərək.

Danışdın həmişə özgə adından.
Öz adın, öz sözün çıxdı yadından.
Bəsdi,
        yaralama qol-qanadından
Quşu da vurasan gözündən gərək.

Dedin, gələcəklə yaşayaram mən.
Görmədik,
        hələ ki sən yol üstəsən.
Əgər gələcəyə uçmaq istəsən,
Möhkəm yapışasan bu gündən gərək.

*Aprel 1979*

## NARAHAT OLANDA...

Zamanın dolanbac pillələrindən
Keçmək istəyirəm, keçə bilmirəm.
Narahat çırpınan dünyamızda mən,
Necə rahat olum, necə, bilmirəm?

Dinclik, rahatlıqdır mənim düşmənim.
Buludlar üstünə, ey könlüm, şığı!
Alır dincliyimi əlimdən mənim
Könül sakitliyi, can rahatlığı!

Rahatsa nə yanır, nə qanır ürək
Necə başa vurum bilmirəm, günü...
Elə bil, sinəmdə dayanır ürək,
Axı eşitmirəm döyüntüsünü.

Narahat olanda çıxıb özündən
Qəlbim qulağımda top kimi gurlar.
Onda bilirəm ki, yaşayıram mən,
Onda bilirəm ki, ürəyim də var.

Tufansız ürəklər durğun göl kimi,
Suyu təzələnməz,
Dibi lillənər.
Narahat ürəklər daşqın sel kimi,
Hər daşın üstündə bir cür dillənər.

İçindən oyulub qəlbim döyünsün,
Yarışa çağırsın daşqın selləri.
Təzə bir mahnıyla sel kimi hər gün
Oyatmaq istərəm yatmış çölləri.

Dibi görünməyən ümman göstərin
Baş vurum,
Kəşf edim dərinliyini.
Mənə əzab verin, iztirab verin,
Dadım səadətin şirinliyini!

*İyul 1979, Şəki*

## TAPMACALAR

Həqiqət bilirik bəzən yalanı,
Bu nədir?
Özümü tanımıram mən?
Ən böyük nifrətə layiq olanı
Ən böyük sevgiylə sevirik bəzən.

Bilirəm, bu ağdır,
                                        bu boz,
                                        bu sarı.
Duyuram,
                    qaranı ağ görür gözüm.
Keçirib süzgəcdən bu təzadları,
Baş aça bilmirəm özümdən özüm.

Bəzən istəmədən qəsdsiz, qərəzsiz
Bir xəta da çıxır öz əlimizdən.
Sonradan necə də utanırıq biz,
Dünən bəyənilən əməlimizdən.

Kimdən kömək umum, kimə hay verim?
Üz-üzə dayanır duyğularım da.
Oyaqkən dərk edə bilmədiklərim
Mənə aydınlaşır yuxularımda.

Görürəm, enirik biz Aladağdan.
Yürüşdür...
          Dağılır göyün qübbəsi.
Gəlir qulağıma, gəlir uzaqdan,
Bir qopuz nəğməsi,
          Bir qılınc səsi.

Bu nədir?
Mən hara, Aladağ hara?
Əsrlər adladı ömrün bir anı.
Məni aparıbmış çox uzaqlara
Damarımda axan babamın qanı.
Bir də görürsən ki, yaman dolmuşam
Bəhanə gəzirəm boşalmaq üçün.
Bir də görürsən ki, sakit olmuşam
Ən gözəl günüdür bu gün ömrümün.

Bir anın içində qanım qaralır,
Yaman süstləşirəm kef-damaq üstə.
Birdən ürəyimi bircə söz çalır,
Qaldırıb qoyuram dağı dağ üstə.

Aslanı pişiyə əsir eyləyən,
Pişiyi aslana döndərən nədir?
İçimdə alışıb mənə «qalx», deyən
Bəs sonra oturdan hansı qüvvədir?

İnsanın bətnində nələr var, nələr
Özünü anlamaq çətindən çətin.
Bu sirli duyğular, bu bilməcələr,
Bermud bucağının sirrindən dərin!

Nədir qulağımda cingildəyən səs?
Məni gah endirər, gah da qaldırar.
Hələ təbiətdə sirri bilinməz
Nə qədər dolaşıq tapmacalar var.

*İyul 1979*

* * *

Yarpaqların ağacdakı nəğməsi
Ürək açır,
şən-şən ötür,
çağlayır.
Xəzəl olub ayaqlara düşəndə
Həzin-həzin inildəyir, ağlayır.

*Sentyabr 1979*

## YAMAN SIXIR GECƏ MƏNİ...

İllər qədər uzun çəkdi
Bu intizar gecəm mənim.
Ümidimin gözlərini
Şübhələrlə sürmələdi bu qəm mənim.
Bu gecənin bir ömrünə
Həsrətimdən
Neçə-neçə ömür qatdım.
Bir diləkdən min diləyə körpü atdım.
Ax bu gecə sübhə qədər
Nələr, nələr,
Ola bilər?
Bir diləyim günəş kimi
Pəncərəmdə gülə bilər.
İtkin düşən tək qardaşım gələ bilər.
Qəfil bomba bir şəhəri
Yer üzündən silə bilər.
O bombanın bir neçəsi atılarsa,
Yer kürəsi başdan-başa ölə bilər.
Hər şey, hər şey ola bilər,
Mıxı mismar eləyən var.

Geyinmişəm mən gecəni,
Yaman sıxır gecə məni.
Darıxıram...
Hara qovum
bu həsrəti, kədəri mən?
İntizarın bir günündə qocalmışam.
İki göz də borc almışam,
Gözləyirəm səhəri mən.

Mənim üçün
Səhər yolda qala bilər.
Bu andaca gələ bilər,
Doğulmamış ölə bilər.
Hər şey, hər şey ola bilər.
Mıxı mismar eləyən var.

Hardan gəlib hara getdim,
Heç bilmədim bu nə yoldu.
Bir gecənin intizarı
Bir ömürdən uzun oldu.
Bu intizar, bu həsrətmiş
Bəlkə, mənim
                    Öz taleyim,
                    Öz qədərim.
«Açıl», - dedim, açılmadı al səhərim.
Ümid güldü pəncərədə
                    Gün yerinə,
                    Dan yerinə.
Ürəyimdən işıq düşdü
Ümidimin gözlərinə.
Dedim, - vaxtın axarında
                    Gecə, gündüz silsilədi.
Bu gecələr
Lap nə qədər
Uzun olsa
                    Səhərlərə hamilədi.
Mıxı mismar eləyən var...

*Oktyabr 1979*

* * *

Kök gözə görünmür,
Torpaqlardadır.
Cövhəri özündə,
            Sözü, nəğməsi,
            yarpaqlardadır.

*İyul 1979*

## PAUZALAR

Danışdın,
Dinlədim.
Nə yaman oldu,
Sözlərdən daha çox danışan oldu.
Kəlmələr, cümlələr arasındakı
uzun sükutlar.
Dayan!
Hər sükutda neçə fikir var.

Elə danışdın ki,
Gördüm bir ara
Sükutu işıqda, sözü kölgədə.
Cümlə sonundakı pauzalara
Bir dilin lüğəti sığar, bəlkə də.

*1979*

## GECƏLƏR KÖNLÜMƏ ULDUZLAR YAĞIR

Yatmaq istəmirəm səhərə qədər,
Açmaq istəyirəm sübhü gözümlə.
Gecələr,
    Gecələr
            Uzun gecələr,
Baş-başa qalıram özüm-özümlə.

Gecədən könlümə ulduzlar yağır,
Gecələr bilinir xeyirim, şərim.
Mənim məktəbimdir, kitablarımdır
Gecələr özümdən öyrəndiklərim.

Gündüzün eşqinə gecə dolmasa,
Yönünü, yolunu nə bilər səhər?
Məni mən elədi,
            Səbrimdən qısa,
Dəli həsrətimdən uzun gecələr.

*Fevral 1979, Mərdəkan*

* * *

Xəyalın qucağı...
Xoşdur hər zaman.
O, ana qoynu tək isti, mehriban.

Diləklər tutuşdu,
Ancaq yanmadı.
Diləklər nə yaman diləklər dilər.
Bir yerdə bənd alıb yuvalanmadı,
Yenə xəyalımda binələndilər.

Xəyala sığınıb, eşqə güvənsən,
Qışda da oxşayar bahar-yaz səni.
Xəyal bir cənnət ki, sahibi sənsən,
Heç kəs o cənnətdən qovammaz səni.

*Noyabr 1979, Mərdəkan*

## BİRİ VARMIŞ,
## BİRİ YOXMUŞ...

*Nənəm nağıl danışardı,*
*Biri varmış, biri yoxmuş...*
**R. Bəşirli**

Biri varmış, biri yoxmuş
Ön sözüdür nağılların,
Son sözüdür nağılların.
Biri varmış, biri yoxmuş,
Bir dövlətli kişi varmış.
O, sonsuzmuş,
niyaz üçün
Sərvətini kasıblara paylayarmış...
Yaşamaqçın sərvəti var,
Övladı yox.
Uçmaq üçün səması var,
Qanadı yox.

Biri varmış,
Biri yoxmuş,
Bir kişinin yaşamaqçın
Bu günündən sabahına
ümidi yox,
Qoşa-qoşa övladı var,
Uçmaq üçün səması yox,
Qanadı var.
Bu dünyanın qaydasıdır
Sapandın var, daşın olmaz,
İştahan var, aşın olmaz.

Tum bir yana, qum bir yana
Ələnərik xəlbirdə biz.
Axı iki səadəti
Görməmişik bir yerdə biz.

Biri varmış, biri yoxmuş
Bir şah oğlu
Bir çobana möhtac imiş.
Bəzən olur, biz bilmirik
Demə, güman gəlməyən yer,
                Dərdimizə əlac imiş.
Gah sərçəyə daş atırıq,
Yerə düşür, turac olur.
Gah da isti plovumuz
Önümüzdə umac olur.
Bu misallar, bu masallar,
Elə-belə nağıldımı?
Bəs bunları düzüb qoşan
Ürəkdimi,
                Ağıldımı?
Hər nədirsə,
                Elə-belə nağıl sayaq.
Hünərimiz varsa əgər,
Bu sözlərə inanmayaq:
Biri varmış, biri yoxmuş
Biri acmış, biri toxmuş.
Nə göy varmış,
Nə yer varmış,
Amma bizim dünyamızda
Belə-belə işlər varmış.

*İyul 1979, Şəki*

## SƏN HARDAN BİLƏSƏN?

### *(Bir sualın cavabı)*

*Nəriman Həsənzadəyə*

Sən hardan biləsən nə çəkirəm mən.
Payızam...
ey ömrün ilk baharlısı,
Sən hardan biləsən, nədən biləsən
Yoxdur bu dünyada səndən varlısı.

Duman tək dağlara çəkilən mənəm,
Budaqlar üstündə quş tək dinən sən.
Payızda yarpağı tökülən mənəm,
Ömrün yaz çağında çiçəklənən sən.

İllərim xərclənmiş, ömür gödəlmiş,
Sənin yol gedəsi çox illərin var.
Mənim ürəyimdə baş-başa gəlmiş
Kövrək duyğulardan nə xəbərin var.

Deyirsən, ocağın közü mənəm, mən,
Sənsə tüstülənən xatirələrsən.
Ancaq xatirəmi? Səhvin var sənin,
Dağdan xəbərsizdir arandakılar.
Bir də... unutma ki, tüstülənənin
Təzədən tutuşub alışması var.

Sən hardan biləsən, sevda anları
Qənimət payıdır tükənən ömrün.
Sısqa bir bulağın son damcıları

Daha şirin olur təşnələr üçün.
Sən hardan biləsən, axşam şöləsi
Niyə aynaları alovlandırır.

Sən hardan biləsən bülbülün səsi
Niyə son baharda ürək yandırır.
Artır zaman-zaman vaxtın qiyməti,
Arzu min həvəsdə, ürək təlaşda.
Sən hardan biləsən, gözün ləzzəti
Qəlbin ağrısına dönür bu yaşda.

Sevgi yaş tanımır... Qəlbini yandır!
Yanaraq yaşasan, yaş düşməz yada.
Sevən doxsanında hələ cavandır,
Sevməyən qocadır otuzunda da...

Ürək alışırsa, günahkarmı yaş?
Sevəni qınama, sevəcək sevən!
Yaş ilə ürəyi deyil, a qardaş,
Boş ilə dolunu çəkiyə qoy sən!

Bir ömrü illərlə ölçmək düz deyil,
Ömürlə illəri ölçəsən gərək.
Hissinlə, qəlbinlə dinlə nə deyir,
Bu duyan, bu yanan, alışan ürək...
Yaşarkən
həyatı sevirəm...
nə qəm,
Öləndə ölümlə sevişəcəyəm...

*1979*

* * *

Sevirəm havanın tutlmağını,
O, günəş doğacaq,
O, günəş, ancaq!

Sevirəm, qışın da sərt olmağını
İsti yay doğacaq,
İsti yay, ancaq!

Sevirəm qorxağın şücaətini
O, qeyrət doğacaq,
O, qeyrət, ancaq!

Sevirəm nifrətin lap son həddini,
O, sevgi doğacaq,
O, sevgi, ancaq!

Sevirəm zülmün də məşəqqətini
Ədalət doğacaq,
Ədalət, ancaq!

*İyul 1979*

## BAŞQA CÜR YAŞAMAQ!

- Kaş dönüb təzədən uşaq olaydım,
Ömrümü başqa cür yaşardım, - dedin.
Ömür yollarında atdığın addım
Səhv olub
O, səni ağrıdır yəqin.

Yanlış addımların sən, demək, bu gün
Dərdini çəkirsən...
Bu dərdə alqış!
Səninki olmayıb, demək, öz ömrün.
Nəyinsə eşqinə alovlanıbmış!

Hər yaşda başqa cür döyünür ürək.
Başqa cür yaşamaq – xoşca bir arzu!
Səhvini anlamaq! Dərdini çəkmək,
İkinci bir ömrə bərabərdi bu!

*İyul 1979, Şəki*

**EKRAN QARALANDA...**

- Qurtardı bugünkü verilişlərimiz
Dinləyin sabahın proqramını.
...Hələ ki, bu günüm bitməyib...
                    Nə tez
Sabaha keçirsən?
                    İnsafın hanı?

Sabaha caladın nə tez bu günü?
Ölməmiş sən ona kəfən biçirsən.
Tamam yaşamamış günün ömrünü
İndidən sabaha niyə keçirsən?

Yatmaq istəmirəm... Keçmə sabaha!
Gecənin ömrünü uzadaq bu cür.
Gənclik müftə imiş, qocalıq baha,
Fələkdən gün çalaq, ömürdən ömür.

Yatmaq istəmirəm... bitməyən günün
Başına dolanım, qoy dönüm hələ.
Səninçün bitibsə, amma mənimçün
Bitməyib, yaşayır bu günüm hələ.

Ekran qaralanda qurtarır günüm,
Uşaqlar yatmağa gedir birbəbir.
Ekrandan çəkilmə, başına dönüm,
Təklikdən canıma üşütmə gəlir.

Zamanı borc alaq biz gecələrdən
Duyub yaşamamaq zülüm deyilmi?

Yatmaq?
Nə görmüsən bu yatmaqda sən?
Yatmaq da başqa cür ölüm deyilmi?

Söykənsin söz sözə, baxsın göz gözə
Gecəni uzadaq, vaxt unudulsun.
Qarışsın dağ düzə, gecə gündüzə,
Müddətli ömrümüz müddətsiz olsun.

Yatmaq istəmirəm... hər anım əziz...
Gecədən kamımca doymadım hələ.
Hər gecə yatanda dəfn edirik biz
Ömrün bir gününü öz əlimizlə.

Ekran qaraldımı – könül diksindi
Gecəni bəs necə başa vurum mən?
Səsinə səs gəzən qəlbimə indi
Təkliyi nə ilə unutdurum mən?

Ekran qaralanda, ey yalqız ürək,
Özümə yeganə dost saydım səni.
Ekran qaralanda
                    Sən ey mənim tək
Yatmaq istəməyən, tapaydım səni.

*Yanvar 1979*

## YAXŞI SÖZ

Mənim yaxşımı de,
Keç təqsirimdən.
Gərək dil həmişə yaxşıya dönə.
Çalışıb sözünü doğruldaram mən,
Layiq olmasam da təriflərinə.

Yaşanmış yüz illik ömürdən, gündən
Hələ yaşanmamış bir an gözəldir.
Məni öldürəcək gerçək sözündən
Məni yaşadacaq yalan gözəldir.

Deyirəm, olsaydı ömürlər iki,
Birini verərdik bəd sözə qurban.
Yaman söz qanını duruldubmu ki,
Sən də özgəsini yamanlayırsan?

Elə yaxşılığı, at dəryaya sən.
Balıq bilməsə də, xalq biləcəkdir.
Özünü düşünən düşər nəzərdən,
Özgəni düşünən yüksələcəkdir.
Yaxşılıq,
          yaxşılıq,
                    yenə yaxşılıq!
Bəzən bir yaman söz min könül qırar.
Xoş söz,
          yaxşı xəbər,
                    xoş rəftar, qılıq
Yaman adamı da yaxşılaşdırar.

Adam sözü danış, adam oğlusan,
Gəl, acı sözlərlə qırma qəlbimi.
Mən də sənin kimi insanam, insan.
Ömrü başa vuraq qoy insan kimi.

Mənim yaxşımı de, keç yamanımdan
Gərək dil həmişə yaxşıya dönə.
Çalışıb sözünü doğruldaram mən,
Layiq olmasam da təriflərinə.

*Mart 1979*

## ÖZ-ÖZÜMƏ

Özümdəyəm... çöl dünyama, nəhayət!
Nə gözəldir öz-özümə səyahət.
Öz dünyamla dayanmışam üzbəüz
Özümüzə möcüzəyik özümüz.
Ürəyimdə neçə-neçə cığır var,
İçimdəki çalın-çarpaz cığırlar
Heç bilmirdim, məni hara aparır,
Bəxtiyarı Bəxtiyara aparır.

*Mart 1978*

## UŞAQ TƏBƏSSÜMÜ

Anasının qucağında körpə bir uşaq
Mənə baxdı,
gülümsədi...
Könlüm açıldı.
Gülüş deyil, o çıraqdı, nurlu bir çıraq,
O gülüşdən ürəyimə işıq saçıldı.

Darıxırdı,
Sıxılırdı, nədənsə, könlüm.
Bayaq yaman tutulmuşdum,
açıldım indi.
Məni necə dəyişdirdi bircə təbəssüm,
Gözlərimdə həyat güldü, dünya sevindi.

Sağ-solumdan ötənlərə «gün aydın», - deyib
Salam vermək,
əhval tutmaq istədim bu dəm.
İstədim ki, yolçuları bir an əyləyib
O gülüşdən hamısına birər pay verəm.

Göy üzündə buludların bağrı söküldü,
O zaman ki, ümidimiz çıxdı qəfəsdən.
O zaman ki, insan güldü,
dünya da güldü
Ağladımı – hürküb qorxdu dünya bu səsdən.
Təbəssümlə qarşılanmaq
nə xoşdur!
Dayan!

Kəs başımı,
öldür məni, sən gülə-gülə!
Tək yeməklə, tək içməklə yaşamır insan,
Adamların ürəyinə təbəssüm çilə!

Uçurmağa gəlmişmidir dünyaya insan
Gözəlliyin vurğunudur hər duyan ürək.
Gözəlliyin şərəfinə yaradan, quran,
İnsanların öz haqqıdır gülmək, sevinmək.

Başqasını şirin sözlə öyərsən əgər,
Səni sevər, əzizləyər, öyər dünya da.
Nə qədər ki, yer üzündə gül var, gülüş var,
Yaşamağa, yaratmağa dəyər dünyada.

*İyul 1979*

## TUTUQUŞU

Tutuquşu valeh idi
Öz sözünə,
Öz səsinə.
Öyünürdü
İnsan kimi
O, danışa bilməsinə.

Hər gün o, öz sinəsini
Doldururdu xəbərlərlə yeni-yeni.
Axşam olcaq
Danışırdı sahibinə
Gündüz evdə
Gördüyünü, bildiyini.

Ata yaman qəzəbləndi,
Cəza verdi günahkara.
Böyük oğul,
Gözü yaşlı, üzü qara
Xəbərçini tapmaq üçün
Çox baş vurdu ora-bura.
Axır tapdı,
O, başını kəsdi quşun.

O, danışa bilməyinə
Öyünürdü.
Bildiyini dediyiyçün
Öz ömrünü başa vurdu.

Ömrü oldu öz bahası
Danışmağın, deyinməyin.
O susmağı bacarsaydı,
Yeri vardı öyünməyin.

*Avqust 1979*

* * *

Gah olur, dərələr, düzlər üstünə,
Burula-burula söz yazar sular.
Gah da görürsən ki, itib hardasa,
Sirrini gizlədib yol azar sular.
Bizə zirvələrin sirrini söylər,
Düzdə üzə çıxan nəğməkar sular.

*1978*

## TARİXİN QANUNU

*İranda Azərbaycan dilində qəzet və jurnal-ların çıxması münasibətilə*

Yüz illər zülm oturdu ədalətin yerində.
Zülmə tanıtmaq üçün öz yerini,
qan axdı,
Tehran küçələrində
Təbriz küçələrində.
Görünür, bu qaydadır:
Könüllərin atəşi qaranlığı yarmasa,
Torpaq,
Övlad qanıyla alışıb qızarmasa,
Vətən üfüqlərində qızarmazmış dan yeri.
Qanla suvarılmalı azadlıq çiçəkləri!

İnqilablar beşiyi, mənim ana Təbrizim,
Tarix boyu həmişə
Özündən güclülərlə
Sən güləşən olmusan.
Gözün aydın,
Sən bu gün
Çıxıb məhəlləlikdən ölkələşən olmusan.
Sinən yad bıçağıyla çox oyuldu, qardaşım,
Dilin öz vətənində qərib oldu, qardaşım,
Atalı-analıykən yetim oldu, qardaşım.
Dilin məktəb görmədi,
kürsülərdən qovuldu.
Ögeylər doğma oldu, doğmalar ögey oldu.

İndi gözlərin aydın, dil dodaqla görüşdü,
Dilin kitaba düşdü, dilin qəzetə düşdü.

Qorxmuş haqdan qaçanlar
yüz illərlə bu dildən
Neçin?
Bilirsənmi sən?
Bu dilin ecazları ulduzlara toxunmuş.
Tarix boyu bu dildə haqq nəğməsi oxunmuş.
Haqqın öz səsi kimi
Bu dildə üsyan etmiş ehkamlara Nəsimi.
Danışıbdır bu dildə Misri qılıncın səsi,
Səttərxanın qəzəbi, Sabirin qəhqəhəsi.
Qorxu doğur səbəbdən.
Şah, de, necə qorxmasın
Yüz illər dustaq olan,
Azadlıq həsrətilə öz içindən qovrulan
Bu dilin məğzindəki inqilabdan, qəzəbdən?
Bir sualım var şaha:
- Səni böyüdən o xalq səni istəmir daha,
Bəs sən nə istəyirsən o vətəndən, o xalqdan?
Milyardları yığanda qorxmadınmı bəs haqdan?
Bəlkə sənə bu xalqın hələ yenə borcu var?
Öz borcunu bilməyən
Sənin kimi həmişə
öz haqqından dəm vurar.
Amerika silahına arxalandın...
Nə oldu?
Xalq nifrəti önündə silah düşdü kəsərdən,
Səltənətin uçuldu.
Sən güvəndin dövlətin ağızlara daş basan,
Dillərdən qıfıl asan

Müdhiş qanunlarına.
Qanunlar da bu yerdə çatammadı dadına.
Sən bir şeyi bilmədin:
Öz hökmü,
Öz sözü var
Hər anın, hər günün də.
Haqsızlığa söykənən bütün saxta qanunlar
Çox acizdir tarixin qanunları önündə.

*İyun 1979*

## GÖZƏL SÖZLƏR

Azadlıq,
Səadət,
demokratiya!
Bu gözəl sözlərə dünya əl çalır.
Əslində, hər biri bir kələk, riya.
Mənim bu sözlərə yazığım gəlir.

Hüquqlar tapdanır bu kəlmələrdə
İnsanın sinəsi zülmə yol olur.
Azadlığın özü olmayan yerdə
Qaydadır, həmişə sözü bol olur.

Demə, əsarətin, zülmün, zillətin
Ənlik-kirşanıdır bu gözəl sözlər.
Azadlıq yolunda can verənlərin
Tökülən qanıdır bu gözəl sözlər.

Azadlıq adına vuruşdu İran
Şahı məmləkətdən qova da bildi.
Azadlıq naminə silah qaldıran
Sonra azadlığa qənim kəsildi.

Söylə, bəs dünəni nə tez unutdun?
Yenə «haqq» deyənin tökülür qanı.
Özün əsarətin yolunu tutdun
Dünən bağırdığın azadlıq hanı?

Dünən öz haqqını istəyən də sən
Dünyanın gözündə haqq idi qəsdin.

Bu gün öz haqqını özgəsi səndən
Umanda sən onun başını kəsdin.

Dünən özgəsindən «azadlıq», - deyə
Haqq uman da sən.
Bu gün özgəsinin azadlığına
Göz yuman da sən.

Azadlıq, səadət, demokratiya!
Bu gözəl sözlərə dünya əl çalır.
Bu sözlər sizinçin bir kələk, riya
Mənim sözlərə də yazığım gəlir.

*Avqust 1979*



# İNSAN VƏ ZAMAN



*Dağlar, çaylar, nəhrlər*
*Qaçır məndən nağıllar,*
*Möcüzələr, sehrlər.*
*Möcüzə sorağında*
*Adiliyə qovuşur*
*Arzular qədəm-qədəm.*

## NEYTRAL ZONA

İki dövlət arasında,
İki millət arasında
Sərhəd boyu hey uzanan
            köksü dağ-dağ
O neytral zonaya bax.
Dayanıbdır arasında
İki fikrin,
            iki yolun.
Nə onundur, nə də bunun.
Nə ölüdür, nə də diri.
Can çəkişir,
            var ilə yox arasında.
Rəngi bozdur,
Dayanıbdır qarayla ağ arasında.
Ayaq dəymir sinəsinə
Bir kimsəyə
Nə xeyri, nə zərəri var.
Sərhəd boyu
Lal-kar durar.
Nə toyu var, nə yası var.
Bu bədbəxtin
Nə sifəti, siması var.

*May 1970*

## DAYAN, İNSAN!

İnsana od bağışladı
Prometey!
Ehey!
                Ehey!
                Dayan, insan!
Hara belə?
İnsan dedi gülə-gülə:
- Dayanmağa nə macalım, nə halım var.
Yürüyürəm,
İrəlidir yolum ancaq!
Məqsədim bu, məsləkim bu:
Bilim ancaq,
Bilim ancaq!
Yox! «Allahü-əkbər» vaxtı keçdi çoxdan.
De «İnsanü-əkbər» indi.
Əlimdədir bu göy indi, bu yer indi!..
Pay aldığım od əlimdə
Məşəl kimi yanır, yanır.
Yol gedirəm...
Önümdəki qaranlıqlar
Qətrə-qətrə işıqlanır...
- Prometeydən pay aldığın o od ilə, axı bir gün
Cordanonu yandıran da sən özündün.
Qorxum budur, o od ilə
Özünü də yandırasan
Aman, insan, dayan, insan.

*Avqust 1970*

## ARZU BÖYÜK,
## AĞIL GÜCSÜZ ...

Tak-tuk!
                    Çak-çuk!
Motor səsi,
Maşın səsi!
Elektrik cəryanının zümzüməsi!
Təkərlərin gurultusu,
Dəzgahların uğultusu
Səslər, səslər,
Hərəkəti tənzim edər,
                    Sapa düzər.
Qulaq buna necə dözər?

Maşınları biz yaratdıq.
Onun ritmi, hərəkəti,
Və... sürəti
Hakim olub indi bizə,
İşimizə,
Nitqimizə...
Könlümüzün öz ahəngi
Maşınların gur səsində
İtib, batıb, unudulub.
Məhkum, dönüb hakim olub...
Qədim, uçan xalçaları
Həqiqətə təslim edən
Ağıl əsri, ağıl əsri!..
Unuduldu
Duyğuların sərkərdəlik elədiyi
Nağıl əsri!

«Arzu böyük, ağıl gücsüz», - deyə-deyə,
İndi beyin başlayıbdır
Beyinləri öyrənməyə.
Boylanırıq sola-sağa,
Sual kimi yağa-yağa
Dırmaşırıq
Əl çatmayan, ün yetməyən
Gah bu dağa, gah o dağa,
Təzə yollar axtarırıq
Ağlımızı artırmağa.
Yox!
Ağlımız yetər bizim!
Bu qədər ki, ağlımız var,
Mən qorxuram,
Hisslərimiz itər bizim!..
Gəlin, gəlin,
Hiss artıran,
Risk artıran,
Əzm artıran,
Eşq artıran
Qəlbimizə cürət verən,
Bizə cəsarət gətirən
İllət varsa... onu tapaq
Biz əvvəldən sonu tapaq.

*İyul 1970*

* * *

Hamı vaxtı pusa-pusa
Səhər-axşam
qaçır,
qaçır
Tramvaya, avtobusa...
Elə bil ki,
Ondan qaçan tale budur...
Elə bil ki,
Bu tramvay, bu avtobus
sonuncudur.
Miniklərin arxasınca sürünənlər
Bu məqamda ümidini, diləyini
ona bağlar...
Elə bil ki...
İşə deyil,
Evə deyil,
Haradasa, uzun, xoşbəxt
Bir həyata çatacaqlar...

*İyul 1970*

## MÖCÜZƏ

Mən işıqla zülmətin
Üfüqdə birləşdiyi
Torandan,
Dan yerindən,
Mən şahın bağındakı
Alma çiçəklərindən,
Tək bircə qırpımıyla
Qəribi tora salan
Bir mənalı baxışdan,
Bir quyunun başında
Nəğmə kimi səslənən
Möcüzəli qamışdan,
Yeddi başlı bir divin
Şüşədəki canından,
Kərəm ilə Əslinin
Andından, peymanından
Doğulaydım!..
Mən ürəkdə min arzu,
Dildə nağıl olaydım...
Mən nağıla dönəydim
Olduğum kimi yox-yox,
Mən gözlərə ayrı cür,
Ayrı cür görünəydim!..
Qədim nağıllardakı
Möcüzə daşlarını
İdrakımız çiliklər...
Sirli ləkələri də
Sildi ayın üzündən
Biliklər, hay biliklər!

Adiləşib heç oldu
O qeyri-adiliklər...
O vaxt ki, arzularım
Həyatda birər-birər
Yaşamaq arzum oldu,
Mən pambıqdan od aldım,
Qayalar da əriyib
Ovucumda mum oldu...
Düzənlikdən qaçıram
Çıxsın mənim önümə
Dolanbaclar, gədiklər.
Usandırdı, bıqdırdı
Bizi bu adiliklər...
Mən anbaan,
Dəmbədəm,
Olduğum kimi, yox, yox,
Olmaq istədiyim tək
Yaşamaq istəyirəm...

Etiketlər, qaydalar;
Yalnız o qədər gülüş,
Bu qədər də ciddilik.
Bir tikə artıq olsa,
Başlar qeyri-adilik.
Günlərimiz bir yana,
Hələ illərimiz də
Sarı, cır alça kimi
Bənzəyir bir-birinə.
Ancaq dözürük yenə.

Simurğun qanadında,
Məcnunun fəryadında,

Arzu dalınca qaçan
Nəbinin boz atında
Yaşamaq istəyirəm.
Ömürdə məzmun olsun
Nədir uzunluq?, – dedim.
Həyatı dərininə
Yaşamaq istəyirəm,
Uzununa yox!, – dedim...
Özüm dərs cədvəlinin
Zaman çərçivəsində,
Fikrim...
qeyri-adilik
həvəsində...
Pay umuram Əhmədin
Sehrli süfrəsindən.
Vuruşmaq istəyirəm
Həyatdakı divlərlə,
Göygöz kosalarla mən!
Ancaq
Nağıl olmuram...
Həyatda bir-birinə
Qovuşduqca...
Ulduzlar,
Dağlar, çaylar, nəhrlər
Qaçır məndən nağıllar,
Möcüzələr, sehrlər.

Möcüzə sorağında
Adiliyə qovuşur
Arzular qədəm-qədəm.
Nə divlər o divlərdir,
Nə mən Məlikməmmədəm!

Mənim gəzdiyim sehr,
İstəmirəm sığışa
Nə ağıla, nə gözə.

Düşünürəm:
                    Bəlkə də,
Artıq adiləşibdir
Axtardığım möcüzə.

*İyul 1970*

## UZAQDAN...

Günün dərslərindən dərs götürmürük,
Günün özünə də uzaqdan baxaq.
Bu gündən, bu günü yaxşı görmürük.
Gəlin, bu günə də uzaqdan baxaq.

Yaxınlıq-aydınlıq... Ancaq yaxında
Gözlərin hər şeyi niyə kəm görür?
Kosmonavt uzaqdan yerə baxanda,
Yeri bütöv görür, yeri tam görür.

Bir anın içində dolanıb yeri
Min anı yaşayır hisslərimiz.
Gəncliyin verdiyi gözəllikləri
Anlaya bilmirik cavanlıqda biz.
Anın öz ömrünü yaşamır ürək,
Anı, həmən anda görən göz gərək!

Bilməyin özümə sayğısız məni,
Kənardan baxaydım öz ürəyimə.
Kosmik bir gəmiyə qoyun siz məni,
Atın sabahıma, gələcəyimə.
Durub gələcəyin zirvəsində mən
Baxmaq istəyirəm, bu günə, baxmaq!
O uzaq illərin yaxın gözündən,
Baxmaq! Gözlərimin içinə baxmaq!
Sabah, bu günümlə üz-üzə dursun,
Yaxşı əməlimi pisdən ayırsın...
Ən gözəl, ən böyük imtahandı bu.

Minnət götürməsin heç kəs boynuna.
Biləydim çıxacaq kim kimə borclu,
Bu gün sabahamı,
Ya sabah ona?

*Sentyabr 1970*

* * *

Cavanlıqda –
Əllər uzun, dillər qısa.
Qocalıqda –
Dillər uzun, əllər qısa.
Cavanlıqda –
Günlər qısa, illər uzun.
Qocalıqda –
Günlər uzun, illər qısa.

*1973*

## EKSPONAT ADAM

- Ayrı cür yaşadıq biz ömrümüzü,
Adamlar korlanır, vallah, günbəgün.
Bizim vaxtımızda böyüyün sözü
Bir qanun olardı kiçiklər üçün.

Biz hara gedirik deyən yoxdu bir,
Nə kiçik tanınır, nə böyük indi.
Hərənin ağzından bir avaz gəlir, -
Deyə səhər-axşam o, hey deyindi...

Düzü beləsiylə danışmaq çətin,
Əsnədim,
Adamın yuxusu gəlir.
Özü muzeylərin eksponatı,
Sözündən naftalin qoxusu gəlir.
İstəyi budur ki,
                    o, həyata yox,
Gərək həyat ona bu gün saz gələ.
İstəyi, məsləki tutuquşuluq,
Hamının ağzından bir avaz gələ.

Ona deyən yoxdur, çal ağlar neyi
Zurnanın yerinə...
                    Görək nə çıxar?
Hər səsin öz yeri, öz gözəlliyi,
Axı hər avazın öz xəyalı var.

Hamı bir nəfərmi, hamı birmi ki,
Hamının çəkisi düz, taraz gələ?

Hamı bir-birinə bənzəyirmi ki,
Hamının ağzından bir avaz gələ?

Sən niyə qorxursan,
Axı sən niyə
Səslərin, sözlərin əlvanlığından?
Niyə məftun olaq bir gözəlliyə?
Min-min gözəlliklə doluykən cahan...

Xoruzun bir səsi, bir nəğməsi var.
Banlar,
Cır səsiylə qulaq dırmalar.
Neçə zənguləli, neçə pilləli,
Bülbül cəh-cəhinə el heyran qalar.

Vallah, beləsiylə danışmaq çətin.
Əsnədim.
Adamın yuxusu gəlir.
Özü müzeylərin eksponatı,
Sözündən naftalin qoxusu gəlir.

Tarix muzeyində şüşə dolablar,
Dolablar içində
                    o saxsı qablar
Muzeydə gözəldir...
                    qürrələnirsən.
Ancaq düzü budur, sən heç onları
Əlinə almazsan dükanda görsən.
Sənin fikrin köhnə, ürəyin soyuq.
Yox-yox!
Zamanda yox,
                    Günah səndədir.

Saxsının qiyməti, bu günündə yox,
Dünəndən danışan hikmətindədir.

Onlar çox gözəldir,
Ancaq bu günün
Çini qablarıyla yarışa bilməz.
Fikri, sənin kimi, dünəndə qalmış,
Bu günlə, sabahla barışa bilməz.

*Noyabr 1971*

## HƏQİQƏT

Həqiqət! Ən böyük nəğməsən...
ancaq,
Səni dinləməyə qulaqlar sağır.
Həqiqət! Gözünün içinə baxmaq
Nə qədər gərəksə, o qədər ağır!

Sənsən işıqladan qaranlıqları
Cəsarət atandır,
Şübhədir anan.
Mum kimi əritdin sən çox dağları,
Ən cəsur igiddir sənə yar olan.

Sən bir zəlzələsən, sən bir vəlvələ!
Bütləri taxtından endirən oldun.
Elə ki, zamanla verdin əl-ələ,
Əyilməz başları əyən sən oldun.

Həqiqət! Gözəllər gözəlisən sən.
Zülmün gözlərinə çirkin göründün.
Günün öz bağrından doğulan gündən,
O günün başında yumruğa döndün.
Sən doğulan kimi səninlə birgə
Doğulur həmişə düşmənlərin də.

Həqiqət! Təzə yol, bir təzə pillə,
Həqiqət! Ən böyük cəsarət, hünər.
Doğulduğun günün üzünə şillə,
Sabahın üzündə qızaran səhər!

Yel kimi kükrəyər, sel kimi çağlar,
Bu gündən sabahı dilər, həqiqət.
Düşünən kəslərin fikrində ağlar,
Məzarı başında gülər, həqiqət.

Çox vaxt ürəklərdə dustaq olmusan
Orda da nə sındın, nə də əyildin.
Elə dustaqsan ki, öz zindanından
Qaçmağa həmişə yol tapa bildin.

Zalımlar həmişə haqqın səsindən
Qorxmuş,
O güclüykən, fağırdan fağır!
Yayınıb həyatın baş küçəsindən,
Əyrili-burulu cığır axtarır.

Ədalət yolunda axan qanların
Üstündə quruldu həqiqət taxtı.
Həqiqət həmişə bu qurbanların
Ağlıyla düşündü, gözüylə baxdı.
Həqiqət! Çılpaqsan doğulduğun tək.
Yalanın əynində min bəzək-düzək.

Hökmünlə fırlanır bu cahan yenə
Hər bir yüksəlişdə sənin əlin var.
Zülmə göndərdiyin tələbnamədə
Sənin möhüründür həbsxanalar...

Həqiqət donuna girən qarının
Həqiqət, ədalət başının daşı,
Hər zaman həqiqət carçılarının
Həqiqət adına kəsilmiş başı.

Boğulan da sənsən, doğulan da sən,
Səndə tanrıların iradəsi var.
O qədər tapdandın, əzildin, bəzən,
Sənin varlığına inanmadılar.

Ən böyük arzunun, ən böyük eşqin
Mayası gücünü adından aldı.
Sənə arxalanan inqilabçılar
Zülmət dünyasına qələbə çaldı.

*1972*

## FİKİR

Fikir bizi ora çəkir,
bura çəkir.
Hər əməlin başlanğıcı,
Hər bir yolun ilki – fikir.
Dərzi üçün, memar üçün
Ölçü fikir, biçi fikir.
Hər məqsədin çölü sözdür,
içi fikir.

Daş-torpağı qayalardan,
Dam dirəyi meşələrdən
O gətirib ev də tikir.
Qatarları düzənlərdə,
Gəmiləri dənizlərdə
Süzdürən də
fikir, fikir.
Ay da, gün də
fikir, fikir!
Alovunu görməsək də,
Tonqal kimi o alışır
Sükutda da o danışır.

Təbiətin özü fikir,
sözü fikir.
O düşünür,
O düşünür.
Göylərdəki ulduzlar da fikirlərdir,
Doğur, batır,
Yanır, sönür.

Torpaq üstə səpdiyimiz
Tum da fikir,
Dən də fikir.
Sən də fikir,
Mən də fikir.
Yer-göy fikir,
Hər şey fikir.

*Noyabr 1971*

## BABAM, ATAM, MƏN

«Apollon-8» gəmisi ilə kosmik səyahətim məni bir daha inandırdı ki, biz hamımız balaca bir planetdə yaşayırıq.

**F.Borman**

Babam həyatında yalnız bir kərə
Faytonla Şəkidən Ağdaşa getmiş.
O baxıb uzanan dar gədiklərə,
təəccüb etmiş.
- Bu yerlər hamısı padişahındır?
Deyə, faytonçudan o xəbər almış.
Bəlkə də, dünyaya
o miskin, fağır
Babamın verdiyi bu, ilk sualmış.
Bir dünya bilirdi Şəkini babam,
bu yaşa qədər.
Onun gözlərində dünya bu gündən
Böyüdü, uzandı Ağdaşa qədər.

Səksən verst dağ yolu! Zarafat deyil.
Ən uzun, ən böyük yoldu babamçın.
Şəkidən Ağdaşa uzanan bu yol,
Böyüklük ölçüsü oldu babamçın.

Atamın qəribə adəti vardı:
Məni qollarında atıb-tutardı.
Həm də soruşardı, de, görək məni,
Nə boyda sevirsən?
Deyərdim, səni

Lap bu dünya boyda istəyirəm mən.
Sevgimin böyüklük dərəcəsindən
Atam xoşlanardı.
O, uzun-uzun
Bu sözə gülərdi...
                    Axı atamçün
Dünya, böyüklüyün son ölçüsüydü,
Atamın dünyası, dünya özüydü.

Mənimçün?
            (Qorxuram xəyalım aza).
Kosmosdan baxıram mən dünyamıza.
Deyirəm, nə qədər kiçikmiş cahan.
Axı mənim dünyam, çıxıb dünyadan.

*1971*

## DÜNYAYA GƏLMİŞİK

Dünyaya gəlmişik
Dünyanı duymağa, bilməyə.
Dünyaya gəlmişik
Sevməyə, sevilməyə.

Dünyaya gəlmişik
Həyatdan, dünyadan feyz alaq.
Dünyaya gəlmişik
Dünyada ucalaq.

Dünyaya gəlmişik
Dünyanı cənnətə döndərək.
Dünyaya gəlmişik
Gül əkək, gül dərək.

Dünyaya gəlmişik
Bir eşqin oduna yanmağa.
Dünyaya gəlmədik
Dünyanı danmağa.

*1972*

## ÖLÜMƏ GEDƏNDƏ...

*Siqqətül-İslamın** xatirəsinə*

Ömrü boyu
«Vətən», - dedi,
«xalq», - dedi.
O, azadlıq naminə
Bədbəxt məmləkətinə
«Oyan» dedi,
«Qalx!» dedi.

Qalxdı bütün məmləkət,
Getdi onun dalınca.
And içdilər qılınca
Hamı çarpışacaqdır
Zillətin caynağından
Azadlığı alınca.
Vuruşdular,
qırdılar.
Qırdılar,
qırıldılar.
Axır, məğlub oldular.
Başçı təslim olmadı
Çəkildi Ərk başına
Vuruşdu təkbaşına.
Vuruşdu illərlə o.
Vuruşdu, usanmadı.
Nə qədər vuruşurdu,
Nə özünü,

*Siqqətül-İslam Məşrutə hərəkatının görkəmli mücahidlərindən biridir.

nə də ki
Azadlığın naminə
Ölən övladlarını
Qoca məğlub sanmadı...
Qəribə əhvalatlar
Gəzdi el arasında;
Axır düşdü lap əldən,
Qoca şiri tutdular
Bir gun mağarasında.
Öz xeyrini, şərini
Hələ də anlamayan
Boynundakı kəndiri
Özünə zinət sayan
Kəslər: «cəlladsan!», - deyə,
Başladılar o saat
Onu mühakiməyə.

Dedilər ki, neçə il
Qırğına verdin bizi,
Hamımızın gözündən
Saldın Vətənimizi...
Ölüm belə çox azdır,
Sənin kimi cəllada.
Qurban verdin minləri
Bir şöhrətə,
Bir ada...
Ölməlisən, ölməli,
Qatil qətl edilməli.
Qoca dedi, bu gəldi
Mənim əlimdən ancaq.
Ölüm naminə yox, yox,
Həyat!

Həyat naminə
Vuruşmuşam mən ancaq.
Anlaya bilmədiniz
Neyləyim ki, siz məni.
Tez öldürün, tez məni.
Bir ah çəkdi dərindən
Qoca qalxdı yerindən.
Baxdı dar ağacının
Yellənən kəndirinə.
İri addımlarıyla
Getdi edam yerinə.
Birdən o, nə gördüsə
Durdu...dayandı bir an.
Tez yolunu dəyişdi,
Dolandı,
Ötdü yandan.
Yol üstündə alovtək
Alışan bir çiçəyə,
Qıymadı...
Geri döndü
Ölümə gedəndə də
O, adi bir çiçəyin
Həyatını düşündü...

*İyul 1972*

## DƏRDƏ BAX!..

BMT-nin önündə yüz iyirmi altı bayraq,
Alışır çıraq-çıraq!
Yüz iyirmi altı ölkə,
yüz iyirmi altı millət!
Bir binaya toplanıb bu boyda bir planet.
Qalxır nümayəndələr,
qalxır uca kürsüyə.
Hər biri bir millətin,
məmləkətin adından.
Onlar baxır dünyaya,
Özünün haqq sandığı,
Mənim nahaq sandığım
qara etiqadından...
Təzadların içində fırlanan bu dünyanın
Hadisə dalğaları...
BMT-də xəbəri,
yerlərdə mübtədası!
Bu salonda səslənir
Bir ağızda boyalı, bir ağızda boyasız
onun əks-sədası!..
Xəbərlər axın-axın,
Xəbərlər uzaq, yaxın.
Xəbərlərin hər biri,
Həm sözü, həm özüdür
bir amalın,
bir yolun!
Xəbər dalğalarının sahilidir bu salon!..
Ölkələrdə təlatüm!
Ölkələrdə təlatüm!

Yüz iyirmi altı bayraq!
Bu say bu gun, bu qədər!
Allah bilir bu rəqəm,
                    Sabah necə olacaq?!
Toplar susub, danışmır.
Cəbhədə yox,
Burda gör,
                    burda
                              əsl döyüşü.
Susub hünər döyüşü,
                    Başlanıb dil döyüşü!
Əvəz edib gülləni
Adamı öldürməyən,
Ədalətin adından, ədaləti öldürən,
Bərbəzəkli söz indi.
Bacarırsan döz, indi!..
Natiqə bax!
                              Danışır:
Qəhqəhə adlandırır
Anasını itirən körpənin fəryadını.
Vyetnama tökülən bombaların adını
«Ədalət çiçəkləri» çağırır!..
                              Sən dərdə bax!
Vicdanı iştahına yedirən namərdə bax!..
Əməl hara, söz hara?
Necə dözür bu kürsü,
Həqiqətin üzünə gözgörə şillə çəkən
                              ağappaq yalanlara?
Burada ürək danışmır
Burada sözün dalında
Ürək deyil,
Söz durur!

«Su» sözünün dalında
«Atəş» durur,
«Köz» durur!..
Burda «sevgi» sözündə sən «nifrəti»
başa düş.
«Azadlıq» kəlməsində «əsarəti» başa düş.
Diplomatın rəqibə hiylə dərsi həqiqət.
Diplomatın dilində
Sözün özü yalandır.
Sözün tərsi – həqiqət!..
Nə qədər ki, ürəklər danışmır kürsülərdən,
Haqsızın dilindəki «haqq» sözünə gülmə sən.
Haqqı susduracaqlar, onun işartısını
Uzaqdan sezən kimi.
Əzən, əzilən kimi,
Əzilən əzən kimi
Ənliyi kirşanıyla gözünə dürtüləcək.
Yalanlar, ağ yalanlar həqiqətə güləcək!

İstərəm,
istərəm mən:
Diplomat natiqləri,
Qovulsun kürsülərdən.
Sözlərin təpiyində «haqq» sözü tapdanmasın!
Haqq haqsızın oduna
Alışmasın,
Yanmasın!
Öz oduna alışsın!
O uca kürsülərdən
Qoy alimlər danışsın,
Filosoflar danışsın,
Nəğməkarlar danışsın!

BMT məclisində
Nəğmədir mənim səsim!
Olmamış
                    söz dalında
Özgə qəsdim, qərəzim.
Həmişə haqq demişəm.
Əzilənin haqqını, əzəndən istəmişəm!
İstərəm öz dərdini ürəyində gizlədib
Millətlər ağlamasın
Astadan xısın-xısın!
O uca kürsülərdən
Əzilənin haqqını
Ürəklərin dililə
Nəğmə tək pıçıldasın!

*Noyabr 1971*

## ƏSGƏR – ŞAİR

*Azadlıq - Allahımdır.*
**Ş.Petefi**

Əl çatmaza Allah dedi insan,
Allah dedin azadlığa
əl çatmadığından.
Fikrən ucalıb göylərə uçduq
Mehraba əl açdıq və soruşduq:
- Allah nədir?
Allah necə möcüz, necə sirmiş?
Tapdıq,
hərə öz eşqini Allahı bilirmiş!
İsalar üçün - öz dini Allah,
Fərhadlar üçün – Şirini Allah.
Leylalar üçün – Məcnunu Allah.
Hakimlər üçün – qanunu Allah!..
Qanun səni qul etdi vətəndə,
At oynadı, dağ bitdi sinəndə.
Qul olmaq olar
eyləsə məcbur səni gərdiş.
Qulluqla barışmaq, daha müdhiş!
Qulluqla barışmaz əsl insan,
əsl əsgər,
Yurdunda qul olmaz
ona övladlıq edənlər!
Gördün ki, sənin yurduna
yadlar əl uzatdı
Köksün çəpər oldu,
Azadlığa əl çatmadı,

Ömrün başa çatdı,
Ancaq sənin arzun səhər oldu...
Yad köksünü dağ-dağ eləyən,
mərmiyə döndün.
Şairliyə fəxr etmədin,
əsgər tək öyündün.
Oldun vətənin dərdinə məlhəm,
ona sirdaş.
Oldun bütün insanlıq üçün
fəxri vətandaş!

Azadlıq üçün şeirini yazdın,
Keyfin üçün azadlığı sən
arzulamazdın!
Şeirin sənin hakimlərə göstərmədi qulluq.
Amalını sən
şeirin üçün
sevməmisən, yox!
Şeirin sənin amalın üçündür.
Şeirin sənin amalına yol,
fikrinə yöndür!
Alqış sənə, ey fikrinə qul,
qəlbinə rəhbər,
Eşqində də, əzmində də
şeirində də əsgər!

*1970*

## TƏRK - SİLAH

Uca-uca kürsülərdən qışqırırlar:
- Yox, yox, gərək
Çeşid-çeşid bombaları
Ağır-ağır silahları məhv eləyək!
Okeanın o tayından, bu tayından bağırırlar:
- Bircə tükdən asılıdır
Gələcəyi ərşimizin!
Hidrogenin hədəfində
Bir sıfıra dönüb itər
                    Bizim,
                              Sizin!
Bu ayaqda kimə pənah aparılsın, nəyə pənah?
- Tərk-silah,
- Tərk-silah!
Söz yaxşıdır, əməl hanı?
Hansı sözlə yuyulubdur ürək qanı?
Söz, siyasət pərdəsinə bürünəndə
Şeytan mələk sifətində görünəndə
Çirkin dönüb göyçək olur,
Yalan dönüb gerçək olur.
Gəlin, ataq
Kökü qəlbə bağlanmayan
Üstü bəzək, altı bəzək bu sözləri.
Bombaların zülmətində boğmamaqçın
                              gündüzləri,
Silahlardan öncə gərək,
Ürəklərdə beyinlərdə yuva salan
Xəbis-xəbis fikirləri

Paxıllığı,
Küdurəti, mənəmliyi,
Məhv eləyək,
Məhv eləyək!

*1973*

## DAN YERİ

*Son zamanlar ABŞ-da «Başqa cür düşünənlər»in adı «qara siyahıya» düşür. Bu siyahıya düşənlərdən biri də məşhur fizik, «Xalqlar arasında sülhü möhkəmlətmək üçün» beynəlxalq Lenin və Nobel mükafatları laureatı Laynus Polinqdir.*

**Qəzetlərdən**

Mənim fikrim,
                    sənin fikrin,
                    onun fikri...
Bu nə demək?
Bir ölkənin milyon-milyon vətəndaşı
Başqa-başqa düşünərsə
Bəs hökumət nəyə gərək?
Biz hamımız bir fikrin
                    bir səsiyik.
Laynus dedi, yox, yox, məgər
Biz hamımız bircə rəngli
İnkubator cücəsiyik?
Yoxmu mənim öz varlığım,
                    öz nəfəsim?
Axı neçin boğulmalı
                    mənim sözüm,
                    mənim səsim?!
Susdurdular dərhal onu,
«Haqq» adından haqq oğlunu.
«FBR»in düzəltdiyi
Müdhiş qara siyahıya

Artırıldı bir nəfər də.
Adlar deyil,
düşüncələr
yanıb susdu.
Susub yandı o dəftərdə.
Hökumətlər cərgəsində
Öz yerin var.
Hidrogenin, atomun var.
Tankların var, topların var.
Nələrin var,
Nələrin var!
Qüdrətini, qüvvətini
Ağır-ağır silahlara sən vermisən
Bəs eyləsə, niyə qorxdun?
Qorxun nədir bilirmisən?
Ürəyinin ortasından
Bir səs dedi, haqqa sığın!
Sənin qorxun haqsızlığın!
Atomunla, raketinlə
Sən elə zənn eləmə ki,
Hakimisən yerin,
göyün.
Boş havadır səsin, küyün.
Silahlara arxalanan sənin gücün,
zəifliyin,
acizliyin,
gücsüzlüyün.
Haqqın uzun ipinə bax, o yumaqda
əməllərin
düyün-düyün...
Heç xəbərin yox özündən.
Yarpaqları sol tərəfə əyən külək

sağdan əsir.
Onu soldan axtarma sən.
Orda, burda sən özünü çox öyürsən,
Əslindəsə,
Sən qorxudan uçunursan,
üşüyürsən.
Qorxmadığın bir məmləkət
de, varmı heç?
Belə qanlı silahları olan ölkə
qorxarmı heç?
Sən qorxursan dünən, bu gün.
Min hidrogen bombasından
qorxuludur sənin üçün
qanan bir baş,
yanan ürək!
Sən atomdan qorxmamısan
Bir fikirdən, düşüncədən
qorxduğuntək!
Boyaları həqiqətdən,
Həqiqəti rəzalətdən
Öz gözüylə gördüyünü boş nağıldan
Seçə bilən,
bir ağıldan,
niyə qorxdun?
Bilirəm mən!
Əgər o, bir böhtançısa,
yalançısa,
Niyə onun dediyini
Məmləkətdən gizlədirsən?
Niyə onu həbs edirsən?
Milyon-milyon qoşunun var.
O isə tək.

Niyə qorxdun?
Təkbaşına Laynus sənə neyləyəcək?
Dəhşətlidir «qara dəftər»
Qananların,
haqq oduna yananların
siyahısı!
Başlarını yerə dikib
Qoyun kimi otlayanlar,
Əsarəti hürr sayanlar,
Bu Vətənin hər neməti, sizə ehsan!
Ey Vətənçün alışanlar,
Susmayanlar, danışanlar,
Qismətiniz ölüm, zindan!
Atomun var, raketin var,
Sən qorxursan.
Bu qorxunun ağırlığı
Sənin haqsız işlərinin
Çəkisidir,
dəyəridir.
Üfüqdəki al rəngə bax,
Dan yeridir,
Dan yeridir!

*1972*

## KÖLGƏLƏR

Diplomatlar qışqırışır:
Ağızlarda şirin-şirin kəlmələr.
Dedikləri yalanların
Yaxasını düymələr,
Görünməsin ürəkdəki
qara-qara kölgələr.
O kölgələr, o kölgələr
O zaman ki, üzə çıxar,
Göydən yerə od ələr.
Viran qalar ölkələr...
Yanır Misir,
Yanır Şam.

Od ələnir torpağına, daşına
O dünənki bər-bəzəkli kəlmələr,
Oda dönüb yağır bu gün
Bir millətin başına...
Budur, budur ürəklərdə yuvalanan
kölgələrin bəhrəsi.
Atəş səsi, ah səsi!
Təzə-təzə silahların
Bazarıdır kölgələr,
İşıqların məzarıdır kölgələr.
Kölgəyə bax.
Əllərində od tutub, od daşıyır,
Kölgə kimi doğulsa da,
işıq kimi yaşayır.

*Oktyabr 1973*

## ŞAİRLƏRİ ÖLDÜRÜRLƏR

*Müstəbidlər başa düşmür şairləri, O zaman ki başa düşür, fərman verir ölümünə.*
**A.Voznesenski**

Öldürdülər Nerudanı.
Öldürdülər ömrü boyu
Qəm çəkəni, dərd udanı,
Öldürdülər azadlığın nəğməsinə
Nəğməsilə dəm tutanı...
Öldürür şairləri
Kimisini birdən-birə
Bıçaq ilə,
Güllə ilə.
Kimisini
Ürəyinə yeridib söz zəhərini
gilə-gilə...
Öldürürlər,
Hədə ilə,
Qorxu ilə,
Təhdid ilə...
Öldürürlər şairləri,
Qana-qana.
Bilə-bilə.
Şairlərin dillərini bağlayanda
Öldürdülər onları öz əllərilə...
Ürəyini dəlib çıxan
fikirləri demək üçün,
Şair dözər hər zülümə.
Dodağını kilidləmək

Şair üçün bərabərdir ölümə.
Öldürürlər şairləri –
Öldürürlər, xəyalları,
                    fikirləri...
Yox-yox!
Fikir ölə bilməz.
O, şairin cismində yox,
                    sözündədir.
Ədalətlə cilalanan,
Həqiqətdən  qüvvət alan
Qadir sözün qabağında
Güllə nədir,
                    atom nədir?..
O deyəcək öz sözünü.
Qaynayacaq, o, daşacaq,
                    o, coşacaq.
Söz həmişə
Ədalətin düşmənilə
                    vuruşacaq!
Söz yerlərdə sürünməmiş,
Dodaqlarda çiçək açmış.
Doğru sözün qabağında
Yalan sözün rəngi qaçmış.
Söz nəbzidir,
            haqq səsidir zəmanənin,
            Aynasıdır zəmanənin.
Ey müstəbid, dünənə yox,
                    bu günə bax!
Sən aynanı sındırmamış
O aynada
Öz eybəcər üzünə bax!
Yalanların boyasıyla

bəzəsən də üzünü sən,
O aynada görəcəksən
düzünü sən!
Yaxşı görür
Şairlərin iti gözü
Yalan ənlik-kirşanın
Dalındakı murdar üzü!
Haqla nahaq,
Gerçəkliklə yalançılıq
üzləşdiyi gündən bəri,
Öldürürlər şairləri...
Haqq istəmək,
Düz danışmaq
hələ qalsın bir tərəfə
Göz yaşı da,
hıçqırıq da
yasaq olan bir ölkədə
Qatı zülmət işıqlıqda,
nur kölgədə...
Buna dözmək?
Necə dözmək?
Xunta qeyri-qanunidir.
Əxlaqsızın törəməsi
bicə dözmək,
Necə dözmək?

*Oktyabr 1973*

## YAŞIDLARIM

*Uşaqlıq dostum Əhmədov Əhmədiyəyə*

Yaşıdlarım,
Dağlar başı gümüşüdü
Külək əsdi,
Gül üşüdü.
Qapımızı döyən rüzgar,
Təbiətin istehzalı gülüşüdü...
O saralan yarpağa bax,
Göy ota bax!
Göy üzündə çarpazlaşan
buluda bax!
Mürgüləyən dərələrdə
sükuta bax!
Günümüzü günümüzdən
borc alırıq.
Boynumuza almasaq da,
Yavaş-yavaş qocalırıq.

Yaşıdlarım,
Zaman boyu səfərdəyik.
Bizə üşaq deyərdilər,
Sonra cavan...
İndi nəyik?
Gördünüzmü həm od tutan, həm su tutan
bir əlində?
O ki bizik...
Dayanmışıq,
Cavanlığın axırında,

Qocalığın əvvəlində...
Üzümüzə, gözümüzə
Qar da yağır
dənə-dənə,
birəm-birəm.
Bəzən olur,
məclislərdə
Mən özümdən yaşlısını görəmmirəm.
Bu dünyaya verdiyim az,
Aldığıma utanmıram.
Məndən cavan adamların
Öldüyünü eşidəndə
Qaldığıma utanıram...
Zaman keçir,
Yaman keçir!..
Tanışların, həmyaşların
Adları da
köhnə telefon dəftərindən
Düşür, bir-bir
qaralanır.
Hər cızıqda
ürək bir yol yaralanır.
Dəftərimdə
təzə-təzə tanışların
ünvanları sıralanır.
Öz hökmünü zaman verir
Yaşıdlarım çağırardı
Bir vaxt məni toylarına,
Evlənərdi...
İndi onlar qız köçürür,
İndi onlar evləndirir.

Yaşıdlarım,
ataları, anaları
yola saldıq,
Yetim qaldıq.
Balalara
Ataların, anaların
Adlarını verə-verə
Biz keçmişlə gələcəyin arasında
körpü saldıq.
Atalara olan sevgi
Balalara keçdi... sevdik,
həm sevildik.
Balamızı
ata bildik,
ana bildik.
Cavan ikən ömür üçün
Mən altmışı çox sanmışam.
İndi isə deyirəm ki,
cavan ölmüş
Altmışında ölən atam.

Gah qalxırıq,
Gah enirik.
Yaşamaqdan yaşamağı öyrənirik.
İçimizdə iki duyğu, iki fikir,
Bir-birilə hey güləşir.
Tanıdıqca bu dünyanı
Heyrət gedir,
Yaşamaq da adiləşir.
Ancaq... bəs bu, nə sirdir,
Hər yeni bir kəşfimizdə
Biz təzədən doğuluruq?

Qocaldıqca,
bu dünyaya
Daha böyük bir həvəslə
bənd oluruq.
Dünyanı öz xoşumuza tərk etmirik.
Övlad olub ataları,
Ata olub övladları
Dərk etmirik.
Dikdə eniş axtarırıq,
enişdə dik.
Özümüzün
büdrədiyi döngələrdə,
övladımız büdrəyəndə
deyinirik...
Düzü budur: qocalırıq,
qocaldıqca
özümüzə vuruluruq.
Yaman deyingən oluruq.

Hər meyvəni öz vaxtında yeyərdik biz
şirin-şirin,
İndi isə...
deyirik ki,
Dadı qaçıb meyvələrin.
Bu, düzmüdür?
Xeyr, xeyr!
Meyvə həmin o meyvədir.
İndi bizim,
Dadı qaçıb ağzımızın!

Təngiyibdir nəfəsimiz.
Eniş bitib

Dik çıxırıq...
Eyni rəngli sərt qayalar
Sağımızda, solumuzda,
Qanqal bitib yolumuzda.
Darıxırıq,
darıxırıq.
Könül yaxan bir afətin yanında da
Darıxmağa başlamışıq.
Qadınları sevə-sevə,
Qadınlardan
Biz qorxmağa başlamışıq.
Cürətimiz
qaçaq düşüb qəlbimizdən.
Bir addımı atmaq üçün
Min addımlıq düşünürük
uzun-uzun...
İmkanımız
Arxasınca gedə bilmir
arzumuzun...
Qəlbimizdə bir daş kimi
Düyünlənir istəyimiz.
Gözümüzün ləzzətinə
Çata bilmir ürəyimiz.

Könül dinclik sorağında
Təlatümlər,
həyəcanlar.
İtirdiyim illər kimi
uçub getdi
Küləklərin qabağında.
Yanıb sönür,
sönüb yanır

Yaddaşımın çıraqları.
Gah həsrətlə,
Gah nifrətlə
yad edirik
Hər saatı təlatümlə ötüb keçən
o çağları...
Balaların sevgisinə paylanırıq.
Gah da olur,
həsrət ilə
Durduğumuz bu zirvədən
Enişlərə boylanırıq
yazıq-yazıq.
Sözlərimiz soyuq,
ılıq...
Söhbətimiz qırıq-qırıq...
Ey cavanlar,
Sözümüzə qulaq asın,
Nəsihətə başlayırıq...

*Sentyabr 1973*

## ZAMAN KEÇİR

Zaman keçir,
Neçə təzə ümid dolur,
Arzu dolur ürəyimə.
Köhnələri hədər olur,
Kədərlərim sevinc olur.
Sevinclərim, kədər olur.
Zaman keçir,
Arzularım, fikirlərim,
Bir-biriylə hey güləşir,
Bir vaxt mənim sevdiklərim
Gözdən düşür,
adiləşir.

Zaman keçir,
Ötənləri
Qəlb unuda bilməsə də, göz unudur.
Zaman keçir,
Köhnə, dərin yaralar da
Köz bağlayır, qaysaq tutur.
Zaman keçir,
Var yox olur, yox var olur.
Mıx da dönüb mismar olur.

Zaman keçir,
Gündüz ötür,
Gecə gəlir,
Heç bilmirik necə gedir, necə gəlir!
Zaman bizə verdiyini
Bizdən alır.

Zaman keçir,
Fərəhləri unuduruq,
Kədərlərin könlümüzdə izi qalır.
Zaman gözə kölgə salır,
Sürmələyir baxışları.
Zaman keçir,
                                        sən enirsən,
Qalxa-qalxa yoxuşları...

Zaman keçir,
Yüyürürük zaman boyu
Ümidlərin gur işığı gözümüzdə
Zaman keçir,
Dönürük vaxt ölçüsünə özümüz də.

*Yanvar 1973*

## QARA QUTU

*Amerika jurnalisti Devid Rorvik «Dünən dəyənək, bu bün qara qutu» məqaləsində göstərir ki, Amerikada adamları müti robota çevirmək üçün hər vasitəyə əl atırlar. Mərkəzi kəşfiyyat idarəsi adamların danışığını yazmaq üçün «qara qutu»lardan istifadə edir.*

**«Lit. qazeta», 8 yanvar 1975**

Rorvik deyir:
Ötüb keçdi dəyənəklər zəmanəsi.
Gəlib çatdı,
Dodaqlarda, qulaqlarda
Döyənəklər zəmanəsi.
Eyni sözlər dodaqlarda cadar oldu,
Qulaqlarda qabar oldu.
Dedilər ki, bir mehraba əl açmalı,
Bir cığırla dağ aşmalı,
Eyni sözü eşitməli,
Eyni sözü danışmalı!
Eyni sözlər qulaqları döyəclədi,
Ötüb keçdi dəyənəklər zəmanəsi.
Gəlib çatdı döyənəklər zəmanəsi.
Qulağımız yağır oldu.
Ötən günlər bu günlərdən fağır oldu.
Döyənəklər dəyənəkdən ağır oldu.
Küçələrdə,
Mənzillərdə,
Otellərdə – qara qutu
Fikirlərin

Arzuların dar tabutu!
Ora getmə, geriyə dön, qara qutu!
Kibrit boyda maqnitofon – qara qutu!
Öz halalca mənzilində
Ürəyini danışdırma sən, dilində!
Siyasətlər pilləsilə
Rəyasətə qalxanların
Çirkabına bulaşarsan.
Öz dilindən dolaşarsan!
Hər şəhərdə, hər otaqda
O bucaqda, bu bucaqda
İzlər səni qara qutu.
Həqiqətdən, ədalətdən
Gözlər səni qara qutu
Fikirlərin, arzuların dar tabutu!
Sənin haqqın qutulardır.
Haqq önündə əyil,
Əyil!
Tək özünmü? Xeyr, xeyr!
Beynindəki fikirlər də,
Qəlbindəki duyğular da
Sənin deyil,
Sənin deyil!

Basdı bütün məmləkəti
Qutuların vahiməsi.
Ürəklərdə doğulmamış
Tez boğuldu
Fikirlərin çağa səsi.

Fikirləri güllələyib
Xəyalları öldürdülər,

Tökülmədi ancaq qanı.
Düşünənin yanan qəlbi
Fikirlərin qəbristanı!
Bir ürəkdə yüz-yüz qəbir!
Kimə verək başsağlığı?
Ölənlərin sahibi yox!
Biz, işıqlı fikirlilər,
Bir fikirsiz əqidəsiz
qulbeçəyə qul olmuşuq!
Ayaqlara yol olmuşuq.
Baxın bizə, görün bizi,
Nə gündəyik.
Heç bilmirik nə məsləkdə,
Nə dindəyik.
Biz hamımız
Kibrit boyda
Qutuların içindəyik!

*1975*

## 50 YAŞIM

Mən necə oldu ki, çatdım əlliyə?
Yox, deyə bilmərəm,
Dedilər, niyə?
Bir içim su kimi içdim mən onu.
Əllicə an imiş, demə, əlli il.
İllərin nə təhər sovuşduğunu
Bilərək yaşamaq, yaşamaq deyil.

Bilmədim...
Könlümün həyəcanları,
Qovladı bu dağdan o dağa məni.
Ömrün arzu dolu pilləkanları
Uçurdu budaqdan-budağa məni.

Gün doğdu...
Həvəslə,
Yanan ürəklə
Çalışdım, vuruşdum...
Gün axşam oldu.
İli qarşıladım təzə diləklə,
Bir də ayıldım ki, il tamam oldu.

Yol getdim...
Saymadım yağışı, qarı.
«Məqsədə tələsən dincəlməz», - dedim.
Yanımdan ötüşdü verst ağacları,
Macalım olmadı, saya bilmədim.
Elə qanadlandım,
Mən elə uçdum,

Sürətim döndərdi ayı həftəyə.
Arzular ardınca göylərə uçdum,
Yerin təqvimləri yaramır göyə.
Zəhər də içmişəm, bal da yemişəm.
Ömrümün yolları min keşməkeşdə.
Mən vaxtı heç zaman gözləməmişəm,
Vaxt özü qapımı döyüb həmişə.

Məni yaşadan da təlatüm oldu,
Dalğalar qoynunda ötdü anlarım.
Mənim zaman ölçüm, vaxt ölçüm oldu,
Ölçüyə gəlməyən həyəcanlarım.

Mühit dənizidir önümdə masa,
Ləpədir ömrümün hər anı, qardaş.
Dalğalar ürəkdə baş qaldırmasa,
Həyatda axtarma dalğanı, qardaş.

Yaşadım, bildirib vaxta həddini
Dəli dalğaları mən yara-yara.
Yaşadım...
                    Eşq olsun vaxtın həddini
Özünə sığdıran çırpıntılara!

Zirvədən ötübdür, döşə qar yağır,
Külək əsir,
                    Tez-tez kövrəlir ürək...
                    Nə qəm.
Əllimi xərclədim...
                    Xoşbəxtliyimdir,
Neçəm qaldığını deyə bilmərəm.

Gah müdrik qocayam, cah cavanam mən,
Yadıma salıram gah da ilkimi.
Könlümə sığmayan təlatümümdən
Yaşadım əllimi bircə il kimi.

*1975*

## QOCALAR

Çənə əl üstündə, əl çomaq üstə
Qocalar əyləşir tin başlarında.
Sinə bayatılı, könül şikəstə,
Ömür varaqlanır yaddaşlarında.

Yaşıdlar köç edib, cavanlar işdə
Tək-tənha oturmaq son əlacları.
Həyatın amansız yalqızlığında
Tutur əllərindən əl ağacları.
Yumub gözlərini düşünür onlar.
Durur göz önündə ötən zamanlar.

Yerdə çuxur açır çomağın ucu,
Sonuncu həddinə dirənib ömür.
Dünyadan aldığı, dünyaya borcu
Nəymiş?
        Düşüncənin sonu görünmür.

Çomağın ucuna dikib gözünü,
Onlar saatlarla oturar belə.
Fikir bir gəmi ki, bilinmir yönü,
Çırpınır, çıxammır ancaq sahilə.

Onlar düşündükcə boşalar, dolar.
Birdən düyün düşər fikrin əvvəli.
Doqqazlar başında bizim qocalar
Düşüncə heykəli, fikir heykəli!
Əvvəllər deyərdim, onlar bu qədər
Bekarca oturub darıxmır məgər?

Kitab oxuyardım darıxmamqçün
Onların yerinə olsaydım əgər.
Bir qalın kitabmış hər ömür, demə,
Oxumaq istəsən, yum gözlərini.
Bekar deyilmişlər...
                                        Ürəklərində
Onlar oxuyurmuş öz-özlərini.

*Yanvar 1976, Ağdaş*

## GÜNDƏLİK

Gündəlik yazıram gənclikdən bəri
Kitablar bağlanıb əməllərimdən.
Təzədən dirildib ölən günləri,
Varaqlar üstündə yaşadıram mən.

Gündəlik yazıram!
Gündəlik nədir?
Ölən günlərimin qəbristanlığı!
Bəzən bir ömürdən bizə əzizdir,
Uzun bir ömürün bircə anlığı.

Ötənlər acıdır, ötənlər şirin.
Gün keçir,
İz qalır varaqlar üstə.
Alışıb yandığım hisslərimin
Külüdür qaralır varaqlar üstə.

Gündəlik yasların, toy-düyünlərin,
Hələ qulağımda çırpınan səsi.
Sözlərdə dil açıb dinir günlərin
Acı hönkürtüsü, şirin nəğməsi.

Gündəlik yazıram...
Xeyirim, şərim.
Sözlərin kimi şax, kimi utancaq.
Heç kəsə danışa bilmədiklərim
Onun sinəsinə yazılır ancaq.
Bircə əqidəmə çəkmirəm xına,
Sürmə götürməyir gerçəyin gözü.

Yalan danışsaq da başqalarına
Aldatmaq çətindir öz-özümüzü.
Olanı yazıram olduğu tək mən.
Bu günüm
                    Dünəndən
                    Məgər böyükmü?
Qələmim ayırır məni özümdən,
Oxuyur dünənə ittiham hökmü.

Ötən günlərimi varaqlayıram,
Hər sətrin üstündə ürək döyünmüş.
Beşinci varaqda şübhələndiyim,
Onuncu varaqda inama dönmüş.

Sonradan açılır şübhələr, sirlər,
Sandıq gündəliyim - sərvətim, varım.
Ömrümün yolları, acı sətirlər,
Özümün özümə istehzalarım!

Bəzən arzularım toxunur daşa,
Bəzən gerçək olur ilk gümanlarım.
Yatır gündəlikdə, yatır baş-başa
Acı saatlarım, şirin anlarım.

Gündəlik!
                    Calanır biri-biriylə
Kamal zirvəsinə qalxan pillələr.
Bəzi səhifələr özgə əlilə
Üzümə çəkilən qızıl sillələr.

Gündəlik yazıram. İbrət götürüm.
Özümdən...

İnanıb öləcəyimə.
Ayaq izlərimi deyirəm, görüm
Keçmişim yön olsun gələcəyimə.
Ömür bir yoldur ki, aparır bizi
Nə yola baxırıq, nə yolda izə.
Elə ki yazırıq əməlimizi,
Ayaq izlərimiz görünür bizə.

Həyatda adicə vətəndaşam mən
Hakimə dönürəm masa başında.
Bəzən kiçilirəm xəcalətimdən,
Masa başındakı söz savaşında.

Bəzən də yazdığım xoş əməlimdən
Özüm də böyüyüb ucalıram mən.
Deyirəm, yaxşılıq aləmi sarsın
Üz-üzə dayansın xeyirim, şərim.
Elə yaşayım ki,
Həsəd aparsın,
Ölən günlərimə qalan günlərim.

*Noyabr 1975*

## VAXTINDA

«Ömrün uzun olsun!», - dedilər mənə
Gələn ki, gedəcək, ya tez, ya da gec.
Bu ömür kimsəyə gərək deyilsə,
Mənim özümə də gərək deyil heç.

Gərək bilirlərsə dünyada səni,
Bir göz qırpımında ötüşər illər.
Elə ki, itirdin gərəkliyini,
Ömür də uzanar sonsuzluq qədər.

Usanıb, yorulub yaşamaqdansa,
Gözəldir min dəfə çox erkən ölmək.
Dünyaya yük olub yaşamaqdansa,
Dünyanın yükünü çəkirkən ölmək!

Həyat mənim olsun!
O, qul, mən hakim!
Zirvəyə ucalsın həyatın yolu.
Ölümdən qorxmayan de, kimdir, de, kim?
Mənasız yaşamaq ondan qorxulu.

Yaşamaq həvəsi məni ucaldar,
Gərəkli görəndə əməllərimi.
Barama qurduna çox həsədim var.
Ölür öz işini qurtaran kimi.

Min il də yaşasan, doyammaz ürək.
Əcəldən qaçmazsan,

Gələcək bir gün!
Vaxtında! Vaxtında öləsən gərək
Eşqində əbədi yaşamaq üçün.

*1976*

## TRAMVAY

Atılıb düşürdük şadlığımızdan
Bakıda ilk dəfə tramvay yolu
Çəkilən zaman.

Mahnı oxuyardıq küçələrdə biz:
«Bakıya qırmızı tramvay gəlir»
Yaşlılar deyərdi, gör şəhərimiz
Necə gözəlləşir, necə yüksəlir.

Yaşlılar getdilər...
Qocalıram mən.
Başqa bir məqama çatdı əsrimiz.
Zaman tramvayı qovdu şəhərdən,
Bu günsə buna da sevinirik biz.

Bu iki sevincin arasındakı
Yollarda dəyişdik:
Həm biz,
Həm Bakı.

*1974*

## GÜN VAR, MİN AYA DƏYƏR...

*Əzizim min ayə dəyər,*
*Qaşın min aya dəyər.*
*İl var, bir günə dəyməz,*
*Gün var, min aya dəyər.*

On ömrə, yüz ömrə dəyişmərəm heç
Dərinə boy verən qısa bir ömrü.
Vaxt mənim qəlbimdən gəlib keçməmiş,
Bilinmir dəyəri, bilinmir ömrü.

Bunu kim bilmir ki, ağırlığından
Müddətə sığışmır hicranın ömrü.
Zamanla ölçsək də
Axı çox zaman,
Zamanla düz gəlmir zamanın ömrü.

Kim deyir, gün ömrü günə bərabər?
Kim deyir, həftə də elə həftədir.
Kim deyir, günəşin doğuşu səhər,
Gecənin ömrünə sondur, nöqtədir?

Gecə... Zaman gəzir o ev, gah bu ev.
Bir damın altında iki qonşu ev.
Birində ananın axşamdan bəri,
Yollara səpilib düşüncələri.
Oğlunu gözləyir...
Bəlkə...
Bəlkələr...
Elə indi gələr, bir azdan gələr...

Diksinir hər səsə, hər hənirtiyə
Budaqdan - budağa qonur xəyalı.
Bəlkə də... başında qəza var, deyə
Düşünür...
                    Elə bil donur xəyalı.
- Mən nə danışıram, dilim qurusun,
Düşünür, düşünür o, uzun-uzun.
Xəyalı gah dağda, gah da aranda,
Gözləri saatda, fikri gümanda.
Elə bil bu gecə dağ çəkib günə,
Gündüzün ömrünü qatıb ömrünə.
Ana günahkarmı sanır gecəni,
Danlayır səhəri, danır gecəni.
Səhər açılmır ki, bir neştər təki,
İşıq qaranlığın bağrını yarsın.
Səhər açılmır ki,
                    Ürəyimdəki,
Qara fikirləri yuyub aparsın.

Qonşu otaqdasa iki sevgili,
Üzür bir arzunun sərçeşməsində,
Neçə həsrət ili, neçə qəm ili,
İtir iki qəlbin birləşməsində.
Şirin etiraflar...
Xoş pıçıltılar...
Sükutun bağrını sökür gizlicə.
İki həsrət qəlbin qovuşmasına
Ünvan olduğuna öyünür gecə.
Oğlanın qoynunda qız gülə-gülə
Açıq pəncərədən boylanır çölə.
Deyir, ayrılığın vədəsi çatdı,
Səhər nə tez gəldi, bizi oyatdı...

Bir evdə intizar, könül möhnəti,
Vaxtın ayağına daş bağlayıbdır.
O biri evdəsə vəslin ləzzəti,
Vaxtın özünü də ayaqlayıbdır.
Qoy zaman ölçüsü zamanın olsun,
Bu ölçü düz gəlmir istəyimizə.
Gün var ki, ildən də uzundur, uzun,
İl var ki, gündən də qısadır bizə.

*Avqust 1974, Şəki*

## KİÇİKMİ, BÖYÜKMÜ?

Sanırdıq dünyanı ucsuz-bucaqsız,
Dağıldı o köhnə təsəvvür, güman.
Dolandıq başına bir saata biz,
Gör necə kiçikmiş anamız cahan!

Dünyanı yenidən bölüşmək üçün
Qan tökdü krallar, şahlar hər zaman.
Demə, bir bombayla dağıtmaq mümkün,
Gör necə kiçikmiş anamız cahan!

Bircə dəqiqəyə xəbər tuturuq
Ərzin gah o başı, gah bu başından.
Min illər yaşadıq, sadəlövh olduq,
Gör necə kiçikmiş anamız cahan!

Onsuz istəyini boğa bilmədi,
Arzu böyüdükcə böyüdü insan.
Qananlar dünyaya sığa bilmədi,
Gör necə böyükmüş anamız cahan!

*1977*

* * *

Gələn gedir ya tez, ya gec.
Yoxluğumu düşünürəm,
Yox olanı
        düşünməyə dəyərmi heç?
Nəyə isə,
Kimə isə
        Biz həmişə vurulmuşuq.
Biz sevgiylə
        Yoxdan dönüb var olmuşuq.
Sevgi yaman qan uddurur...
                        Ancaq mənə
Varlığımda
                yoxluğumu unutdurur.

*Avqust 1977, Şəki*

## SOLUR BAĞÇALAR

Yarpaqlar tökülür,
                    Susur dağ, aran...
Susur yarpaqların şirin dilləri.
Qəmli nəğməsini ötüb astadan,
Əsir bağçalarda xəzan yelləri.

Yarpaqlar tökülür...
                    Tökülsün, nə qəm!
Bəs niyə qanım da qaralır mənim?
Payız
                    dumanıyla,
                              qaş-qabağıyla
Könlümdə bənd alır, yurd salır mənim.

Ötüb keçən illər sərvətim, varım,
Könlümdə gizlicə bir döyüntü var.
Yığılın başıma, ey yaşıdlarım,
Tökülür yarpaqlar, solur bağçalar.

*Sentyabr 1978*

## YAXŞI Kİ...

Motor uğultusu, çəkic zərbəsi,
Dəmir cingiltisi – əsrin öz səsi!
Yaxşı ki, səslənir hələ dünyada
Yarpaq pıçıltısı, bülbül nəğməsi!

*İyul 1978*

* * *

Gəl, enək tərkinə bilməcələrin,
İstək açılmayan düyünlər açar.
İşıqla zülmətin, dənizlə yerin,
Gündüzlə gecənin öz sərhədi var.

Birinin ilkidir, birinin sonu,
İnandım, təzadda qayda beləymiş!
Ancaq deyən ola mənə bir bunu:
Həyatla ölümün sərhədi nəymiş?..

*İyul 1978*

## AY GİDİ DÜNYA!

Gözümü açalı bildim, anladım,
İnsanı udmağa təşnədi dünya.
Xilqəti üyüdən dəyirman deyil,
Bəs nədi dünya?
Özündən soruşdum, susdu, dinmədi,
əsnədi dünya.

Bizi dinləmədi, özü danışdı,
Yanğısı danışdı, közü danışdı,
Dünyanı təkidlə hədələyənlər,
«Mən, mən», - deyənlər
Dünyanın bətnindən atom çıxartdı.
Özünün malını özünə satdı,
Atomun zərbindən inlədi dünya.
İndi də insanı dinlədi dünya.
Bəs indi necəsən, ay gidi dünya?

*Fevral 1977*

## TƏSKİNLİK

İlləri dən kimi zaman üyütdü,
Ocaq heydən düşüb, köz qaralıbdır.
Ömrün yayı keçdi, baharı ötdü,
Ömrün iztirablı qışı qalıbdır.

Onu da bilmirəm, qalıb, qalmayıb?
Bəlkə köçəcəyəm qışa çatmamış.
Amma həyat eşqi heç azalmayıb,
Köçmək istəmirəm qışı dadmamış...

Fəsillər gözəli bahardı, yaydı.
Qış əzab fəslidir...
                    Barı şaxta, qar.
Ömrün dadı-duzu arxada qaldı,
Öndə əzabım var, iztirabım var.

Vaxt boyu kiçiltdi, yaşı böyütdü,
Zaman verdiyini birbəbir alar.
Başımın üstündən ötdü, nə ötdü
İllərin köç edən səfi durnalar.

Gözümə tor gəlir... Belədi gərdiş.
Başıma gələnlər qədərdən gəlib.
Demirəm, gözlərim toran gətirmiş,
Deyirəm, havaya duman, çən gəlib.

Ağlımla hər şeyi görürəm, nə qəm,
Baxmadan seçirəm qaradan ağı.
Baxıram, yaxını görə bilmirəm,
Uzağı görürəm, ancaq uzağı.

Dəmdən düşdüyümü bildirməsəm də,
Zaman öz işində, öz işindədir.
«Hiss edə bilmirəm yaşı», - desəm də,
Bilirəm yaş nədir, ömür, gün nədir?..

Mənim öz məclisim, mənim öz yerim,
Çılğın duyğulardan yaşım çəkindi.
Gözəl qız görəndə yanan gözlərim
Oğluma gözaltı axtarır indi.

Bəs bu nə sövdadır, bəs bu nə həvəs?
Ölümü özümdən gen sayıram mən.
Cavanlar yanında bu nədəndi bəs
Yaşımı deməyə utanıram mən?

Ürək bu dünyadan küsdü, incidi,
Yaşımı birisi salırkən yada.
Dünya uşaq idi, dünya gənc idi,
Mənimlə bərabər qocalır o da.

Ayları, illəri çəkdim tarıma,
Yoxsa bezdirmişəm qoca dünyanı?
Yaşımı artırıb həmyaşlarıma
Uşaq tək baxdığım günlərim hanı?

Özümdən irəli baxırdım onda,
İndi arxadadır qəsdim, gümanım.
Dumanlı xatirə yağışlarında
İslanır ürəyim, islanır canım.

Kədərli anlarda anıram hərdən
Kimlər gəlib keçdi, dünyadan kimlər?

Bu, niyə belədir?
Yaşlaşdıqca mən
Oyanır ruhumda çox-çox qədimlər...

Atam, babam girir yuxuma tez-tez,
Andıqca rəngbərəng əməllərimi.
Yuxumda atamla atam kimi yox,
İndi danışıram həmyaşım kimi...

Nədir bu təlaşlar, heç sorma, könlüm,
Üzməsin bu yolda kədər, qəm səni.
İtən gəncliyini axtarma, könlüm,
Axtarsan, qorxuram itirəm səni.

Təzə pöhrələrə o qızmar günəş
Verib istisini qüruba endi.
Mənim itirdiyim o od, o atəş
Oğlumun gözündə alışır indi.

Dünya təzələnsin! Görüşüb qışla,
Bu haqqı həm bilən, həm danan mənəm.
Köhnə dünyamıza təzə baxışla
Övladlar gözündən boylanan mənəm.

*İyul 1978*

## TİLSİMLİ ALMA

Necə gözəl idim, sığmayıb yerə
Xəyallar dalınca qanadlanırkən.
Necə xoşbəxt idim,
möcüzələrə
Bir həqiqət kimi inananda mən.

Fikrimiz göylərə uçar, uçardı,
Gördük dağ dalında arzunu, gördük.
Nə qədər uşaqdım,
qanadım vardı,
Özüm kiçik idim, xəyalım böyük.

Arzular dalınca qanadlanırkən,
Tilsimli yollardan inamla keçdik.
Böyüdüm...
Nağıla inanmadım mən,
Özüm böyük oldum, xəyalım kiçik.

Şirin nağıllara inamım hanı?
İnam xəyallarla qoşa yaşarmış.
İnandım,
Tilsimli qızıl almanı.
Yeyən həmən saat cavanlaşarmış...

Onda uşaq idim.
Bu gözəl inam,
Nəyimə gərəkdi, nəyimə gərək?
Böyük səadətmiş, indi qanıram
Şirin nağıllara inana bilmək.

Deyirlər, kosmosda ləngiyir zaman,
Yox, ata bilmərəm anamız yeri,
Mənə inamımı qaytarın bir an,
Mən axan zamanı qaytarım geri.

*Yanvar 1975, Mərdəkan*

## AĞACDAN ATIM

Ağacdan atım,
Qolum, qanadım.
Hamar yollarım,
İlk xəyallarım.

Mənim riyasız,
Rəngsiz, boyasız
Gözəl günlərim,
Toy-düyünlərim,
Hardadır, harda?

Ocaq xörəyi,
Təndir əppəyi,
Samavar çayı,
Lavaş dürməyi,

Ürəkdən gələn
Söhbətim, sözüm,
Ay mənim özüm,
Ay mənim özüm,
Hardasan, harda?

*1976*

## BİR GƏMİNİN YOLÇUSUYUQ

«Dünya» adlı bir gəminin yolçusuyuq
Sən də, mən də, o biri də...
Yaradan da elə bizik
Sevinci də, kədəri də.
Taleyimiz birdir bizim,
Qasırğadır, fırtınadır tək düşmənim.
Mən hamının taleyinə cavabdehəm,
hamı mənim.

Bir gəminin yolçusuyuq,
Birləşdirir yollar bizi.
Üzən gəmi, süzən gəmi
Bir məchula yollar bizi.
Biz ortağıq dənizdəki tufana da,
dalğaya da.
Xoş, mülayim havaya da.
Gəmi gedir,
Qasırğanın ürkütdüyü
Dalğaların qucağında
qalxa-qalxa,
enə-enə...
Ah, nə qədər gülməlidir
Bir gəminin yolçuları
Diş qıcardır bir-birinə.

*Fevral 1978*



# HƏSRƏT NƏĞMƏLƏRİ



*Şirin duyğularımla,*
*Həsrət arzularımla*
*Bir anda doldu gecəm.*
*Uzaq bir xatirənin*
*Həzin zümzüməsindən*
*Nəğmələşdi bu gecəm.*



## MƏN ÜRƏK OĞRUSU

Alıb keçmişini,
əvəzində mən
Əzablar bəxş etdim gələcəyinə.
Hissim xəcil qalıb öz əməlimdən
Sözüm də qurtarıb... Nə deyim sənə?

Küləklər oynaşır ürəkdə, canda,
Özümə düşməndir öz canım mənim.
Gözlərim ağlamır mən ağlayanda
Vicdanım ağlayır, vicdanım mənim.
Saz tutub içimdə qəm şikəstəsi,
Kədər bəstəsiyəm, vicdan xəstəsi.

Əllərim yapışıb öz ətəyimdən.
Mən heç nə ummuram gələcəyimdən.
Dağı da dağlayır dağın öz dağı
Üzümə durubdur öz dərdim, sərim.
Bu günüm sabaha danlaq, göz dağı,
Sabahım dünənə təəssüflərim.

Yüz-yüz peşmançılıq çəkəmməz, dayan,
Bir zərər daşını, zərər yükünü.
Qaytara bilməmiş geri, heç zaman
Axı min təəssüf, bir ötən günü.

Sözüm bu günümün çığıran səsi,
Kədər bimarıyam, vicdan xəstəsi.
Alıb ürəyini,
əvəzində mən

Sənə əzab verdim ürək dolusu.
Mən kiməm? Utanır dilim sözümdən.
Mən ürək oğrusu, ömür oğrusu!

Etiraf asandır! Mən hansı haqla
Qovmaq istəyirəm könlümdən səni?
Özüm öz eşqimi tapdalamaqla
Əlindən almışam gələcəyini...

Sənin sabahını kölgələndirən
Məğrur keçmişinin ləkəsiyəm mən...
Ney tutub içimdə qəm şikəstəsi,
Vicdan xəstəsiyəm, vicdan xəstəsi.

*Avqust 1970*

## YAXŞI

Mən əl açdım,
Mən yalvardım,
Qabağında sürünərək
dizin-dizin...
Mən dedim ki,
İstədim ki,
Duz qatasan ləzzətinə
Eşqimizin...
Xahişimə, təmənnama
Çətinliklə «yaxşı», - dedin,
Nə yaxşıdır yaxşın sənin.

Bu kəlmədə
Ürəyimin zülmətində
Gördüm sabah doğulacaq,
Gündüzü mən.
Neçə-neçə dodaqlardan
Neçə dəfə eşitmişəm,
Bu sözü mən.
Bir yaxşıda duymamışam
Vallah, sənin yaxşındakı
Yaxşılığı, gözəlliyi.
Bu yaxşının istisində
Əridərəm hər əzabı,
hər gileyi...

Sənin «yaxşın»
Nə dadlıdır, nə şirindir.
Sənin «yaxşın»

Sabahıma baxan
Ümid gözlərimdir.
Bir yaxşınla
Bütün dərdim, bütün qəmim
Unuduldu.
Bir yaxşınla neçə ilin
Dibsiz, dərin boşluqları
Heç bilmədim necə doldu!..

Mən «əla» da, mən «yaxşı» da
Qiymət aldım yüz-yüz dəfə.
Ancaq heç bir qiymətimdə
Çatmamışam
Gülüm, sənin yaxşındakı
O şərəfə!

Sənin «yaxşın»
Mənim qırıq ürəyimin
Ümid səsi,
Güman səsi.
Sənin «yaxşın»
Bu günümə işıq saçan
Gələcəyin pəncərəsi.

*May 1970*

## KÖRPÜLƏR

Hicranın sonudur,
Vüsalın əvvəli,
Bu ələ çatdırır
o əli
körpülər.
Bu gözdən o gözə yol salır,
Sevgimin təməli, görpülər...

Arzular, xəyallar bəs nədir?
Bu ildən o ilə körpülər.
Arzular qan ağlar, olmasa
Sahildən sahilə körpülər.

Həsrətin köksünə dağ basır,
Bu eldən o elə körpülər.
Məhəbbət ölərdi, olmasa
Könüldən-könülə körpülər.

*1971*

## SƏNİN NƏĞMƏN

Mahnı çalır, özümdən
Ayrılıram bu dəm mən.
Hamı gülür, oynayır,
Səni düşünürəm mən.

Bir qulaq as, nə deyir
Eşq ilə dolu nəğmə,
Minbir duyğulu nəğmə,
Gah mürgülü, gah oyaq,
Gah da yuxulu nəğmə.
Ötən günə səsləyir
Yenə bizi bu nəğmə.

Bir zamanlar bu rəqsə
Oynayardıq qoşa biz.
Niyə vurduq o gözəl
Xatirəni daşa biz?

Yenə yandım oduna
Bu yanıqlı nəğmənin.
Səslər bir qələm oldu,
Əksini çəkdi sənin.

*1970*

## NƏDİR?

Dedim məhəbbətin qoy torpaq olsun,
Ayağın altında...
                                        Bəs bu qum nədir?
Dilinlə ürəyin arasındakı
                                        Bu uçrum nədir?

Özüm də bilmirəm nə deyim sənə?
Tərk oldu ümidlər, gümanlar yenə.
Bu dağı çəkməzdi sevən, sevənə
Əgər sevirdinsə bu zülüm nədir?

Durub aramızda neçə dağ-dərə,
Nə deyim aradan əsən yellərə?
Onsuz da ölürəm gündə min kərə,
Bir canı verməyə bir ölüm nədir?

*1971*

* * *

Bu gün dünənimə yad olmuşam mən,
Könlümdən, arzumdan doğuldun, gülüm.
Mənim Allahımı adiləşdirən,
Bəndəyə döndərən sən oldun, gülüm.

Sən bir cadugərmi, sehrkarmısan?
Hökmünlə Allahım göylərdən endi.
Tilsimli bəndəni öz Tanrısından
Ayıran tilsimə nə deyim indi?

Arzular önündə ömürlər qısa,
Nədir könlümdəki bu istək, həvəs?
Əgər o, Allahım, o, Tanrımdısa
Tanrımı yıxana nə ad verim bəs?

*1971*

* * *

- Nağıl istəyirəm,
                    Sən gələn dəfə
Nağıl danışarsan, - dedin, - mənimçün.
Gülüm, o füsunkar incəliyinlə,
Təpədən dırnağa nağılsan özün.

Divin qaçırdığı qız sənsən, yəqin.
Həyat deyə bilmir tale deyəni.
Mən aciz bəndəyəm...
                    Məlikməmmədin
Gücü məndə varmı qaçıram səni?

Sevgiyə çevrilər nifrət də, kin də,
Nazının nurundan... o nur, tanrımı?
Üzünün, gözünün cizgilərində
Tapmışam uşaqlıq nağıllarımı.

İstərdim tərsinə dolansın zaman,
Sənə bəxş eləyim ömrün ilkini.
Qayğılarla dolu bu boş dünyadan
Nağıl dünyasına aparım səni.

Mümkünmü qaçırmaq o əsir qızı?
Mümkün olmayacaq nağıla girmək.
Ömrün şəkərini – nağılımızı,
Özümüz yaradaq, özümüz gərək!

*1971*

## NÖQTƏLƏR

Məktubunu oxuyuram
Cümlələrin sonundakı
nöqtələr
Açıq-aydın fikirlərin
Qapısını cəftələr.
Keçər günlər, həftələr,
Nöqtələrin arasında gizlənən,
Mənaları, mətləbləri,
Min-bir yerə yozaram.
Eyhamların qat-qarışıq ormanında
azaram...
Cümlələrin qurtarmamış
sonunda
Uzun-uzun nöqtələr.
Söylə, bəlkə, davamıdır
Fikrimizin, düyğumuzun nöqtələr?

Ürəyimdə çoxdan sönən
Duyğuların odunu
Çözələyir nöqtələr.
Məktubdakı çox sözlərin
Adi sözdür,
az danışır,
Çox söz deyir nöqtələr.
Yox, lal deyil,
Amma kardı nöqtələr.
Barmağımı gəzdirirəm
Mən onların üstündə,
Nə qaynardı nöqtələr!

Hər birinin arxasında
Nida durur, sual durur,
Söz durur.
Ürəyində alovlanıb
Qələmində düyünlənən
Atəş durur,
Köz durur.
Əsl, böyük məhəbbət də
Dilə gəlmir,
Amma... necə danışır.
O, gizlicə danışır.
İki qəlbin bir arzusu
Baxışlarda alışır.
Nöqtələrdə
baxışların sözləri...
Nöqtələrdə görünür
Bir ürəyin vurğusunun
izləri.
Cümlələrin əvvəli söz,
Amma sonu nöqtələr...
Sözdən yaxşı bildirir
Bir ürəyin istəyini,
arzusunu
nöqtələr.

*Yanvar 1973*

## ANCAQ

Sellər də yanar,
Söndürə bilməz
Bir qəlbə əgər düşsə məhəbbət.
Atəş yenidən yandıra bilməz
«Yandım», - deyə sönmüşsə məhəbbət.
Hər şey bölünürkən çoxalır,
bəs bu nədəndir,
Ancaq yox olur
yarı bölünmüşsə məhəbbət.

* * *

De, necə ayrılaq biz gülə-gülə?
Ayrılıq səddini çoxdan aşmışıq,
Qan qana qarışıb, könül könülə
Biz qohum olmuşuq, doğmalaşmışıq.

*1972*

## BƏM-ZİL

*(«Son görüş» poemasından)*

Üzünü görürdüm, içi göründü
Yasını tutmaram ölü sevgimin.
Odu çoxdan sönüb, yaxşı ki, söndü
Ağarır könlümdə külü sevgimin.

Sənin etibarın, sənin ilqarın
Qum üstə yazılan bir kəlmə sözmüş.
Elə ki hayqırdı yel harın-harın,
Sahili süpürüb o sözü pozmuş.

Mən nə biləydim ki, bu gözəl oyun
Dəhşətə gətirər sonda hər kəsi.
Mən nə biləydim ki, getdiyim yolun,
«Təəssüf» adlanır son düşərgəsi.

Demə, görəcəkli günlərim varmış
Heyrət, xeyirdəki bu şərə heyrət!
Heç demə, ürəkdə qoşa yaşarmış,
Zülm ilə ədalət, sevgiylə nifrət.

Bir qırıq sevincə bir ömrü qurban!
Belə bir alverə nə deyək indi?
Mənim ağrılarım, acılarımdan
O arzu göyərtdi, güldü, sevindi.

Böhtan tuzu varmış onda, sən demə,
Oynadıq, o, məni taladı, soydu.

Arayış xətrinə, imza xətrinə
Mənim həyatımı qumara qoydu.

İndi qısılmışam xəcalətimə.
Eşqindən danışmır dili könlümün.
Özüm də heyranam sükunətimə
Yatdı qasırğası dəli könlümün.

Qaladım könüldə yükü yük üstə.
İlişdi heyrətə,
Söz dildə qaldı.
Biz qoşa sim idik eyni kök üstə,
Mən bəmə düşmüşəm,
o, zildə qaldı.

*Yanvar 1973*

## NAĞIL GECƏM

Ulduzların diliylə
Nəsə danışır gecə.
Min dəfə seyr etdiyim,
Adi, sadə bir gecə...
Birdən...
            qəlbim titrədi
Üşüdüm,
            köks ötürdüm.
Ürəyimdə bir səni,
Bir də...
            illər dalından
Nağıl gecəmi gördüm.
O gecə...
            gözlərimdə
Mürgüləyir həmişə
Ən şirin uyğum kimi.
O gecə...
            ürəyimin
Yatır dərinliyində
Altıncı duyğum kimi...
Gecə...
            bir sən,
            bir də mən.
O gecə baş qaldırdı
Bu gecənin içindən...
Şirin duyğularımla,
Həsrət arzularımla
Bir anda doldu gecəm.
Uzaq bir xatirənin
Həzin zümzüməsindən
Nəğmələşdi bu gecəm.

O gecə çoxdan keçib,
Geri dönməz o, bir də.
Bir gecənin həzzini
Geri qaytara bilməz
Min belə gecələr də...
Bir gecədə, bir anda
Şirin bir xatirəylə
Acı gerçək görüşdü.
O gecənin gözündən
Bu gecənin bağrına
İsti bir damcı düşdü.
Dedim, dağıl, a dünya,
Dağıl, tez dağıl, gecəm.
Sən dünyadan köçmüsən
Qəlbimə, nağıl gecəm.
Sən indi bu günümlə
Gedə bilməzsən yola.
Ürəyimdə yaşarsan
Təəssüflə qol-qola.
Dövran dönür, vaxt keçir
Səhərə də az qalır.
İndi gecələrim də
Mənimlə yalqız qalır.
Sən yoxsan... Bu günümə
Rişxənd edir dünənim.
Min bir gecə gəlsə də,
Nağılım gəlmir mənim.
Bu gecənin içində
Nağılsızam indi mən.
Gecənin əllərində
Sarı bir yarpaq durur
Xatirə dəftərimdən.

*Fevral 1973*

* * *

Sevdiyin gözəlin bir köntöy sözü
Bütün ömrün boyu göynədər səni.
Sevgi bir oddur ki, düşsə qəlbinə,
Eylər öz-özündən dərbədər səni.
Günəşə borclusan gördüklərinçin,
Ona da çox baxsan kor edər səni.

*Fevral, 1974*

* * *

Nə mən istəyimi bilirəm, nə sən.
Biz duman içində ulduza döndük.
Nədir istəyimiz bir-birimizdən
Bilmirik... Əməlsiz boş sözə döndük.

Gündüz işıqlıdır, gecə qaranlıq
Biz nə o yanlığıq, nə də bu yanlıq.
Müddətdir qalmışıq yol ayrıcında,
Bizim qismətimiz alatoranlıq.

Mən sərxoş olmuşam gülün ətrinə.
Dərmək insafsızlıq, dərməmək zülüm.
Biz yola çıxmışıq yolun xətrinə,
Nə mənzil bəllidir, nə məqsəd, gülüm.

O kimdir bu gündən görə sabahı?
Sabahı sabahda görərik, nə qəm!
Elə günah var ki, mən o günahı,
Yüz böyük savaba dəyişdirmərəm.

Nə çox ah çəkirsən, ahın dağlara.
Bu qədər göynəmək bəs deyilmi, bəs?
Ah atəş çiləyir al dodaqlara,
Alışar, işığı yoluna düşməz.

Budağın üstündə əl boyda yarpaq,
Küləklər əsəndə yaşayır ancaq.
Küləklər əsməsə, yarpaq da dinməz,
Yarpaq titrəməsə, külək bilinməz.

Nə mən istəyimi bilirəm, nə sən.
Biz duman içində ulduza döndük.
Nədir istəyimiz bir-birimizdən
Bilmirik... Əməlsiz boş sözə döndük.

*1974*

## DARIXMA, HA...

Məktubunu oxuyuram...
Dönə-dönə,
Qayıdıram hər cümlənə, hər sözünə.
Oxuyuram,
Düşünürəm.
Düşünəndə gözlərimi yumuram ki,
Səni görəm.
Oxuyuram, düşünürəm.
Fikrim ötən günlərimi
varaqlayır,
Oxuyanda gülümsəyən sətirlərin,
Düşünəndə qan ağlayır.
Bir məktubda nə deməkdir
Bu ağ, qara?
Rənglərə bax,
Hardan-hara?
Kim deyir ki,
Hər kəlmənin
Bir mənası bir yükü var?
Yox! Ürəkdə dilə gələn yaşıl sözlər,
Budaqlardır,
Yüz budağın bir kökü var.
Kök ürəkdir.
Yarpaqlarda rəngi yaşıl,
Səsi, sözü pıçıltılar.
Pıçıltının səsi birsə,
Min mətləbi, min sözü var.
Mən sözün öz mənasını istəmirəm.
Bir məzmuna o, qul olur,

O, duyğudan məhrum olur,
Yoxsul olur.
Mən vurğunam hər kəlmənin
Çalarına.
Nida kimi dik dayanıb
Hökm verən halına yox,
Sual kimi boyun büküb
Düşüncəyə dalarına.
Düşüncənin min rəngi var.
Göydəki ay, yalnız aydır,
Suya düşsə,
Qırçınlanan dalğalarda
Neçə rəngdən çələngi var.

Sənin əlvan duyğuların
Sözün məna sərhədindən
O taydadır.
Sözlər yatır quzu kimi,
Çalarları haraydadır.
Çalarların alovuna alışıram.
Günlər keçir...
Səsləndikcə qulağımda cümlələrin,
Ətrafıma lal kəsilib
Mən səninlə danışıram:
Yazırsan ki, darıxma, ha...
Burda sözün qəsdi geniş,
Yuvası dar.
Burda sözün cövhərindən
Neçə-neçə söz sıçrayar.
Sözdən fikir.
Fikirdən də
Neçə-neçə mətləb çıxır.
«Darıxma»nın o tayında

Söz darıxır,
Söz karıxır.
Sən «yox»dakı o «var»a bax.
Sözün əksi, çalara bax.
Sən «darıxma» deyən zaman,
İstəyirsən ömrüm boyu
Mən darıxım sənin üçün.
Renginə bax, qəlibindən çıxan sözün!
Darıxıram, aya, günə sığışmıram.
Darıxıram,
Dünyamızın
Qaydasına ölçüsünə
Sığışmıram.
Darıxıram,
İstəyimə çatmaq üçün.
İstəyimiz fövqündədir sözümüzün.
Darıxıram,
Doğmalarım sağ-solumda.
Darıxıram,
Baxışların
Yanıb sönür xəyalımda.
Gözlərimin önündəki baxışlara
Yad olmuşam.
Xəyaldakı baxışların işığında
Udulmuşam.
Təqvimdəki varaqların
Bir ayını birdən cırın!
Yayı ötüm,
Göz yaşı tək kirpiyimdən,
Qopub düşüm payıza mən.

*İyul 1975, Şəki*

## KİLİD

Sən məni hamıya qısqandın, yetər.
Nədir bu şübhələr, bu üzüntülər?
Bir belə qısqanclıq nəyə gərəkdir?
Səni də, məni də məhv edəcəkdir.
Mən ki səninkiyəm
get,
Arxayın get.
Nə özünü incit,
Nə məni incit!
Sevirəm,
Nə lüzüm sözə, öyüdə?
Mənim qısqanclığım sevgimin özü!
Vurulan kilidin böyüklüyü də,
Qorunan sərvətin dəyər ölçüsü!

*Dekabr 1973*

## MƏNDƏN O TAYDA

Müddətdir susuram, lay divar kimi...
Qəlbim oyum-oyum, lağım-lağımdır.
Nə ilə doldurum sənsizliyimi?
Suyumsan,
Həsrətim sonsuzluğumdur.

Hədələr, qorxular...
Susdum,
Döyükdüm.
Beləmi olurmuş hər eşqin sonu?
Xeyli zamandır ki, qorxuya bükdüm
Gözün həsrətini, könlün odunu...

Ömrü də xərclədik, bizə nə qaldı?
Bir gün qəhqəh çəkən, bir gün hönkürüb.
Gəldi, sevgimizin axşamı gəldi,
Axşamı gəlməyən günü kim görüb?

Mən suyu sovulan dəyirman oldum,
Döndü xatirəyə küylü çağlarım.
İzimi ot basdı, lap unuduldum...
Nə çax-çaxım qaldı, nə qonaqlarım.

Mən ki sağalmaqçün yaramı kəsdim.
Sağalmır...
Bəs niyə yenə göynəyir?
Məgər bu deyilmi məramım, qəsdim?
Bəs indi?
Bəs indi istəyim nədir?

Yüz günün, min günün dəlisiyəm mən.
Nə ipə yatardım, nə də zəncirə.
Bir gün ağıllanıb
Cəhalətimdən
Yüz günü, min günü satmışam birə.
Özüm də bilmirəm nəçiyəm, kiməm?
Nə dostu tanıdım, nə də düşməni.
Dünyanın dərdinə köklənmiş siməm,
Qəmin mizrabıyla dindirin məni.
Buludu dağıtdım, bəs bu çən nədir?
Bəs indi könlümü göynədən nədir?

Yenidən göyərdim göynədiyimdən
Ot kimi...
Dağımsan, mən aran oldum.
Qışqıra bilmirəm göynəməsəm mən,
Həsrətin göynətdi, bağıran oldum.

Qulaq kəsilmişəm iç hönkürtümə
Bu boyda səs-küydə, hayda, harayda...
İndi qanıram ki, məndə heç demə,
Bir «mən» də var imiş məndən o tayda.

*1973*

## MƏN SƏNDƏN QAÇIRAM...

Mən səndən qaçıram... Yoxmuş cürətim,
Neyləyim?
                    Susuzam, dodağım yanır.
Dolub gözlərimə sonsuz həsrətim,
Gözümün içindən sənə boylanır.

Düşündüm, qarşıda nə var?
                                        Ah-aman!
Bir yol yorğunluğu, bir soyuq ürək.
Mən səndən qaçanda
                              cavanlığımdan,
Sevgimdən, hissimdən qaçıram, demək.

Mən hara qaçıram, hara ey könül,
Kimə gileylənim mən indi kimdən?
Dəyərdə ucuzdur, çəkidə yüngül
Mənim qazandığım itirdiyimdən.

Arsızlıq elədim, atdım arımı,
Qəlbimin xəbəri, yoxmuş özündən.
Sevginə həsrətim,
                              baxışlarımı
Yığdı gözəllərin ovçu gözündən.

Hardasa gizlicə əllər görüşür,
Tanıya bilmirəm özümü hərdən.
Çiynimə nə yaman kölgələr düşür
Ağlın hürkütdüyü xatirələrdən.

«İtirsən bu eşqi, neyləyim?», - deyə
İçimdən qışqırıb dindi həsrətim.
Qorxumun gözüylə baxır hər şeyə
İndi məhəbbətim, indi həsrətim.

*1977*

* * *

Dedin, qocalıram, qazancım bumu?
İtirdim əvvəlki təravətimi.
İnana bilmirəm buna, doğrusu,
Mən səni görmürəm dediyin kimi.

Sənmi qocalırsan?
                    Yox, ola bilməz!
Sevgilim, məhəbbət qocala bilməz.
Sevgidən uzaqdır qocalıq, ölüm,
Orda nə ölçü var, nə yaş, nə çəki.
İnan ki, bu gün də görürəm, gülüm,
Mən səni ilk dəfə gördüyüm təki.

Sən öz taleyindən nə küs, nə deyin!
Gülüm, əbədisən dərdi-sərimdə.
Sənin gözəlliyin, sənin gəncliyin
Yaşayır həmişə sətirlərimdə.

*May 1977*

* * *

Mənə «bəxtim» dedin, «ömrüm» dedin,
ancaq de, bu nə?
Bu ədalar, bu tələblər nə imiş səndə, gülüm?
Səni bayraq kimi tutdum başım üstündə, yenə
Məni kandarda kilim tək yerə sərsən də, gülüm.

*İyul 1978*

* * *

Ey könül, yaxşını yamandan ayır,
Payızı duymuruq bağlar solmasa.
Kölgələr işıqla oyun oynayır,
Kölgə bilinərmi işıq olmasa?

Kölgəyə işıqdan bax ki, görəsən,
İçində qəzəbi,
İçində kini...
İşığa, işığa gedək anbaan,
Görək qəlbimizin içindəkini...

*İyul 1978*

* * *

Göylər yeddi qatdır,
Yerlər yeddi qat.
Qatlara birbəbir qalxdıq, həm endik.
Endikcə ucaldıq,
Nədir bu təzad?
Endikcə, qalxdıqca biz təzələndik.
Baxdıq sevdamıza bir təzə gözlə,
İndi yarışırıq öz-özümüzlə.

Endiyimiz qədər ucalırıq biz,
Ucala bilmərik, əgər enməsək.
Bizi bizdən güclü hisslərimiz,
Düz olar,
endirmir,
qaldırır desək!

Qorxma, gəl dalımca,
uçaq, uçaq biz,
Qatlar üzə çıxır günbəgün, gülüm.
Sirlərin ardınca ucaldıqca biz,
Yer də göyə dönür bizimçin, gülüm.

O şirin saatlar, bu şirin anlar
Arzunun rənginə boyanır indi.
Səninçin, mənimçin gizli olanlar
Bizimçin yuxudan oyanır indi.

Döyündü ürəklər,
Qapandı dillər.

Nə mən dilə gəldim, nə də sən, gülüm.
Hansı duyğunusa o uzun illər
Mən səndən gizlətdim, sən məndən, gülüm.
Ürəkdə külləndi yanar duyğular,
Dandıq özümüzdən istəyimizi.
Yuxular,
yuxular,
şirin yuxular
Şirin duyğulardan oyatdı bizi...

Xəyallar tuşlanıb indi niyyətə,
İndi nə gecə var,
İndi nə gündüz...
Özümüz dönürük bir həqiqətə
Həqiqət olunca təsəvvürümüz.

Göylər yeddi qatdır,
Yerlər yeddi qat.
Qatları birbəbir qalxdıq, həm endik.
Endikcə ucaldıq...
Nədir bu təzad?
Endikcə, qalxdıqca biz təzələndik.

*İyul 1978, Şəki*

* * *

Necə minnnətdaram iman yolu röyalarıma,
Məni xoşbəxt eləyən duyğulu röyalarıma.
Mən oyaqlıqdakı min gerçəyi qurban verərəm
Bir təəccüb dolu, heyrət dolu röyalarıma.
Sevirəm gündüzü, lakin mənim olsun gecələr,
Gecələr könlümü verrəm ulu röyalarıma.

*İyul 1978*

## SEVGİ GİLEYİ

Heç bilmirəm hara yozdun
Doğrumu sən, düzümü sən.
Mən həsrəti ötüb keçdim,
Sən həsrətin dözümüsən.
Qulaqlarım cingildəyir,
Danışırsan sözümü sən,
Sözümü sən.
İstərəm ki, yuxumdan da
Gəlib səni alan olsun.
Vüsal dolu bu yuxular
Yalan olsun, yalan olsun!
Mənə qalan xatirədir,
Unudulsun talan olsun,
Talan olsun!
Qol-budaqlı ağac idim.,
Budanmışam, çapılmışam.
Həmdəm gedib, kölgəm itib,
Mən özümə qapılmışam.
Amma səni itərən gün
Mən özümçün tapılmışam.

*1976*

## UNUDA BİLSƏN...

Fikrim də, hissim də günəbaxandır,
Dolaşır həmişə ancaq izinlə.
Sən baxan tərəfə baxmaq asandır,
Baxıram dünyaya sənin gözünlə.

Sevdinsə... Sən osan, özün deyilsən,
Yox ikən daha çox sən varsan, gülüm.
Özünü nə qədər unuda bilsən,
Özünü o qədər taparsan, gülüm.

Gəl ki, özümüzü itirək, tapaq,
Fikir azad olsun can qayğısından.
Varlıqla yoxluğun hüdudlarında
Ana təbiətə qarışır insan.

Demirəm ömrümüz toy-büsat olsun,
Deyirəm qayğıdan can azad olsun.
Bizim eşqimizə quşların səsi,
Suların nəğməsi nəqərat olsun.

*İyun 1978*

* * *

Mən səni yaratdım, gülüm, sən məni.
Ürəklər qul olur yaratdığına.
Xəyallar uydurur bütü, səcdəni,
Biz də yaratdıq ki, tapınaq ona.

İnandıq,
                    Vurulduq,
                              Tapındıq necə,
Bu eşqin başına dünya cəm olsun.
Səni yaratmışam öz ürəyimcə,
Səni yaratdım ki, məbədim olsun.

*Aprel 1978*

* * *

Ağaca su verdim,
Hopdu bir anda,
Haçansa dediyin söz yada düşdü.
Yaddaşın yarpaqsız budaqlarında
Pərişan-pərişan bir quş ötüşdü.

Araya düşmüşdü uzun bir həsrət,
Görüşdük,
dinmədik,
biz elə susduq.
Biz onda bildik ki, nəymiş məhəbbət,
Biz onda bildik ki, nəymiş susuzluq.

Su sudur həmişə yayda, qışda da,
Su üçün həmişə yanmırıq ancaq.
Dodaqlar quruyub cadar olanda
Bilirik nə imiş bir sərin bulaq.

Ağaca su verdim,
Hopdu bir anda,
Haçansa dediyin söz yada düşdü.
Yaddaşın yarpaqsız budaqlarında
Pərişan-pərişan bir quş ötüşdü.

*İyul 1978*

## ÇOXDUR YAŞIMDAN DA...

Çoxdur yaşımdan da sevgimin yaşı,
Ancaq o qocalmır, köhnəlmir nədən?
Ağarır könlümdə dağların qaşı,
Sevgim cavanlaşır, qocaldıqca mən.

*1975*

## YAMAN DARIXMIŞAM

Yaman darıxmışam səninçin, yaman!
Mən əsir düşmüşəm öz istəyimə.
Nifrəti gizlətmək asandan asan,
Sevgini gizlətmək macalmış, demə!

Haraylar yüksəlir könüldən yenə,
Bu necə haraydı, bu necə haydı?
Öhdəmdən gələrdim... Gözüm üzünə,
Qulağım səsinə darıxmasaydı...

Elə bil hər yerdən üzülüb əlim...
Mən azıb qalmışam qəm dərəsində.
Dirilib yaşanır sənli günlərim
Sənsiz günlərimin xatirəsində.

Yaman darıxmışam... Bu nədir yenə
Ağlım sağa baxır, ürəyim sola.
Ürəyim dönübdür göy göyərçinə
Qonub sən gedəli sən gələn yola.

Yaman darıxmışam... Hər axşamçağı
Arzumu günəşin telinə sardım.
Mənimlə olsaydı, mən darıxmağı
Zamana ən uzun ölçü sanardım.

Yuxuma gəlmişdin...
                                        Qısıldıq küncə.
Danışdıq...
                                        Yel əsdi...

Dağıldı dərd-qəm.
Kölgəyə dönmüşdüm,
Səni görüncə
Sənin işığında yox oldu kölgəm.

*1974*

## YOL İŞARƏSİ

*Oğlum İsfəndiyara*

Sevdinsə...
Eşqində itib yox oldun,
Çaşbaş salacaqsan günü, ayları.
Sevgi yollarında nə qayda-qanun?
Özün aşmalısan bu dolayları.

Əriyib, özünü yox sayacaqsan,
Bu dərdin olmayıb özgə çarəsi.
Sən tez-tez «qəzaya» uğrayacaqsan,
Yoxdur bu yollarda yol işarəsi.

*1977*

# İNANIR İNSAN

Uydum laylasına sevginin, neylim,
Yatdım yuxu gördüm, şirin bir yuxu.
Ötdü bir an kimi, ötdü, sevgilim,
Həmən bu yuxuyla ömrümün çoxu.

Həmişə mübtəda səndin,
xəbər mən
Vəfa nəqəratlı nəğmələrində.
İndi boz kül qalıb yanan ürəkdən,
Təəssüf közərir eşqin yerində.

Əhdini, sözünü gerçək sanırdım,
Ürək nə çəkmədi sevgidən yana.
Röyada necə də mən inanırdım
O şirin məhəbbət yuxularına.
Nə qədər ki yatır, yatdığı zaman
Gördüyü yuxuya inanır insan.

*1977*

* * *

Bir bağlıca dəfinəydim,
Qəm kilidim,
                Dərd açarım,
Çiçək açar ulu dağlar,
Bəs mən niyə dərd açaram?
«Can» deyənim min-min olar,
Tək səndədir dərdə çaram.

Heç bilmirəm nə vaxt, harda
Məni məndən necə aldın.
Mənə məndən yaxın olub,
Məni məndən uzaq saldın.

*1977*

## YUXULAR, YUXULAR...

Sən yoxsan şəhərdə, yoxsan... bu sözə
Yetim qalan könül qara geyindi.
Yoxluğun özü də görünür gözə,
Yoxluğun varlığa çevrilib indi.

Yuxular görürəm... Tutub əlimdən
Mənə içirirsən sevgi şərbəti.
Elə sanıram ki, bu yaşımda mən
İlk dəfə dadıram ilk məhəbbəti.

Məəttəl qalmışam bu xumarlığa,
Təpədən-dırnağa özün də sirsən.
Elə ki, yoxluğun dönür varlığa
Hissimdə, ruhumda heykəlləşirsən.

Məhəbbət şərbəti... Şirindən, şirin,
Bəxtiyar adımın öz baxtı sənsən.
Min-min istəyimin, min-min həzzimin,
Min-min xəyalımın paytaxtı sənsən.

Yuxular, yuxular, dəli yuxular
Elə qorxuram ki, həqiqət olar.
Qorxuram? Yalandır!
O xoş fürsəti
Xəyalda bəzəyər, naxışlayardım.

Həqiqət budur ki,
Min həqiqəti
Bircə o yuxuma bağışlayardım...

Həqiqət belədir... Artıq nə deyim?
Sirlər qaynağıdır əzəldən ürək.
At çapır yuxumda mənim istəyim,
Bu necə yuxudur, bu necə istək?

Dəlib qayaları göyə fışqıran
O vulkan duyğuna, hissinə qurban!
Danışdım yuxumu, xətrinə dəydim...
Yox, gülüm, sevirəm o hallarını.
Mənim bir arzum var: görə biləydim
Sənin qeyri-adi xəyallarını...

Mən sənə yuxumu danışan zaman
Söhbəti dəyişdin... Dedin, «Bəsdi, bəs!»
Sözümü kəsməkdə sən də haqlısan,
Xəyala gələnlər dilə gələmməz.

Əslində həqiqət başqadır, gülüm...
Yuxular, xəyallar bizdən dərindir.
O şirin yuxumda mənim gördüyüm
Sənin xəyalında gördüklərindir.

Getmir gözlərimdən bir o... bir də sən.
O qovur... qaçırsan... o cəld, sən çevik.
Mən səndə adilik görmədiyimdən
Umdum hər işindən qeyri-adilik.

*Aprel 1978*

## ÖZÜN YANMALISAN...

Dedim, eşqində yanıldım,
Bu halımdan halısan.
Dedi, sən gerçəyi bilmək üçün
aldanmalısan.
Dedim, ulduz çiləyir
Gözlərin axşamlarıma.
Dedi, ancaq məni görməkçün
Özün yanmalısan.

*1978*

## SƏNİ ANDIQCA...

O zamandan ki, uzaq ulduza döndün,
Səni xatırlayıram hər gecə, hər gün.
Mənə ayrılmaq ölümdən betər oldu,
Səni andıqca xəyal dərbədər oldu.
Görürəm, yoxmuş həyat, heç demə, sənsiz.
Bu günün ünvanı mümkünmü dünənsiz?
Yuxulardan umuram vəslini hərdən,
Demə, imdad yox imiş xatirələrdən.
Nə deməkdir, nə demək bir belə yanmaq?
Səni andıqca anır, doymuram ancaq.
Səhərim gəlsin, ötüşsün, gecə keçsin,
Suyu anmaqla susuzluq necə keçsin?

*1977*

## YARIYUXULU

Yuxudayam...
    Əslində yarıyuxuluyam mən.
Bir-birinə dolaşan
Qarışıq fikirlərin
Oduyla doluyam mən.
Yatım?
                Yoxsa oyanım?
Bu fikir ayrıcında
Dayanmaq istəyirəm.
Səni
                yuxularımda
                            görmək üçün
                            yuxlamaq,
Qəhrini çəkmək üçün
Oyanmaq istəyirəm.

*1974*

## BULAQ BAŞINDA SUSUZLUQ

Əlçatmaz zirvənin, uca bir dağın
Həsrəti könlümdə mən doğulmuşam,
Yanıb yaxılmağın, duyub qanmağın
Sevib yaşamağın acı olmuşam.

Təpədən dırnağa bir arzu kimi,
Yaşadım...
          Bu uçuş qoy mənim olsun,
Açıram gözümü, bəbəklərimi,
Bütün gözəlliklər gözümə dolsun.

Gah çiçəyə düşür, gah gülə meylim,
Əlim çatmayana heyranam, heyran.
Doymuram,
          doymuram,
                    doymuram, neylim,
Gözəllik önündə bayğınlığımdan!

Yazı gözləyirəm,
                    istəyirəm ki,
Bahardan doyunca həzz alım,
                                        olmur,
Qayğılar dalğa tək aşır başımdan
Gülə baxmağa da macalım olmur.
Bəs bu nə ah idi, qopdu sinəmdən?
Demə, yaşayanda yaşamayıb mən,
Şirincə-şirincə yuxu yozmuşam,
Bulaqlar başında mən susuzmuşam.

*1977*

## ƏL UNUTMUR

Bu dünyanın nə yaxşısı, nə pisi
Özümüzük dolaşdıran hər işi.
Əllərimdə əllərinin istisi,
Nə itiymiş əllərimin yaddaşı.

Mən istərəm ləngiməsin gələcək,
Sabahıma körpü salım bu gecə.
Səni mənə unutdura biləcək
Bir nəğməni hardan alım bu gecə?

Bir nəğmə ki, ürəyimdə mələyən
Duyğuları, ağrıları ovutsun.
Necə gedim öz-özümlə yola mən?
Əl unutmur, ürək necə unutsun?

*1979*

* * *

Gizli saxlamışdım səndən sirrimi,
Gizlənə bilmədin özümdən ancaq.
Açıldım,
Saçıldım
bir kitab kimi,
Gizli dəfinəsən yenə sən ancaq.

*May 1979*

## YAXŞI Kİ, DÜNYADA...

Bəzən öz-özümdən bezir, usanır,
Gözümlə görürəm «qiyamətimi».
Könlümdə sayrışan ulduzlar yanır
Səni xəyalıma gətirən kimi...

Dərdimin bağrını yarırsan, gülüm,
Yoxsa, həyat mənə əzab olardı.
Yaxşı ki dünyada sən varsan, gülüm,
Könlüm işığını hardan alardı?..

Könlümə işıqlar saçırsan, gülüm
Sənsiz bu dünyanı zülmət görərdim.
Yaxşı ki dünyada sən varsan, gülüm,
Nəylə ovunardı dünyaca dərdim?..

Bəzən öz əhdini danırsan, gülüm
Həsrətin könlümü necə göynədir.
Yaxşı ki dünyada sən varsan, gülüm,
Bilməzdim dalğa nə, təlatüm nədir?

Həyatın sirrini açırsan, gülüm,
Laybalay, taybatay, qatbaqat mənə.
Yaxşı ki dünyada sən varsan, gülüm,
Mənasız olardı bu həyat mənə.

Bağlı dəfinəyəm, açarsan, gülüm.
Xəznəmin sirrini tək sənə verdim.
Yaxşı ki, dünyada sən varsan, gülüm,
Mən var olduğumu hardan bilərdim?

*İyul 1979*

## AĞ TÜK

Saçında qıvrılan ağ tükü gördüm.
Dağlardan payızın havası gəldi.
Çiynində həyatın yükünü gördüm,
Bağlardan quşların nəvası gəldi.

Ağ tellər uğursuz sevginin qəmi,
Məndən gileylərin, şikayətlərin.
Ağ tellər bürküdən yanan ot kimi,
Bir damcı yağışa möhtacdır yəqin.

Ağ tellər qayğılı, dərdli ömürdən
Durna qatarı tək uçan günlərin.
Ağ tellər izidir ağarır dən-dən,
Ağrılı günlərin, yaman günlərin.

Ağardı saçında ehtiyacların.
Otu qarsalanan düzənlər kimi.
Yanğıdan ağaran o ağ saçların
Budaqda saralan xəzəllərdimi?

Qədərdən qədəri oğruladıq biz.
Bu tale arzunu arzudan danır.
Yazda şaxta vurdu... Diləklərimiz
Ömrün payızında tumurcuqlanır.

Arzular ürəkdə quzu tək mələr,
Yer-yerdən, rəngəbərəng, cürbəcür indi.
Xırda tumurcuqlar, körpə düymələr,
Payız küləyindən üşüyür indi.

Payıza bənzərik, payıza ancaq.
Ürək o ürəkdir,
                        Hava buz kimi.
Soyunur ağaclar, tökülür yarpaq,
Rəngini soyunan duyğumuz kimi.
Yarpaqsız ağaca bənzərimiz var.
Quru budaqları tərk etdi quşlar.
Dünənki bürküdən, bəlkə, yanmışıq
Bir ana budaqdan qalxır yüz budaq.
Bir gör neçə yerdən haçalanmışıq,
Burda əyri budaq, orda düz budaq.

Ağacın başında qaralır yuva
Könlündə, könlümdə bir qaraltı var.
Payıza sığındıq...
                        Soyuyur hava
Saralır yarpaqlar, ağarır saçlar.

*Avqust 1979*

* * *

Deyirəm, bəlkə də əcdaddan hələ
İlkimiz bir toxum, bir tumdur bizim.
Qaynayıb-qarışıb qanım qanınla
Fikrimiz, hissimiz qohumdur bizim.

Deyirsən, «ayrılaq!..»
                                        Fitrətdən dönək?
Nə olar...
                    Başa sal ancaq bir şeyi:
Biz hardan öyrənək, kimdən öyrənək
Biri-birimizə özgələşməyi?..

«Ayrılaq» sözünə ağladı göylər,
Yolu dəyişməmiş yolumu azdım.
Şirin olmasaydı sevgi bu qədər,
Ona acı-acı mən ağlamazdım!

Görüşlər özü də dadıma gəlmir,
Bu qədər yaxınıq, o qədər uzaq.
Bircə görüşümüz yadıma gəlmir,
Nə vaxt birləşdik ki, indi ayrılaq?

*May 1979*

## SƏADƏT DEYİL?

Yox, sən də haqlısan, ey gizli dərdim,
Qərəzli, qərəzsiz tələblərində.
Sevgimin gözünü neştərləyərdim,
Bəlkə də... olsaydım sənin yerində.

Tələblər hamısı yerində, düzgün!
Məndən öz haqqını umursan tamam.
Sənin haqlarını ödəmək üçün
Mən də öz borcumu unutmalıyam.

Bəzən bir təpənin borcu önündə
Dağılır yüz dağın yüz-yüz dağ haqqı.
Bəzən yaranmağa haqqı olanın
Olmur bu dünyada yaşamaq haqqı.

Haqqını istədin... həqiqətdi bu,
İstək olan yerdə hər şey doğrulur.
Ancaq unutma ki, bəzən də arzu,
Həyatın önündə müttəhim olur.

Verdiyin qurbanı qaldırıb göyə
Əvəz istəyirsən... Məhəbbət bumu?
Nə olar, bir dəfə qoy tərəziyə
Sən öz haqqın ilə mənim borcumu.

Sevirəm... ey mənim dərdim, dərmanım,
Dərdsiz dərman içmək bir adət deyil.
Sevirsən... Sevginə şübhəm yox mənim,
Məgər sevə bilmək səadət deyil?

*İyul 1979*

## «GECƏ SERENADASI»*

«Gecə serenadası» necə həzin olurmuş
Bu yalqız gecələrdə.
Mahnı bir yuxu kimi
Gecənin röyasına süzülür pərdə-pərdə,
Səslənir narın-narın.
Şirin xəyallarımdan boylanır baxışların.
Ən yanıqlı,
ən həzin
nəğmə bilmişəm səni.
Sənsiz necə dinləyim,
Sənin məhəbbətindən danışan bu nəğməni?
Səni sənsiz dinləmək
Mümkün deyil, ay gülüm.
Səninlə dinləyəndə bir-birinə qovuşur
Günəş ilə ay, gülüm.
Dəniz ilə çay, gülüm.
Açıb üfüqlərini göy də yerə birləşir.
Ən çılğın nəğmələr də quzu kimi mələşir.
Həyat da,
Lap ölüm də
Səninlə nəğmələşir.

*Aprel 1979*

*Şubertin eyni adlı əsərinə işarədir.

## HAVASI-SÖZÜ

Böyük arzuları xəyalmı saydıq?
Xəyal həqiqətlə tarazdı, ey dost.
Arzu qanadında biz uçmasaydıq,
Dünyanın özü də olmazdı, ey dost.

Olanla olmazlar arasındakı
Xəyal dumanında xumaram indi.
Bu necə möcüzə,
                                        Bu necə arzu?
Yuxumu həyatdan umaram indi!

Artıq yuxular da düşdü gözümdən,
Gerçəyin ilkidir yuxunun sonu.
Nəyi gözləyirəm, bilirsənmi sən?
Yuxu nəğməmizin son akkordunu.

Qorxursan, bununla bitə nəğməmiz,
Həyatın dibinə dirənərik biz!

Təşvişin, gümanın nahaqdır sənin.
Tükənməz nəğmədir həyatın özü.
Bir də unutma ki, bu xoş nəğmənin
Sənindir havası,
                        Mənimdir sözü.
Sənindir atəşi,
                        Mənimdir közü!

*İyul 1979*

* * *

Gah asta yeridik,
                    Gah yeyin-yeyin.
Könlümdə inlədi könlünün səsi.
Mənim şeirlərim iki taleyin
Bir yolda birləşən ömür nəğməsi!

Ürək hər dərdini unudur, gülüm,
                              Sən varsan,
Gözəldir hər anı ömrün.
Mənim bilmədiyim tək budur, gülüm,
Sənmi mənimçünsən,
                    Mənmi səninçün?

Alqış birlikdəki bu şeiriyyətə!
Töyşüdük nə qədər yoxuşlarda biz.
Köçür şeirim ilə əbədiyyətə
Bizim həsrətimiz, görüşlərimiz.

*İyul 1979*

* * *

Sən çoxsan,
hər zaman, hər yerdə varsan.
O küncdən, bu küncdən mənə baxarsan.
Asılı yaşadım,
Olmadım bezar.
Azadlıq zənn etdim əsarətimi.
Mən hara getdimsə, həsrət baxışlar
Səpildi yoluma ulduzlar kimi.

Yayınmaq istədim nəzərlərindən
Düşdü ürəyimə ayaq izlərin.
Gizlənpaç oynadım taleyimlə mən,
Hara gizləndimsə, tapdı gözlərin.

Gizli baxışların nəzarətində
Eşqimi, arzumu daşıyıram mən.
Sənin gözlərinin əsarətində
Vallah, istəyimcə yaşayıram mən.

Asılıb qalsam da baxışlarından,
Demərəm, verəsən bir aman mənə.
Bilirəm,
hər yerdə, gülüm, hər zaman
Mənim öz içimdən baxırsan mənə.

*İyul 1979*

* * *

Hirsləndin, üzünü kimsə görməsin.
Elə bil hər şeyə son qoydum daha.
Dəyişir sifətin,
                    Dəyişir səsin.
Bədxaha dönürsən, əsl bədxaha!

Bədxaha çevirir səni qəzəb, kin
Əslində, hamını başa düşənsən.
Sənə bu anlarda elə gəlir ki,
Dünyanın ən bədbəxt adamı sənsən.

De, nəyə gərəkdir könül darlığı?
Dünya min boyalı, min oyunludur.
Bəzən əlindəki bəxtiyarlığı
Sən görə bilmirsən,
            bədbəxtlik budur!

Dünyanı həmişə ürəyincə bil.
Ayaz gecələrdən, axı çən doğur.
Onu bilirəm ki, üfüqdən deyil,
Hər kəsin günəşi qəlbindən doğur.

Bütöv bir bədbəxtlik yoxdu dünyada.
Təkcə dözümsüzlük var bu dünyada.

*İyun 1979*

## YUXULAR

Şirin-şirin nağıllar
Yuxulara yığılar.
Ayaq açan diləklər
Gah durar, gah yıxılar.
Arzuların aynası
Yuxular, ay yuxular!

Yuxularda çox uçduq
Arzulara qovuşduq.
Biz ömrümüz boyunca
Arzu dalınca qoşduq.

Duyğular qanad ala
Bəyaz göyərçin ola.
Qona sizin bağçaya
Yuxularım çin ola.

Bir yuxuda bir ömür
İl dönür, zaman keçir.
Sənin yuxuların da
Mənim yuxumdan keçir.

Arzum ilə imkanın
Qoşulmuşam cənginə.
Yuxularım boyanır
Həqiqətin rənginə!

Ayaq açan arzular
Gah durar, gah yıxılar.
Arzuların aynası
Yuxular, ay yuxular.

*Fevral 1979*

* * *

Yağış tək yağmağa yaman doluydum
Birdən külək əsdi, nagahan əsdi.
Havadan bir anlıq ətrini duydum,
Görəsən, bu külək haradan əsdi?

Könlümdə çiçəklər açıldı dən-dən
Sənə qovuşmağa yaman tələsdi.
Bu ətirli külək
Məhəbbətimdən,
Könlümdə oyanan arzudan əsdi.

*İyul 1979*

## BİR PAYIZ GECƏSİ

Bu payız gecəsi yaman uzandı,
Yuxum tikan kimi batır gözümə.
Bu fikir közərib o fikri dandı
Bir gecəlik həsrət ömürmüş, demə.

Bir payız gecəsi nə uzun oldu
Səhərim, vüsalım gecikir mənim.
Baharım gəlməmiş çiçəyim soldu,
Hər işdə ləngidim,
Budur qismətim!

Vaxtın sürətindən gileylənənlər
İntizar çəksəydi, vaxta gülərdi.
İşıq sürətini xəyalı önlər,
Vaxtın ləngliyindən aman dilərdi...

Gözlərim gözünə dikilir sənin
Xəyalım tor kimi ilmə-ilmədi.
Açıq kirpiklərim
Uzun gecənin
Qara köynəyini aça bilmədi.

Təyyarə sürəti mənim vüsalım,
Həsrət bu sürətlə yetişər sona.
Səsli fikirlərim, səssiz xəyalım
Döndü təyyarənin uğultusuna.

Mənimki sualdır, səninki nida
Biz ki, xəbərsizik öz fəhmimizdən.

Sənin təyyarənin qanadlarında
Uçan xəyalımı, de, gördünmü sən?

Sirrimiz, sevdamız yatır dərində
Özüm özüm üçün unudulmuşam.
Mən ki bu intizar gecələrində
Sənə özündən də yaxın olmuşam.

*Sentyabr 1979, Moskva*

* * *

Nə zaman istəsəm, xəbər-ətərsiz
Döyərəm qapını,
Çəkinmərəm mən.
Nə sənə, nə mənə görünməz yersiz,
Sormazsan: «Xeyr ola, niyə gəlmisən?»

Niyə gəldiyimi, vallah, heç zaman
Nə özüm bilmişəm,
Nə sən sormusan.
Gəlimli-gedimli qoca dünyaya
Niyə gəldiyini bilirmi insan?

Bilsəydim,
Mən niyə sevirəm,
Şəksiz,
Niyə gəldiyimi bilərdim onda.
Sevgidən gəlirik bu dünyaya biz
Doymamış gedirik,
Belədi qayda!

*İyul 1979*

## ODUM, KÖZÜM, GƏL...

Amandır, ləngisin, geciksin axşam,
Ömrümün gündüzü bitməsin gərək.
Mən indi bilirəm, nədir arzu, kam,
Mən indi bilirəm, nə imiş sevmək.
Çıraq işıqlanar sönməzdən əvvəl,
Getmə ey baharım, ey gündüzüm, gəl,
Soyuq bir ürəyə necə dözüm, gəl.

Payız yarpaqları qışın əvvəli,
Axşam şəfəqləri gündüzün sonu.
Gəlməsin, yetməsin ürəyimdəki
Bu odun, atəşin, bu közün sonu.

Çıraq işıqlanar sönməzdən öncə
Baharı duyuruq bahar gedincə.
Getmə, ey baharım, ey gündüzüm, gəl
Soyuq bir ürəyə necə dözüm, gəl.

Uzansın baharım, gündüzüm mənim,
Qalıb ürəyimdə çox sözüm mənim.
Bu yaşda ömür də şirin olurmuş,
Bu yaşın sevgisi dərin olurmuş.
Çıraq işıqlanar sönməzdən əvvəl,
Getmə, ey baharım, ey gündüzüm, gəl,
Alovum, atəşim, odum, közüm, gəl.

*1979*

* * *

Yuxuma gəlmişdin,
                    Danışdıq xeyli...
Biz öz-özümüzü yaman danladıq.
Niyə gileyliyik,
                                Nədən gileyli
Düşündük, danışdıq,
                                        duyduq,
                                        anladıq.

Yuxuda qurtardıq üzüntülərdən
Qarşıda işıq var,
                                Ümid var, gülüm.
Yuxumu sənə də danışmaram mən,
Yuxular tərsinə yozular, gülüm.

*Oktyabr 1979, Mərdəkan*

* * *

Gündə zəng çaldım sənə,
Gündə beş, altı kərə.
Arzum necə sığışsın
                    Arzumun çəkisindən
                    yüngül gələn sözlərə?
Min söz çəkə bilərmi bir arzunun yükünü?
Bir vüsala əl açır həsrətimin yüz günü.
Bu həsrətli günlərin acısını, özün de,
                    Keçirib öz sinəmdən
Telefon tellərində necə səsləndirim mən?
Danışıram səninlə
Şəhərlər arasında
                    Məhəbbət körpü salır.
Telefon tellərindən arzum asılı qalır.
Danışanda
                    Düşürəm
                              Səsinin ovsununa,
Tilsiminə mən sənin.
Dəstəyi asan kimi,
Mənə elə gəlir ki,
                    Üzüldü birdəfəlik
                              Əlim əlindən sənin.
Hələ sözün bir yana,
Necə doyum səsindən?
Necə çıxım mən onun
                    Sirri də mübhəm olan
                    Sirli cazibəsindən?
Danışanda
Ürəyim dolur,

boşalmır mənim.
Səsini dinləyirəm,
Vallah, sözün, mətləbin
Yadımda qalmır mənim.
Zəng çalıram təzədən,
Bax, bu səsin,
Bu da mən.
Əriyirəm o səsdə.
Unutdum,
Bayaq sənə
Deməliydim nəsə mən.
Səsinin tilsimində
Unuduram sözümü
Çevrilirəm səsə mən.

*Avqust 1979, Şəki*

## SAYĞAC

- Sənə gəncliyimi qurban vermişəm.
Eşqimdə yanmışam, yanıram yenə.
Yolunda dərd alıb ömr itirmişəm,
Bir gör qazancım nə, itirdiyim nə?

- Bilirəm yanmısan sən dilim-dilim.
Yananlar, yanmağa daim təşnədir.
İşıq sayğacı tək söylə, sevgilim,
Söylə, yanmağını saymağın nədir?

*İyun 1979*

## ÇİÇƏKLƏRİN BAXIŞINDA

Səhər-səhər çiçəklərin gözlərinə
şeh düzülür.
Damlalarda günəş gülür,
Hər damlada bir günəş var
Günəş dolu, işıq yolu bu damlalar
Gözlərinmiş...
Çox baxmışam,
Nə bilmişəm,
Nə görmüşəm.
Ancaq onu bilirəm ki,
Səni anıb hey köksümü ötürmüşəm...
Elə bu dəm
Niyə səni andığımı bilməmişəm.
Hansı oddan od götürüb
yandığımı bilməmişəm.
Baxıb görə bilməyibmiş!..
Gözlərimə mən nə deyim?
Ürəyimə görünürmüş
Gözlərimlə görmədiyim!
Nə biləydim, sən şeh olub
Çiçəklərin baxışına
Ulduz-ulduz düzülmüsən.
Yuxumdakı nağıllardan
Çiçəklərin yuxusuna süzülmüsən.

*İyul 1979*

## TƏZƏLƏ SEVGİMİ

Yox, hələ sönməyib odum, ocağım,
Üfürsən, külüm də alışar, bütün.
«Sevirəm» sözünə acdı qulağım,
Doymaram, o sözü eşitsəm, hər gün.

Açılır sevdamın sirri qatbaqat,
Amma möhtacıyam yenə sevginin.
Yox, doya bilmirəm...
hər gün, hər saat
Göstər bir rəngini mənə sevginin.

Təzələ sevgimi bu rənglərlə sən
Çırpınaq al-əlvan duyğularla biz.
Bir yerdə durmasın, qoy lillənməsin,
Hər gün təzələnsin məhəbbətimiz.

*Fevral 1979*



# QƏZƏLLƏR, QOŞMALAR, GƏRAYLILAR



***Özü müəmmadır, sözü tapmaca,***
***Oğul istəyirəm ondan baş aça.***
***Ahıla ahıldır, qocaya qoca,***
***Cavana görünür təptəzə dünya.***

* * *

Ağlar ürəyim, səs gələr, ah-azar görünməz.
Gözdən yaş axar, qaynağı zinhar, görünməz.

Ruzgar yenə tüğyan eləyir dalda, budaqda
Toz-torpağı gördük, niyə ruzgar görünməz?

Tonqal yanır, atəş görünür, atəşi yaxmış,
Əl gizli səbəb, amma səbəbkar görünməz.

İllər üzərindən yön alıb yol gedirik biz,
İllər görünür, bəs niyə yollar görünməz.

Qəmdən şad olursansa, könül mülkünə sən bax,
Güllər açılıb, ətrisə aşkar görünməz.

Bəxtin mənə yar olduğunu çoxları söylər,
Bəxtim görünür, bəs niyə dildar görünməz?

*Avqust 1970*

* * *

Nur atəşə, atəş göyə, göylər yerə möhtac,
Yerlərdəki ahəngü-nizam göylərə möhtac.

Dünyaları öz hökmünə diz çökdürən hakim,
Bir gözləri ahuya, gözəl dilbərə möhtac.

Dağlar ucalıqdan öyünüb qürrələnir çox,
Yüksəklik üçün dağ dediyin düzlərə möhtac.

Göylər nə qədər sonsuz olub boşluğa varsa,
Göylərdə gözəllik yenə ulduzlara möhtac.

Saçlar qara, qaşlar qara,ləblər də bal olsun,
Hər üzdə gözəllik dediyin gözlərə möhtac.

Mən Bəxtiyaram, söyləyib aldanma, a şair,
Fikrin də, məramın da sənin sözlərə möhtac.

*İyul 1972, Hacıkənd*

* * *

Min kitab söz yazırıq qəlbi usandırmaq üçün,
Bəs edər bir acı söz, min ürəyi qırmaq üçün.

Dil qabar bağladı, bir nadana dönnəm mən özüm,
Bir kiçik mətləbi bir nadana qandırmaq üçün.

Səltənətdən keçər axır günü sultanlar özü,
Bircə dəm, bircə nəfəs vaxtı yubandırmaq üçün.

Ordular sarsıda bilməz mənim öz məsləkimi,
Bir həzin nəğmə bəs eylər, məni yandırmaq üçün.

Eşqinin gözləri kor isə, əzəldən yox isə
Neyləyim mən? Səni bir haqqa inandırmaq üçün?

Bəxtiyaram ki, Vətən eşqinə yandım, yanaram,
Hələ yatmışları qəflətdən oyandırmaq üçün.

*1973*

* * *

Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
«Kürü ahıyla qurutdu», «salı yandırdı» muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

O ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

*1974*

* * *

Dolmuş nə qədər istək ilə, kam ilə könlüm,
Olmuş bir ağır fikrə bu gün hamilə könlüm.

Daim aramaq-tapmaq üçün ən uca yoldur,
Tapdıqca məkan salmadı bir mənzilə könlüm.

Gün keçdi, yaş ötdükcə, qocaldıqca nə sirdir,
Sövdada cavanlaşmada ildən-ilə könlüm.

Məndən nə umur vurğusu bir səsli, avazlı,
İstəkləri hey cərgələnən silsilə könlüm?

Duyduqca biləmmir nə imiş umduğu məndən,
Bir yol nə olar, duymaya, ancaq bilə könlüm.

Eşq öldü, anımlar ona an-an əvəz oldu,
Gəlmiş dəlisov xatirələrdən dilə könlüm.

Ey Bəxtiyar, aldatmaq asandır səni, lakin
Hər nəğməyə uymaz, niyə gəlməz ələ könlüm?

*1976*

* * *

De, bilirsənmi bir amalda yanan kimdi, gülüm?
Dəyişib rəngini tez-tez boyanan kimdi, gülüm?

Kimi röyada oyaqdır, kimi bir ömrü yatır,
Bu güzərgahda yatan kim, oyanan kimdi, gülüm?

Məni yandırdın özün, həm də qızındın oduma,
Qızınan kimdi, yanan kimdi, qanan kimdi, gülüm?

Tikan ağrıtdı səni, köksümə saplandı bıçaq,
Çığıran kimdi, fəqət, bərk dayanan kimdi, gülüm?

Çatar öz kamına, həsrətdə deyər Bəxtiyaram,
O könüllər ki hər an nəfsinə hakimdi, gülüm.

*Mart 1978*

* * *

Məşuqəmə Allah gücü bəxş etdi gözəllik,
Dağlar kimi tərpənməzi tərpətdi gözəllik.

Dünyanı aparram onun ardınca sərasər,
Bayraqdı, tamam özgə təriqətdi gözəllik.

Kimdir o deyən qüdrəti zahirdədir hüsnün,
Tinətdəki, cövhərdəki hikmətdi gözəllik.

Heyrət elədik tamlığa, yüksəkliyə daim,
Kamilliyə ən yaxşı əlamətdi gözəllik.

Bir cilvəsi min zalimi məzlumə çevirdi,
Qüvvətlərə qalib, necə qüvvətdi gözəllik.

*1974*

* * *

Özü heyrət, suyu şəfqət, dadı şərbət bulağım,
Səni içdikcə, dodaq yandı, susuzlaşdı könül.

Sənə həsrət qalıban illəri verdikcə yelə,
Yayın ilğım alovundan niyə buzlaşdı könül?

Dözümüm yox, yenidən mən səni içmək dilərəm,
Bu diləkdən də bulaq tək yenidən daşdı könül.

Bilməyirdim sənə mən bunca əsir ölduğumu,
Elə içdikcə susuzlaşdı, dönüb çaşdı könül.

Bəxtiyar həddi güdüb aşmadı sərhəddi, fəqət,
Neçə dağdan yan ötüb, daş barılar aşdı könül.

*İyul 1978*

## DÜNYA

Yolunda sabitdir, ancaq insanı
Gah yoxuşa salır, gah düzə dünya.
Bir üzü gecədir, bir üzü gündüz,
Dayanıb özüylə üz-üzə dünya.

Gah səni var sanır, gah da yox sanır,
Özü öz içində gizli saxlanır.
Gah zarafat edir, gah açıqlanır,
Təpədən-dırnağa möcüzə dünya.

Özü müəmmadır, sözü tapmaca,
Oğul istəyirəm ondan baş aça.
Ahıla ahıldır, qocaya qoca,
Cavana görünür təptəzə dünya.

Bəxtiyar, qüdrətin əqlə güvəndi,
Göylərin əsrarı yerlərə endi,
Bir tükdən asılıb taleyi indi
İnsan əməlinə kaş dözə dünya.

*May 1970*

## BÖL GÖRÜM

«Bəxtim, mənə yar ol», deyib çağlaram,
Yar olmasa, de, bəxtiyar ol, görüm.
Gələcəyə ümidimi bağlaram,
Bir an sonra nə olacaq, bil, görüm.

Yaz ayları çağıldayan selmisən?
Bu dünyanı oyuncaqmı bilmisən?
Həyat səni güldürəndə gülmüsən,
Hünərin var, ağladanda gül, görüm.

Dünyamızı yasa, toya bölmüşük,
Sevdamızı oda, suya bölmüşük,
Ömrümüzü günə, aya bölmüşük
Min arzuya, min diləyə böl, görüm.

*1974*

## DÜNYANIN

Baş çıxarmaq həm çətindir, həm asan
İblisindən, mələyindən dünyanın.
Adəm satdı bir buğdaya cənnəti,
Tora düşdü kələyindən dünyanın.

Nə gözəldir, ürək geniş, söz açıq,
Yaşamadım bir sevdamı yarımçıq.
Əzab adlı dəyirmandan narın çıx,
Keçəcəksən ələyindən dünyanın.

Arzum üçün bir mələyən cüyürdüm,
O təpədən bu təpəyə yüyürdüm.
Niyə qorxum kəfənindən?
Nə gördüm
Beşiyindən, bələyindən dünyanın?

Biz özümüz özümüzdən öc aldıq
Keçən günə gələn günü bac aldıq
Ömrümüzün yarısında qocaldıq
Şilləsindən, kötəyindən dünyanın.

Könül üzgün, xəyal küskün, dərbədər
Özün söylə zülm olarmı bu qədər?
Arxasınca palaz kimi sürüdər
Bərk yapışsan ətəyindən dünyanın.

Könül düşdü min arzumun izinə
Biləmmədik əyrisi nə, düzü nə?
İndi kəfən toxuyuruq özünə
Öz gülündən, çiçəyindən dünyanın.

*1977*

* * *

Çöllərin köksünə güllər əkildi,
Güllər təzələndi, mən təzələnməm!
Dağların başına yollar çəkildi,
Yollar təzələndi, mən təzələnməm.

Əsrimiz qocaldı, doldu kamala,
Biri borc qaytara, biri borc ala.
Zaman öz atını çapdı dördnala,
İllər təzələndi, mən təzələnməm.

Başımdan nə qədər yel əsdi, keçdi,
Torpağı sovurdu, yeri dəyişdi.
Bir məslək, bir amal payıma düşdü,
Yellər təzələndi, mən təzələnməm.

*İyun 1978*

* * *

Doldur ürəyini sevinclə, doldur,
Bu həyat enişli, yoxuşlu yoldur.
Dünyada dərd də bol, fərəh də boldur,
Hansını götürsən, öz qismətindir.

Bir cıdır düzüdür bu həyat, gülüm,
Bu yolu nəmərlə başa çat, gülüm,
Ömrü müftə aldın, baha sat, gülüm,
Mayasız bu qazanc öz sərvətindir.

Sevinc axtarırsan, al, yasaq deyil,
Dərd çəkən ürəkdən dərd qaçaq deyil.
Dünya iki rəngdir, təkcə ağ deyil,
Birini götürmək cəhalətindir.

Bəxtiyar, bildinmi sən kimsən, nəsən?
De, hansı rüzgardır başından əsən?
Dünyanın yasına qəh-qəh çəkməsən,
Dünyanın toyu da müsibətindir.

*1973-1977*

## EYLƏDİ

Bu yaşda, bu başda sevdaya düşdüm,
Könül elə bildi nübar eylədi.
Cavanlıq duyğusu, cavanlıq eşqi,
Bu xəzan sinəmi bahar eylədi.

Getdin, mən həsrətlə üzbəüz oldum,
Sənsizlik hökm etdi, özümsüz oldum,
Ağrıya, acıya dözümsüz oldum,
Həsrətim sinəmdə qubar eylədi.

Sevdasız ötməsin bir yaşım mənim,
Nə baharım mənim, nə qışım mənim.
Təqvimə baxmaqdan baxışım mənim
Kağız parçasını qabar eylədi.

Könül aşıb-daşar fərasətindən,
Ayrılmaz heç zaman öz fitrətindən.
Bəxtiyar ahıllıq məhəbbətindən
Nə xəcalət çəkdi, nə ar eylədi.

*1975*

## QOCALIQ

Müddət bu, qismət bu, qədər buydumu?
Ömür başdan-başa qəm yoluydumu?
Təklik qorxusunu ürək duydumu,
Hazır ol, qapını döyür qocalıq.

Zaman öz yerində dayanaydı kaş,
Özüm də bilmirəm nədir bu təlaş,
Təkcə qamətini deyil, a qardaş,
Kişilik əzmini əyir qocalıq.

Baharı vermişəm, qış qazanmışam,
İlləri vermişəm, yaş qazanmışam,
Dolunu vermişəm, boş qazanmışam,
Kim deyir, gətirir xeyir qocalıq?

Zaman açılanı necə soldurur,
Dolunu boşaldır, boşu doldurur,
Bəxtiyar, cavanlıq yaradır, qurur,
Keçmişdən xatirə deyir qocalıq.

*1977*

## BİZİK

*Mənmi qocalmışam, ya zəmanəmi?*
**«Koroğlu» dastanından**

Nə dünya qocalır, nə də zəmanə,
Zamanın əlində qocalan bizik.
Odunu, közünü verib illərə,
Oddan külə dönüb puç olan bizik.

Doğulan hər körpə, gələn hər bahar
Qoca dünyamızı cavanlaşdırar,
Zaman təzəsini yaradar, qurar,
Tökülən, sökülən, saçılan bizik.

Dünyanın gəncliyi öz dövrəsində,
Torpağın gəncliyi göy pöhrəsində.
Körpə nəvələrin gül çöhrəsində
Gül kimi yenidən açılan bizik.

*Fevral 1978*

## GEDƏNİM, GƏLƏNİM

Ey könül, demə ki, gün dağdan aşdı,
Bir ömür gününün axşamıyam mən.
Elə bilirəm ki, hələ ömrümə
Doğan bir səhərin salamıyam mən.

Göylərin ürəyi döyünür yerdə,
Göylərə çəkilən qayıdır bir də.
Gedən də məndədir, gələsilər də,
Mən tək mən deyiləm, yox, hamıyam mən!

Gözümdə qalmasın bir gül həsrəti,
Nə çəmən həsrəti, nə çöl həsrəti.
Dünyadan gedənin könül həsrəti,
Dünyaya gələnin inamıyam mən!

*Yanvar 1974*

## İNSAN GÖYDƏ AY KİMİDİR...

Çəmənlikdə gül-çiçəyin
Sağ-solunda ələfi var.
Dünyada hər bədbəxtliyin
Həm zərəri, həm nəfi var.

Vaxt hakimlər hakimidir,
Həyat varkən, yox kimidir.
Yaydan çıxan ox kimidir,
Hər ömrün öz hədəfi var.

Ürəkdədir sözün kökü,
Ayıra bil tükdən tükü,
Çox ağırdır amal yükü,
Çəkə bilsən şərəfi var.

Ürək fikrin tilsimidir,
Hər qatı bir lay kimidir.
İnsan göydə Ay kimidir,
Görünməyən tərəfi var.

*İyun 1978*

## OLDU

Könül, sənin dünya ilə
Ömrün boyu davan oldu.
Tamah sənə güc gəlincə,
Ağıl səni qovan oldu.

Həyat nədir? Ömür nədir?
Ərimişəm sətir-sətir...
Bir əppəyim yağlı fətir,
Bir əppəyim yavan oldu.

Dünya sənə dardı, könül,
Uçuşların vardı, könül,
Hüdudları yardı könül,
Sinəm yenə yuvan oldu.

Heç bilmədik bu nə işdi,
Nə gedişdi, nə gəlişdi.
Güney, quzey yer dəyişdi,
Döşəmələr tavan oldu.

Ulu könlüm, uca könlüm,
Düşdü sacdan-saca könlüm.
Cavan ikən qoca könlüm,
Qocaldıqca cavan oldu.

*Fevral 979, Mərdəkan*

## DÜZ ELƏDİN

Mən ki sönən ocaq idim,
Sən üfürüb çözələdin.
Əfsunmusan, tilsimmisən?
Külümü də köz elədin.

Sən bildirdin iksir kimi
Ayarımı, dəyərimi.
Açıb tökdün hər sirrimi,
Astarımı üz elədin.

Heç bilmirəm kiməm, nəyəm,
Mən də bu cür taleliyəm.
Demə səndən gileyliyəm,
Düz eylədin, düz eylədin.

Nədir halal, nədir haram,
Heç bilmirəm kimdən soram.
Bilsən necə minnətdaram
Sən qışımı yaz elədin.

Gördük eşqin hər üzünü,
Gecəsini, gündüzünü.
Həm dünyanı, həm özünü,
Həm də məni təzələdin.

*Avqust 1979, Şəki*



# SƏYAHƏT DƏFTƏRİNDƏN

*Qəlbi işıq ilə dolan şairin*
*Qisməti evi tək bir zülmət oldu.*
*Arzusu azadlıq olan şairin*
*Qazancı həmişə əsarət oldu.*



## TABUT GEDİR

Tabut gedir ağ avtomobildə.
Tabut gedir, ardınca gedən yox.
- Sizlərdə bu adətmi?
Deyə tez xəbər aldım.
- Yox-yox!, – dedi.
- Bəs bircə nəfər tabutun ardınca nədən yox?

Vaxtında, ya erkən
İnsanı, bu dünyadan o dünyaya köçürkən
Dünya qapısından yola salmaq üçün indi,
Bir dostu, bir həmkarı, qohum-qardaşı yoxmu?
Tabutuna heç girmədi bir kəs,
«Əfsus!», - deyə ardınca onun səpmək üçün bəs,
Gözlərdə məgər göz yaşı yoxmu?
İnsan gedir, insan,
İnsan bu cahandan.
Dursun tələsənlər,
Hörmətlə qoy ötsün,
Tabutun önündən.
Hər bir kəs üçün var
Axırda bu gündən.
Dostum dedi, qanun!
Adətlər olub qanuna məğmun.
Adətləri əsrin odu yandırdı, dağ etdi.
Tabutların ardınca düşüb getməyi qanun
Çoxdan yasaq etdi.
- Neçin?
Dedi, yollardan əgər izdiham ötsə,
Dərhal hərəkət qaydası alt-üst olar, əlbət.

Dəhşət, bu da dəhşət!
İnsan əgər insanlıq üçün borc ödəyirsə,
Ünvanı gedər-gəlməz olan insan önündə
İnsan baş əyirsə,
Qanun da sükut etməli!
Qanun nə deməkdir?
Qanun özü insanlıq üçün borc ödəməkdir!
İnsanlığın öz qaydası alt-üst olunursa,
Dözmək!
Buna dözmək?
Qanun və nizam naminə, eyvah!
İnsanlığın öz qaydalarındanmı əl üzmək?
Neyçin də çiyinlərdə deyil, avtomobildə
Getsin bu cahandan,
Əşya kimi insan?
Bəs harada qalıbdır ürək, insan?
Sevgiylə gəlir bilmədən insan bu cahana,
Sevgiylə də getsin bu cahandan gərək insan.
Tabut gedə bilməz təkər üstündə dayan, dur!
Mən gördüm, onu çiynimə almaq mənə borcdur.
İnsan bədənindən cücərib ayrılır insan,
Qoy çiynimiz üstündə də getsin bu cahandan.
Yollar hamısı son yola üz tutmuş ikən, sən
Yol qaydalarından danışıb söz üyüdürsən...
Qanun nəyə lazım?
O ürək vurğusu tək
Nəğmələnib yanmasa dildə?..
Tabut gedir ağ avtomobildə.
Tabut deyil,
İnsanlıq, ədalət gedir ağ avtomobildə.

*Avqust 1972, Qərbi Berlin*

## İKİ YOL

Bir şəhərdə iki dünya,
Bir şəhərdə iki aləm.
İki dünya, iki aləm arasında
sərhəddəyəm.
Sərhəd boyu daşdan hasar,
Gah o taya, gah bu taya
kölgə salar.
Qaş qaralır,
itir kölgə.
Bir ölkədə iki ölkə...
İki fikir, iki aləm.
Sərhəddəyəm!..
Hasar durur
Bir gecəylə bir gündüzün
Arasında.
Hasar durur,
İki yolun, iki fikrin, iki sözün
arasında.

*Avqust 1972, Qərbi Berlin*

## ÇÖRƏK – SƏADƏT

Dirək oldu göylərə ah-naləsi bu yerin...
Vətəndə iş axtarıb ağ gün gözləyənlərin,
Gözlərinə ağ düşüb.
Bir parçacıq çörək də Vətəndən
qaçaq düşüb.
«Bəlkə...», dedi,
əkiblər,
bitməyibdir,
«bəlkə»ni.
Anadolu kəndlisi gəzdi bütün ölkəni,
Xeyir axtardı,
gördü,
qismətinə şər düşüb.
Vətənin övladları özgə qapılarında
necə dərbədər düşüb.
Çörək ceyran belində,
Ceyranı hürkütdülər,
Qaçıb onun dalınca
orda, burda güddülər.
O, gözlərdən yayındı,
Onu vurub ötdülər.
Ələ çörək gəldisə, səadəti gəlmədi,
Anadolu kəndlisi, bircə şeyi bilmədi,
Hər xalqın,
hər millətin,
Vətənindən uzaqda tapılan «səadətin»
Adı səadət olur,
Özü fəlakət olur...

*1972*

## ÇÖRƏK – VƏTƏN

Əynində «cinsi» şalvar,
Belində enli kəmər,
Saçı çiyinlərində
Döşündə emblemlər,
Bir ədəbaz türk ilə
Mən danışdım ərk ilə:
- Burda çörək tapmısan, bəs səadət, bəs Vətən?
Çörək səadət deyil, unutdunmu bunu sən?
Üç il,
Beş il,
Nə zaman,
Dönəcəksən Vətənə?
- Harda qarnım toxdursa, ora Vətəndir mənə,
Deyə qəhqəhə çəkdi.
O bu qəhqəhəsilə üzümə şillə çəkdi.
Bir qarınlıq çörəkçin sən unutdun hər şeyi,
Sən çörəyə bağladın, taleyini, bəxtini,
Bəs Vətənin taleyi?
Bəs onu kim düşünsün?
Vətən düşmənlərinin qanını tökmək üçün,
Kimin kini, qəzəbi,
Yanıb gülləyə dönsün?
Burda çörək tapmısan,
bəs səadət,
bəs Vətən?
Çörək səadət deyil, unutdunmu bunu sən?
Səadət Vətən demək!
O, Vətənə bağlıdır.
Elin qəlbi dağlısa, sənin qəlbin dağlıdır.

Bəs hər zülmə, cəfaya necə dayanmış baban?
Ellə gələn yası da toy-bayram sanmış baban.
Elsiz bir səadəti səadət bilməmişlər.
Unutma,
«El içində – öl içində», -
demişlər.
Vətən – namus,
namusu
itə atsan, it yeməz.
Yal üçün zingildəyər, namusa zingildəməz.
Sən insansan!
Namusun, el qeyrətin hanı bəs?
Namusu ələf kimi gövşəmə!..
o, yeyilməz!
Bir parçacıq çörəkçin hamı qaçsın Vətəndən,
Bəs Vətəndə kim olsun?
Kədərindən qaçdığın,
Sabahkı sevincinə uzaqdan əl açdığın,
O su, hava,
o torpaq,
Qoy sənə qənim olsun!
«Harda qarnım tox isə, ora Vətəndir», - dedin.
Sən Vətəni çörəyə necə qurban elədin?
Burda çörək qazanıb özünü də itirdin.
Bığ dalınca gəlirkən, saqqalı müftə verdin.
Qürbətdə çörəyin var, ürəyin yoxdur sənin.
Anasız bir uşaqsan,
Qıvrıl yat,
dinmə!
Qəlbin
oyuq-oyuqdur sənin!
Çörəyin var,

Bəs hanı, saçına sığal çəkən,
Vətənin küləkləri?
Səni sərməst eyləyən gülləri, çiçəkləri?
Hanı Vətən havası?
                    Hanı ana laylası?..
Vətən yalnız çörəkmi?
Bəs bunlar?
                    bunlar hanı?
Bir parçacıq çörəyə satarlarmı ananı?

*Avqust 1972, Qərbi Berlin*

## KÖNÜL QAPILARI

Sən uzaqdan gəlincə,
Gəlişini «bilincə»,
Qapılar öz-özünə
Tez açılır üzünə.

Baxdım,
            gördüm,
                        dinmədim.
Mən heç heyrətlənmədim.
Heyrətliyəm bir şeyə,
Niyə heyrətlənmədim
Bəs mən bu möcüzəyə?..

Qapılar öz-özünə
Açılar,
            bağlanar da...
Çilçıraqlar düyməsiz
Alışar da,
            Yanar da.
Bunlar mənim könlümü
Alıb dindirə bilməz.
Ağlın yaratdıqları
Ağıl zəmanəsində
Ağıl sahiblərini
Heyrətləndirə bilməz.

Gücüm çatar,
                        piyada
Dünyanı ayaqlaram.

Qapıları özüm də
Həm açar,
Həm bağlaram.
Mən istərəm, istərəm,
Bu insan,
            o insanın
Arxasında dağ ola.
Ürəklərin qapısı
Bir-birinin üzünə
Taybatay açıq ola.

Ürəklərin qapısı
Bağlıdır bir-birinə
Baxsalar da göz-gözə.
Açılsaydı
            ürəklərin qapısı,
Deyərdim
            ölkənizdə
Budur əsl möcüzə!

*Avqust 1972, Frankfurt - Mayn*

## PORTUQALİYA LÖVHƏLƏRİ

### *1. Daşda şeir*

*Portuqaliyanın Koimbra şəhəri XV əsrdə yaranmış universiteti ilə fəxr edir. Həmin universitetin tələbələri hər buraxılış ilində yazdıqları xatirə şeirlərini şəhər ətrafındakı qayaya həkk edirlər. Həmin şeirlərdən birinin məzmunu belədir: «Üstünə bu şeiri yazdığım daş, ürəyimizdən keçən arzu və xəyalları duya bilsəydi, qəhqəh çəkib gülərdi... İçimizdəki ağrı-acıları duya bilsəydi, hönkür-hönkür ağlardı...»*

O, daşa qəlbini yazdığı zaman,
Güldü...
Gülüşünə güldü dağ-dərə.
Güldü, ürəyində şam tutub yanan,
Böyük xəyallara, xoş diləklərə.

Necə gülməyəydi?
                    Bağa girməmiş
Bağın dövrəsində qanqalı gördü.
Yerdən ayağını heç götürməmiş
O öz ayağında qandalı gördü.

Peşman olsa da doğulduğuna,
Yazdı,
        Daş üstündə iz görmək üçün.
Gülüb xəyalların puç olduğuna,

O yazdı, daşı da güldürmək üçün.

İnsan arzuları uçar,
                                        Elə ki,
Gerçəklə üzləşdi,
                                        Durar,
                                        ah çəkər,
İmkanla istəyin arasındakı
Uçruma daş gülər, daş qahqah çəkər.

Bu tayda insandır, o tayda istək,
Uçrumun üstündə nə iz, nə körpü.
İnsan qanadlanır arzuya quştək,
Uçrumun dibində açır gözünü.

Xəyal qanadında uçduğun zaman
Sən yuxu görürsən, şirin bir yuxu.
Qəfil oyanırsan o bal yuxudan,
Daşa dirənəndə arzunun oxu.

Daşa yazılarmış arzular bir-bir,
Daşa dirənəndə yuxa bir ürək.
Yenə könül üçün bir təsəllidir.
Uçruma düşməmiş uçrumu görmək.

Arzunu, xəyalı, eşqi, toz təkin
Havaya sovurub ötüşür zaman.
Yarandı o şeir, insan qəlbinin
Daş qəlbli zamanla toqquşmasından.

*Noyabr 1975, Koimbra*

### 2. Dəniz – kişi qəbristanı

*Portuqaliyanın balıqçılıq şəhəri olan Nazaridə kişilərin demək olar, hamısı okeanda balıq ovunda ölür. Buna görə də həmin şəhərdə qadınlar qara geyinirlər.*

- Sinyorina, sinyorina,
Nədir sənin əynindəki
Qara paltar...
Evinizdə matəmmi var?
Cavan gəlin,
Nədir sənin üzündəki
Bu dərd, bu qəm?
Cavanlıqla qara rəngi
Mən yanaşı görməmişəm.
- Tək mənəmmi?
Hamı dərddə, hamı
Yasda.
Heç gördünmü bu şəhərdə
Bir qadını ağ libasda?
Balıqçılıq şəhəridir
Şəhərimiz.
Bircə tikə çörək üçün
Okeanla vuruşdadır
Ərlərimiz.
Körpəlikdən qismətimiz
Göz yaşları.
Uşaqlıqda itiririk
Ataları, qardaşları
Böyüyürük,
O ağaran köpük-köpük
Dalğalara qurban gedir
Ərlərimiz.

Ta beşikdən-məzaradək
Qara günlü, qara donlu
oluruq biz.
Dəniz bizim kişilərin
qəbristanı.
Sən dənizin səsinə bax...
Gecə-gündüz o oxuyur
Bizim üçün qəm dastanı.
Bu şəhərdə bircə kişi
Ölməmişdir yatağında.
Ər dənizə gedən kimi
Xeyir-dua nəğmələşir
Gəlinlərin dodağında:
«Sevgilimi qoru dəniz,
Qoru dəniz.
Boş gəlməsin toru, dəniz.
Könlümüzün hər istəyi,
Gözümüzün nuru, dəniz.».
Okeandır çörəyimiz,
Okeandır qənimimiz.
Yedikcə heç qurtarmayır,
Biz dənizi, dəniz bizi.
Dəniz dinlər nəğməmizi,
Dəniz ötər
Nəğməmizi.
Dəniz bizə çörək verib,
Əvəzində
Alır bizdən göz
Yaşları.
Dəniz kişi qəbristanı,
Qayaları başdaşları.

*1975*

### *3. Qrandola Vil Morena*

*Qrandola Vil Morena Portuqaliyanın fəhlə əyalətinin adıdır. Bu əyalət öz inqilabi çıxışları və tətilləri ilə ölkədə məhşurdur. Xalq həmin əyalətin adı ilə əlaqədar olaraq «Qrandola Vil Morena» mahnısını qoşmuşdur. Faşist hakimiyyəti illərində hökumət həmin mahnını qadağan etmişdi. Buna baxmayaraq, mahnı 1974-cü il, 25 Aprel inqilabının başlanmasına siqnal olmuşdur.*

Qrandola Vil Morena –
Yoxsul fəhlə əyaləti.
Zorun, gücün quduzlaşıb
Həqiqəti daladığı illərdə də,
Uzaq-uzaq ölkələri
Taladığı illərdə də
Bu diyarda qorunmuşdur
Bir millətin şərafəti...

Qrandola!
Gözü yaşlı bədbəxtlərin
        Dərdlərinə dola-dola,
Haqq naminə çıxdı yola.
Ədalətin əsarətlə savaşında
Nəğmələşdi Qrandola.
Arzusunu bayraq kimi
        Başı üstə qaldıranlar,
        Dişi ilə daş qıranlar
Hayqırdılar:
- Sən ölkənin qeyrətisən.

Yollarına uğur ola.
Qrandola, Qrandola!
İşıq doğdu əyalətdən,
O söylədi öz sözünü.
Bu həqiqət işığında
Paytaxt gördü öz-özünü.
Bütün ölkə sənə baxdı,
Qrandola.
Gözlərindən işıq axdı,
Qrandola.
Qüvvət gəldi ürəklərə, biləklərə.
Paytaxt döndü əyalətə,
Paytaxt oldun
Ürəklərdə donub qalan arzulara,
Diləklərə.

Əyalətdə göy gurldadı.
Bu gurultu inqilaba təməl oldu.
Əyalətdən Lissabona fikir axdı,
Fikir dönüb əməl oldu.
«Qrandola Vil Morena.
Sən azadlıq, sən qardaşlıq vilayəti,
Ayaqla, keç əsarəti»
Amma yasaq elədilər dərhal səni.
Yox! Susdurmaq olarmı heç
Milyon qəlbin arzusunda
Nəğmələşən bir nəğməni?
Nəğmə aşdı, nəğmə daşdı.
Dodaqlarda o dolaşdı.
Salazarın sarayında
Pəncərəni vurub qırdı.
Qapıları tay-tay açdı.

Otaqlarda yel dolaşdı,
Ağızlarda dil dolaşdı,
Təqvimlərdə ay dolaşdı, il dolaşdı.
Aprel gəldi. İyirmi beş!
«Qrandola» məmləkəti silkələdi,
Ürəklərə od çiləndi,
Bu nəğmənin qanadında
Xalq özünü dərk elədi.
Dodaqlardan süzülərək
Ürəklərin qəzəbini
    Bir hədəfə tuşladı o,
    İnqilabı başladı o!

*1975, Nazari*

## TOPQAPI SARAYI*

Gəzdik İstanbulun muzeylərini,
Dünəni, keçmişi doyunca gördük.
Əşyalar köhnədir, baxışlar yeni,
Keçmişdən nə qədər ibrət götürdük.

Altun bilərziklər, almaz daş-qaşlar,
Böyük fatehlərin qızıl tacları.
Qızıl tac altında düşünən başlar,
Düşünə bildimi, görən, acları?

Saraylar danışdı özgə dilində,
Uyuşdu özgəyə,
Uyuşdu yada.
Xalq öz komasında, öz əməlində
Yaşatdı dilini, varlığını da.

Sultanlar milləti qorxuda bildi,
Doğru danışanı asdılar dardan.
Qızıl saraylarda fərman verildi,
Tarix gəlib keçdi ac komalardan.

*İyun 1977, İstanbul*

---

*İstanbulda eksponatlarının nadirliyi baxımından dünyanın ən zəngin muzeylərindən biri.

## «QAPALI ÇARŞI»*

O muzeydən, bu muzeyə,
Keçmişlərə səyahətdən
yorulmuşam.
O saxsının, bu kuzənin,
O qılıncın, bu nizənin
Tarixini eşitməkdən
dəng olmuşam.
Filan sultan
Filan zaman
Neyləyibsə özü bilər.
Tarix onu köksü üstə
Ya saxlayar, ya da silər.
Keçmişlərin gözü ilə
Niyə baxım bu günə mən?
Bu günümün gözü ilə
baxmalıyam
Keçmişin də gözünə mən.
Olan olub, keçən keçib.
Keçmişlərin
yaxşısı da,
yamanı da
Özünədir.
Bəs bu günün arzusu nə, eşqi nədir?
Bu gün hər şey təptəzədir,
Dünən boyat.
Bu ölkədə
həyat görmək istəyirəm,
həyat, həyat!

*İstanbulda bazar.

Cavan oğlan göstər mənə
Qəlblərdəki duyğuları,
Qafaların içindəki düşüncəni!
Gəl, «Qapalı çarşı»ya sən apar məni!
Görüm orda satanı mən,
alanı mən,
Olmuşları çox eşitdik,
İndi görmək istəyirəm
gözlərimlə
Bax, bu saat olanı mən!
- «Gəl, «Qapalı çarşı»ya
gəl,
Bu bazarın tayı hanı?
Hər nə desən, nə istəsən,
Quş iliyi, can dərmanı!»
Ona gərək, buna gərək.
Məmləkətə bəs nə gərək?
Düşünən baş,
Yanan ürək!
Bu ölkənin öz dərmanı
O ürəkdə, o başdadır.
Həyatdasa
bu gün yaman alver gedir.
Satıcılar alıcını,
Alıcılar satıcını
Aldatmaqçün
Təlaşdadır, təlaşdadır!

*İyul 1977, İstanbul*

## HAYD PARK

*Londonda «Hayd park» deyilən bir bağda hər kəs istədiyini danışmaq, hətta hökuməti ittiham etmək hüququna malikdir.*

Hayd park!
Bu bağda azaddır insan.
Azaddır məramı, fikri hər kəsin.
Ey qəlbi yaralı, fikri pərişan,
Qəlbindən keçəni qorxma, de gəlsin.

Danış bildiyini...
                    Qoruq-qadaq yox
Burda nə düz sözə, nə yalan sözə.
Burda fikir azad, burda söz açıq,
Yalan doğru kimi dürtülmür gözə.

Bu parkdan kənarda, bağdan uzaqda
Dolaşır ölkəni müdhiş yalanlar.
Ancaq həqiqəti yalnız bu bağda
Deməyə iznin var, ixtiyarın var.

Niyə həqiqətin qaradır üzü?
Ali məclislərdən niyə qovulmuş?
Sözdə hakimsə də
həqiqət özü
Yalan qarşısında müttəhim olmuş.

Boğurlar, düşünüb anlayanları,
Xalq yenə əsrlik qeylü-qalında.
Gerçəyin yerinə ağ yalanları

Gördük həqiqətin pyedestalında.
«Azadlıq məndədir» - söyləyən ölkə,
Ölkələr dağıdıb qana batmısan.

İnsan hüququndan dərs deyən ölkə,
Haqqı bağ güncünə niyə atmısan?
İzdiham önündə danışır biri,
Həqiqət çağlayır məğrur səsində.
Vurur ürəyinin döyüntüləri
Onun hər sözündə, hər kəlməsində.

Qəlblərə nur kimi çilənir səsi,
Sözləri zülmətdə çıraq yandırır.
İnsan arzusunun dilə gəlməsi
Burda daşları da işıqlandırır.

Parkın hər tərəfi yamyaşıl çəmən,
Qışın oğlan çağı burda ilk bahar.
Haqqın, həqiqətin gül nəfəsindən
Elə bil boy atır burda ağaclar.

Parkdan kənardasa əyri oldu düz,
Sözdən paltar biçdi yalan gerçəyə.
Gülləmi, bombamı, atəşmi haqq söz,
De, niyə qorxurlar düz sözdən, niyə?

Ədalət susanda, haqq boğulanda
Yalan zəfər çalır,
                    Gerçək mat qalır.
Qanun düşüncəyə qalıb olanda
Haqq söz barıt olur, qalıb yırtılır.

Qalıbı qoruyub saxlamaq üçün
Sözü «Hayd park»da dustaq etdilər.
Bu gün deyilsə də, sabah, başqa gün
Yalan həqiqətdən bir imdad dilər.

Parkın dövrəsində dəmir çəpər var,
Haqq sözün önünü kəsir hasarlar.
Kaş bu park böyüyə, hasar dağıla,
Dünya başdan-başa «Hayd park» ola!

*Oktyabr 1978, London*

## KİÇİK PƏNCƏRƏ

*Böyük Şotland şairi R.Börnsin doğulduğu və yaşadığı evin çox kiçik bir pəncərəsi var. Çünki o zaman pəncərə nə qədər çox və böyük olardısa, ev sahibi bir o qədər çox vergi verməli idi.*

Ayırmaq çətinmiş xeyirdən şəri,
Günəş işığına vergi qoyuldu.
Adamlar kiçiltdi pəncərələri,
Balaca daxmalar işıqsız oldu.

Həmişə insanın haqqı yeyilmiş
Ədalət deyilmiş zülmətə, zülmə.
Günəşin işığı müftə deyilmiş,
Onun da sahibi var imiş, demə.

Günəşin işığı başlara sərgi,
İnsan nə çəkmədi qanundan yana.
Günəş işığına alınan vergi
Xərcləndi cəhalət qaranlığına.

Qəlbi işıq ilə dolan şairin
Qisməti evi tək bir zülmət oldu.
Arzusu azadlıq olan şairin
Qazancı həmişə əsarət oldu.
Kiçik pəncərədən baxdı dünyaya,
Bütövlük yox oldu, bölündü hər şey.
O baxdı günəşə, o baxdı aya,
Çərçivə içində göründü yer, göy.

Ümidi, arzusu qaldı yarıda,
Düşdü çərçivəyə arzuları da.

Barıta çevrildi ürəyindəki,
Atəşə nə ölçü,
                nə daş, nə çəki?
Duyacaq,
      görəcək,
                yanacaq,
                          təki,
Sinədə daş deyil, bir ürək olsun.
Zamanın əlindən nə qəmlər yedi,
Yenə də dünyadan üzü dönmədi.
Dərdini nəğməyə çevirib dedi:
- Dünyanın dərdləri qəlbə yük olsun.
Arzular həmişə zülməti yarmış,
Gələcək günlərə salam aparmış.
Göz əgər görürsə...
Nə fərqi varmış
Pəncərə ya kiçik, ya böyük olsun.

*Oktyabr 1978, Şotlandiya, Era*

## KAMAN NALƏ ÇƏKİR ...

Uzaq Britaniyada kaman nəğməsi...
Habil lal telləri dilə gətirmiş.
Bir xalqın köksündən gələn ah səsi,
Başqa bir xalqı da inildədirmiş.

Başqadır bu xalqın məsləki, dini,
Fəqət, bu nəğməyə başlar əyilmiş.
Soyuq qanunların daş sərhədini
Sənətdən savayı kim aşa bilmiş?

Kamanın səsində hıçqırıq, ələm,
Duyan ürəklərə od ələnibdir.
Xəzər ləpələri elə bil bu dəm
Temza sahilində ləpələnibdir.
Kaman nə danışır, kaman nə deyir,
Belə için-için neçin inləyir?

Hicran öz hökmünü verəndən bəri
Kaman nalə çəkir vüsal eşqinə.
Bölünən bir xadqın könül telləri
Kamanın bağrında ağlayır yenə.

Kaman susan kimi
Qalxıb salondan
Əlində gül-çiçək bir cavan oğlan
Atıldı səhnəyə...
O gülə-gülə
Çiçək topasını verdi Habilə.
Alqışlar altında endi səhnədən

Yenidən kamança dindi səhnədən.
Mer ziyafət verir şərəfimizə,
Bu gecə ayrıca hörmət var bizə.
Bir kağız çıxardı Habil cibindən:
- Mənə bağışlanan gülün içindən
Tapdım bu kağızı, görün, nə yazır.
Oxuduq... Sözlərdən od-alov yağır.
Oxuduq kağızı biz dönə-dönə.
Oxuduq bir xalqın faciəsini
Eşitdik, kamanın iniltisinə
Səs verən qardaşın fəryad səsini.
Mənim dilimdədi bu məktub...
- Necə?
- Mənim qardaşımmış o cavan oğlan.
Temza sahilinə təhsil dalınca
Gəlib xan Arazın sağ cinahından.

Bilmirəm nə deyim kor taleyə mən?
İkiyə bölündü bir ana torpaq.
Balaca bir çayı keçə bilməyən
Qardaşlar görüşür qürbətdə ancaq.
Dalıb qəlbimizin hönkürtüsünə
Oxuduq məktubu biz dönə-dönə:
«Ulduzları saya-saya
Ayaq basır insan aya.
Mənim bu taydan o taya
Əlim çatmır sənə, qardaş».

Dərddən şair olub o cavan oğlan,
Zamanın qəribə oyunu varmış.
Yerdə beş addımı keçməyən insan
Göydə lap aya da ayaq basarmış!

Ana təbiətin düzüb-qurduğu
Qaydanı, hüdudu dağıdar insan.
Ancaq aşa bilmir, keçə bilmir o,
Özü yaratdığı həddən, hüdüddan.

Hicran öz hökmünü verəndən bəri
Kaman nalə çəkir bir vüsal üçün.
Bölünən bir xalqın könül telləri
Kamanın səsində birləşir bu gün.

*Oktyabr 1978, Qlazqo*

## OLUM, YA ÖLÜM?

*Şekspirin doğulduğu Stratford şəhərində Şekspirin heykəli onun dörd surətinin – Maqbet, Otello, Lir və Hamletin heykəlləri arasında ucaldılmışdır.*

O, xaliqdir,
Yaratdı dəhşətli oyunları,
O, öz məxluqlarının arasında dayanıb
İndi də düşündürür, danışdırır onları.
Dördünün də çiynində bu dünyanın kədəri.
Yaratdı,
həm də yazdı hər birinin alnına
öz bildiyi qədəri.
Yaratdı tanrı kimi,
Bu insan qüdrətinin, görəsən, son həddimi?
O, yoxdan var eylədi bu dərdli insanları.
Düşündürdü onları, danışdırdı onları.
Burda yanıldım bir az,
Yoxdan heç nə yaranmaz.
Rəssam kimi götürdü
İztirabı qürubdan, sevinci dan yerindən
O yaratdı bu fikir, bu dərd heykəllərini
Dərdli fikirlərindən.

Xaliqinin önündə Hamletin tunc heykəli
Yox, görünmür fikrinin nə sonu, nə əvvəli.
Yaranandan bu yerə
Düşünür,
Üsyan edib o, yerlərə, göylərə.

Gah öldürür, düşünür,
Gah dirildir, düşünür.
«Olum, ya ölüm!, – deyə
Dörd yüz ildir düşünür.
Dörd min il, dörd milyon
il düşünəcək o, yenə.
«Dünyaya sığmaz başı sığıbdır sinəsinə».
«Olum, ya ölüm», - dedi
Ondan əvvəlkilər də,
Ondan sonrakılar da.
O, nə ilkdir, nə də son.
Cavabı tapılmadı bu əbədi sorğunun.
Hamletin tunc heykəli...arxasında yaradan
Yaranmışın diliylə danışdı zaman-zaman.
Atomlu əsrimizdə bu dünyanın taleyi
bağlı ikən bir ana
«Olum, ya ölüm», - deyə
İndi dünyamız verir bu sualı insana.

*Oktyabr 1978, Stratford*

## SOVXA MEDALLAR

Köhnə bazarında Portobellonun
Təzəli-köhnəli nə istəsən var.
Qəribə şəhərdir bu qoca London.
Satılır bazarda lap açıq-aşkar
Faşist ordusundan qalma medallar.

Deyəsən, qarışdı tapan, itirən,
Dünənin ağrısı tez unudulmuş.
Dünən çoxlarına şöhrət gətirən,
Bu gün yarım funta əldə mal olmuş.

Gümüş xaç nişanı...
Parıltısına
Dikildi həsrətlə çoxunun gözü.
Dünən müştəriydi bir millət ona,
Müştəri axtarır bu gün o, özü.

Hanı o əvvəlki şanı, şöhrəti?
İtirdiyi nədir,
Tapdığı nədir?
Dünən şərəf idi...
                    Bu gün qiyməti,
Yalnız metalının dəyərindədir.

Bu gün eksponat...
                    Muzeydir yeri.
Adi bir marağa o, hədəf olmuş.

Yarım funt nədir ki...
Onun dəyəri,
Onun şöhrətilə bir basdırılmış.

Öyrənmək istədim, bu medalların
Kimdir müştərisi?
Dedilər, hər kəs.
Anladım, faydası yox sualların,
Mənim duyduğumu o, duya bilməz.

Bu sovxa medallar dünən Londonu
Od töküb yandıran faşistlərindi.
Nə tez unutdunuz, nə tez siz bunu?
Necə əziz olub o sizə indi?

Bu medal... Bəlkə də bir pilotundu.
Bunu nahaq yerə almayıb ki, o...
Sizin bir şəhəri dağıtdığından
Bu xaç nişanını veriblər ona.
Atanın qanıdır üstündə yanan
Yaxşı bax sən onun parıltısına.

Bir dəyər ölçüsü varsa, bəs hanı?
Zaman öz sözünü hər zaman demiş.
Atanın cəbhədə töküldü qanı,
Bəs onun dəyəri
Yarım funt imiş?..

*1978, London*

## QÜRBƏTDƏ GÖRÜŞ

Biri çayın bu tayından,
Biri çayın o tayından
iki qardaş
Dayanıbdır yad ölkədə
üz-üzə.
Bu nə hicran,
Bu nə görüş?
Bu görüşün bir adı var: möcüzə!
Görüşürkən
içdən gələn hönkürtülər bəs nədir?
Bir Vətənin oğulları qürbətdə yox,
O Vətənin öz içində
Görüşməyə təşnədir.
İki qardaş görüşməkçün
Qürbətəmi gəlməli?
Bu sorğuya hönkür-hönkür ağlamalı,
Qəhqəhəylə gülməli!

*Oktyabr 1978, Qlazqo*



# NƏĞMƏLƏR


*Mən səni, sən də məni*
*Bir baxışdan duyaq biz.*
*Mən sənə, sən də mənə*
*Dayaq olaq, dayaq biz.*

## ƏQRƏBLƏRİN UCUNDA

Bizim kimi fırlanır
Saatın əqrəbləri.
Zaman axır irəli,
Zaman qayıtmır geri.

Dünyamız da fırlanır,
Səhər-axşam bizim tək.
Günəş yerdə xətt cızır
Mənim ayaq izim tək.

Biz günəş övladıyıq,
Əməllər işıq-işıq.
Günəşi göydə deyil,
Biz ki yerdə tapmışıq.

Diləyimiz, fikrimiz
İşdən işə calanır.
Əqrəblərin ucunda,
Əməlimiz dolanır.

*1970*

## DAYAN, RUZGAR

Ruzgar, necə nəğməlisən,
Könlüm kimi sən dəlisən.
Saçlarıma sığal çəkən
Sevgilimin öz əlisən.
Dayan, ruzgar, dayan, ruzgar,
Mənim sənə çox sözüm var.

Dayan, ruzgar, duyğularım
Sənin kimi aşıb-daşır.
Dünya boyda arzularım
Dünya ilə qucaqlaşır.
Dayan, ruzgar, dayan, ruzgar,
Dayan, sənə çox sözüm var.

1970

## YAŞAMAQ EŞQİ

*Ş.Axundova bəstələmişdir*

Hər gün artır saçımda
Təzə qırov, təzə dən.
Yaşamaq istəyirəm
Gəncliimi təzədən.

Həyat necə gözəldir,
Həyat necə şirindir.
Ömür mənim deyil ki,
Ömür diləklərindir.

Ey qanadlı diləklər,
Ey qanadlı xəyallar,
Hələ mənim sabaha
Neçə-neçə sözüm var.

Ürəyimdən keçəni
Duya bilər kim mənim?
Yaşadıqca çoxalır
Yaşamaq eşqim mənim.

*Yanvar 1973*

## MƏN SEVİRƏM

Mən sevirəm... Dərədə
Axan sellər qanımdır.
Dənizdəki dalğalar
Mənim həyəcanımdır.

Mən sevirəm... Danışır
Dağda susan bulaqlar.
Mənim diləklərimdir
Düyməlınən budaqlar.

Mən sevirəm...Qayalar
Çiçək açır, gül açır.
Mən sevirəm... Duyğular
Ürəyimdə dil açır.

Mən sevirəm... Yanımdan
Ötə bilməz qəm mənim.
Mən sevirəm... Quşların
Nəğməsi nəğməm mənim.

Mən sevirəm... Ürəyim
Öz sinəmə dar gəlir.
Mən sevirəm... Qəlbimə
Sevgidən bahar gəlir.

*İyun 1973*

## BİZ

Qəlbimizi kitab tək
Açaq varaq-varaq biz.
İşıqlı duyğularla
Qaranlığı yaraq biz.

Mən səni, sən də məni
Bir baxışdan duyaq biz.
Mən sənə, sən də mənə
Dayaq olaq, dayaq biz.

Arzulara nur alaq
Qızaran dan yerindən.
İnsan diləklərindən
Kaşanələr  quraq biz.

*Fevral 1974*

## QULAĞIM CİNGİLDƏYİR

Qulağımda səslənir
Sənin o titrək səsin.
Danışıram sözünü
Qulağın cingildəsin.

Külək qalxdı, qızartdı
Kül altında közümü.
Mənim əlimdən aldı
Gecəmi, gündüzümü.

Mən özümdə deyiləm,
Sənə verdim özümü.
Qulağım cingildəyir,
Danışırsan sözümü.

*1977*

## KƏPƏNƏK

*E.Sabitoğlu bəstələmişdir*

Güllər üstə uçan, qaçan
Bir qayğısız kəpənəkdin,
Çiçəklərin ürəyində
Sən ən şirin bir diləkdin.
Sorağını gül-çiçəkdən
alınca mən, gördüm yoxsan,
Qaçdım sənin dalınca mən,
gördüm yoxsan.

Nəğmə deyir sənə güllər
Yel əsdikcə narın-narın.
Hər çiçəkdən bir rəng alır
Qızıl-qızıl qanadların.

Hansı gülü oxşadınsa,
Ləçəyində izin qaldı.
Səni tutdum, uçub getdin,
Əllərimdə tozun qaldı.

*1974*

## DURNA QATARI

*E.Sabitoğlu bəstələmişdir*

Əsir payız küləyi,
Gecə uzun, gün gödək.
Ağacdan yarpaq düşür,
Bir ömrün gülləri tək.

Susur çaylar, çeşmələr,
Susur çəmən, dağ, dərə.
Köçür durna qatarı
Uzaq-uzaq ellərə.

Bizim çöllər ayrılır
Bu vəfasız gözəldən.
Qışda üşüməməkçin
Yer don geyir xəzəldən.

Köçür durna qatarı,
Ürəyimiz kövrəlir.
Külək əsir, dağlardan
Payızın ətri gəlir.

Yarpaqlara, otlara
Sarı-sarı zər düşür.
Yaşımıza yaş gəlir,
Ömürdən günlər düşür.

Köçür durna qatarı,
O, baharda dönəcək.
Ötən günlər dönəydi
Durna qatarları tək.

*1975*

# GÖZƏLLƏR

Küçələrdə gözəllər
Çiçək-çiçək görünür.
Hər gözəlin dalınca
Neçə ürək sürünür.

Ay vüqarlı gözəllər,
İnsaf hara, siz hara?
Bir baxış qıymırsınız
Sizə can qıyanlara.

Gözəllər küçələrdə
Dolaşır işıq-işıq.
Siz vüqara yaraşıq,
Vüqar sizə yaraşıq.

*1977*

## MƏN YANDIM,
## SƏN İSİNDİN

*(E.Sabitoğlu bəstələmişdir*

Ürəyimdən keçəndən
Düşmədinmi duyuq sən?
Səndən cavab gözlədim,
Nə «hə» dedin, nə «yox» sən.

Dedim, susma, danış, din,
Nə danışdın, nə dindin.
Məhəbbətin oduna
Mən yandım, sən isindin.

Dillənsənə, sevgilim,
Mən nə daşam, nə dəmir.
Min il də gözləyərdim,
Axı ömür gözləmir.

Sükutunla durmusan
Ürəyimin qəsdinə.
Söylə, susan sevgilim,
Bu sükutun qəsdi nə?

*1977*

## BİR ARZUYA DÖNMÜŞƏM

Dənizlərə tələsən
Axar suya dönmüşəm.
Min arzumda əriyib
Bir arzuya dönmüşəm.

Hanı elə qüdrətim
Öz arzumdan keçəm mən?
Gəl-gəl, gəl-gəl, ey arzum,
Gəl ki, sənsiz heçəm mən.

Ötənləri kitab tək
Könlüm varaqlar mənim.
Xatirələr bulaq tək
Gözümdə çağlar mənim.

*1977*

## BİR PAYIZ AXŞAMI...

*E.Sabitoğlu bəstələmişdir.*

Bir payız axşamı, yağırdı gur yağış,
Saplandı könlümə alovlu bir baxış.
Qamaşdı gözlərim, baxdıqca mən ona,
Gözlərdə nə əfsun, gözlərdə nə məna!

Dayan, dayan, dayan, zaman, dayan,
Zaman, dayan, zaman, dayan, dayan!
Hicrana olmasın aman!

Döyündü ürəklər mən baxdım, o baxdı
Mən ona yaxındım, o məndən uzaqdı.
O susdu, dinmədi, danışdı baxışlar,
Baxışı könlümdə bağladı naxışlar.

Bir payız axşamı iki qəlb bir oldu,
Buludlar dağıldı, dəryalar duruldu.
Nəğmələr pıçıldar göy mənə, yer mənə,
Sevirəm, ey həyat, sirrini ver mənə.

*1973*

## QIZIM

*Ş.Axundova bəstələmişdir.*

Məhəbbətlə gülşən olub
Göy də, qızım, Yer də, qızım.
Sevir, sevir bir-birini
Güllər, çiçəklər də, qızım.

Bu dünyanı yaxşı tanı
Sevgisiz bir ürək hanı?
Sev torpağı, sev insanı
Yaşa ürəklərdə, qızım.

Gör Xəzərə Kür nə deyir.
Buludlara Yer nə deyir?
Nəğməsində gör nə deyir
Əsən küləklər də, qızım.

İllər yaşat bircə gündə,
Hər gecəndə, gündüzündə.
Başın olsun göy üzündə
Ayaqların yerdə, qızım.

*1973*

## BİR BAXIŞLA...

Elə baxdın, qış günü
Qar əridi, gül açdı.
Gül bülbülə, şeh ota,
Meh dağa könül açdı.

Bir baxışla elə bil
Zülmətə nur çiləndi.
Bir baxışla, sevgilim,
Dağ-daş da nəğmələndi.

Bir baxışın odundan
Ürəyə köz düşərmiş
Bir baxışla bu dünya
Necə gözəlləşərmiş!

Bir baxışla, sevgilim,
Dünya gülə bələndi.
Bir baxışla bir anda
Ömür də təzələndi.

Bir baxışın odunda
İtmişəm ilim-ilim.
Baxışının gücünə,
Hökmünə bax, sevgilim.

*Mart 1979*



# UŞAQ

## VƏ MƏKTƏB DÜNYASI



*Sən yuxuda nə gördün?*
*Bal yuxunda çiçəklər*
*Saçlarını yoldumu?*
*Bu dünyanın işləri*
*Sənə əyan oldumu?*

B. Vahabzadə



## NİYƏ?

- Niyə gündüz gün çıxır,
Niyə ulduzlar batır?
Günəş yatandan sonra
Niyə adamlar yatır?

- Niyə dəniz dalğalı,
Niyə sahil lal olur?
Niyə zanbaq ağappaq,
Qızılgülsə al olur?

- Sevinc balam, tələsmə,
Keçər gün, keçər zaman,
Bunların cavabını,
Bir vaxt özün taparsan.

- Mənə sual verməyi
Qadağan etməyələr,
Bizim qanadımızdır
Bu niyələr, niyələr...

*1970*

## SEVİNC GƏTİRMİŞƏM

Mən heç nadinc deyiləm,
Görün necə dinc qızam.
Mənim adım Sevincdir,
Özüm də sevinc qızam.

Böyüklərin gözündən
İstəmirəm düşəm mən.
Axı ata-anama
Sevinc gətirmişəm mən.

*1970*

## MƏN Kİ
## QARA DEYİLƏM

Sevinc yudu üzünü,
Saçlarını daradı.
Güzgüyə baxıb dedi:
- Mənim haram qaradır?

Mən ki ağappaq qızam,
Ağ güldən seçilmirəm.
Bəs niyə  anam mənə
Qara deyir, bilmirəm.

*1970*

## NİYƏ KÖKS ÖTÜRDÜN

Yuxusunda körpənin
Dodaqları büzüldü,
Alnına tər düzüldü.
O ah çəkdi,
Yatağında oyuldu,
Ona birdən nə oldu?
- Nə var, nə var, ay gülüm?
Bəlkə, səni yuxuda
Qorxutdular, ay gülüm?
Bəs niyə köks ötürdün?
Sən yuxuda nə gördün?
Bal yuxunda çiçəklər
Saçlarını yoldumu?
Bu dünyanın işləri
Sənə əyan oldumu?

*1973*

## KÖRPƏ GÜLÜŞÜ

Körpə güldü yuxusunda
Kim deyər bu nə gülüşdü?
Nur dağıldı bu gülüşdən,
Könlümüzə işıq düşdü.

Qərəzsizdir,
Tərtəmizdir
İlıq körpə gülüşləri.
O, səhərin ilk işığı,
O, dan yeri.
Qoy müdriklər cavab versin,
Körpə şirin yuxusunda
Yerə,
yoxsa
göyə güldü?
Niyə güldü, nəyə güldü?

Çox düşünüb daldı müdrik
Bu gülüşün mənasına.
Cavab tapa bilməyəndə
O, özü də güldü buna.

*Avqust 1973, Şəki*

# POEMALAR





*Hər üzüyün qaşındadır öz dəyəri,*
*İnsanın da qayəsidir düz dəyəri.*
*Əqidəsi cövhəridir hər insanın,*
*Gövhəri də dəyəridir hər insanın!*
*Qayə varsa, mərddir demək,*
*Öz yolundan dönməyəcək.*
*Qayə yoxsa, söyüd kimi*
*Əyiləcək o tərəfə, bu tərəfə,*
*Vurmayacaq bir hədəfə.*
*Qayə varsa – o, qorxmazdır,*
*Qüdrətlidir,*
                    *Cürətlidir.*
*Qayə yoxsa – o, qorxaqdır,*
                    *O, yaltaqdır.*
*Varlığını bir «Sağ ol»a satacaqdır.*

# QİYMƏT

*Tələbələrimə*

**1**

Bir gün müəlliməm,
Bir gün şairəm.
Daim bir məcazda ola bilmirəm!
Mənim də qismətim beləymiş, demə,
Naşükür deyiləm öz qismətimə.

Yarıya bölünür günüm, saatım,
Vaxt mənim sərvətim, sonsuz varımdır.
Müəllimlik – mənim günüm, həyatım,
Şairlik – ən uca duyğularımdır.

**2**

İmtahan...
İmtahan götürürəm mən.
Gəlir tələbələr, gəlir birbəbir.
Hər gələn cavanın tərpənişindən
Ağlı, düşüncəsi mənə bəllidir.
Kimi cəsarətlə çəkir bileti,
Kimi qorxa-qorxa yanaşır mizə.
Kimi bildiyindən umur qiyməti,
Kimi də güvənir mürvətimizə.
Kimi nişan alır əvvəldən sonu,

Dediyi mətləbi hiss edir, duyur.
Kimi əzbərləyib oxuduğunu,
Danışmır,
Elə bil kitab oxuyur.
Sözündən özünün xəbəri yoxdur
Cümlələr ütülü,
Sözlər soyuqdur.
Bir il bu sinifdə
bildiklərimi,
Alışa-alışa danışmışam mən.
Onların önündə
bir çıraq kimi
Sözümdən od alıb alışmışam mən.
Məqsədim bir olub:
Bu təzə nəsil
Dünənə güvənsin, bu günü sevsin.
«Özgəni» danmasın,
ancaq müttəsil
Özünə tapınsın,
Özünü sevsin.
Mənim də kəsirim az deyil, şəksiz,
Dünyanı asmışam əsəblərimdən.
Bircə sözümü də ancaq ürəksiz,
Boğazdan yuxarı deməmişəm mən.

Hər cümləm dünyada ayaq izlərim,
Köklənib könlümün öz ahənginə.
Könül qaynağında bişən sözlərim
Bürünüb hissimin qızıl rənginə.
Ən böyük fikrimi, sözümü bəzən,
Danışa-danışa yaratmışam mən.
Yanlışı zamanın özü düzəldir,

Fikri də istərəm mən, əlvan-əlvan.
Özünün yanlışı min pay gözəldir,
Özgənin düzünü təkrarlamaqdan.
Könlüm qanadlandı,
Fikrim ucaldı,
Gəncliyin önündə alışanda mən.
Dedim: «Nə» sualı arxada qaldı,
«Neçin»dən yapışın,
İndi «Neçin» dən!
Mən ki, deməmişəm, Loğman Sabirin
Harda,
Hansı ildə
doğulduğunu.
Demişəm, dilidir o, dərdimizin,
Vətən nədən ötrü doğubdur onu...
İstərəm,
hər cavan
yandığım kimi,
Alışsın!
Məni də yandırsın yenə!
Mənim yana-yana dediklərimi,
Həmən yanğıyla da qaytarsın mənə.

Gəlir, bir çəlimsiz, ucaboy oğlan.
Danışır,
İnam var, inam səsində,
Məsləki görünür baxışlarından,
Ürəyi səslənir hər kəlməsində.
Üzü də tüklüdür...
Baxıram ona.
Gecəni yatmayıb, şişib gözləri.
Mənim gəncliyimi andırır mənə

Əsəbi görkəmi, yanıq sözləri...
«Siz belə dediniz, filankəs belə,
Filan alimlərsə... deyir filan cür.
Mənim fikrimcəsə...»
                    Bu fikrin hələ
                                Bişməyib.
Mənəsə gözəl görünür.
Niyə?
                    Soruşsana...
                                Gün təzələndi.
O səni gözləyir, sən sabaha bax...
Biz öz sözümüzü demişik, indi
Bu meydan sizindir, sizindir ancaq!

Mənim yana-yana dediklərimi,
Sən mənə qaytardın bu gün ayrı cür.
Sən səcdə qılsaydın mənə büt kimi,
Mən sonsuz olardım,
Şükür,
        Çox şükür!
Bir təzə rəng verdi o, hər mətləbə.
Bu böyük zəfərdir,
        Bu ki dərd deyil.
                                Şagird,
Ustadından neçə mərtəbə,
İrəli getməsə... o, şagird deyil.
Mən bu tələbəyə nə yazım indi?
Qələm kağız üstə gəzdi, sevindi...
Yazdı qiymətini o özü!
                    Mən yox!
O, rəngdən rəngi yox, ətri götürmüş.
Meyvədən danışdım mən ona ancaq,

O, könül gözüylə toxumu görmüş!..
Saçları çiynində, mini yubkalı,
Gözləri sürməli birisi gəldi.
Bileti çəkincə dəyişdi halı:
- Bilmirəm... – deyərək yola düzəldi.
«İki»ni yazımmı?
Məgər bununla
vəzifən bitirmi?
Yox!
Dayan, yavaş!

Başının çölünü bəzəyincə o,
Başının içini bəzəyəydi kaş!
Təzədən çağırdım,
Dedim, bilet çək!
Çəkdi.
İki kəlmə danışdı,
Qalxdı.
O ki var danladım.
İndi neyləmək?
Durub matdım-matdım üzümə baxdı.
Yazdım «iki»sini...
çətin,
çox çətin!
Tələbə bilmir ki,
Müəllimlərin,
Yazdığı hər «iki»,
Min sual kimi
Onun yuxusuna girir,
Söz sorur.
«İki»lər hər biri qara xal kimi
Onun məsləkində qaralıb durur.

Çox inamla gəlir tapşırılanlar
Özündən razıdır,
Adından əmin.
O elə baxır ki,
guya borcu var
Onun dədəsinə mənim dədəmin...
Beləcə, birisi durub önümdə
döyür gözünü.
İşarır...
Bu gizli işarəsiylə
Deyir sözünü...
Bileti əlində, işarır yenə,
Demək istəyir ki, «tanıyın məni».
Suallar dalında cavab yerinə
Görür tanışının «əzəmətini».
O başa düşür ki, hirslənmişəm mən,
Deyən, bu xınadan deyil o xına.
Əl çəkir o arsız təbəssümündən,
Əlini astaca qoyur alnına.
Düşünür.
Köməyi umur başından.
Başında nə var ki, köməyə gəlsin,
Qoparıb bir-iki söz yaddaşından,
Danışır: «Baxanda görürük...»
Çətin!
Danışır mənasız,
Danışır hədər.
Bayaqkı vüqarı çöküb diz üstə.
Yarımçıq cümlədir, qırıq kəlmələr,
Əriyib toz kimi düşür miz üstə.
Qırıq kərpiclərə bənzəyir sənin
Sönük cümlələrin, qırıq sözlərin.

Qırıq kərpiclərlə ev tikmək sənə
Asanmı görünür?
Dayan, düşün bir.
Kərpiclər hərəsi baxır bir yana,
Niyə bir-birinə yapışa bilmir?
...Dili topuq çalır,
Rəngi ağappaq...
Oğlan xırdalanıb yumağa dönür.
Əlində tutduğu kiçik bir varaq,
Onunçun əlçatmaz bir dağa dönür.
Tərəzi qurmuşam sual-cavabdan
Bir gözdə suallar,
Bir gözdə oğlan.
O baxdı üzümə dilsiz, ağızsız.
Danladım,
                    dinmədi,
                                o, qulaq asdı.
Bu boyda vücudu bir varaq kağız
Gör necə kiçiltdi,
                    gör necə basdı...
Qiymət verməliyəm mən ona indi,
O öz qiymətini özü bilmədi.
Günün doğuşunu dan yerində yox,
Axtardı xırdaca çöp işığında.
O öz qiymətini, dəyərində yox,
Gördü özgələrin tanışlığında.
Ona deyən yoxdur hanı mənliyin?
Sən özün özünü niyə danırsan?
Öz gücünə deyil,
                    a bədbəxt, neçin
Özgənin gücünə arxalanırsan?
                    Gəldin tapşırıqla!

Heçsən, demək, sən.
Mənliyin kiminsə kölgəsindədir.
Əgər sən varsansa...
Keçib özündən,
Özünü bu qədər alçaltmaq nədir?
Sən bir büllur idin...
Önümdə sındın.
Oldun para-para, sən çilik-çilik.
Özgə kölgəsinə niyə sığındın?
Səni alçaltmırmı bu dilənçilik?
Dərsini bilmədin...
Bəs neyləyim mən?
Oğul, heç olmasa buna
cavab ver.
Sən özün-özünə inanmayırkən,
Mən necə inanım sənə?
Cavab ver!..
Çətinmi?
Yanıram bəs axı mən də!..
Dil-dil ötən dilin niyə lal olmuş?
Suallar hər yandan hücum çəkəndə,
O boyda vücudun bir sual olmuş...
Sonu görünməyən yollarda çaşqın
Səyyaha bənzədək biz ömrümüzü.
Dünyaya sualı olmayanların,
Sualdır varlığı, sualdır özü!..
Cavabı ömürdən uzun suallar
Yerin hikmətidir, göyün sirridir.
Suallar,
suallar,
dərin suallar,
Daim yüksəlişin pillələridir.

Hər kiçik sualda neçə sual var.
Sual yüksəlişdir,
Sual bilikdir.
Həmişə sual ver,
Həmişə axtar,
Ən böyük dahilik tələbəlikdir.
Sonsuz həyəcanlar, sonsuz təlaşlar,
Sualdan başlanıb, yoxdan var olmuş,
Ən böyük dahilər, ən böyük başlar,
Suallar dalınca qaçanlar olmuş.
Sual fikirlərin çığıran səsi,
Bütün uçuşların dayaq nöqtəsi!..
O bunu bilmədi,
bilməz heç zaman!
Zənn etmə, qəsdindən o, dönəcəkdir,
Tutub alimlərin boş damarından,
Elmin yollarında sürünəcəkdir.
Keçəcək beləcə havayı beş il,
Onunçun elm-yük,
Zəhmət ziyandır.
O, elmin yolunda mücahid deyil,
Vurğun yolçuları yamsılayandır.
Üzümə şiniyib o veyil-veyil,
işarır yenə,
Yəqin ki, o indi özünün deyil,
Gülür tanışının gücsüzlüyünə.

Tanış...
Mənim ona çox hörmətim var.
Kağızın üstündə dayanır qələm.
İtsinmi ortada salam-kalamlar?
Yox! Onun üzündən keçə bilmərəm.

Müəllim – tələbə... İki sərt baxış
Dayanıb ortada müştərək tanış.
Salama, xahişə ilişib qələm,
Vurur bir yandan da ədalət məni.
Düzlük tələb edir məndən vəzifəm,
Çəkir əyriliyə vəziyyət məni.

Keçən il bağımda ev tikdirirdim,
Arayış düzəltdim,
                                        ərizə verdim.
Olmadı işimə bir can yandıran
Nə daş tapa bildim, nə taxta-şalban.
Axır, tanış oldum bir müdirlə mən,
İşlərim düzəldi səxavətindən.
Düşdüyüm o çətin, o bərk ayaqda
O, satın alırmış məni, heç demə.
Minnətli yaxşılıq – bir-iki taxta,
Bu gün qiymətini göstərir mənə.
Mən nə biləydim ki, həmin bu müdir,
Qəsdinə duracaq haqqın bir zaman.
Məni minnətiylə haqdan döndərir
Bir-iki taxtayla məni aldadan.

«İki»ni yazımmı?
                        Bəs sonra?
                                        Yox, yox...
Kağızın üstündə dayanır qələm.
Kəsilən tələbəm deyil,
Yaxşı bax.
            Vəzifə başında kəsilən mənəm...
Taxta istəmişdim mən ondan... osa,
Məndən dəyərsizə dəyər istədi.

Mən ki düşmən idim söz anlamaza,
Məndən düşmənimə səngər istədi.
O mənə daş verdi, əvəzindəsə
Aldı ürəyimi bir baqqal kimi.
Ürəyi daş olan bir filankəsə,
İndi necə qıyım öz ürəyimi?

Ürəyim – öz fikrim, andım, əqidəm
Əsil oğul bu yolda gərək baş qoya.
Görün, nəyi nəyə dəyişməliyəm?
Ürəyi, məsləki daşa, taxtaya...
Mən onu kəsmədim, üç yazdım ona
Bu «üç»lə dağ basdım haqqın bağrına.
«Üç»lərlə vicdanı veririk bada,
«Üç» - başdan eləmək, «üç» - natamamlıq.
Biz bu «üçlər»dəki saxtalıqla da
Haqqın, ədalətin belini qırdıq.

Hər «üç» - bir yarımçıq, kəmsavad həkim,
Hər «üç» - bir cinayət, vaxtsız bir ölüm.
Hər «üç» - balasını itirən ana,
Hər «üç» - tikildikcə sökülən bina.

Müəllimlər, gəlin, düşünək dərin,
Kəsir özümüzü öz qılıncımız.
Bizim verdiyimiz saxta «üçlərin»
Barı cinayətdir, səbəbkarı biz.

Mən onu kəsmədim, kəsə bilmədim
Kəsib vicdanımı «üç» yazdım, bu an
Vicdanım qışqırdı,
                    Ona – «Sus!» - dedim!

Oğlan gülə-gülə çıxdı qapıdan.
Güldü, sinəsini dağladıb haqqın,
Güldü, anasını ağladıb haqqın.
Bu gülüş düzlüyün sapını qırdı,
Onun gülüşündə haqq ağlayırdı.
O çatdı qəsdinə... Dikəldi...
Bəs mən?
        İndi mən əyilib döndüm yumağa.
Demək, şirnikdirdim onu indidən,
Özgənin haqqını oğurlamağa...

Hələ bu nədir ki?.. Dalı «əcəbdir»,
Daldadır ev yıxıb, qan qaraltması.
Ən böyük haqsızlıq törədəcəkdir,
Haqqı olmayanın haqqa çatması.
Əlim yazdısa da, « yox» dedi könlüm,
Qələmin altında inlədi könlüm.
Özgə qiymətinə o, sahib oldu,
Nə verər sonrakı hay-haray bizə?
Deyirəm, həyatda bu mahir oğru
Özgənin yerini tutsa, vay bizə!
Mən onu kəsmədim, kəsə bilmədim,
Vicdanım qışqırdı...
        Ona «sus!» - dedim!
Vicdan,
                Yazıq vicdan!..
                        Bəzən həyatda
Yaşamaq naminə səni əzmişik.
Bizdən güclülərin ayağı altda
Səni istəmədən qurban kəsmişik.
Ölüm hədələyib dərd gülən zaman,
Deyirik, bəxtimiz yenə yatıbdır.

Əlimiz hər yerdən üzülən zaman,
Gücümüz həmişə sənə çatıbdır.
Vicdan da bir yana...
Bir cani kimi,
Qaydanı, qanunu ayaqladım mən.
Dandım məsləkimi, düz əqidəmi,
Ürəyin yerinə daş bağladım mən.

Qanundan, düzlükdən danışırıq biz,
Uca kürsülərdən ağız dolusu.
Sözlərdən utanmır əməllərimiz,
Özümüz oluruq haqqın oğrusu.
İndi soruşuram:
- Kimdir müqəssir?
Tələbə?
Yoxsa mən?
Yoxsa o müdir?
Mən də müqəssirəm,
oxucu, sən də.
Heç kəs dayanmasın burda yad kimi.
Mənə o müdir də kömək edəndə,
Qanunu beləcə əyməmişdimi?
Yarpaq töküləndə, ot saralanda,
Bilirik, ömrünü tapşırır bahar.
Mən ondan qanunsuz taxta alanda,
Biləydim, bu gündən mənimçün də var!
Bəlkə, düz demirəm?
Haqsızam, bəlkə?
Heç kəs yaxasını çəkməsin yana.
Qanunu əyəndə hərə bir tikə,
Böyük cinayətlər çıxır meydana...
Nədir o cinayət?

Həmin tələbə
Sabah bitirəcək darülfünunu.
Müəllim gedəcək o bir məktəbə,
Savadsız müəllim!
Yaxşı, bəs sonu?
Sonu cinayətdir,
Cinayət!.. Min-min!
(Cani öz-özündən intiqam alır)
Elə cinayət ki,
bu cinayətin
Canisi bilinmir, cəza mat qalır.
Mənim qaşığıma çıxacaq gec-tez
Mənim doğradığım...
həyat dövr edir.
Bir vaxt görərəm ki,
həmin savadsız
Mənim övladıma «savad» öyrədir.
Durduğum budağa çaldım baltanı,
Çaldım öz balamın gələcəyinə.
Qanunu əyəndə,
onun ziyanı
Qayıdıb özünə dəyəcək yenə...
Bilmədi...
Mən ona «üç» yazdım... Bəli!
Bəs o işvəli qız, gözü sürməli?
Niyə bir müdirin tanışlığına
Verdiyim o «üç»ü qıymadım ona?
Sözümüz bir olmur əməlimizlə
Düzlük nalə çəkir, ədalət yanır.
«Düzlük» - deyə-deyə öz əlimizlə
Həqiqət boğulur, düzlük tapdanır.
«Yox!» - deyə dilləndi başqa səs yenə.

Dayan!
Vicdanınla dayan təkbətək.
İndi ki qol çəkdin əyriliyinə,
Qıza da o «üç»dən yazasan gərək.
Dedim, sən haqlısan,
qab əyildimi
Su gərək tökülə axıra kimi.
Qıza da «üç» yazdım...
Hər şey pozuldu.
Qiymətlər hamısı baş-ayaq oldu.
Hökm etdim ürəyə, qıydım vicdana.
İşimi korladı bircə yelbeyin.
Mənim götürdüyüm bu imtahana
İmtahan deməyin, haqsızlıq deyin.

Mənə tapşırdılar şərəfli, çətin
Qiymət vermək kimi bir vəzifəni.
Özümdən soruram, bəs sən neylədin?
Gör necə aldılar özündən səni!
Niyə tapılmadı o qüdrət məndə,
Verim qiymətini, verim hər kəsin?
Saxsını almazla bir eləyəndə,
Günahkar sərrafdır,
almaz neyləsin?
Qorqud adamlara ad qoyanda da
Əməli düşündü,
Dəyəri gördü...
Güvənib Dədədən aldığı ada
Hər kəs o ad ilə ömrünü sürdü.
Mən verə bilmədim, ay Qorqud Dədə.
Doğru qiymətini burda heç kəsin.
Qorxum ondandır ki, cəmiyyətdə də,

Bunlar qiymətini ala bilməsin.
Pozular qaydalar, dağılar nizam,
Verməsən hər kəsin öz qiymətini.
Gövhər də çatlayıb üzülər tamam
Sərrafdan almasa düz qiymətini...

Mahnıda bəmi var, zili var səsin.
Həyatda yeri var, axı hər kəsin.
Gözlər ağlamasın, gözlər neyləsin,
Sən qaşa verəndə göz qiymətini.

Yalanın əlilə gerçək boğuldu,
Yaxın uzaq oldu, qara ağ oldu.
Dünyanın növrağı tamam pozuldu,
O gün ki, itirdi söz qiymətini.

## SON SÖZ

Sonrakı qazancdır müəllimliyim,
Amma şairliyim, öz fitrətimdir.
Burda birləşdilər...
Bu dastan mənim,
Özümdən-özümə şikayətimdir.
Sənət, həqiqəti deyən sən oldun,
Dünyanı dünyaya göstərən oldun.
Təmizlik – məsləkin, ucalıq – Tanrın.
Xəyanət bilməmiş sənətin dili,
Ucalıq eşqilə yaşayanların
Məsləki düzlükdən od götürməli!

*1970*

# VƏTƏN MƏNƏM,
# MƏN VƏTƏNƏM

***(Faciə)***

Matsurata, Matsurata,
Sən yatmadın gecələri.
Kirpiyinlə od götürüb
                zülmətləri yara-yara
Keşik çəkdin
Ölümsüzlük dünyasına
Körpü salan duyğulara.
O duyğular
Əsrlərdən-əsrlərə
                salam-kəlam.
O duyğular
Kətan üstə yaşayan söz,
                yanan ilham.
O duyğular
Arzuların ilk dayağı,
                son mənzili.
O duyğular
İnsanlığın vahid dili...

Bəzən qərib gecələrdə
Sən yandırıb salonların çırağını
Dayanardın qarşısında
Bu dil açan lövhələrin.

Düşünərdin dərin-dərin.
Donub durur bu rənglərdə, boyalarda
Bir ömürdən qopan günlər,
qopan anlar.
Bəs özləri hara getdi?
Hara getdi
Yeddi rəngdən yetmiş xəyal,
Yetmiş nağıl yaradanlar?
Qızıl rənglər alov tutub
alışardı.
Gecələrin sükutunda
Lövhələrə həkk olunan lal duyğular
Danışardı,
Danışardı...
Danışardı acı-acı,
Hıçqırardı xısın-xısın.
Sən dərdini dinləyərdin
Bu dünyaya sığışmayan
Öz hissini, xəyalını
Lövhələrə sığışdıran zəkaların...
Heykəl kimi dayanardın
Lövhələrdə heykəl kimi
Donub qalan
Əbədiyyət dünyasında məskən salan
Adamların qabağında...

Matsurata, Matsurata,
Keşik çəkdin
Sən zamana sığışmayan,
Əsrləri bir an sayan
Duyğulara, fikirlərə.
Sığışmadın qürurundan

Bu göylərə, bu yerlərə.
Sən dedin ki,
Varlılardan mən varlıyam.
Bu zamandan qisas alan,
Bir əsrdən neçə əsrə lərzə salan
Əyilməyən zəkaların
Vüqarıyla vüqarlıyam.
Bu dünyanın
Min-min şirin nemətinə mən uymadım.
Əbədiyyət keşikçisi mənim adım!
Lövhələrin altındaca
Yazılıbdır hər birinin öz qiyməti.
Düz qiyməti
Verilibmi bu dünyada
Fikrin, hissin?
Axı, ömrü əbədiyyət olanların –
Yaşı hədsiz olanların
Duyğusuna, xəyalına
Qiymət qoyan özü kimdir?
Bu qiymətdə ölçü nədir, sərhəd nədir?
Qəribədir, qəribədir!
Duyğulara qiymət qoyub hədd kəsənin
Ürəyi daş, duyğusu da bumbuz olar.
Ömrü sonsuz olanların
Xəyalının, duyğusunun
qiyməti də sonsuz olar.

Matsurata, Matsurata,
Düşünərdin, bax, beləcə
Sən hər gecə...
Fransadan muzey bir gün
Əlli təzə şəkil aldı sərgi üçün.

Gecə yarı
Bağlanmadı bu muzeyin qapıları.
Yaponiyanın hər yerindən
Hey gəldilər,
Hey getdilər.
Lövhələri seyr etdilər.
Doymadılar,
Mat qaldılar.
Ali, uca duyğulardan
Həzz aldılar,
Mat qaldılar:
Tuluz-Lotrek! –
Bu fransız rəssamının
«Marsel»inə.
Fikirlərin, hisslərin
Aşıb-daşan gur selinə!
Yazdı bütün qəzetlər də:
«Rənglərdəki möcüzəyə,
Hisslərdəki bütövlüyə,
Baxın! Baxın!»
Yaponiyanın hər yerindən
Adam gəldi bu muzeyə
axın-axın.

Matsurata,
Həmişə sən
Gecələri gözləmisən.
Gecələrin sükutunda
Dayanmısan
lövhələrlə üz-üzə sən.
Baxıb, baxıb
Lövhələrdən sənə baxan

Hər baxışa,
Hər gözə sən,
Bircə kəlmə söyləmisən:
«Möcüzəsən», «Möcüzəsən»!

Sən Lotrekin «Marsel»inə
Baxmaq ilə doymaz idin.
Yaradana «Tanrı» dedin!
...Qədim şəhər, qədim şəhər.
Bir tərəfdə modern evlər,
gen küçələr,
Bir tərəfdə dar dalanlar,
Bir tərəfdə bu dünyadan
kam alanlar.
Bu evlərin, küçələrin,
Gündüzlərin, gecələrin
Arxasından bir göz baxır.
Gecə baxır, gündüz baxır.
Bir qürur var,
Bir vüqar var o baxışda.
Sənətkarın öz ürəyi
Aşar, daşar o baxışda.
Vətən özü sevinciylə, kədəriylə
Axşamıyla, səhəriylə
Daim yaşar o baxışda.
O baxışlar bir söz deyir:
- «Vətən»! «Vətən»!
Matsurata,
Sənətkarın vətəndaşlıq qürurunu
Sən oxudun bu lövhədən.
Lövhədəki tünd boyalar, sıx kölgələr,
Dilə gələr,

«Vətən» deyər.
Rənglərdəki bu mənanı sən oxudun:
«Vətən mənəm,
                    Mən Vətənəm!»

İpə-sapa düzə-düzə
Gecələri, gündüzləri
Sən həmişə vird edərdin
Dodağında bu sözləri:
Vətən mənəm,
                    Mən Vətənəm!
Bir ay keçdi,
Yığışdırmaq istədilər lövhələri.
Ancaq «Marsel» tapılmadı.
Gəzilməmiş yer qalmadı,
Tapılmadı.
                    Polis gəldi,
Dindirdilər muzeydəki adamları.
«Gördüm» deyən heç olmadı.
Tapılmadı,
                    Tapılmadı...

Polis səndən şübhələndi Matsurata,
Sən bilmədin neyləyəsən?
Komissara nə deyəsən?
Axı səndin gözətçisi bu muzeyin.
Cavabdeh də sən özündün.
And içmişdin
Muzeydəki bir çöpü də
Gözlərinin bəbəyi tək qorumağa.
Öz andından geri döndün?
Dəydi bütün Yaponiya bir-birinə.

O şəhəri, bu şəhəri,
O bucağı, bu bucağı,
Axtardılar dönə-dönə.
Şayiələr aşıb-daşdı,
Radiolar hey ulaşdı.
Yazdı bütün qəzetlər də dönə-dönə:
«Bu hadisə bir ləkədir
Bizim yapon millətinə».

Matsurata, «ləkə» sözü
Ürəyinə tikan kimi batdı sənin.
Gəlib durdu göz önündə
Yaponiyan – öz Vətənin!
– Necə? Necə?
Mənim gözüm baxa-baxa
Ləkələnsin ana yurdum?
Yatdım,
Kimsə mənim ucbatımdan
Oğurladı o şəkili.
Vətənimin alnına da
O ləkəni özüm vurdum!..
Öz taleyi, öz bəxtidir
Hər insanın öz əməli.
Vətənimin kürəyindən
Bu damğanı silmək üçün
Bir biləydim neyləməli?

Matsurata mürgü döyür
Televizor qabağında.
Səsləndi öz familyası
Birdən onun qulağında.
Gözlərini açıb gördü
Televizor ekranında

Mədəniyyət nazirini.
Ovuşdurdu gözlərini,
Qulaq asdı...
Nazir yaman əsəbidir.
O qışqırır,
O deyir ki,
Ləkələnib ana Vətən!
Gəlin, gəlin, xilas edək
Məmləkəti bu ləkədən.
O deyir ki,
İstəyirəm sözlərimə
Həmən şəklin oğrusu da
Qulaq asa.
Yaponiya bütün ərzin qarşısında
Xəcalətli qalacaqdır
Əgər şəkil tapılmasa.
O deyir ki,
İki adam,
Bəli, yalnız iki adam
Məmləkətin şərəfini
Yuya bilər bu ləkədən:
Biri oğru,
Biri də sən!
Matsurata!
Ertəsi gün iş yerinə xəbər gəldi,
Dünən gecə qəsd eləmiş
öz-özünə Matsurata.
Vida demiş Aya, Günə Matsurata.
Ölmüylə vətəninin şərəfini
Xilas etdi o, ləkədən.
O ölürkən bircə kəlmə söyləmişdir:
- «Vətən», «Vətən!»
Həyata bax!

Necə lal-kar,
Ölümə bax, aşar, daşar,
Səsi-küyü
Hədd dağıdar, sərhəd aşar,
Mahnılaşar.
Qəzetlər də yazdı bunu.
Bütün ölkə lənətlədi,
Yurdun şərəf oğrusunu!

Ertəsi gün gecə yarı
Biri aşdı daş hasarı.
İpək ağa bürüdüyü
Şəkli qoydu o muzeyin həyətinə.
Daş hasarı aşdı yenə,
Çıxıb getdi.
Aparmışdı,
Görən niyə qaytardı bəs?
Hansı duyğu, hansı həvəs
Onu belə silkələdi?
Qaytarmağa sövq elədi?

Matsurata, Matsurata,
Ölümündən bütün ölkə
ibrət aldı.
Qəlbindəki vətən eşqi
Oğrunun da ürəyinə işıq saldı.
Yazıq oğru bu dünyada
Yaşamağın xatirinə
nələr gördü.
O, həmişə tək özünü düşünürdü,
Yaşamaqçın alçalırdı.
Matsurata,
Ölümlərdən öyrənmişik

Bu həyatda biz çox şeyi.
Oğruya da, ölümünlə sən öyrətdin
Özünü yox, məmləkəti düşünməyi!
Matsurata, Matsurata,
Şəkil itdi,
          Vətən boyda daş asıldı
                              vicdanından.
Sən vətəni xilas üçün
Keçə bildin öz canından.
Matsurata!
          Görən vətən yad etdimi
Bu adı heç?
               Sən vətənin oldun,
Amma
          Vətən sənin olmadı heç!
Zaman keçdi,
          Sular axdı,
                              sular dondu.
Bu, özü də başqa cürə
          bir oyundu.
                              Matsurata.
Bu oyunun qəhrəmanı
                              siyasətdi,
Qurbanıysa özün oldun.
Öldüyün gün yada düşdün,
Ertəsi gün unuduldun.

*İyul, 1972, Hacıkənd*

# LENİNLƏ SÖHBƏT

*Sovet dövründə özümü hücumlardan qorumaq və hakim ideologiyaya zidd olmadığımı «sübut etmək», bir sözlə, özümü «sığortalamaq» üçün inandığım dostlarımın məsləhəti ilə «Leninlə söhbət» poemamı yazdım. Fəsillərin başında Lenindən gətirdiyim misallarla demək istədiyim fikirlərə qalxan tuturdum.*

*Bununla belə, bu kitabı nəşrə hazırlarkən gördüm ki, əsərdə öz qayəmə nə qədər sadiq olmağa çalışsam da, bəzi fəsil və parçalarda Leninə həsr olunmuş mədhnamələrin təsirindən və ümumi ruhundan yaxa qurtara bilməmişəm. Odur ki, bəzi fəsilləri ixtisar edib, əsərdən yalnız aşağıdakı parçaları saxladım.*

**Müəllif**

## PROLOQ

Lenin! Dəyişdirib köhnə dövranı
Zamanın nəbzini düz tutan oldun.
Zor üsdə dayanmış imperiyanı
Ağlının gücüylə dağıdan oldun.

* * *

Bəşərin sinəsi həmişə dağ-dağ
Sonsuz arzusuna daim can atdı
Müsafir dedilər Leninə –

ancaq
O, yolu getmədi, yolu yaratdı.

***

İnsan qanı ilə sulandı torpaq.
Kim deyər o, nə vaxt arzuya çatdı?
Tarixçi deyirlər Leninə...
ancaq
O, tarix yazmadı, tarix yaratdı.

## XALQ, XALQ...

*«Xalq kütləsi içərisində biz, hər halda, dənizdə bir damcıyıq və biz yalnız o zaman idarə edə bilərik ki, xalqın dərk etdiyini düzgün ifadə edək»*
**(V.İ.Lenin, Əsərləri, 33-cü cild, səh.309);**

*«Yalnız xalqa inananlar, canlı xalq yaradıcılığı bulağından su içənlər qalib gəlib, hakimiyyəti əldə saxlayacaqlar».*
**(V.İ.Lenin, Əsərləri, 26-cı cild, səh 294)**

Həmişə xalq deyən, xalqa söykənən,
Xalqdan qüvvət alan özü xalq olar.
Sahildə dil açıb danışar, nədən,
Dənizdə kükrəyib coşan dalğalar?

Üfüqdən genişdir, göylərdən dərin,
Xisləti,
Qüdrəti,

hikməti xalqın.
Onun zəkasıyla düşünənlərin
Qolunda birləşər qüdrəti xalqın.

Xalqa arxalanan xalqsevərlərin
Özü də xalq üçün arxaya döndü.
Xalqa arxasını çevirənlərin
Arxası həmişə yerdə göründü.

Özünü xalqından üstün sananlar
Xalqın dühasından çox geri qaldı.
Xalqın ciyəriylə nəfəs alanlar
Xalqa enə-enə xalqdan ucaldı.

Biri söylədi ki, yüz ildən sonra
Xalq məni dərk edər... Onu gözləyək.
Başqası dedi ki, xalq dühasına
Çatmağa  yüz illər, min illər gərək.
Götürək timsalı təyyarələrdən,
O ki boş havadan od ala bilməz.
Yer üstə fırlanıb dönməsə...
Yerdən
Göylərin qatına ucala bilməz.

Hər şeyin hakimi zamandır, zaman
Xalq bir ümmandırsa, damcılarıq biz,
Uçub yox olarıq ayrılsaq ondan,
Ümmanın içində ancaq varıq biz.

Tutdun gələcəyə üzünü daim,
Özün də əbədi bir zaman oldun.
Xalqın qabağında özünü daim

Damcı sandığından sən ümman oldun.

Azadlıq uğrunda axan qanların,
Kim deyir buxarı göyə sovrulur?
Xalqın qəm oduna alışanların
Dayaq nöqtəsi də yenə xalq olur.

Köməyi kənardan gözləmədin sən,
Vətənə güvəndin xalqa qoşuldun.
Sən öz vətənini çox sevdiyindən
Bu boyda dünyaya vətəndaş oldun.

Dərk etdim bu böyük həqiqəti mən
Sevgin hər atəşdən keçirər səni.
Xalqı dərk etməsən, xalqı sevməsən,
Xalq nə dərk eləyər, nə sevər səni.

## AÇIQ SÖHBƏT

«Açıq siyasət – ən yaxşı siyasətdir. Prinsipial siyasət – ən əməli siyasətdir».

**(V.İ.Lenin, Əsərləri, 12-ci cild, s. 9)**

İndi kiməm?
                    Mən nəçiyəm?
Adım nədir?
                    Soyadım nə?
Dünənim nə?
                    Bu günüm nə?
Təzəm nədir, boyatım nə?
     Hardan gəldim?

Mən nəyə sərf etməliyəm
Öz atamdan pay aldığım
Bu həyatı?
Bunlar mənim vicdanımın
Hesabatı!..
Qol-budaqlı bir ağacam,
Bu torpağa işləyibdir
Köküm mənim,
Rişəm mənim.
Bu torpağın nəğməsini
Bu torpağa oxumaqdır
İşim mənim,
Peşəm mənim.
Bilirəm ki,
Hər əvvəlin
Bir sonu var.
Mən də gəldi-gedəriyəm,
Bu torpaqdan aldığımı
Bu torpağa verməliyəm,
Nə qədər ki, mən diriyəm...
Hər şey içir öz suyunu
Ürəklərdən.
Ürəyimin arzusudur,
Öz sözüdür əməllərim.

Ürəyimin vurğusudur
Hər hecası hər şeirimin.
Bu Vətəndir, bu torpaqdır,
Həm əvvəli, həm də sonu
Kitab-kitab sözlərimin.
Öyrəndik ki,
Sel gücüdür elin gücü,
O, özünü dərk edəndə

Bir nəfəri min-min olur.
Ədalətlə haqsızlığın savaşında,
Haqqı yıxmaq çətin olur.
Zor inamsız,
               Haqq inamlı!
İnamlının həm silahı, həm də sözü
Kəskin olur.
İnamlının qabağında
İnamsız çox miskin olur.

Ancaq hələ yolumuzda
Qanqal da var, tikan da var.
Tikən də var, sökən də var.
El naminə, yurd naminə
Öz nəfsini yıxan da var.
Öz xeyrinin gözləriylə
Bu dünyaya baxan da var.
Bilmək, görmək istəmirəm,
Mətləblərin boyasını,
               Tərsini mən.
Mən həyatdan öyrənmişəm
Nəyə sevgi, nəyə nifrət
Dərsini mən.
               Öyrəndim ki,
«Açıq, aydın bir siyasət
Ən doğruçu siyasətdir».
Əyriliyə alçaqlığa
Biganəlik
    Özü  böyük cinayətdir.

Bir mətləbdən söz düşəndə
Nə «hə» deyən.
               Nə «yox» deyən,

Nifrəti də, sevgisi də
Bilinməyən
Soyuqqanlı olanlara,
Adam başlı ilanlara
Nifrətimi gizlətmədim.
Hər sözümü açıq dedim.
Qamçıladım
Sədaqəti, ədaləti,
Maska kimi sifətinə
taxanları.

Qamçıladım
Civə kimi soyuq görüb
enənləri,
İsti görüb qalxanları...
Mənim şeirim
Dəlib keçə biləydi kaş
«Şirin» sözdən,
«Həlim» üzdən
Düzəldilmiş
Qalxanları!
Qamçıladım
«Böyüyünün»
Bircə ılıq baxışını
Qazanmaqçın
Namusunu, qeyrətini satanları,
Bu alverin kölgəsində
Rahat – rahat yatanları.
Qamçıladım
Öz adını dana-dana
O ünvana, bu ünvana
Qara böhtan yazanları.
Qamçıladım

Ürəyinin əyrisiylə
Düz mətləbi əyriliyə
Yozanları.
Ona dedim:
- Min düz işin içindəki
Bir əyrini görən gözün
Bəs düzləri niyə görmür?
Bir gecəni görən gözün
Gündüzləri niyə görmür?
Qəlbinə bax,
Bu dünyanın düz işləri
Ürəyinin aynasında
çilik-çilik,
Əyriliyi
Özgəsinin əməlində
Axtarma sən,
Qəlbindədir o əyrilik.
Qamçıladım
Sifətiylə gülüş səpən,
Əməliylə zəhər əkən
Şəkər sözlü,
Min bir üzlü xəbisləri.
Qamçıladım
Qara, gizli niyyətinə
Sözlərinin ağ rəngiylə
Bəzək vuran
Dili ilə ürəyinin arasında
Yüz-yüz illik yollar duran
İblisləri.
Qamçıladım
Əyilməyi
Yüksəlişin yolu bilən yaltaqları.
Qamçıladım

Əqidəsi rüşvət olan
Alçaqları!
Sən dedin ki:

...Rüşvət kimi bir hal varsa,
Əgər bunun olmasına imkan varsa,
Siyasətdən danışmağın mənası yox.
Biz bunları deyən zaman,
Rüşvətxoru döyən zaman
Qələmimiz səndən alır
Öz gücünü.
«Lenin deyib» - deyən zaman
Söz artırır söz gücünü.
O, insanlıq şərəfini
Bir qarına, bir mədəyə
Dəyişdirir.
O düşünmür,
Nəyi nəyə dəyişdirir.
Hər alverdən qazanc uman o dəllallar,
Bu alverdən
Nə qazanır?
Öz əliylə
Manatlara çevirdiyi namusunu
Xərcləyəndə
Əli yanmır.
Amma onun bəxti yanır!
Adı-sanı baxtalanır.

Üzümüzə baxa bilmir
Yerə dikir gözlərini.
Baxışları kölgələnir
Ürəyi də saxtalanır.
Bərq vurur arvadının daş-qaşları,

Əvəzində
Şüşə kimi
Soyuq olur baxışları.
Alnıaçıq, diliuzun
Olanların qabağında
Nə deyəcək.
Əliuzun, diligödək?
O qanqaldır,
Zoğunu kəs,
Bir gün yenə göyərəcək.
Rişəsinə hücum gərək!
Hücum gərək!
Hücum gərək!

## «YAXŞI ADAM»

«Hər hansı bir adam haqqında, ümumiyyətlə, «yaxşı adamdır» - deyə yayğın xarakteristika verdikdə Vladimir İliçi asanlıqla acıqlandırmaq olardı.

«Burada «yaxşının» mətləbə nə dəxli var», - deyə o etiraz edirdi. Yaxşısı budur, deyin görək onun yeritdiyi siyasi xətt necədir...»

**Q.M.Krjijanovski**

Gözəl sözdür!
Mətləbi düz, məramı düz!
Düz məqsədə, düz hədəfə
Vurur bu söz!
Gözəl sözdür!
Ürəyimdən xəbər verir.

Adamları tanımaqçın
Yolumuza çıraq tutur,
Yön göstərir.
Yaxşı adam!
Söylə, görək,
Yaxşılığı nədir onun?
Xislətini sayma mənə
bir-bir onun!
Söylə, görüm, məsləki nə,
Eşqi nədir?
Qalanları mənim üçün
Əfsanədir.
Nə mənası
Mülayimmi?
Əsəbimi?
Hünərlimi?
Hünərsizmi?
Ya fərlimi?
Ya fərsizmi?
Nə deməkdir yaxşı adam,
Yaman adam?
Yaxşı-yaman damğasıyla
Adamları bir-birindən ayırmağı
Bacarmıram,
Bacarmıram!
Biri üçün yaxşı olan
Başqasıyçın yaman olar.
Sənin gerçək sandıqların
Mənim üçün güman olar.
Yamanları yaxşılardan
Seçən hakim
Zaman olar.

Xeyirlə şər yol yoldaşı,
Dayanıbdır ömrümüzlə yan-yanaşı.
Hər insanın cövhərini tanımaqçün
Nədir bizə məhək daşı?
O, adamın cövhərini,
                    Fitrətini desin bizə.
Şirin dillər, şirin sözlər
Tor çəkməsin gözümüzə.

Biri mənə: - Yeri gəlsə,
Dağ kimi qalx,
Yeri gəlsə, duman kimi
                    Əyil! – dedi.
Dil ürəyin qıfılıdır, onu bağla,
Dil ürəyin açarımı? – Deyil – dedi!
Bunu deyən
        Heç özü də hiss etmədən
        Öz qəlbini açdı mənə.
Gördüm orda əfiləri, ilanları.
Gördüm orda neçə-neçə
Böhtanları, yalanları.
Gördüm orda tora düşüb,
                    əl-qolunu
Sağa-sola çalanları.
Neçin gərək özgə rəngə
Boyanmalı mənim dilim?
Qəlbim hansı rəngdədirsə,
                    Nə dəxli var,
                    Ağ olmalı mənim dilim?
Yazıq dedim!
Sən həmişə öz-özünə hücumdasan,
Sən dilinlə ürəyinin arasında

Uçrumdasan.
Bədbəxt oğlu, nə görmüsən bu uçrumda?
Qalx qəlbinin zirvəsinə,
Qulaq kəsil ürəyinin
Öz səsinə.
Onu gətir anan sənə öyrətdiyi
Dilin qaynar ləhcəsinə.
Öz əqidən, sözün olsun bu dünyada,
Adamların cərgəsinə çıxmaq üçün
Üzün olsun bu dünyada.
Xeyirlə şər
Dayanıbdır yan-yanaşı.
İnsanların fitrətini,
Cövhərini bilmək üçün
Nədir düzgün məhək daşı?
Məslək! Amal!
Əsl insanın yol yoldaşı!
Ömür üzük,
Məslək isə üzük qaşı.
Hər üzüyün qaşındadır öz dəyəri,
İnsanın da qayəsidir düz dəyəri.
Əqidəsi cövhəridir hər insanın,
Gövhəri də dəyəridir hər insanın!
Qayə varsa, mərddir demək,
Öz yolundan dönməyəcək.
Qayə yoxsa, söyüd kimi
Əyiləcək o tərəfə, bu tərəfə,
Vurmayacaq bir hədəfə.
Qayə varsa, o, qorxmazdır,
Qüdrətlidir,
Cürətlidir.
Qayə yoxsa, o, qorxaqdır,

O, yaltaqdır.
Varlığını bir «Sağ ol»a satacaqdır.
Qayə varsa, zəhmətindən ləzzət alır,
Fədakardır, işgüzardır.
Qayə yoxsa – öz işindən, peşəsindən
O, bezardır.
Qayə varsa,
Sevgisi də bəlli onun,
nifrəti də.
Qayə yoxsa,
Bəlli deyil xisləti də
Qayə varsa,
O bilir ki, yaşamağın mənası nə,
Qayə yoxsa,
O bir yükdür həm dünyaya,
həm özünə.
Qayə yoxsa,
Başqasının qismətini
Çala bilən çalağandır.
Qayə varsa,
Bir söz ilə:
O insandır,
O insandır!
Yaxşı adam!
Söylə görək, yaxşılığı nədir onun?
Xislətini sayma mənə
bir-bir onun.
Söylə, görüm, məsləki nə,
eşqi nədir?
Qalan şeylər mənim üçün əfsanədir.

## ƏSGƏR-SƏRKƏRDƏ

«Rədd olsun bitərəf ədəbiyyatçılar! Rədd olsun fövqəlbəşər ədəbiyyatçılar!»
**(V.İ.lenin, Əsərləri, X cild, səh.32)**

- Nə? Bitərəf?
Bu sözü
Qaralardım lüğətdən.
Bitərəf nə deməkdir?
Anlamıram bunu mən.
Tərəf mənə əks olsa da,
Cəbhəsi var,
Fikri var.
Fikirsizdən, cəbhəsizdən
Əlhəzər!
Düşmən elə düşməndir.
Gah dost olub, bu dostluğu
Gah danana nə deyim?
Dostluq ilə düşmənliyin
Arasında dayanana
Nə deyim?
Tərəf mənə əks olsa da,
Sifəti var, sözü var.
Tərəfsizin tərəfi yox,
Məqsədi yox, özü var.
Öz sifəti, öz cəbhəsi olmayanın
Varlığıyla yoxluğunun
fərqi nə?
Eləsinin nə faydası
Vətəninə,
Millətinə,
İrqinə.
Tərəf - fikir,

Tərəf - cəbhə,
Tərəf - yol.
Güllə ola bilmirsənsə,
hədəf ol.
Ya o yanlıq, ya bu yanlıq.
Ortalıqda tərəf yox.
Tərəf yoxsa,
Namus da yox, qeyrət də yox,
Bircə sözlə,
Şərəf yox!
Tərəf yoxsa,
Son mənzili, son məqsədi
Bilinməyən yolçusan.
Tərəf yoxsa,
Tərəflərdən asılısan,
Qismətini yaddan uman
Dilənçisən, yolçusan.

Tərəfsizlik nə deməkdir?
Ya gündüz ol, ya axşam,
Ya matəm ol, ya bayram.
Dedim, bəlkə seçəmmirsən
Tərəflərin yaxşısını,
pisini,
Düzünü, əyrisini.
Bununçünmü sən ortada qalmısan?
Ucalmaq istəyirkən
Gör necə alçalmısan.
Tərəflərdən qaçanları
Tərəfləri dana-dana
Özünü də bir gün danan
görmüşük.
Kölgəsini görməmişik,

O kölgədə, bu kölgədə
Daldalanan görmüşük.
Kölgələrdə kölgələnən,
Sənin kölgən hanı bəs?

Varmı səndə bir müqəddəs
Fikir, dilək,
Eşq, həvəs?
Təbiətdə doğulmadın
Cəmiyyətdə doğuldun,
Cəmiyyətin hanı bəs?
Mən yaxandan yapışmışam,
Cəmiyyətə sözün nə?
Ömür yoldur...
Günlər yolun addımları,
Bu yoldakı izin nə?
Bu vaxtadək seçməmisən
Addımların
Əyrisini,
Düzünü.
Demək, hələ tapmamısan
Özünü.
Bir tərəfdə qorxu durur,
Bir tərəfdə cəsarət.
Bir tərəfdə azadlıqdır,
Bir tərəfdə əsarət.
Bir tərəfdə ədalətdir,
Bir tərəfdə ölüm, qan.
Bir tərəfdə həqiqətdir,
Bir tərəfdə ağ yalan.
Mənim sözüm, mənim şeirim –
Döyüşən əsgərlərim,
Bu döyüşdə kimisi

Zəfər çalır,
Ad alır.
Kimisi də hələ yaşa dolmamış
Əldən düşür, qocalır.
Şeirlərim – əsgərlərim,
Fikrim – sərkərdəm mənim!

Fikrim birdir,
O dəyişməz
Hər saat,
Hər dəm mənim...
Əsgər yüz-yüz,
Sərkərdəsə bir olar.
Şeir əsgərlərimi
Həm yaradan,
Həm döyüşə aparan
Yalnız bir fikir olar.
Nədir fikrim?
Nədir eşqim?
Nədir mənim sözlərimin dayağı?
Fikrim Vətən,
Eşqim Vətən bayrağı!
Şeirim mənim sözüm mənim,
Bu fikirdən od alır.
Dayağına söykənməyən,
Ucalmamış alçalır.
Şeirlərim döyüşlərdə
Düşmənimlə
Bacarar
Ya
Bacarmaz?
Demək çətin!
Bəlkə, onun iddiası çox olsa da,

Nəfəsi təng,
Gücü az!
Bircə bunu bilirəm ki,
Şeirim günün əsgəridir.
Səcdə qılır
Mehrab kimi bu Vətənə,
Torpağa.
Əqidəmin düşməninə
Nifrətilə silahlanıb
O, təpədən-dırnağa.
Bircə bunu bilirəm ki,
Olmayıbdır fikrimin
Başqa rəngi, pərdəsi.
Haqq yolunda vuruşdurub
Dönməz əsgərlərini
Şeirimin sərkərdəsi.

## HƏQİQƏT-ƏDALƏT

*«Mücərrəd həqiqət yoxdur, həqiqət həmişə konkretdir.»*

**(V.İ.Lenin, Əsərləri. 32-ci cild səh. 89-90)**

Həqiqət!
Ən böyük nəğməsən...
Ancaq
Səni dinləməyə qulaqlar sağır.
Həqiqət,
Gözünün içinə baxmaq,
Nə qədər gərəksə, o qədər ağır!

Sənsən işıqladan qaranlıqları.
Cəsarət atandır, şübhədir anan!
Mum kimi əritdin sən çox dağları,
Ən cəsur igiddir sənə yar olan!

Sən bir zəlzələsən, sən bir vəlvələ,
Bütləri taxtından endirən oldun.
Elə ki zamanla verdin əl-ələ,
Əyilməz başları əyən sən oldun.
Zalımlar həmişə haqqın səsindən
Qorxmuş.
O, güclüykən, fağırdan fağır.

Yayınıb həyatın baş küçəsindən,
Daim əyri-üyrü cığır axtarır.
Ədalət yolunda axan qanların
İzi tarixlərdə varaq-varaqdı.

Həqiqət həmişə bu qurbanların
Ağlıyla düşündü, gözüylə baxdı.
Həqiqət, çılpaqsan doğulduğun tək,
Yalanın əynində min bəzək-düzək.

Hökmünlə fırlanır bu cahan yenə
Hər bir yüksəlişdə sənin əlin var.
Zülmə göndərdiyin tələbnamədə
Sənin möhüründür dustaqxanalar.

Həqiqət donuna girən qarının
Həqiqət, ədalət başının daşı!
Bəzən də həqiqət carçılarının
Həqiqət adına üzülmüş başı.

Boğulan da sənsən, doğulan da sən.
Səndə dahilərin iradəsi var.
O qədər tapdandın, əzildin, bəzən.
Sənin varlığına inanmadılar.

Dünya dərk elədi bir həqiqəti,
Həqiqət tapdanar, ancaq əzilməz.
Xalqların birləşən fikri, niyyəti,
Zorla susdurular, məhv ola bilməz.

Ədalət yolunda axan qanların
İzi tarixlərdə varaq-varaqdı.
Həqiqət, həmişə bu qurbanların
Ağlıyla düşündü, gözüylə baxdı.

Həqiqət! Könülə yaxından-yaxın.
Əmələ uzaqdan uzaqsan, nədən?
Dünyanın tarixi
Qurbanlarının
Qanıyla yazılıb dövri-qədimdən.
Sənin qurbanların saysız-hesabsız,
Sənin qurbanların «haqq» dedi getdi.
Bütün sorğuları qaldı cavabsız,
Yerini, yurdunu bilmədi getdi...

Sənin qurbanların cəbhələr yardı,
Silah əllərində,
Söz dillərində.
Sənin qurbanların qəbrə apardı
Səni arzu kimi könüllərində.
Xose Antonio Eçevarilya
Doğuldu, böyüdü Kubada...

Bir gün
Həqiqət naminə, haqqın əlilə
Yalanın üzünü silləməkçin.

Yalanlar al-əlvan, yalanlar min-min
Deyir gecəyə bax, zülməti görmə.
Yalanlar... Ağ yalan qara gerçəyin
Üzünə rəng çəkir, gözünə sürmə...

Antonio dedi, haqq unudulmuş,
Ya onu qaytaram, ya öləm gərək.
Zülmün əlləriylə ağzı yumulmuş
Böyük həqiqətə dil olam gərək.

Sözün rəngi ilə dərdin, zavalın
Adı da, dadı da dəyişilərmiş.
Sözlər... yalan sözlər...
Çılpaq kralın,
Əynində paltar da ola bilərmiş...

Sözlərin üzündə kirşanı, rəngi,
Dili uzunsa da, ömrü çox qısa.
Yaşaya bilərmi zülmün nəhəngi,
Udub həqiqəti yalan qusmasa...

Qaranı ağardan boyaq yalanlar
İnamı sarsıdır, bizi məhv edir.
Antonio dedi, bu ağ yalanlar,
Dövlət masasından baş alıb gedir.

Dayağı boşdusa, qolu zorludur,
Zor gözə görünər yalan olmasa.

Bütün yalanların dirijorudur,
Zülmün üzərində duran bu masa.

Antonio, dostları...
                    Bir gün,
                              Bir səhər
Radio mərkəzinə hücum çəkdilər.
Mikrofon önündə durdu Antonio.
Danışdı...
          Dindlədi məmləkət onu...
Danışdı... Hər kəlmə dəydi hədəfə,
Dedi, uçmalıdır zülmün dayağı.
Kubada ilk dəfə
                    Bu gün
                              İlk dəfə
Özünə qayıtdı sözlərin haqqı.
Danışdı... Sədləri dağıtdı, qırdı.
Həqiqət adından o, danışırdı.
Söz boyaq olmadı, özünə döndü,
Düşdü qatarlaşıb yolun ağına.
Sözlər də sevindi.
                    Güldü,
                              Öyündü,
Bu gün öz rənginə qayıtdığına...
Danışdı... Səsinə dəm tutub axdı
Uca zirvələrdən tökülən sular.
Danışdı... Əslində o danışmadı,
Danışdı minillik dustaq arzular...
Danışdı qəlbini gətirib dilə,
Danışdı... Sözləri bükərək oda...
Bu gün danışırdı onun dililə
Haqqın, həqiqətin qurbanları da.

Bir güllə... Vurdular arxadan onu.
Susdu həqiqəti bağıran ürək.
Düz üççə dəqiqə – bir ömrün sonu –
Zülmətin içində alışdı nur tək.

Düz üççə dəqiqə tüğyana gəldi,
Dedi zəmanədən şikayətini.
Üççə dəqiqədə o, deyə bildi
Uzun əsrlərin həqiqətini...
Üççə dəqiqəlik bir həqiqətə,
Öz bahar ömrünü qurban verdi o.
Dedi öz sözünü mütləqiyyətə,
İz açdı, xalqına yol göstərdi o.

Yanıb qövr etmədi söz ürəyində,
Eşitdi sözünü min oba, min el.
Onun məramını öz ürəyində
Enməz bayraq kimi daşıdı Fidel.

Azadlıq rəmzi tək Antonionun
Adı könüllərdə yandı o gündən
Əbədi ömr aldı həqiqət onun
Üççə dəqiqəlik həqiqətindən...

Zamanın qaranlıq uçurumları,
Artıq aydınlığa çıxır çox yerdə.
Gerçəyin səpdiyi haqq toxumları
Cücərir, boy atır çox ölkələrdə.

*1974*

# MUĞAM

*Üzeyir Hacıbəyovun xatirəsinə*

## BƏLKƏ

Bir quş ötür budağında
Bu nəğmənin laylasına
Çəmən, çayır mürgüləyir.
Naləsilə yazıq bizə
                Nəsə deyir,
                Nəsə deyir...
«Cik-cik», «cik-cik»...
Bilirikmi dediyini?
- Yox, bilmirik, biz bilmirik.
Quş dilini bilmiriksə,
Günahkarmı o quşcuğaz?
Səbrini bas,
Ləhcəsinə, naləsinə,
Dilindəki qəm səsinə
Qulağınla qulaq asma,
Ürəyinlə sən qulaq as.
O nalənin atəşində
Öz qəlbini oda yaxsan,
Mətləbini bilməsən də,
Ürəyini duyacaqsan.
Tar da elə...
O sızlayır için-için.

İçindədir hər mətləbi,
Naləsidir eşitdiyin.
O quş kimi
Tarın da öz ləhcəsi var, öz dili var.
Mətləbinin axırı var, əvvəli var.
Əvvəl öyrən sən bu dilin
Nöqtəsini,
Vergülünü.
Ayıra bil
                Dağ gülündən
                Bağ gülünü.
Ayıra bil
Ocaqdakı od külündən
Sinədəki dağ külünü.
Bu dünyanın ağrıları, acıları
Necə sığır Çahargahın
Bəstənigar pərdəsinə?
Dağlara çıx, diqqət elə
Qayalarda yumalanan
                Daş səsinə,
Öz səsinə
Səs axtaran quş səsinə...
                O səsdəki
Qırıq-qırıq hıçqırıqlar nə nalədir?
Qırqovulun döşündəki rənglər nədir?
O rənglərdə muğamdakı
Əlvan-əlvan pərdələri,
Pırıl-pırıl səsləri gör.
                O düşünür,
Həm də bizi düşündürür.
Ney üstündə yeddi səsin,
Oyuq-oyuq yuvaları,

Nədir belə?
Bəlkə elə
              Balaları perik düşən
Qaratoyuq yuvaları?
Səslər, qırıq bir arzunun can səsimi?
Yuvaları dağıdılmış
Çolpaların naləsimi?
Qayalardan sızan suyun,
Dərələrdə azan suyun
              Səslərini
Bir-birindən ayıra bil.
O, bir deyil, yox bir deyil.
              Addım-addım, nəfəs-nəfəs
Dağı dolan, dərəni gəz,
Bax hər yerin çiçəyinə
Bil dağların çiçəyi nə,
Dərələrin çiçəyi nə?
Çiçəklərin öz rəngində, öz ətrində
Nəğmədəki səsləri gör, xalları gör,
Enib qalxan keçidləri,
Cığırları, yolları gör.
Dağa gedən cığırlarda
Qarşına bax, dünyanı gör.
Sığırçının belindəki
Arşına bax, dünyanı gör*.
Bəlkə o da bizim kimi
Ölçmək istər bu dünyanı?
Bircə qarış yer üstündə
Bizə göstər bu dünyanı...
Söz var, qəlbə yol açmayan
              adi bir səs, quru nəfəs.

*Əfsanəyə görə, sığırçının belindəki ağ xətt bir arşındır.

Səs də var ki,
Sözün deyə bilmədiyi sözü deyir.
Elə səsin özü şeir, sözü şeir.
Söz qəlbdəki bir mətləbin
Öz səsidir...
Nəğmə səsin şeiriyyəti,
Şeir sözün nəğməsidir.
Bəlkə... Muğam bir nağıldır, əfsanədir.
Bilək, onun bu dünyaya sözü nədir, qəsdi
nədir?
Nağıllarda bir göyərçin
Bir qəribi şah elədi.
Bu dünyanın kələ-kötür işlərini
rəndələdi...
Ötənlərin dərdlərinə dola-dola
İnanaqmı bu nağıla?
Bu arzudur, bu diləkdir.
El deyir ki, arzularım
Gələcəkdir,
Güləcəkdir...
Bəlkə, düzgün böləmmədik
Biz o zaman
Göydən düşən üç almanı?
Bilək, niyə şüşədədir
Divin canı?..
Niyə, niyə gözləyib el
«O sahibi-əzzamanı?»
Bəlkə, muğam bir gözləyiş,
Bir həsrətdir?
Əl var ikən, qol var ikən,
Baş var ikən, diş var ikən,
Bu gözləmə müsibətdir.

Canavarın aldatdığı
Şəngülümün, Şüngülümün
Qanı, bəlkə, düşüb tarın kök siminə?
Muğamdakı hıçqırıqlar
Üsyan edir, bəlkə, divin tilsiminə?
Ürəyinin tellərindən
Tellər çəkib tara xalqın.
O tellərin nəğməsində
Öz ruhunu, öz qəlbini ara xalqın.

Tanımaqmı istəyirsən
Görmədiyin bir xalqı sən?
Əvvəl onun nəğməsinə sən qulaq as,
Onu öyrən.
Öz sözünü, sorğusunu
Xəyalını, duyğusunu
Xalq yaşadır nəğməsində.
Tarixin bir dövrü yatır
Bir bəmdəki «ah» səsində.

Çahargahın Müxalifi
«Çaldıran»da* at saldıran,
Qılınclardan od aldıran
Döyüş səsi...
Çahargahın Cövhərisi
Kol dibində
Qar altından
Çıxan tənha bənövşənin üşüməsi
Qılınc səsi, qalxan səsi,
Bənövşənin üşüməsi.
Biri hünər,

*Çaldıran döyüşü.

O birisi göz yaşıdır.
O sərtliklə bu incəlik
Bir muğamda yanaşıdır.
Dinlə tarı, dinlə neyi.
                O, keçmişdən
Asta-asta söhbət açan
Səs muzeyi...
O, şöhrətli, şanlı muzey.
O, danışan, həm də bizi danışdıran
                Canlı muzey.
Gah səsində göy gurlayır,
Gah inləyir həzin-həzin.
Həm babamın yaşıdıdır,
                həm nəvəmin.

## ŞUR

Varaqlama o tarixi,
İki qəlbin həsrətini
Varaqlarda döyündürən
Bir maraqlı roman kimi.
Dinlə Şuru
Öz qəlbini sənə açan,
Hər kəlməsi alov saçan
Tarix yaşlı baban kimi,
Gözüyaşlı anan kimi.
Tüstüsünə aman elə,
                Oduna yan.
Dayan, düşün,
Düşün, dayan.

Dinlə onu.
Hər guşəsi
Quş qonmayan qayalardan daş tərpədər,
Kirpiklərdə yaş tərpədər.
Mahnılar var, ayaqları,
Muğamlarsa baş tərpədər.
Bu dünyanın
Ağrısını,
Acısını
Duydunmu sən?
Duymadınsa,
Bir çiçək də dərəmməzsən
Sən bu hikmət çəmənindən.
Dayan, basma ayağını
Bu çəmənə.
O, sirrini açmaz sənə.
Əvvəl öyrən, bu vətənə
Hardan,
Hansı külək əsib?
Qara yellər dilləndirən
Bir qarğıdan
Kim, nə zaman,
Nədən ötrü tütək kəsib?
Şur nə deyir, nə danışır narın-narın?
Öyrən, nə vaxt qaynağına daş atılıb
Dağlardakı bulaqların?
Öyrən, nə vaxt aparıbdır
Sel Saranı?
Kim salıbdır dildən-dilə
Bu dəhşətli macəranı?
Niyə kəsdi sel aranı,
Həsrət qoydu o tərəfə

Xançobanı?
Öyrən, niyə Xəstə Qasım
Birdən belə sayru düşüb?
Kərəm niyə
Əslisindən ayrı düşüb?
Ədalətin şərbətinə
İlk dəfə kim zəhər qatdı?
Keşişləri, Həmzələri
Kim yaratdı,
Nə yaratdı?
Koroğlunun nərəsinə,
haqq səsinə
Yer gurladı,
Göy gurladı.
Dünən onun qapısında boyun bükən
Bu gün necə oğurladı
Mərd kişinin Qıratını?
Nənəm Nigar bəlkə onda
Çağırıb ilk bayatını?
Qobustanda rəqs eləyən
Qayalara, daşlara bax.
Təbiətin öz əliylə
Çarpalanan çapıq-çapıq qaşlara bax.
Cəngi səsi
Birləşdirir göyü, yeri.
Bəlkə, elə burdan gəlir
Muğamların ilk rəngləri,
Təsnifləri, ritmləri..
Cəngi səsi...
Gumbuldayır  nağaralar,
Ağız açır mağaralar,
Qan sıçrayır beyinlərə,

Qollar keçir çiyinlərə:
«Hoydu, hoydu, dəlilərim,
Yeriyin meydan üstünə.
Havadakı şahin kimi
Tökülün al qan üstünə...»
«...Uca-uca dağ başında
Yaz bir yana, qış bir yana.
Titrəşir ağzım içində
Dil bir yana, diş bir yana...
Çəkəndə Misri qılıncı
Leş bir yana, baş bir yana».
Cəngi deyir:
- Düşmən gəlir, keç irəli!
Yallı gedir.
Bayandurun, Koroğlunun dəliləri...
Burda oxu,
                    Sinələri nəğmələşən
Hər qayanı,
                    Hər sal daşı.
Təbiətin ruhundadır
Bu uyarlıq, bu nəğməlik.
Təbiətin özü çalır «qaval daş»ı.
Qayadakı sərtliyə bax,
Cəngidəki mərdliyə bax.
Əllər süzür incə-incə,
Ayaqlarsa, yeyin-yeyin.
Yallı da bir vəhdətidir
O sərtliklə bu mərdliyin...
Cəngi səsi
                    Birləşdirir göyü, yeri...
Bəlkə, elə burdan gəlir
Muğamların ilk rəngləri,

Təsnifləri, ritmləri?
Bu rənglərdə, nəğmələrdə
Saxlayıbdır muğamlar da
Saflığını, özlüyünü
Qanadında qürur, vüqar,
Cövhərində qəm düyünü...
O düşünür, düşündürür.
Gah yandırır, gah söndürür.
Xallardakı xəyallarla, fikirlərlə
Yox, boşalmır,
                    Ürək dolur.
Böyük qəmin, böyük dərdin
Vüqarı da böyük olur.

Aydan arı, sudan belə durum mənim,
Ay yanıqlı Şurum mənim.
İstərəm ki, əlvan-əlvan çiçək olub
Dolaşdığın pərdələrə
Mən səpiləm.
            «Uca dağlar» başındakı
«Azərbaycan maralı»nın
Gözündəki «Qara giləm»...
Nənələrin toxuduğu
Xalıların xanasında xanalandın
                              xınalandın.
Göy gölümün ləpəsində sonalandın.
Sevgililər dodağında
            Yanıb söndün,
                    Sönüb yandın:
«Dəryada gəmim qaldı,
Biçmədim zəmim qaldı,
Çox çəkdim yar cəfasın,

Mənə də qəmim qaldı...»
Novruz ötüb, yazbaşıdır,
Bu nə səsdir?
                Göydə topa buludların
Bir-biriylə güləşməsi,
Dağlardakı qar üstünə
Xal düşməsi,
                Dərələrdə suya dönüb
Gülüşməsi,
Marxallarda qar uçqunu
Yazla qışın savaşıdır,
Novruz ötüb... Yazbaşıdır...
Sellər, sular aşıb-daşır,
Bir-birilə qucaqlaşır.
Qayaların qabağında
O əyilir, o burulur.
Təpələrdən səpələnir
                toz-toz olur.
Yaylaqları gəzə-gəzə,
Dəyir daşa, enir düzə
Ağacların budağına
Düymələri düzə-düzə...
                Daşır, coşur,
Yollar boyu nəğmə qoşur:
«Qəhrəman»ı qayalarda şaqqıldayıb
qəhərlənir,
                Saz üstündə pöhrələnir.
Çəmənlərə nəğməsini yaza-yaza,
Gəlib çatır
                Araz Kürə, Kür Araza.
Hər ikisi dağın qarı,
Dağın barı.

Qovuşanda
Ağ ləpələr rəqs eləyir:
Arazbarı, Arazbarı!
Bu duyğular fışqırtısı,
Təlatümlər, qaynamalar,
Sığışmadı bir yatağa,
Budaqlandı sola, sağa.
Bir fəsildə neçə kərə
Dəyişdirdi öz yönünü,
öz yolunu.
Zaman keçdi,
Bir məcraya sığışdırıb
Tanıtdırdı bu dünyaya
Bizim sənət bahadırı Fikrət onu...

Çoxdan unudulmuş, yeri qalmış yaradır Şur,
Birdən yada düşmüş bir ötən macəradır Şur.

Bir arifin hikmət dolu söz-söhbəti, eşqi,
Heyrətdən ağıl mülkünə bir pəncərədir Şur.

Fikrin nə qədər yolları, mənzilləri varmış,
Üstündə cığırlar açılan bir dərədir Şur.

Dağlar başı ağ, çölləri al, döşləri əlvan,
Hər pərdəsi bir rəngə çalan mənzərədir Şur.

Qürbətdə Vətən həsrəti, yurdunda bir anlıq,
Yaddaşda yanıb, tez də sönən xatirədir Şur.

Çox qürrələnir Bəxtiyar öz şeirinə hərdən,
Guya deyəcəkmiş bizə şeirilə, nədir Şur?!

## TELLƏR AĞLASIN

Şikəstənin Zil guşəsi,
Əsgəranda vıyıldayan güllə səsi.
Qara xəbər el-obanı dolandı:
Əsgəranda Qoç Nəbini vurdular.
Baxışlarda göz yaşları sulandı,
Ağı dedi buz bağlayan lal sular.
Bayatılar qara geydi əyninə.
Gəraylılar qəm götürdü çiyninə.
Qarabağın çöllərini qar aldı.
Şikəstənin zil pərdəsi qaraldı:
«Əsgəranda dağıtdılar araba.
Görüm bu diyarı qalsın xaraba.
Nəbinin meyidi qaldı arada
Yerisin üstünə ellər ağlasın.
Darasın saçını, tellər ağlasın».

## ÇAHARGAH

Şahə qalxan ağ dalğalar
Köpük-köpük...
Uca-uca, böyük-böyük
Qayalara gah çırpılır,
Gah çəkilir axın-axın...
Təlatümlər, həyəcanlar
Bərdaştıdır, ön sözüdür
Çahargahın.
Deyir, həyat bir döyüşdür,
Bir vuruşdur başdan-başa...
Rahatlığı həyəcanlar qucağında

ara, yaşa
En enişə, qalx yoxuşa
Sellər kimi coşa-coşa,
Sular kimi daşa-daşa...
Yaşa, yaşa.
Mayəsində səslər uçur
Qanad-qanad,
Nəql olunur ötən gündən
Bir əhvalat:
...Yad ölkədən elçi gəlib
Ölkəmizə.
– Gərək təslim olasınız,
Deyir bizə,
Olmasanız...
Təpəriniz varsa əgər,
Savaşınız.
Savaşsanız...
Daş üstündə qalmayacaq
Bir daşınız.
Ağsaqqallar düşündülər:
– Nədir çarə?
Dada çatmaz bu məqamda
Nə moizə,
Nə müəzzin,
Nə minarə.
Qara yellər qabağında
Fikirlər də haçalandı.
Bu onu,
O, bunu dandı.
– Keçmişimiz şanlı idi.
Bəs gələcək?
– Fikirləşək.

Bu bəladan qurtarmağa
Bir ağıllı tədbir görək,
Səbir gərək.
Məqamı var hər istəyin,
Tələsməyin, tələsməyin.
Tarixlərə o, baş vurur
«Vuruş» - deyə
Alovlanan ürəkləri
O tədbirlə ovundurur.
Bəstənigar aman çəkir,
Amanından aman, aman!..
Şikayətdir
Taleyin bu qəzasından.
Düşmən yaman amansızdır,
O qansızdır.
– Neyləməli?
– Dişimizlə daş qırmalı.
– Hanı bizim o gücümüz?..
– Onda ata-babaların şərəfini
Düşmənəmi tapşırmalı?..
Təəssüfmü?
Fikir qalxdı,
Fikir endi.
– Təəssüfün kölgəsində
Hansı dilək çiçəkləndi?
Bəstənigar
Bəstəboylu nigarların
Dili ilə inlər, inlər.
Ağı deyər qız gəlinlər:
«Don tiksən ağı bizdən,
Belinin bağı bizdən,
Qoymayın yadellini

Almağa bağı bizdən...»
Yığıldılar,
Dağıldılar dönə-dönə.
«Ötən günə gün çatarmı
Calasan da günü-günə».
Biri qalxdı:
– Günü günə calamağın
Nə faydası?
Ürəkdə od qalamalı,
Günü oda calamalı.
Min-min fikir
Bircə borcu ödəməmiş.
Qalxan əydi belimizi
Çox qısaltdı dilimizi.
Qalxan altda qaldığımız
Yetər bizim.
Dərdlərimiz qılınc ilə
Bitər bizim.
«Dəyirmanın pərindən,
Suyu çıxar dərindən.
Elin sözü bir olsa,
Dağ oynadar yerindən...»
«Çən-duman düzə neylər?
Zülfün tök üzə, neylər?
Ov bizim, ovlaq bizim
Yad ovçu bizə neylər?»
İndi bizə qılınc gərək,
Nizə gərək.
Od bişirək, dəmir döyək.
İndi bizə sellər kimi daşmaq gərək.
Qəlbimizə kölgə salan
«Qorxu» adlı hasarları

Aşmaq gərək.
Çahargahın Hasarında,
Yadellinin qabağına hasar çəkən
Qalalarda
Kürələrdə od qalandı,
Ocaq yandı,
Dəmir bişdi,
Çəkic altda, zindan üstdə
Xəmir kimi kündələndi,
Cilalandı.
Taraq-taraq,
Taq-tararaq,
Əldə yaraq
Vuraq, qıraq,
Cəbhə yaraq.
Dəmir, əri,
Qılınca dön,
Düşmən üstə durma, yeri.
Çəkic altda qığılcıma dönüb axdı
Çahargahın pərdələri...
Müxalifdə,
Hücum, hücum!
Ərənlərin nərəsinə
Yer titrədi, göy gurladı.
Uca dağlar dua verib
Ərənləri uğurladı.
Düşmən qaçır, bizimkilər təqib edir,
Mənsuriyyə qələbədir, təntənədir:
«Əzizim sözə qaldı
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
Yurd yenə bizə qaldı...»

Qəlbi vulkan tək coşan üsyandır, üsyan Çarigah,
Açmış hər zənguləsindən fikrə meydan Çarigah...

Şahə qalxan dalğalardır bir Müxalif guşəsi,
Dəryalar ləngərlədən tufandı, tufan Çarigah.

Guşələr göy gurladır, yer titrədir, sel oynadır,
Göndərir yadelliyə imzalı fərman Çarigah.

Simlərin mizrab ilə toqquşmasından od çıxar,
Yoğrulubdur bəlkə də çaxmaq daşından Çarigah.

Cövhərində bir həzinlik, bir xəfiflik saxlanır,
Ayrılıbdır öylə bir can sirdaşından Çarigah.

Bəxtiyaram, heyranam bərdaştda çılğın səslərə,
İstərəm od alsın əsrin atəşindən Çarigah!

## QALALAR

Abşeronun qalaları
Daşlardakı o oymalar,
Dalğasımı qatardakı
                Həzin, şirin
                Pərdələrin?
Bürclərdəki o əzəmət,
                Təmkin, vüqar,
Bəlkə... Hasar pərdəsidir Çahargahın?
Səs düzümü qaladakı dişlər kimi
          sıra-sıra, axın-axın.
Yadellinin hücumuna hasar çəkir.

Daşda fikir, səsdə fikir.
Boyaları əvəz edən kölgələr də
Fikir, fikir...
Ruhumuzla uyqardadır,
O batıqlar,
Qabarmalar.
Qabarmalar
Batıqlara kölgə salar.

Nə doğmadır, nə istidir,
Çıxışların batıqlara
Düşən xəfif kölgələri –
Tağlardakı
Oyma «naxış ləpələri».
Yadellinin başı üstdə
Yumruq kimi düyünlənən bu qalalar,
Düşmən bizə güc gələndə
El-obaya sığnaq olar.
Bu qalalar azadlığı hələ yanan,
Tüstülənən ocaqlarmış.

Bu qalalar tarix boyu
Neçə-neçə cəbhə yarmış.
Qız qalası! Adına bax,
«Bakirədir, qızdır qalam.
Yaxın gəlmə, mən quzğunam, mən qartalam.
Bu qartallar məskəninə
Qaraquşlar kölgəsini sala bilməz.
Qız qalamın qızlığını ala bilməz...»
«Sən gələrsən, sən görərsən»
Qalasının adındakı
Mənaya bax, məqsədi gör.

Babaların məramından
İbrət götür.
        Düşməninə o deyir ki,
Əgər gəlsən,
Yumruğumun ləzzətini sən görərsən.
Gəldiyinə peşman olub
Dabanına tüpürərsən.
Nələr deyir daşlardakı
O batıqlar, qabarmalar
Daş üstündə çiçəklənən
O yarmalar?
        Kim deyir ki, bu qalalar,
Yalnız elə qallar üçün
        Qaldırılan
                Bir qaladır?
Xeyr, burda sərtlik ilə
İncəliklər qol-qoladır.
Qorucumuz, keşikçimiz
Qalaların sinəsində
Nələr yatır, nələr, nələr?!

Bu qalalar – Daş nəğmələr.
Daşlardakı çalalara axar, dolar,
Daş üstündə naxış tutan,
O fikirlər, o duyğular,
Guşələrdə qaqqıldaşan
Pərdələrdən aşıb-daşan,
Hiddətlənən səs axını...
Batıqların, çıxıqların
Sinəsində qalxıb enən
                Səs axını.

## HƏRƏ BİR CÜRƏ...

Mərifət, qanacaq ölçümdür muğam,
Mən onu özümə məhək sanmışam.
O məhək daşında mən insanları
Saf-çürük edərəm, yoxlaram müdam.
Sən də yanırsansa əgər bu oda,
Dostumsan...
                    Görürəm özümü səndə,
Mən öz həmdəmimi, dostlarımı da
Tanıram muğamın pərdələrində.
Görən, nə danışır, nə deyir bizə
Səslərə bükülmüş bu göz yaşları?
Od saçır,
                    Dağ basır ürəyimizə
Elə bil köç edir durna qatarı...
O hara tələsir? O niyə gedir?
O bizim çölləri niyə tərk edir?
Tökülür yarpaqlar, susur bulaqlar,
Soyuqdan üşüyür, əsir budaqlar.
Payızın sazağı kəsir otları,
Göydə topalanır qəm buludları...
Dağın dumanımı, sisimi görən,
Dumanlı səslərdə belə hönkürən?
Ağlayır aşikar,
                    Yanır gizlicə.
Barmağı altında tarzən gör necə,
Düyünlü səsləri qovurur, sıxır.
Səslərdən yaş sızır,
                    Sudan od çıxır...
Ey tarım, ey nəğməm, ey pirim mənim,
Sənə nəzir düşür... çox yoxsulam mən.

Nəğməm ola bilər nəzirim mənim,
O da ki sönükdür nəğmələrindən...
O məchul dilinlə, sirli səsinlə
Gizli bir aləmdən xəbər verirsən.
Nolar, mənim kimi səsini dinlə,
Görək buna necə tab gətirərsən?
Ey atam hünərli, babam fikirli,
Ey reyhan nəfəsli, yarpız ətirli,
Nağıl nənələrin ey laylay səsi.
Ulu babaların kamal xəznəsi,
Şirin arzularım, xoş xəyallarım,
Ey müqəddəs pirim, ey müdrik tarım,
Danış,
                    Nəğmə oxu,
                                Sən həzin-həzin
Abırlı, həyalı qızlarımızın
Utancaq, dözümlü sevgilərindən.
Danış,
                    Söhbətinə müntəzirəm mən.
Danış,
                    Nədən ötrü ayrı saldılar
Kərəmi Əslidən,
                    Qeysi Leylidən?
Niyə taleləri daşa çaldılar?
Sinənə çəkilən bu dağlar nədən?
Sənin xəyalların, düşüncələrin
Dəryadan ləngərli, səmadan dərin.
Hər xalın tarixi
                    Yüz il, beş yüz il.
Guşələr rəngbərəng:
                    Yaşıl, al, sarı...
Orda varaqlanır,

Bir qəlbin deyil,
Bir xalqın minillik iztirabları.
Bir xalqın tarixi
Tarixin yolu.
Enişi, yoxuşu, iztirab dolu.
Səslənir muğamın pərdələrində.
Söhbəti aşkarda,
Sirri dərində.
Zilində elə bil od qalanıbdır,
Yanğına dözməyib havalanıbdır.
Bəmində yanğını keçirmək üçün
Fikirlər, xəyallar yuvalanıbdır.

Biz ki bu yolları bir başa vurduq,
Biz ki bir vahidik bir arzu-kamda.
Elə bununçun da... Tək mənmi?..
Yox, yox.
Hər kəs öz qəlbini tapır muğamda.
Muğam hər guşəsi sirli, soraqlı
Yola bənzəyir.
Yatağa sığmayan qollu, budaqlı
Selə bənzəyir.
Əvvəlcə yamyaşıl düzü dolaşır,
Birdən dəyişdirir köhnə yerini.
O axır, kükrəyir,
O coşur, daşır
Dağıda-dağıda sahilləririni.

Cilova gəlsəydi belə bir axın,
Nota salardılar onu nəğmə tək.
Şəklini çəkməkçin xırdalıqların
Özgə bir dünyadan boyalar gərək.

Tez-tez dəyişdirir öz məcrasını,
O yola çıxmadan yolunu bilmir.
Səfərə çıxanda macərasının
İlkini bilsə də, sonunu bilmir.
Bu yolu hər yolçu bir cür qət edir,
Bəmi düzənlikdir, zili zirvədir.
Bəli, o, zirvədir.
                    O zirvəlikdə
Ayağın altından sanki yer qaçır.
O ayaq dəyməyən yaşıl gədikdə
Hər yolçu özünə özü yol açır.

Hər muğam çalanın, muğam deyənin
Keçdiyi, açdığı iz başqa-başqa.
Eyni müğənnini hər dinləyənin
Könlünü yandıran köz başqa-başqa.
Məğrur Qız qalası...
                    O köhnə Bakı,
Mənsur Zabul üstə inlədir tarı.
O nədir?
                    Suların qayalardakı
Həzin, asta-asta pıçıltıları:
- Necə dumanlısan,
                    Görünmür gözə
Pərdədə, örtükdə çırpınan ürək.
Gizli mətləbini görməkçün
Bizə
          Dərinə işləyən təxəyyül gərək.
Hərə bu ocaqdan bir od götürər,
Tutar səsindəki dərinliklərə.
Xəyalın gözüylə eşidər, görər
Gizli mətləbini hərə bir cürə.

Bilmirəm, yaşıldır, aldır səslərin.
Səsinə nə sözüm?
                    Laldır səslərin.
Mətləbi gizlədir, inləyir ancaq.
Danışır,
          Bilmirik nə deyir ancaq...
Lal səsin nə böyük qüdrəti varmış.
Səsdə sözdən böyük hikmət olarmış...
Mübhəmdir,
                    Gizlidir sözü nəğmənin.
Min sözdən güclüdür, bir xalın sənin.
Ey tarım,
          Ey nəğməm,
                    Ey pirim mənim
Sənə nəzir düşür...
                    Çox yoxsulam mən,
Nəğməm ola bilər nəzirim mənim
O da ki sönükdür nəğmələrindən.

Sözümdə olsaydı səsinin gücü,
Onu başım üstə bayraq edərdim,
Səsinlə dünyanı mən tərpədərdim.
Yanıb şırıl-şırıl,
                    Axıb şır-şır o
Kim deyə bilər ki, nə danışır o?
Onda qucaq-qucaq söz çələngi var.
Hər səsin, hər xalın neçə rəngi var.
Hər kəs, hər guşəni yozur bir yerə,
Gəlin, bir anlığa baxaq göylərə.
Buludlar burulur,
                    Buludlar dönür,
Hərənin gözünə bir cür görünür.

Yox.
Həmən həməndir,
Göy də,
Bulud da.
Hərə öz qəlbini görür buludda.
Yoxsa inanmadın?
İnanma, ancaq
Anbaan dəyişən o buluda bax,
Sən də öz qəlbinin pəncərəsindən
İnan gördüyünə,
Elədir, əlbət,
Mənim gördüyümü görməsən də sən,
Mən də həqiqətəm, sən də həqiqət.

## SEGAH

Ey Zabul segahım, Orta segahım,
Mənim öz amanım, mənim öz ahım.
Sən mənə kimsədən pay verilmədin,
Sən özgə çeşmədən gətirilmədin.
Mənim dağlarımdır sənin qaynağın,
Qoşqarın
Kəpəzin,
Ulu Şah dağın
Bağrından sızılıb sən durulmusan,
Məndə yuvalanıb mənim olmusan.
Başqa rəngə salıb bu zaman səni,
Yenidən yaratdı Sadıxcan* səni.
Mənim öz dərdimsən, öz məlalımsan.
Anamın südü tək sən halalımsan,

*XIX əsrin musiqişünaslarındandır, tarda böyük yeniliklər etmişdir.

Çoban bayatısı...
Dağlar başından
Qarlara qarışıb qar-qar axıbdı.
Çöllərə boylanan gül baxışından
Keçdiyi yollara iz buraxıbdı...

Həzin bayatılar, çiçəklər kimi
Dağlarda kök atdı, arana çatdı.
Şirin bayatılar diləklər kimi
Bir qəlbdə boy atıb min qəlbə çatdı.
Nənəmin dilində min il dillənən
Segahım, özün al, özün canımı.
Dilqəmin dilində dil-dil dillənən
Ay telli sazların telli xanımı.
Ey Sarı aşığın sevgi dastanı,
Ey Molla Cumanın «İsmi pünhanı».
Vaqifin könlünü qana döndərən,
Xumar baxışdanmı süzülmüsən sən?
Segah bir arzunun, bir çırpıntının
Min ürəkdən gələn hıçqırıqları.
Sonu iniltili,
Əvvəli çılğın
Sınmış bir ürəyin səs qırıqları...

Qəmdir dolayları o ağlar səsin.
Ağrılar mayası,
Şikayət süsü.
Bir himə bənd olan bir qərib kəsin,
Könül hıçqırtısı, iç hönkürtüsü.
Danışır, başından ötüb keçəni.
Bəzən üsyan edir,
Bəzən inləyir.

Gizli dərdlərinə yandırır səni,
Mətləbi gah açır,
Gah düyünləyir.

Əlilə saldığı kor düyününə
Dililə yalvarır: «Tez açıl» - deyir.
Ötən keçmişini qoyub önünə
Bayatı çağırır, ona dil deyir:
Araz gəldi, yan axdı,
Dibində min can axdı.
Vətən sarı baxanda
Ürəyimdən qan axdı.

Dağların sinəsi nə?
Gün qalxıb sinəsinə.
Aləmə sığmaz başım
Sığıbdır sinəsinə.

Əziziyəm gül oldum,
Yandım, axır kül oldum.
Bir dilbilməz quş idim,
Oxudum, bülbül oldum...

Segah naləsinə alışan könül,
Alovu təəssüf, köçü xatirə.
Keçmişi yanğıyla danışan könül,
Qazancı ağrılar, özü xatirə.

O deyir dililə amanın, ahın
Tale bir ürəyə gör necə qıymış...
Mənim çəkdiklərim hansı günahın,
Hansı bəd əməlin öz bahasıymış?

Bu dərdə bağladı məni kim? – deyir.
Bəmində, zilində o, «neylim»? – deyir.

Dərdimin yükünə tab gətirmədi
Əyilib qırılan budağa neylim?
Dərələr keçmişəm, dağlar aşmışam,
Könlümdə dikələn bu dağa neylim?

Günahım nə oldu mənim dəmadəm,
Düzəndə kəsdilər, dağda bitmişəm,
İsti nəfəsimlə qar əritmişəm,
Şaxtaya dözmüşəm, sazağa neylim?
Mən danışan zaman bir kimsə dinməz.
Səsim su yandırar, sözüm bilinməz.
Böyük arzulara dünya bir qəfəs,
Dilimə vurulan qadağa neylim?

Mən od hərisiyəm, od mənə həmdəm,
Günah məndə deyil, daşı əritsəm.
Buz tutar, yay günü bulağa getsəm.
Neylim, buza neylim, bulağa neylim?

Danışdı.
                    Gördü ki, dinləyənlərin
Başından od çıxdı, gözləri doldu.
Dərdilə, qəmilə başqalarına
Əzab verdiyinə peşiman oldu.

Dedi, bu da keçər, axı neyləmək?
Həmişə olmaz ki, yer üzü gündüz.
Belə yaranıbdır bu çərxi-fələk,
Bir üzü gecədir, bir üzü gündüz.

Ey mənim ürəyim, sən öz gözünlə
Gecəni gecə gör, gündüzü gündüz.
Öz əllərinlə,
Könüllər şad edən əməllərinlə
Yoluna gül düz.

Nə deyir könlümü oymaqla, oyulmaqla Segah?
Gözə göz yaşları tək bir belə dolmaqla Segah?

Könül hıçqırtısı, qəlb atəşi, can yanğısıdır.
Sən mənim göz yaşım ol, çağla, Segah, çağla, Segah.

Anamın öz südü tək sən halalımsan, halalım,
Nə deyirsən, məni məndən belə almaqla, Segah?

Bizi dünyanın o dar çərçivəsindən çıxarır,
Dəli xallardakı hönkürtüyə dalmaqla Segah.

Onun hər pərdəsi ah, hər bəmi qəm, hər zili od,
Qəlbə atəş çiləyir, hökm eləyir ağla Segah.

Bəxtiyarın da könül telləri titrər beləcə,
Deyər ahəstəcə hey: «Ağla, Segah, ağla, Segah».

## RAST

Buxarı başında el ağsaqqalı,
Əyləşib
Qəlbini açır süfrə tək.
Danışır, anbaan dəyişir halı

Zoğal çubuğunu tüstülədərək.
Sözləri bəm simdən zil simə düşmüş,
Danışır bir əsrin öz yarasını.
Danışır aramla,
                        Tilsimə düşmüş
Bir pəri qızının macərasını.
Dağlarda göynəyən Məcnundur Segah,
Rast onun atası... Nəsihət eylər.
Məcnun səhralara gətirər pənah,
Ata bu sevdanı məzəmmət eylər.
Rast müdrik bir ağıl, dərin düşüncə,
Danışır təmkinlə, aramla tək-tək.
Segah bir istəyin, eşqin dalınca
Mələyə-mələyə qaçan bir ürək.

Rast çılğın qəlblərə bir ağsaqqalın
Nəsihət nidası, öyüd səsidir.
Bir zaman büdrəyən qəlbin, kamalın
Ayılıb özünü dərk etməsidir.
Segah nalə çəkən, Rast tədbirlidir,
Vüqarlı, dözümlü, o səbirlidir.
Yüz ölçür, bir biçir,
                Düşünür dərin,
Mühit dənizi tək o ləngərlidir.
Onun ləngər vuran hər guşəsində
Dərin düşüncələr daldalanıbdır.
Gizli fikirlərin sıx meşəsində
Arzudan, istəkdən od qalanıbdır.

Fikirlər, fikirlər...
                        Bir sirdaş olmuş
İnsana...
                Dərdinə dolandan bəri,

Rast cavan deyildir,
O, yaşa dolmuş,
Müdrik bir ürəyin düşüncələri:
Həyat nə?
Ölüm nə?
Ömür nə?
Yol nə?
Qəflət yuxusunu dağıdan nədir?
Qışda yağan qarı, bahar gəlincə
Sellərə döndərib axıdan nədir?

Düzdə ayaq açır dağların qarı,
Hər vaxtın öz quşu, öz budaqları.
Yuxudan qaldırıb ulu dağları,
Bahar havasına oxudan nədir?
Çalır ürəkləri göz baxışıyla,
Boşalır könüllər göz yaşlarıyla.
Yerləri, göyləri öz axışıyla
Haldan-hala salan bu zaman, nədir?

Hökmüylə, qəsdiylə nə deyir zaman?
Uçurur bir yandan, qurur bir yandan.
Günəşin başına dolanır cahan,
Fırlanır, fırlanır, fırladan nədir?
Ay nə, gün nədir?
İlk nə, son nədir?

Enişi göstərir bizə dağ kimi,
Qaranı göstərir bəzən ağ kimi
Dünyanı oynadır oyuncaq kimi,
Qəsdi bilinməyən bu oyun nədir?
Ay nə, gün nədir?
İlk nə, son nədir?

Bir aqilin hikmətli nəsihətləridir Rast.
Tarix danışan köhnə rəvayətləridir Rast.

Aqil danışır, canlı misallar çəkir hərdən,
Bir taleyin ibrətli hekayələridir Rast.

Üşşaqda verir sirli suallar bizə rəng-rəng
Eşqin də cavabsız qalan hikmətləridir Rast.

Dilkəşdə pıçıldar bizə dünya kədərindən,
İnsanın ədalətli şikayətləridir Rast.

Öz dərdini qışqırmaz, o, ahəstəcə söylər,
Lakin əzabın son dəmi, sərhədləridir Rast.

Dünyanı gözəl görmək üçün qurbana hazır,
İnsanların ilk arzusu, niyyətləridir Rast.

Ey Bəxtiyar, ah atəşi söz rənginə girməz,
Həm dərdli qürub çağı və həm dan yeridir Rast.

## HÜMAYUN

Milləndi qığılcım kimi zülmətdə Hümayun,
Dağ üstünə dağ basdı müsibətdə Hümayun.
Ülviyyətə, qüdsiyyətə, şeiriyyətə çatmış,
Fəryadda segah, gizli şikayətdə Hümayun.

## ŞÜŞTƏR

Şövkətli, qədim keçmişimin öz dili Şüştər.
Nakam ananın laylası, yüz pərdəli Şüştər.
Felində ağıl nuru saçıb dalğalanırkən
Min ağlı neçin başdan alır bir dəli Şüştər.

## BAYATI - ŞİRAZ

Muğamat qəsrinin gözəl gəlini
Şövkəti, şanıdır Bayatı-Şiraz.
Mizrabda hönkürən sarı simlərin
Çılğın cövlanıdır Bayatı-Şiraz
Sevincdən kədərə, qəmdən nəşəyə
Keçid meydanıdır Bayatı Şiraz.

## AMAN OVÇU

Maral endi sərçeşməyə,
Sərçeşmədən su içməyə.
Bilmədi ki, pusqudadır
Bərəsində «aman ovçu»
Yaman ovçu,
Zalım ovçu.
Qabırğası qalın ovçu.
Qaçdı, bir az aralandı.
Şaraq-şaraq!
Kürəyindən yaralandı,

Qaçammadı... O dayandı.
Göy çəmənlik qızıl qandan
Oda yandı.
Döndü, baxdı yazıq-yazıq,
Məlul-məlul,
Ovçu, sənin qolun sına.
Necə qıydın bu dağların
Maralına?
Gözlərdəki o çarəsiz yalvarışa
Necə dözdün?
Aman ovçu,
Tüfəngini çiynınə sal,
Bir geri dön,
Bir ora bax.
Bu dəhşətə kol titrədi,
Gül üşüdü.
Baxışdakı o yalvarış
Nəğmə oldu,
Dilə düşdü:
«Aman ovçu, vurma məni,
Mən bu dağın maralıyam.
Yaralıyam, yaralıyam».
Nəğmələrin istisinə
Qızındıqca donuruq biz,
Heykəlləşir heyrətimiz.

## YAĞ, YAĞIŞ

Ağ yel əsir,
Ağ buludlar
Topa-topa,

Tel-tel əsir.
Ağ yel əsir.
Pambıqlanan buludları
Kola-kosa
asa-asa
Ağ yel, ağ-ağ gül bitirir,
Yağışı da ağ gətirir.
Göydə bulud damar-damar...
Bu ağ yağış
Düz torpağın
İliyinə
Damar, damar...
Oğul-uşaq gülə-gülə
Çıxar çölə.
Üz islanar, göz islanar.
Oğlan qaçar,
Qız islanar.
«Yağ, yağışım, yağ yağara.
Daş ağara, dağ ağara.
Ağ buludun toy günüdür,
Gir mağara,
Yağ, ey yağış,
Vur nağara...»
Yağış yağır,
Ürəyinin yanğısına
Dağın, daşın.
Tut ucundan sən göyə çıx,
Bu yağışın.
Şırıldayır navalçalar,
Qopub düşür budağından
Kal alçalar.
Arxlar daşar, sel oynayar,
Göy əl çalar...

Sellər yıxar bərələri,
Dilləndirər
dibsiz «uzun dərə»ləri...
Uzundərə
Şüştərimdən qopub düşdü,
Sellər, sular çağıldayan
Uzun-uzun dərələrə.
Əlvan-əlvan havalardan aldığımız
Havalar da
Öz sözüdür könlümüzün,
Arzumuzun, dərələrə...

Göy tutular.
Bir tərəfi açıq olar,
Açıq yerdən gün çırtlayar.
Deyərlər ki, indi günəş
Buludlara oldu günü.
Açıb qızıl saçlarını
Günəş yuyur əl-üzünü...
Bəs bu nədir? Bəs bu nədir?
Bu da özgə bir nəğmədir.
Yağış kəsir...
Qovğası da bitir, demək,
Göyün, yerin.
Göyün təmiz aynasına
Əksi düşür
Çiçəklərin...
Çiçək açır sağdan sola
Göyün tağı.
Göy üzünə çətir çəkir
Göy qurşağı.
«Fatma nənə hana qurur»
Hanadakı rənglərə bax.
Kitab kimi o, oxunur

Varaq-varaq.
O, ürəyin gah qüssəli,
Gah fərəhli hallarımı?
O, muğamın əlvan-əlvan xallarımı?
Hər guşədə neçə-neçə
Rəng çağlayır,
Səslər elə əngindir ki,
Açıb geniş qollarını
Bu dünyanı qucaqlayır.
Əfsanəvi nənəmizin
Ürəyinin tellərindən
Hanasına bənd etdiyi süslərə bax.
Səslərdəki rənglərə bax,
Rənglərdəki səslərə bax.
Gah da olur yağış kəsmir,
Elə yağır, yağır yenə...
Nə əkinə gedən olur, nə biçinə.
Çiyinlərdə həyat yükü dağdan ağır.
Bir yandan da yağış yağır,
Səpələnir sola, sağa,
Aman vermir göz açmağa.
Neyləməli?
Pas atıbdır oraqlar.
Zəmilərdə diş qıcadır
Alaqlar.
Hər qapıdan pay umub
Qodu gəzir uşaqlar:
«Qodu, Qodu, dursana,
Çömçəni doldursana...»
Əkin-biçin eşqinə,
Ürək yanır, dil yanır.
Bizim mahnılarımız
Bəzən belə yaranır.

## SAYAÇILAR

Düzdə qızıl bürküyə
Dağda borana düşdük.
Yayda dağa üz tutub,
Qışda arana köçdük.
Qışda dəyə evimiz
Yayda alaçıq oldu.
Qəlbimiztək evimiz
Hamıya açıq oldu.

Düşdük qara, sazağa,
Həm qul olduq, həm ağa.
Qonduq azad quş kimi
Biz budaqdan-budağa.

Sərhəd tanımadıq biz,
Arxalandıq dağlara.
Ləpirimiz yol açdı
Yaxına, uzaqlara...
Qoyun-quzu bəslədim,
Dağ bizə sirdaş oldu.
Yaylaqların çiçəyi
Bizə əyin-baş oldu.

«Nənəm qoyunun ağı
Dolandı, gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı...

Nənəm, a dəli qoyun,
Dolanıb gəli qoyun.

Gəlinlər güzəmindən
Toxuyar xəli, qoyun.

Nənəm, a nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun...»

Dağlardakı suların
Səsi nəğməmiz oldu.
Dağların sel suyu tək
Qəlbimiz təmiz oldu.
Dağlardan aldığımız
Nəğməni
Qəlbimizin
Fəryadına çevirdik.
Aradan kəsdiyimiz
Qarğı tütəyə verdik.

Biz nəğməylə oyanıb
Nəğməylə də yatardıq.
Biz qoyunu, quzunu
Nəğmələrlə otardıq...

«Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdü
Südü ver, barış qoyun».

Uca dağlar, şiş qayalar boyunca
Zilə çəkər bayatını çobanlar.
Bu səsdəki məlahəti duyunca

Qoyun-quzu ota gələr, dil anlar.
Kiçik-kiçik arxlarım
Bayatılar, sayaçılar, laylalar
Qayalardan sızılar,
Dərələrə hay salar,
Kürə çatar,
Arazıma can atar,
Bizim muğam dəryamızı yaradar.

Sevinc bizi güldürürsə,
Qəm ağladır.
Sözün özü nə ağlayır,
Nə də gülür,
Amma bizi həm güldürür,
həm ağladır.
Yox, söz deyil, səsdir, axı
Qəhqəhə də,
Hönkürtü də,
Min cümlədən daha böyük
Mətləb yatır
Bircə qırıq hönkürtüdə.
Könül səsi könül dələr.
Nəğmələrin əvvəlidir
Hönkürtülər, qəhqəhələr.
Bəlkə insan
Sevincini, kədərini
Nəğmələrlə söyləməzdi,
Bizim kimi hönkür-hönkür ağlasaydı,
Qah-qah çəkib gülsəydi söz.
Yox, nəğmələr yaranmazdı,
Qəlbimizdən keçənləri
Tamam deyə bilsəydi söz.

Sözdən əvvəl səs yaranır,
Nəğmələrdir ilk dilimiz.
Nəğmələrdir
Sözümüzün, fikrimizin
ibtidası,
Nəğmələrdir
dilimizin əlifbası.

Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
«Kürü ahıyla qurutdu», «Salı yandırdı» muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

O, ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

*1975*

# ATILMIŞLAR

*Anamın xatirəsinə*

## *I fəsil*

## KÖRPƏ

### 1

Nə isə düşündü
Duruxdu birdən.
Seçdi bir fikrini min bir fikirdən.
Körpəni aramla bükdü qundağa,
Basdı sinəsinə qalxdı ayağa...

Ümidə yas tutub, ağlayır güman,
Xeyiri şərləyir, şərə «dost» deyir.
Sevilib, sonra da atıldığından
O da balasını atmaq istəyir.

Ancaq... durdu yenə, duruxdu yenə,
Körpəni astaca qoydu yatağa.
Sıxdı döşlərini süd şüşəsinə,
Əmziklə bir yerdə bükdü qundağa.

O, qalxmaq istədi, yenə döyükdü.
O, bir də düşündü son niyyətini.

Bildi ki, şüşəylə birgə o, bükdü
Sonuncu analıq məhəbbətini.
Dizləri titrədi...
                    – Bu  nədir belə?
Bir alov qarsıtdı içindən onu.
Bir neçə damcılıq ana südüylə
Verdi övladına o, son borcunu.
«Analıq, balalıq bumudur məgər?
Çəkdim qayğısını bircə həftə mən.
Yolumun üstündə bala bir çəpər,
O tərəfdə arzum, bu tərəfdə mən.

Şəhərə gəlmişəm uzaq rayondan,
Burda dərs oxuyum, sənət öyrənim.
Məhəbbət dərsindən kəsildim yaman,
Oldu bu körpə də «qiymətim» mənim.

Atamın adına övladım ləkə,
Hər dərdə bənzəməz mənim bu dərdim.
Mən onun başını ucaltmalıykən,
Mən onun adına ləkə gətirdim.

Tapdandı isмətim, bədbəxt yetimlə
Necə keçəcəkdir günüm, ruzgarım?
Neyləyim?
Atamdan, anamdan özgə
Mən kimə əl açım, kimə yalvarım?

Axsın ürəyimə qoy göz yaşlarım,
Kimsənin önündə əyilməməli.
Nə anam, nə atam, nə qardaşlarım
Bunu bilməməli, yox, bilməməli!..

Basıb sinəsinə o, körpəsini,
Getdi... İki addım atmamış,
ona
Qəlbi nəsə dedi...
Addım səsini
Bənzətdi o, qapı taqqıltısına...
«Bəlkə o gələcək?
Axı sevirdi.
O, mənə nə qədər ümidlər verdi.
Bəs sonu?
Bu imiş sevginin sonu?
Dandı sevgisini, dandı borcunu.
Kim qaça bilibdir qədərdən yeyin?
Heç demə, zillətmiş sevgimin adı.
Qadasını alıb sevinc verdiyim.
Özü verən dərdə ortaq olmadı.
Necə də ağırmış, necə də ağır,
Mənim qollarımı qıran bu körpə.
Məgər təkcə mənim öz günahımdır
Yolumun üstündə duran bu körpə?

Özgələr bilməsin dedim, dərdimi,
Özüm öz içimdə yedim dərdimi.
Ağlaram,
Səsim yox,
Hay-harayım yox!
Ahıma səs verən öz ahım oldu.
Bu, mənim dünyaya bala payım yox,
Bu, mənim dünyaca günahım oldu.
İstini yaz bildim,
Yaz açılmadı.
Vaxtsız açan çiçək xar olmalıymış.

Qanunsuz ananın analıq adı
Elə qanunsuz da pozulmalıymış...
Mən baxa bilmirəm bir günah kimi,
Bu təmiz hissimə, məhəbbətimə.
İndi neyləməli?
Xəcalətimi
        Girov verməliyəm səadətimə?

Bu sirri gizlətmək mümkünmü?
Mümkün!
        Qəlbin dövrəsinə daş hörülməli.
Talesiz balamın yaşamasıyçün
Mənim ana adım öldürülməli!

Mənim ana hissim qəm otağında
Tutsun mənzilini, tapsın yerini.
Tapacaq bəlkə də yad qucağında
Balam öz bəxtini, öz qədərini.
Nə imiş ölçüsü namusun, arın?
O hardan başlanar, o harda bitər?
Dünyada qanunsuz doğulanların
Yaşamaq hüququ yox imiş məgər?

Əgər qaynağından su bulanırsa,
Bulaqlar başına nə kül tökməli?
Atanın, ananın günahı varsa,
Onun cəzasını övlad çəkməli?
Bu nədir?
Bu müdhiş uyğunsuzluğun
Nə ad verməliyik törətdiyinə?
Deyirəm, qanunla qanunsuzluğun
Sərhədi nə imiş, göstərin mənə...»

## 2

«Şəhərə gəldiyim bir il deyildi,
Sevildim...
İnandım,
                    sevdim,
                              atıldım.
Ömrümün düz yolu necə əyildi,
Yanıb kül olmadım, yanıb ayıldım.

Səhvlər...
                    Düşünür hamı xeyrini,
Mən seçə bilmədim xeyiri şərdən.
Düz düzü gətirir, əyri əyrini,
Qorxuram yenidən səhv eləyim mən?!

Bəzən bircə anın yanıltısından
Bütöv bir ömürü uduzur insan!
Kimdir yıxılmayan? Məgər təkəm mən?
Bu dərdə düşənlər dünyada min-min...»
...Səhvinə haqq verib əzab çəkməyən
Düşür tələsinə ikinci səhvin.
«İndi neyləməli?
                    Ömrüm boyunca
Bir səhvin oduna külmü olum mən?
Bəsdir alışdığım, yandığım bunca,
Başlamaq gərəkdir ömrü təzədən.
Hələ nə görmüşəm? İyirmi bahar,
Bu yaşda özümü kəfənləyim mən?
Yox! Belə yaramaz!
                    Axar sel-sular
Kol-kosa ilişən çör-çöpün üstdən.

Niyə şişirdirəm mən öz dərdimi?
Yaşamaq!»
                    Yaşamaq bir insan kimi
Kiminə asandır, kiminə çətin.

Dünya süfrəsidir nazi-nemətin.
Orda qəm çəkənə qəm əksik deyil,
Orda dəm çəkənə dəm əskik deyil.

«Elə ömrüm boyu gərək ağlayam?
Mənimçin dünyanın tək qəmi qalmış?
Elə bil naz-nemət qurtarıb tamam,
Dərd çəkib, qəm yemək mənəmi qalmış?

Yox! Daha bəsimdir, bəsimdir!» - deyə
Baxdı,
                    O həsrətlə baxdı körpəyə.
Bələyin üstünə axırdı dən-dən
Göz yaşı – əzabı, ələmi, dərdi.
Hara getdiyini heç kəsdirmədən
Elə addımlayır, elə gedirdi...

Külək vıyıldayır,
Qar sovururdu.
O, yenə dayandı,
O, yenə durdu.
Bəlkə, yolu azıb?
                    Sonuncu mənzil
Bəllidir...
                    Getdiyi bu yolu deyil,
O, ömür yolunu azıb, çaşdırıb.
Başını qundağa yaxınlaşdırıb,

İsidir körpəni od nəfəsilə.
Bəlkə, son borcunu ödəyir belə.
Çatdı bir həyətə...
          Döyükdü,
                    Durdu
                              O, uçunurdu.
Bir sağa çevrildi, bir sola baxdı,
Boylanıb həyətdən o, yola baxdı.
Girdi bir dəhlizə... Mərmər pillələr
Daş üzə bənzər.
          Gözünün ucuyla qundağa sarı
Baxmadan
                    astaca qalxdı yuxarı.
Meydança üstündə qoyub körpəni,
Endi pilləni,
          Endi!
                    Endimi?
Körpə anasından ayrıldığını
                    hiss etmiş kimi
                              çığırdı birdən.
Elə bil püskürüb od çıxdı yerdən,
Bürüdü ananı...
                    Durdu yerində.
İldırım şaqqıdı bəbəklərində.
İstədi qayıda...
                    Ancaq qaçdı o,
Bala naləsindən uzaqlaşdı o.
Dondu dodağında bir «can» kəlməsi,
Qaldı qulağında körpənin səsi.
Ayaq tappıltısı...
                    O, dönmür dala,
Qaçır, xəyalında qovur an anı...

O elə bilir ki, bu qaçışıyla
Açır xoşbəxtliyin qapılarını.
Üz tutub sabaha bu gündən qaçır,
O, bu qaçışıyla özündən qaçır.
O qaçır analıq məhəbbətindən,
O qaçır özünə öz töhmətindən.
Qaçır, könlündəki bərədən aşıb...
Amma yaxşı bilir o, nədən qaçır.
Özgələr gözündə günahsızlaşıb,
Təmiz görünməkçün ləkədən qaçır.

Hələ eşidilmir ürəyin səsi...
İnanır o səsin boğulduğuna.
Özgələr önündə pak görünməsi
O, hələ bilmir ki, ləkədir ona.
Qaçır,
          amma bilmir o, nəyə qaçır.
Ləkədən qaçırkən ləkəyə qaçır.
İnsan bir ömürdə ikidir, iki
Atıb körpəsini elə bildi ki,
Adının üstündən ləkəni atdı,
Özünə başqa bir tale yaratdı.
Təmizə çıxartdı o, öz adını
Sabaha uzanan qol-qanadını
Körpə bağlamışdı...
                         Qolunun üstdən
Onu daş pillənin üstünə qoydu.
Qolları boşaldı.
                         Yolunun üstdən
Körpə götürüldü... Bu nə yoluydu?
Hara aparacaq bəs bu yol onu?
Nə imiş görəsən bu yolun sonu?

Qollar körpəsizdi...
                    Ancaq bu gündən
Qollar ağırlaşdı yüngüllüyündən.
Körpənin yerinə indi də vicdan
Asıldı ananın qol-qanadından.

**3**

Çatdı mənzilinə taqətsiz, bihal,
Qırıq çarpayıya uzandı dərhal.
Yumdu gözlərini...
                    Gördü yüz yerdən
Gözünü zilləyir ona körpəsi.
Açdı gözlərini...
                    Pəncərələrdən
Doldu otağına körpənin səsi.
Gördü ki, otaqda hər şey qışqırır.

Açdı pəncərəni, yer-göy qışqırır.
Qışqırır masanın üstə kitablar.
Qışqırır qapı da, pəncərələr də.
Qışqırır çarpayı, qışqırır divar,
Qışqırır görpənin yatdığı yer də.

Tutdu qulağını sıxdıqca sıxdı,
O elə bildi ki, səs çöldən gəlir.
Gördü bu səs deyil, bu qışqırıqdı,
Bildi ki, qəlbindən, könlündən gəlir.
Su içdi, boğazda tıxanıb qalan
Qəhəri ötürə, bir uda, bəlkə.
Açdı radionu,
                    ona yük olan

Dərdini bir anlıq unuda, bəlkə...
«Cavan analara söhbət, məsləhət».
Bu da başqa töhmət, başqa məzəmmət!
Radionu susdurdu.
                    Ayağa durdu...
Söhbət qulağında səsləndi yenə.
Hər şey elə bil ki, durub qəsdinə,
Kəsir yolunu.

Hansı bir qüvvəsə
                    özü bilmədən
Qəfil itələdi içindən onu.
Görən, birdən-birə ona nə oldu?
Bayaqki qəsdini, yoxsa, danırdı?
Baladan qaçdığı bu yollarla o,
İndi balasıyçün qanadlanırdı.

İndi o yüyürür dala baxmadan,
Bayaq yüyürmürdü, o sürünürdü.
Bayaq analığı tapdayıb danan
İndi ana olub geri dönürdü.

O, boğa bilmədi qəlbin səsini.
O uçur,
                    O qaçır dar döngələrdə.
Kim bilir, kim bilir, o, körpəsini
Tapa biləcəkmi qoyduğu yerdə?

Bir oxun başına necə dolanır
Niyyətin qarası, arzunun ağı.
Bir insan ürəyi xoşbəxtlik sanır
Bayaq itirməyi, indi tapmağı.

Yüz rəngli, yüz səsli istəyimizlə
Bir saat içində yüz adamıq biz.
İlkini başladın, sonunu gözlə,
İnkarla təsdiqdə bütöv, tamıq biz.

Gecənin yarısı... Küçələr lal-kar.
Yağdıqca sulu qar tərləyir yollar.
Sulu qar əriyir...
                    Xəcalətindən
Elə bil tər tökür puçur-puçur yol.
O qaçır, yel kimi burulur tindən,
O önə qaçdıqca dala qaçır yol.

O çatdı həyətə... yumdu gözünü,
Mərmər pillələrə atdı özünü.
Körpəni görmədi qoyduğu yerdə,
O, bir daşa döndü daş pillələrdə.
Döşəndi yanına
                    körpəyə sarı
Uzanan o titrək, gücsüz qolları.

Bu qollar bezmişdi bu gün körpədən,
Bu qollar körpəyə uzanır indi.
Bu qollar buz kimi soyuqdu nədən?
Bu qollar üstündə can yanır indi...
–İndi mən neyləyim, neyləyim? – dedi.
Bir-bir qapıları döymək istədi.
Dayandı...
                    Ahının şölələrində
Elə bil qəfləti bir ulduz doğdu.
Hardasa qəlbinin gizli yerində
Sevindi...

Bir qədər yüngülləşdi o.
–Mən ki peşman olub döndüm geriyə.
Qədər öz hökmünü belə döndərir.
«Bəlkə xeyirlisi beləymiş» - deyə,
İndi öz-özünə təskinlik verir.

Vicdandan asılıb ürəyi dartan
Yükün ağırlığı azaldı bir az.
Özünü aldadıb yaşayır insan,
Bəlkə, bu alversiz yaşamaq olmaz.

Ancaq bu məqamda bir mətləb də var:
Bir dəfə aldanan yüz yol aldanar.
İkinci günaha yol verər insan,
Birinci günaha haqq verən zaman.

**4**

Keçdi bir neçə gün qaralı, ağlı,
Gah açıqqabaqlı, gah qaşqabaqlı.
O, qəsdən qəşş edib gülürdü bir an,
Qəlbində mələyib onu sarsıdan
Körpənin səsini batırmaq üçün,
Ancaq güclənirdi o səs günbəgün:
Dəniz nəriltisi, su şırıltısı,
Yarpaq pıçıltısı, yel vıyıltısı
Onun qulağında ana axtaran
Körpə balasının hıçqırığıydı...
– Mənim daş ürəyim, yoxdur bir soran
Analıq hissinə bəs necə qıydı?
O, bir yer istəyir, o, bir yer ancaq,
Uzaq, uzaq olsun bu səsdən uzaq!

Yox! Qaça bilmədi o bu səslərdən.
Nahar eyləyəndə sızlardı hərdən
Döşünün giləsi, döşünün ucu.
Bu, onun ən böyük günahı, suçu.

Bu nə müsibətdir, gülüşlərində
Hönkürür qəlbinin hayı, harayı.
Özü çörək yeyir...
                                        Amma döşündə
Sızlayıb ağlayır körpənin payı...

Bu nə müsibətdir, bu nə müsibət,
Buna tablamağa bir ürək hanı?
Bu necə dəhşətdir, bu necə vəhşət,
Necə susdurasan burda vicdanı?

Həyat nə oyundur, nə də oyuncaq,
Dandığın gerçəyi gerçək bil yenə.
İnsan bir əlilə yandırır,
                                                      ancaq
O biri əlilə vurur dizinə.
O da dizlərinə vurub ağladı,
Oturub ağladı, durub ağladı:

– Qalmadı bir şeyə – dedi – gümanım,
Saçımı dərd yoldu, qəm daraqladı.
O qədər ah çəkdim,
                              ahım, amanım
Viranə könlümdə tüstü bağladı.

Düşüb qasırğaya, borana könlüm,
Azmışam yolumu qəm meşəsində.

Elə dağ-dağ olub viranə könlüm,
Arılar şan bağlar hər guşəsində.

Ümidlə, inamla yaşayır ana,
Günləri, ayları ötüşür belə.
Küçədə, bayırda uşaq gördümü,
Baxır diqqət ilə, baxır zənn ilə.

Axtarır özünün cizgilərini
O gah bu uşaqda, gah o uşaqda.
Kimsəyə açmayır ancaq sirrini,
Gözləri axtarıb hey aramaqda.

Belədir əzəldən, belədir qayda:
Tapmaq çətin olur, itirmək asan.
İndi ağlayırsan...
Ancaq nə fayda
Özü yıxılanın ağlamağından?

Bəs körpə?
Nə yazdı bəxtinə ruzgar?
Körpələr evinə verdilər onu.
Atalı, analı yetim balalar,
Yaxşı ki, bilməyir atıldığını.

Bilmədi...
Bəs sonu?
Sonu müsibət!
Bu dərdi söyləmə qəlbidaşlara.
Yaxşı ki, hökumət, yaxşı ki dövlət
Yenə sahib durur atılmışlara!

## *II fəsil*

## QOCA

### 1

Ana tanıyıram iyirmi yaşından
Dul qaldı.
Bəlalar ötdü başından.
Dərdi qabaqladı.
                    Kədəri ötdü.
İki nər cüssəli bala böyütdü.
Biri çatan kimi on yeddisinə.
Səs verdi Vətənin çağrış səsinə
Getdi od içinə.
Getdi,
Gəlmədi.
Gənc ömrü yarımçıq bitdi,
                    gəlmədi.
Ana kiçiyinə ümid bağladı,
Dərdini gizlətdi, gecə ağladı.
O, bircə arzuya, bircə niyyətə
Verdi ürəyini, verdi büsbütün.
Dözdü hər ağrıya, hər əziyyətə,
«Bir övlad böyütdü bir afət üçün».
Ona toy elədi.
                    Ömür  yükündən
Sandı ki, azaddır bu gündən bəri.
Ancaq o bilmədi,
                    elə o gündən
Başlanır ən böyük müsibətləri.

Ana öz işini tamam bitirdi.
Bitirdi!
Hər şeyi, demək, itirdi.
Vəzifən bitdimi, borc ödəndimi,
Üz astara dönür, astar üzləşir.
Geyilib atılmış bir paltar kimi
İnsan da bu zaman gərəksizləşir.

Ayıra bilmədi yoxuşdan diki,
O, bunu bilmədi,
                Nə biləydi ki,
Hər hökmün bitəcək iş-güc bitəndə,
Hörmətin itəcək hökmün itəndə.

Bir vaxt ayıldı ki, dəyişib yerlər,
Çömçə isti olub indi qazandan.
El ağzı –
                fal ağzı
                        yaxşı deyirlər,
Köynək yaxın imiş ürəyə candan.
Bir vaxt ayıldı ki,
                        keçib iş işdən,
Baxışlar soyuyub, üz yaman dönüb.
Ana başa düşdü, bu tərpənişdən
Oğul da, deyəsən, anadan dönüb.
Gördü ki, hökmünü
                O, bircə-bircə
                        İtirir...
Hörməti əlindən gedir.
Bir vaxt ayıldı ki, builki sərçə
Bildirki sərçəyə civ-civ öyrədir.

Köhnəlik – qaynana.
Yenilik - gəlin!
Hərə öz fikrində haqlı,
həm doğru!
Gələn yeni ilə gedən köhnənin
Sonu görünməyən döyüşüdür bu.

Ana bu ocağa gəlin gələndən,
Bu qədim yuvada bir qayda vardı:
Gəlinlər oyanıb hamıdan erkən
Ərləri yedirib yola salardı.

Ana bu qaydanı müqəddəs bilir,
Ana bu qaydanı yaman güdürdü.
Ana bu qaydanı indi hər səhər
Təzə gəlinindən tələb edirdi.

Gəlinsə yatırdı doqquza qədər,
Oğul acqarına işə gedirdi.
Bir gün,
beş gün,
on gün!
Ötdü beləcə.
Ana nə danışdı,
Ana nə dindi.
Gördü ki, oğul da dinmir...
Bir gecə
Dözmədi...
Gəlinə yaman təpindi.
İki əqidənin, iki cəbhənin
Döyüşü başlandı sükutdan sonra.
Ana dözəmmədi...

Bu təzə gəlin
Təzə nırx qoyanda köhnə bazara.

Partladı ürəklər,
Açıldı üzlər.
Yaman qanad açdı latayır sözlər.
Gəlin qaynananı bükdü bucağa:
–Gözünü dünyaya yaxşı aç, - dedi.
İndi mən sahibəm, mən, bu ocağa.
İşə bax!
Yerliyə yersiz qaç – dedi.

Köməyə çağırdı ana oğlunu.
Oğul danışmadı...
Durdu kirimiş.
Ana bilmədi ki, bu imiş sonu,
Gəlin gələn kimi oğul itirmiş.
Ara verilmədi evdə davaya,
Ürəklər partladı qəzəbdən, kindən.
Oğul barış üçün girdi araya,
Heç biri dönmədi öz cəbhəsindən.
– Bizim zəmanədə belə deyildi.
– Saxla! Çoxdan bitib sənin zamanın.
Ana bilmədi ki,
Günəş əyildi,
Öz təzə hökmü var təzə dövranın.
Elə ki qocaldın,
Bil öz yerini!
Oynaya bilmirsən, göz yum hər şeyə.
Əlacın odur ki,
Gördüklərini
Vurasan həmişə görməməzliyə,

Bu da nöqsanıdır Qorqud Dədənin,
Dördcə naxışında yanıldı nəqqaş.
Oğulu anadan ayıran gəlin,
«Gəlin» yox,
        «Ayıran» çağrılaydı kaş!

Oğul arvadına haqq verdi yüz yol,
Ananın könlündə düyünləndi daş.
Bir deyən olmadı, ay dönük oğul,
Axı, üz var idi, saqqal çıxmamış.

Ümidlər, arzular gördü talanmış,
Ayıran dırnağı ətdən ayırdı.
Bir deyən olmadı, a canıyanmış,
Axı diş yox ikən dodaq ki vardı.

Gördü ki, bu oğul, o oğul deyil,
Gördü ki, umubmuş zərərdən xeyir.
Belin ağrısını, gördü, bel deyil,
Kəmər inildəyib çəkmək istəyir.

Ürək ağrılarla dolub daşanda
İnsan başdan-başa gileyləşərmiş.
Yad qızı ocağa doğmalaşanda,
Doğmalar get-gedə ögeyləşərmiş.

Ana öz işini tamam bitirdi.
Bitirdi...
        Hər şeyi, demək, itirdi.
Bu dünya belədir,
Baxmır fəryada.
                Vaxt çatdı.

Köçünü çək yavaş-yavaş.
Vəzifən bitdimi sənin dünyada,
Özünü bitmiş bil, özünü, qardaş!

Bu dünya belədir,
                    Götürə bilmir
Saxta bir bəzəyi, saxta bir süsü.
Nəfs artıq tikəni ötürə bilmir
Gərəklik – insanın dəyər ölçüsü!

Gərək bilirlərsə dünyada səni,
Böyründə, başında dost görəcəksən.
Elə ki, itirdin gərəkliyini,
Dünyada hər şeyi itirəcəksən.

Yerləri astaca dəyişir zaman,
Baxmır nə fəryada, nə göz yaşına.
Dünənki məqamı əlindən çıxan
Dünəni bu günün qaxır başına:

–Səni bu dünyaya mən gətirmişəm,
Sənə döşlərimdən mən süd vermişəm.
Gecələr yatmadım yatasan deyə,
Böyüdüb çatdırdım səni ərsəyə.

Mən sənin həm atan, həm anan oldum,
Axırda beləcə aldanan oldum.
Ananı özünə yad tutdun, oğul,
Borcunu nə yaman unutdun, oğul?

– Adicə bir işdir bala yetirmək
Ananın analıq təbiətinə.

Məlum gerçəkləri dilə gətirmək
Yaraşmır, ay ana, ləyaqətinə.

Əmanət kassası deyil uşaqlar,
Xərcindən kəsərək qazanc görəsən.
Artıq gəlirini orda saxlayıb,
Sonra faiziylə ömür sürəsən.

Uşaq tək baxırıq oğula, qıza,
Bilmirik böyüyür ilbəil övlad.
Rahat yaşamaqçün
                    sabahımıza
Dünən verdiyimiz borc deyil övlad.

Yanında böyüyür...
            Ancaq yaxşı bil,
Oğul da yar üçün, qız da yar üçün.
Övladlar, övladlar! Bizimçün deyil,
Biz onlar üçünük, biz onlar üçün!

Övlad sevgimizdən göyərən nübar,
Təzədən yaradır övladlar bizi.
Odur ki borcunu deyil,
                    qoy onlar
Bizə qaytarsınlar öz sevgimizi.

Ay ana, asandır borcu qaytarmaq,
Sevgini qaytarmaq çətindir, çətin!
Övladlıq borcunu ödəmək ancaq,
Əvəzi deyildir hələ sevginin.
Övlada borcunu yada salanda,
Ana sevgisini umur oğuldan.

Məhəbbət!
Məhəbbət unudulanda,
Borcunu istəyir borcludan insan.

**2**

Yığılıb məclisə dostlar, tanışlar,
Oğul ad gününü keçirir bu gün.
Sağlıqlar baş alır:
– Bir arzumuz var:
Daim çiçək açsın qoy sənin ömrün.
Qapının dalında dayanıb ana,
Məclisi dinləyir:
                  – Sənin zəkana,
Sənin hünərinə biz ki məftunuq.
Ana fərəhlənir...
                  Ancaq neyləsin,
İçəri girməyə ixtiyarı yox.

–Bu gözəl dünyaya səni bəxş edən
Anaya afərin, anaya əhsən!
Necə fərəhlənir, sevinir ana,
Qapının dalından baxır oğluna.
Belə də dərd olar?
                  Oğul doğasan,
Onun şad gününə gendən baxasan?
Dözmədi...
                  İstədi keçib içəri,
Qışqıra, deyə ki, bayaqdan bəri
Əhsən dediyiniz ana mənəm, mən,
Mənəm onu doğub özgəyə verən.
Saxladı özünü, azca qımışdı.

Səhərki söhbət
Yadına düşdü,
Gəlin demişdi:
- Cavanlar gələcək, cavanlar ancaq.
Bugünkü məclisin sənə dəxli yox.
- Hə, başa düşürəm.

Nə desin ana,
Anladı, balanın doğum gününün
Bir dəxli yox imiş oğul doğana...
Olmadı, olmadı bir deyən ona:

– Bəs doğum günündə şadlıq etdiyin
Oğulu kim doğub, ay nankor gəlin?
– Bu gözəl ölkəyə səni bəxş edən
Anaya afərin, anaya əhsən!
Dilxor oldusa da sağlıqdan yana,
Gəlin susdu...
Bu yerdə o, dinə bilməz.
Şəninə təriflər söylənən ana
Qapı dalındadır,
bilmədi bir kəs.

–Bu sağlıq üstündə indi gərək sən,
«Ana» mahnısını çalasan bizə.
Övladın analıq məhəbbətindən
Qoy atəş çilənsin ürəyimizə.

Oğul bir inamla qalxdı ayağa,
Divardan tarını aldı ürəklə.
Ana ürəyini duya bilməyən
«Ana» mahnısını çaldı ürəklə.

Bəs niyə kövrəldin, gəlin, ay gəlin,
Öz mərhum ananmı durdu gözündə?
Bəs ana qəlbinə niyə dağ çəkdin?
Axı bir anasan sabah özün də.

Boylusan... Zaman da yaman dövr edir,
Sən nə ilk anasan, nə də son ana.
Bəs ana deyilmi, özün söylə bir,
O qapı dalında qoyduğun ana?

Sən də bir anasan, gəlin, ay gəlin,
İndini sabaha girov vermisən.
Əgər qaynanana elədiklərin
Gəlsə öz başına, götürərmisən?

Nə tez doğmalaşdın sən yad oğluna?
Ana öz oğlunun çiyninə yükmüş.
Sən demə, ananın haqqı yox ona,
Amma yad qızının haqqı böyükmüş,
O da haqq, bu da haqq!
Haqsızlığa bax!

Dəyişir yerini necə də haqlar.
Dövran dolandıqca, dünənki qonaq
Bu gün sahib olub, səni ayaqlar.

Balanın ad günü yazıq ananın
Şad günü olmadı, dad günü oldu.
Başında turp əkdi o, qaynananın,
O, gəlin olmadı, o, günü oldu.
Gəlin nə dedisə ər qulaq asdı,
Gəlin qaynananı bucağa basdı.

Göydən ulduz tökdü amansız gəlin,
Zərbini göstərdi,
                    Qələbə çaldı.
Üççə ay keçməmiş bu qansız gəlin
Evdə hakimliyi əlinə aldı.

Ana danışmadı,
                    kiridi, susdu.
Axı çoxlarını qınamışdı o.
İndi öz başına gəldi...
                              İşə bax!
Bircə şey düşünür, bircə şey ancaq:
«Hər şeyə dözərəm, təki tək balam,
Qəlbi qırıq balam, o kövrək balam
Fikir eləməsin, heç darıxmasın.
Bir də... evin sirri çölə çıxmasın...»

Ana başa düşdü: Bu haya, küyə
Dözməz.
          Oğluna da o qıya bilməz.
Yox, yox! Bundan sonra dözüb hər şeyə,
Gəlinlə bir evdə yaşaya bilməz!

Atdı anasını ikinci oğul
Anası bir kəlmə dedi, çox sağ ol,
Boğdu içindəki üsyan səsini.
Dedi, neyləməli, beləymiş qədər.
Yığdı boğçasını, düyünçəsini,
Qocalar evinə köçdü bir səhər.

*III fəsil*

## QOCALAR EVI

### 1

Əyləşir qocalar ikibir, üçbir.
Qocalar evinin dəhlizlərində.
Ömür kitabları sətirbəsətir
Oxunur onların bənizlərində.

Nədənsə danışır solğun baxışlar,
Orda təəssüf də, təəccüb də var.
Hansı əzabların şırımlarıdır
Üzlərdə açılan dərin qırışlar?

Bir ömrün zirvəsi...
Tərəzi,
Çəki.
Azmıdır, çoxmudur xeyri şərindən.
Həyatın qayğısı, həyatın yükü
Artıq götrülüb çiyinlərindən.

Yoxdur bu dünyadan qəsdi, qərəzi,
Xoşbəxtmi, bədbəxtmi bu halında o?
Qurulur içində mizan-tərəzi,
Görən, nəyi çəkir xəyalında o?

Tərəzi gözləri... tutuşdu, endi,
O, ürək açmağa sirdaş axtarır.
Verib cəmiyyətə borcunu...
İndi
Haqqını çəkməyə bir daş axtarır.

Borcunu namusla verən kəslərin
Haqqını mümkünmü daş ilə çəkmək?
Yox! O ağırlıqda daş hanı? Yəqin
O haqqı borcunla çəkəsən gərək.

Gənclik arzuların uçuş nöqtəsi,
Qocalıq qonduğun sonuncu məskən.
Sənə pıçıldayır ömrün zirvəsi,
Düşün, nəyi nəyə qurban vermisən?

İndi qazancın nə, uduzduğun nə?
Görürsən axırda hamısı biridir.
İstər ağlayana, istər gülənə
Onsuz da bu dünya həmişə sirdir.

Kim aça bilibdir bu sirri, de, kim?
Çoxu qora ikən mövüc olubdur...
«Dünya mənimkidir» söyləyən hakim
Dünyanın əlində mürmüc olubdur.

Bizə təbiətin verdiklərini
Zaman alır...
                    Bizə qocalıq qalır.
Hər gələn gedənin tutur yerini,
Zaman təbiətdən intiqam alır.
Sönüb ocaqları, sönüb odları,
Dərin düşüncələr baş alıb gedir.
Həyat yox,
                    Arzu yox,
                               İndi onları
Düşüncə tərpədir, fikir tərpədir.
Yata da bilmirlər...
                    Sübhədək oyaq.

Oyulur döşəkcə, oyulur balış.
Adamlar bir yana,
Sən bir işə bax,
Qocadan yuxu da bezar olarmış.

Çiynindən düşdümü həyatın yükü,
Həyatın ləzzəti bitdi büsbütün.
Arzular eşqinə yox, bunu bil ki,
İndi yaşayırsan yaşamaq üçün.
Ölüncə bu yükdən həzər eyləmə!
Gileylənmə, gəl.
Çək onu ürəklə!
Həyat, sən demə,
Həyatın yükünü çəkərkən gözəl!

**2**

Qocalar evində səliqə, sahman...
Otaqda hər kəsin öz guşəsi var.
Masanın üstündə gözlük, qələmdan,
Qəzetlər, jurnallar, cild-cild kitablar.
Dolabın üstündə kibrit və siqar,
Cürbəcür nüsxəli həblər, dərmanlar.
Balaca otağın baş divarından
Cavanlıq şəklini asıb hər biri.
Güzgüdə özünü gördümü? Bir an,
Şəkilə zillənir tez nəzərləri.
Bu gün, dünən ilə durur yan-yana,
Dayanıb arada uçurum – illər.
Xəyalın xatirə qanadlarına
Sığınıb,
Dünənə uçur könüllər.

Gah ona,
Gah buna dönür baxışlar,
Təəssüf bu günə, alqış dünənə!
Güzgüyə baxanda əyilən başlar,
Şəkilə baxanda diklənir yenə.
Bu günü qocalıq, sabahı torpaq,
Dünənlə yaşayır, dünənlə ancaq!

Üç oğul atası çilingər əmi
Qocalar evinə yenicə köçmüş.
Dünyanın kədəri, dünyanın qəmi,
Elə bil çiynindən qəlbinə çökmüş.

Qocalar evinin qaydalarına
Nə qədər çalışır uyuşa bilmir.
Yaman ağır gəlir atılmaq ona,
Pəncərə önündən bir an çəkilmir.

O, hər gün gözləyir, «yox, ola bilməz,
Atalar, analar atıla bilməz».
Çırpınır ürəyi bu dar qəfəsdə,
Gözləri bayırda, qulağı səsdə.

Beləcə günləri o yola saldı,
Kişinin gözləri yollarda qaldı.
«Demək haqq da məndə, günah da məndə...
Onların bir sözü yalan olmadı.
Ya haqlı, ya haqsız, mən inciyəndə,
Bir dəfə könlümü alan olmadı,
Qolunu boynuma salan olmadı.
Təkliyin qəmini tək özüm yedim,
Əhvalım, ovqatım heç sorulmadı.

Neçə yol hirslənib «gedirəm» - dedim,
Bir yol qabağımı kəsən olmadı.

Qalmayıb amanım, qalmayıb heyim,
Könül xanımanım nə tez uçuldu.
Öz isti yuvamdan köçüb gəlməyim,
Sən demə, onların könlündən oldu...»
Bir gün zəng də çaldı evə çilingər,
Nəvəsi götürdü dəstəyi...
– Bəli!
Bilmədi nə desin?
                                Yaşardı gözlər.
Titrədi dodağı,
                                Titrədi dili...
Nəvəsi qışqırdı, cavab versənə!
Avaranın biri. Susdu o yenə.
Amma tel-tel oldu qəlbi bu səsdən,
Dedi, o düz deyir, avarayam mən.
Dəstəyi asınca ürəyindəki
Yaralar qövr etdi...
                    Doğulan təki
Qoca, nəvəsinə adını verdi.
Nəvə babasına çox bənzəyirdi.

Düşündü: «Eybi yox, dolanıb dövran,
Yerbəyer eyləyər tez-gec hamını.
Alar mənim nəvəm öz atasından
Bir gün babasının intiqamını».
Qızıl çərçivədə köhnə bir şəkil:
Rəqs edir ucaboy, gözəl bir oğlan.
– O kimdir?
– Yaxşı bax.
– Gözüm kor deyil.

Tanıya bilmirəm.
Hirsləndi rəqqas:
–Məni tanımırsan?
Gözlüyünü tax,
Bir də yaxşı bax.
–Səni tanıyıram, onu yox ancaq.
–Hə... bunu düz dedin, nə qaldı bizdən?
Çoxdan ayrılmışıq öz-özümüzdən.
Buro-buro deyən günlərim vardı.

Mən idim bəzəyi toy-düyünlərin.
Qızlar da həsrətlə mənə baxardı,
Eh, keçən günlərim, keçən günlərim,
Deyib qoca rəqqas ah çəkdi...
Yenə,
Oğrun baxışlarla baxdı şəklinə.
Qaydadır həsrətlə baxar həmişə
Cavan gələcəyə, qoca keçmişə.

Cavanın sərvəti hələ öndədir,
Qocanın nəyi var keçmişindədir.
O: – Keçən günlərə gün çatmaz – deyə
Siqar tüstüsünü çəkdi sinəyə.
–Ə... fikir verirəm bayaqdan sənə,
Çəkirsən dalbadal, çəkirsən yenə.
Tərgidə bilmirsən, azalt bir qədər,
Canına yazığın gəlməyir məgər?
–Nə can? Gün axşamdır, ölümdən danış,
Artıq nə can qalmış, nə ömür qalmış.

–Deyirsən, tirlənib uzanaq indi?
Ömrün qalan payı daha şirindi.
Sən o zəhrimarı bir qədər az çək,

Gör nə günə salıb səni öskürək?
Çöldən tapmamısan, axı bu canı,
Onun əvəzinə iç o dərmanı.
– Hansını deyirsən? O sarı tozu?
Özünü aldadıb yaşamaq yetər.

Dibindən quruyan ağacıq... Bizi,
Nə gübrə göyərdər, nə su göyərdər.
– Sus, elə danışma, qorxuram.
–Nədən?
– Yox, hələ yaşamaq istəyirəm mən.
– Bəs mən istəmirəm?
– Ömür çox gödək!
– Gec, ya tez, yaranan bir gün gedəcək.
– İnsan iki dəfə yaşayaydı kaş!
Yaman üşüyürəm...
–Mən də, a qardaş!
Neçə dərəcədir istilik görən?
Hava çox güman ki, soyuyub yenə,
Bir o dərəcəyə göz yetirsənə.
Gözlüyü tax.
–Kişi, görür gözümüz.
Gözlüyü gözümə sən dürtmə tez-tez.
O qalxdı,
boylandı termometrə,
Çırpdı dizlərinə o, birdən-birə:
–Sən öl, bir işə bax, iyirmi səkkiz!
–A kişi, bəs niyə üşüyürük biz?
–Hava nə istiymiş, xəbərimiz yox.
–Çölümüz istidir, içimiz soyuq.
İndi sən gördünmü haqlıyam, lələ,
Davadan, dərmandan kar aşmaz bizə.
Boş-boş ümidlərlə, təsəllilərlə

Özünü aldatmaq yaraşmaz bizə.

–Bircə yay gələydi...
–Nəyinə gərək?
Dinmədi, kiridi.
–Susma, de görək.
–Qəlbim nəyi isə gözləyir müdam
Ancaq gözləyəndə yaşayır adam.
–Bizimçin yaz ilə qışın nə fərqi
Yüz ilə, on ilə beşin nə fərqi.
Ölüm kandarında dayanmışıq biz
İndi bu dünyada gözlədiyimiz
Yalnız bircə şey var: Ölüm!
–De, kiri!
Məlum həqiqəti möcüzə kimi
Dürtmə gözümüzə, bilirik bunu,
Bilirik dünyanın puç olduğunu.
- Kişi, indi zaman o zaman deyil
Dünyanın başına havamı gəldi?
Kökündən dəyişib hər şey elə bil
Bizim vaxtımızda belə deyildi.
İndi havanın da dəyişib qəsdi
Əvvəllər hər fəslin öz dəmi vardı.
Nə baş gicəllədən yay elə isti,
Nə də qış bu qədər soyuq olardı...
–Vallah, düz deyirsən, dəyişib hər şey
Nə yer həmən yerdir, nə göy həmən göy.
Görmürsən, uzanıb indi gecələr
Vallah, uzaq düşüb gecədən səhər.

Günəş doğanadək o yan-bu yana
Dönməkdən canım da gəlib cəzana.
Sevinci, ləzzəti bitdi dünyanın
Ən gözəl vaxtları getdi dünyanın.

–Bir sözlə, hər şeyin qalıb tək adı
Dəyişib ləzzəti, dəyişib dadı
Hanı o bulaqlar, hanı o sular?
Mən uşaq olanda qoyun-quzular
Necə mələşərdi... hanı bəs, hanı?
Qoyun da, quzu da indi ağzını
Elə açıb-yumur, mələmir niyə?
...Qulağı da ağır eşidir deyə
Elə zənn edir ki, mələmir daha
Nə qoyun, nə quzu...
–Pənah Allaha.
–Hələ adamlar da dəyişib tamam
Düzü, bu işlərə lap mat qalmışam.
Boylar da kiçilib ürəklər kimi
Əvvəlki o nəhəng adamlar hanı?
Tanıya bilmirəm köhnə dünyanı
Mənim yaşıdlarım bilmirəm nədən
Çox yaşlı görünür məndən... hə... dünən
Məktəb yoldaşımı gördüm bağçada
Yaman vayxırlayıb, qocalıb o da
Tanıdım kişini mən görən təki
O isə o qədər dəyişibdi ki,
Məni tanımadı...
Deyərək qoca
Şirin nağılına güldü doyunca.
Sonra birdən-birə o köks ötürdü
Yoxsa divardakı asma güzgüdə
Özünü gördü...

Baxdı, xeyli baxdı, bir az diksindi
Dedi, güzgülər də dəyişib indi.
O qədim, o gözəl güzgülər hanı?
Yoxsa, gözəlliyin bitdi zamanı?

**3**

Bir şəkil çıxartdı cibindən qoca.
Baxdı, xeyli baxdı, baxdı doyunca.
–Bu oğlum, bu qızım...
–Bəs bu balaca?
–Nəvəmdir, bu yeznəm, bu da...
–Hə, kimdir?
O, gəlinimdir.
–A kişi, sənin ki uşaqların var,

Sən Allah, bəs burda nə azarın var?
Dedi, özümdədir, vallah, hər günah.
Olmaq istəmədim heç kəsə möhtac.
Biz dünya görmüşük, deyirəm, Allah
Sağ gözü etməsin sol gözə möhtac.

Elə ki, rəhmətlik arvadım öldü,
Mənim bu dünyadan əlim üzüldü.
Yük ola bilmədim cavan gəlinə,
Allah da çox gördü mənə qarımı.

Bura gəlməyimdə, inan, mən yenə
Günahkar bilmirəm uşaqlarımı.
Sındırmır özünü, axı nə gərək?
Sirrini içində saxlayır qoca.
Elə ki yatağa girir,
                                        sübhədək
Yorğanın altında ağlayır qoca.

Keçirib işığı o qoca rəqqas,
Girir yatağına... yataq buz, o buz.
Dikilir otaqdan çölə baxışı,

Otaq zil qaranlıq, göy ulduz-ulduz.
Dinləyir, döyükür...
                                        Bu nədir belə?
O, inilti səsi eşidir birdən.

Boylanır yatağa o, diqqət ilə:
«Yoxsa, o ağlayır? .. Gör neylədim mən?
Deyəsən, kişinin qəlbinə dəydim...»
Ağlayır… Əvvəllər mən də beləydim…»

Gecənin yarısı... Çilingər oyaq.
Rəqqas asta-asta dillənir, deyən,
Sənin ürəyinə toxundum bayaq,
Əgər belədirsə, keç təqsirimdən,

Düzünü söylədim mən sənə ancaq.
Qardaş, aldatmayaq bir-birimizi,
Düzünü deyək ki, atıblar bizi.
Gerçəyi gizlədib, düzü danmayaq,
Övladlar utansın, biz utanmayaq.

Dövranın gərdişi belədir, belə
Bu dünya əzəldən yaman dünyadı.
Güclünü qaldırar çiyinlərinə,
Gücsüzü çiynindən atan dünyadı.

Kimini qaldırar yerdən göylərə
Kimini endirər göylərdən yerə.
Yaxşını yamana, xeyiri şərə,
Doğrunu əyriyə satan dünyadı.

Tutma bu dünyanı, tutma tək əlli,
Nagahan gülüşü yenə təsəlli.

Nə sevincı bəlli, nə qəmi bəlli,
Zəhəri şəkərə qatan dünyadı.

Bu necə anadır, düz ilqarı yox,
Kiminə sığaldır, kiminə yumruq.
Yeyə bilənlərə bir tikə quyruq,
Yeyə bilməyənə yavan dünyadı.

Uşaqla oynayar, gənclə bəhs edər,
Kim ona ağ olsa, ona qəsd edər.
Bizi əldən salar, bizi sinsidər,
Özü haman dünya, haman dünyadı,
Doğrusu, bu dünya yaman dünyadı.

**4**

–Mənim aman-zaman bir oğlum vardı,
Onu da əlimdən ölüm apardı.
Ömrün bu çağında qaldım köməksiz,
Qocalar evini quran var olsun,
Əlacsız qalmadıq bu məqamda biz.
Sən də mənim kimi övlad sarıdan
Deyəsən, məğmunsan?..
Duruxdu bir an,
Ana bilmədi ki, nə desin?..
Birdən
Dönüb dedi, mənmi?
– Hə!
– Sonsuzam mən.
«Sonsuzam!» Sözdəki dəhşətə bir bax!
Yəni, məndən sonra heç kim dünyada
Mənim çırağımı yandırmayacaq.
Sonsuzam! Meyvəsiz bir kökəm, soyam,

Əslimin, nəslimin sonuncusuyam.
Ana yalan dedi, qəlbindəkilər
Dilinə gəlmədi.
                    Yox, gələ bilməz.
Nə özü, nə oğlu, nə də gəlini
Özgələr önündə alçala bilməz.
Susdu...
          Boğazında düyüldü qəhər,
Saxladı özünü ana birtəhər.
– Bəs hara gedirsən hərdən axşamlar?
– Körpələr evinə.
– Orda kimin var?
– Ora dayaq yerim, ümid yerimdir.
Ordakı atılmış bütün körpələr
Elə bilirəm ki, nəvələrimdir.
Qoca söz demədi, bir siqar eşdi,
Mətləbi anladı, sözü dəyişdi.
Yenə danışdılar dağdan, arandan,
Hər kəs otağına keçdiyi zaman,
Qoca dedi, səndən bir xahişim var
Ora nə vaxt getsən məni də apar.
Küçənin bu tayı körpələr evi,
O tayı qocalar sığınacağı.
İnsan möhtac olur başqalarına
Bir ömrün ilk çağı, bir də son çağı.

Möhtac olan vaxtda möhtacı atmaq?
Bu, hansı kitabda yazılıb, deyin?
Vicdanı unutmaq, insafı satmaq
Bəlkə, ölçüsüdür müasirliyin?
Bəzən babaları bəyənməyirik,
Bəzən biz onlara «cahil» deyirik.

İnsafı danana aman verməmək,
Yediyi çörəyə dal çevirməmək,
Sədaqət, dəyanət, düzlük, ədalət,
Etibar, kişilik, böyüyə hörmət,
Ulu babalardan mirasdır bizə,
Gəlin, bir də baxaq keçmişimizə...

Yaşlılar ölkəsi deyilir nədən
Ana vətənimiz Azərbaycana?
Bəs bunun səbəbi nə imiş, görən?
Həkimlər hərəsi yozdu bir yana.

Min bir təcrübədə, min bir oyunda,
Alimlər məhəyə vurdu bu sirri.
Biri havasında, biri suyunda,
Biri iqlimində gördü bu sirri.

Bir deyən olmadı, nə olub sizə?
Nədir bu təcrübə, nədir bu sınaq?
Mən heyrət edirəm heyrətinizə,
İnsanın haqqıdır uzun yaşamaq!

Mənim də sözüm var, ey, dayanın siz,
Nədir bu təəccüb, nədir bu heyrət?
Düz deyil, düz deyil yozumlarınız,
İnsanı yaşadar insana hörmət!

Uzun yaşamağın sirri
yurdumun
Nə torpağındadır,
Nə də suyunda.

Kiçiyə mərhəmət, böyüyə hörmət!
Səbəbi bundadır, səbəbi bunda!
Öz yaşına görə hamıya sayğı:
«Yol böyüyün, amma su kiçiyindi...»
Böyüyə ehtiram, kiçiyə qayğı
Yoxsa, bir cəhalət sayılır indi?
İnsan qocaldımı?
                                        Başqalarından
Dönüb kömək umur dilsiz körpə tək.
Bilmirəm, alətmi, əşyamı insan,
Gərəksiz olanda atılsın gərək?

Atılmaq!
                        Kimsəyə gərək olmamaq!
Sən heç bilirsənmi bu nə deməkdir?
İnsanlıq adından danışıb, ancaq
İnsanlıq adını ləkələməkdir.

Atalar, analar övladlarına
Ömürdən pay verir, candan pay verir.
Yandırır özünü baladan yana,
Tutub əlimizdən yol da göstərir.
Elə ki, qocaldı, əl açır bizə,
Güvənir, sığınır köməyimizə.
Danır insan oğlu ötən illəri
Baxınca bu günün öz zirvəsindən.
Bir vaxt əlimizdən tutan əlləri
Bizə açılanda kəsirik bəzən...

Azdır beləlləri yaxşı ki, bizdə
Ancaq qorxuludur olsa da tək-tək.

Heç vaxt görünməyib ənənəmizdə
Böyüyün, kiçiyin haqqını kəsmək!
Həmişə öyrədib, öyrədir zaman:
Kökdən gəlməyəni yox etmək asan.

*IV fəsil*

## KÖRPƏLƏR EVİ

### 1

Atdı anasını ikinci oğul,
Anası bir kəlmə dedi: «Çox sağ ol!»
Nə desin taleyin sərəncamına.
Qocalar evinə sığındı ana.

O gedir bazara hər bazar günü,
Gah gül-çiçək alır, gah da oyuncaq.
Körpələr evinə atır özünü,
Gözləyir yolunu orda bir uşaq.

Körpələr evində hamı bir yana,
Çilli bir uşağa meylini salmış.
Onu görən kimi basmış bağrına,
Demiş, sən atılmış, mən də atılmış.

O gündən bəri,
                    Bazar günləri,
Körpələr evində bir canlanma var,
Nənəni gözləyir bütün uşaqlar.
O çilli körpə,

Ürəyi sevgidən nisgilli körpə
O gündən bəri,
Gözləyir nənəni bazar günləri.
Körpələr evində bir toy-büsat var,
Uşaqlar sevinir, əylənir yenə.
Ürəyi nisgilli körpə balalar
Toplaşıb ananın yan-yörəsinə.
Dünyaya gələli onlar dünyadan
Yamanlıq görüblər, bəli, yamanlıq.
Yetimlər hər kəsdən yalnız hər zaman
Bir xoş baxış umar, bir mehribanlıq.
Hamıdan çəkinər, hamıdan hürkər,
Sınıq ürəkləri şuşədən kövrək.
Nə dəcəllik bilər, nə şıltaq bilər,
Onların baxışı inamsız, ürkək.
Onlar nə xoş sifət,
nə sığal görər.
Baxımsız bağlardan,
de, bağ olarmı?

Körpə şıltaq edər, ana götürər,
Anasız körpələr şıltaq olarmı?
Onlar dayələrdən məhəbbət umar,
Buna nə hövsələ, nə də macal var.
Atanın, ananın xətrinə ancaq
Tanış da, biliş də körpəni oxşar.

Onun etdiyini yad edə bilməz,
Dayənin xoş sözü, nəvazişi də
Körpə ürəkləri isidə bilməz.
Ana sevgisinə varmı bir əvəz?
Ana sevgisinə körpə həsrəti
Kim deyir ən böyük bir həsrət deyil!

Dayənin sığalı, adi hörməti
Vəzifə borcudur, məhəbbət deyil.

Uşaq ürəyini aldatmaq olmaz.
Yanılır o qəlbə qıyıb hökm edən.
Seçir,
          körpə qəlbi həssasdır, həssas,
Əsl məhəbbəti saxta sevgidən.
Uşaq böyüdükcə
                    dərdi-səri də
Böyüyür özüylə birgə ilbəil.
Dayənin uşaqdan tələbləri də
Ancaq tərbiyədir, məhəbbət deyil.

Dəcəl körpələrin nazı, şıltağı
Dayənin gözündə qüsurdur, əlbət.
Ana məzəmməti, ata danlağı
Ancaq məhəbbətdir, ancaq məhəbbət!

Yaman kövrək olur, yamanca həssas
Yetim ürəklərin eşqi, fitrəti.
Bir ana qucağı, bir isti nəfəs
Onların ən böyük könül həsrəti!

Ürəyi həsrətlə şişib dolsa da,
Nə cürəti olar, nə cəsarəti.
Belədir...
                    Adları uşaq olsa da,
Uşaqlıq onların deyil qisməti.

Durarlar uzaqda, baxarlar gendən,
Gözlər intizarlı, baxışlar dərin.
Onların üzünə qəm kölgəsindən
Basılıb möhürü kimsəsizliyin.

Uşaq ürəyini aldatmaq olmaz,
Yanılır o, qəlbə qıyıb hökm edən.
Seçir,
uşaq qəlbi o qədər həssas,
Əsl məhəbbəti saxta sevgidən.
Məhəbbət! Həmişə möhtacıq ona,
Onsuz nə dərk edər, nə duyar insan.
Məhəbbət bəslərmi başqalarına
Məhəbbət görməyən başqalarından?

Əgər qəlbimizdə məhəbbət yoxsa,
Onu balalardan almaq çox çətin!
Onlardan məhəbbət umacağıqsa,
Amandır, onlara məhəbbət verin!

Körpələr evinə gəlir arabir
Uşaq götürməyə sonsuz qadınlar.
Elə ki körpələr bunu hiss edir,
Gəl, gör, otaqlarda nə çaxnaşma var.
Çiçi paltarını geyinir o gün,
Hələ güzgüyə də baxır uşaqlar.
Bəzənir, düzənir...
Bəyənilməkçün
Görün nə oyundan çıxır uşaqlar.

Yanaşır qadına...
Baxır üzünə.
Baxışda yalvarış, baxışda üsyan.
Baxır matdım-matdım,
O, dönə-dönə,
Baxışlar qışqırır: «Mən sənin balan!»

Ağır... Bu mənzərə nə qədər ağır!
Ürəklər çırpınır...
Gözlər intizar.

Burda özlərinə ana axtarır
Ana qucağına həsrət balalar.

Qırılır ümidi, tutulur yenə,
Bir küncə qısılır bəyənilməyən.
Baş vur o ürəyin dərinliyinə,
İtərsən, batarsan o ürəkdə sən.

**2**

Körpələr evində bir toy-büsat var,
Uşaqlar sevinir, əylənir yenə.
Ürəyi nisgilli körpə balalar
Toplaşıb qarının yan-yörəsinə,
Uşaqlar oynayır, atılıb-düşür,
Qarının qəlbində güllər öpüşür.
O, çilli körpəni basır bağrına,
«Cırtdan» nağılını danışır ona:
–Kim yatıb, kim oyaq?
Dillənir uşaq:
–Hamı çoxdan yatıb, tək Cırtdan oyaq.
Cırtdanın anası yoxmu, ay nənə?
Onun da anası...
–Nə deyim sənə?
Bilirsən, ay bala, Cırtdan...
–Hə, Cırtdan...
–İgiddir yaman.
O divi...
–Öldürər... Qorxmur heç nədən.
Böyüyüb Cırtdanla dost olacam mən.
–Yaxşı, mənim balam...
Keçdi bir qədər
Onlar çox danışıb, çox gülüşdülər.
Əvvəlki mətləbə qayıtdı yenə:

–Hə, bəs... sənin anan, yoxmu, ay nənə?
–Mən özüm anayam.
O, döndü birdən
Bələkli kuklanı götürdü yerdən.
Qışqırdı: – Bunun da anası mənəm.
Heç kəsə, heç kəsə bunu verməcəm!
–Di, yaxşı, qoy olsun o, sənin balan.
Axı kimdir onu əlindən alan?
–Bəs sənin evin var?
Nə desin ana?
–Var!
–Məni evinə sən aparsana.
Niyə aparmırsan?..
Hə, dillənsənə.
Ana danışmadı. Susdu.
–Ay nənə.
Yaşardıq bir yerdə biz nənə-bala.
Anaya oxşayan gözəl bir xala
Apardı özüylə dünən Adili.
Titrədi ananın dodağı, dili.
–Adil anasını tapdı... ay nənə...
Bəs mənim...
Ardını demədi.
Yenə
Susdular...
Baxışlar danışdı lal-kar,
Onlar birdən-birə qucaqlaşdılar.
Söhbətə bu yerdə xitam vuruldu.
Artıq nə danışım, artıq nə deyim,
Gizli duyğularla boşaldı, doldu
Anadan yetimlə, baladan yetim.
Ana heç bilmir ki, nə duyğudur bu?
Niyə bu duyğunun əsiri oldu?
Yenə də qəlbində sonsuz diləklər,

Niyə bu duyğuya o səcdə qılmış?
Tapar bir-birini sınıq ürəklər,
Tapar bir-birini iki atılmış.
Atılmış!
Atılmış, həqiqətdi bu
Birinin əvvəli, birinin sonu.

Adını təmizə çıxarmaq üçün
Körpəsini atan o bədbəxt gəlin,
İçində göynəyib daim hönkürən
Analıq hissini axır kiritdi...
Keçdi bir qədər,
Gözəl bir insana o ərə getdi...
Sandı ki, körpədə itirdiyini
Ərində tapacaq...
Olmadı ancaq!..
Olmadı... Asıldı öz diləyindən.
İkinci körpəni gözlədi müdam...
Demə, öz ilkini atdığı gündən
Onun analığı olubmuş tamam.
Davalar, dərmanlar kara gəlmədi,
Analıq istədi, ala bilmədi.

Küçədə, bayırda o, neçə-neçə
Qucağı körpəli ana görüncə
Qısqandı... Həsrətlə süzdü qadını
Tək özü dinlədi öz fəryadını...
İtkin körpəsinin doğum günündə
O, qara geyindi, o yas saxladı.
Amma bir gümana ümid bağladı.
Atdığı körpəni o, tapmaq üçün
Uşaq evlərinə baş vurdu hər gün
–Bəlkə, o burdadır... xəbərsizəm mən...
Əgər burdadırsa, hansıdır görən?

Bəlkə, bu?.. Oxşamır... Amma, bax, bunun
Yamanca oxşayır mənə göz-qaşı...
Yox, bu, balacadır... Onunsa bu gün
Axı tamam olur düz yeddi yaşı...
Baxır o, sağına, soluna baxır,
Doğma balasını tanımır ancaq.
O, hardan biləydi öz övladıdır,
Böyründə dayanmış bu çil-çil uşaq.

## SON SÖZ

Məhkəmə qurulsun!
Atılmışların
Uzaq, gözdən uzaq sığınacağında.
Vicdanlar əyləşsin o gün hakimin
Biri sol yanında, biri sağında.

Məhkəmə qurulsun, hökm verilsin,
Hər kəs haqqını yox, borcunu bilsin!
Balasını atan analar ilə
Anasını atan balalar gəlsin.
Atsın gülləsini öz cəbhəsindən
Özünü haqq bilən dillər birbəbir.
Amma bu atəşin qorxma səsindən,
Hədəfi yenə də öz cəbhəsidir.

Həyat sınağından çıxan «zirəklər»
Haqqını istəsin, borcunu dansın.
Balaya, anaya qıyan ürəklər,
Məhkəmə önündə niyə utansın?
Xəcalət! Utanmaq! Namusun, arın
İlkin meyvəsidir...

Umma sən ondan!
Vicdan hakimini aldadanların
Qorxusu olarmı haqq divanından?

Məcəllə hökmüylə xatırlanan borc
Yaxşıdır min dəfə ödənilməsə.
Verilən cəzanın kimə nə xeyri,
Günahkar özündə günah bilməsə?

Zorla borc ödətmək?
De, kimə gərək?
Deyirəm hökm də həzin nəğmə tək
Könüldən-könülə axsın, duyulsun!
Məhkumun üzünə oxunan hökmün
Məqsədi qanmazı qandırmaq olsun!

Qanmaqda cəza da, ədalət də var.
Qansın!
Borcundan da bir boy ucalsın!
Sevgiyə, qayğıya möhtac olanlar
Ancaq sevgiylə də haqqını alsın!

*1976-1978*

## KITABIN IÇINDƏKILƏR

Min ilin min oyunu */B.Vahavzadə şeirlərini oxuyarkən düşündüklərim/* (Ramazan Qafarlı)__________3

## ƏLVAN ÇIÇƏKLƏR

İnam__________23
Cızıq__________24
Elə bir fikir ki...__________26
Təlatüm__________28
Leylaya__________30
«Gecənin yarısı...»__________31
Tarixçilərə__________32
Mən kompasam__________35
Səhənd qardaşımıza__________36
Vüsalda hicran__________38
Yol-dağ__________41
Azərbaycan__________43
«İçimdə fırtına var...»__________45
Ay-ulduzlar__________46
Axtarışlarım__________47
«Halqa-halqa burulur başların üzərində»__________48
Qatarlarda gecələr__________50
Şəki__________52
Nənəm-müəllimim__________54
Piyada sərnişin__________59
Heyrət__________61
Səhvlərim, səhvlərim!__________64
Əli Kərimə__________67
Yazığım gəlir__________68

Heç olmasa ____ 70
İmkan – arzu ____ 71
Feil ____ 72
Gəl, ana təbiət ____ 73
«Başım ağrıyır…» ____ 78
İlk andım-Vətənimdir ____ 79
Qoruq ____ 80
Sevdim, bildim ki… ____ 83
Usta Niyazi ____ 85
Özüdür ____ 87
Aşıq Şəmşirə ____ 88
Düşüncə ____ 89
Kaş ____ 90
«O dedi, yel əsir boş ürəyimdə» ____ 91
Yaşdan gileyliyəm ____ 92
Ata yurdu ____ 94
Bağçamdan axan su ____ 95
İntizar ____ 97
Babamın koması ____ 98
Getməz söz yarası ____ 101
Qırqovula güllə atanlara ____ 103
Bir suala cavab ____ 104
Gələn əsrlə görüş ____ 105
Göynərti ____ 107
Doğum evi ____ 111
Ana və balalar ____ 112
Ehtiyat ____ 113
Qəribədir ____ 115
İnad ____ 116
Vuruş ____ 117
Gecələr ____ 118
Şəhid məzarları ____ 119

Tələbələrimə 121
«Mən insanam...» 125
O nədir? 126
İçəri bax 129
Düşüncə – söz 131
Şeirini oxudum 132
Mənim xalam 134
Hara qaçırsan? 137
Özgə hərarəti 140
Məhək daşı 141
«Duyduqlarımın nuru...» 142
Hörmət üçün? 143
Gerçək ölümlə 144
Arifin vaxtsız ölümünə 146
İyirmi beş il 148
Alqış 152
Qayə 153
Qəlbimizdə dan işığı 154
«Oda da, suya da...» 155
Yol – ürək 156
Özüm üçün yaşayandaq 157
Mən kiçik bir ürəyəm 158
Danışır Bakı 161
Salam, Nəsimi 162
Özünə qəsd 164
«Məktəbim – sükutdur...» 165
Ana yurdum 166
Sükutu yaza bilən… 167
«Ömür yolum – içimdəki vuruşlarım» 168
Örtmə pəncərəni... 169
«Şirincə-şirincə...» 170

Bəlkə... 171
Qızım Gülzara 172
Fikir axtarışı 174
Qarabağ atı 177
Qaranlıq 182
Mələz at 183
Giley 185
El-gün 186
Yaşamaq üçün 187
«Bizi insan kimi…» 188
«Mən dünyanın bir parçası» 189
Mənəvi dağlar 190
Buludlar-xatirələr 191
Nənələr 193
Qurbanlıq quzu 194
Sülh mükafatı 197
Neytorn bombası 199
Külək-ot 203
Şan – Yan deyir... 206
«Bulud əllərini açır çöllərə» 208
Su 209
Səhər 210
Çay 211
Birlik 212
Oxşarlıq 215
Təzəlik 217
Axtarma 220
Satqınlıq 221
Bəli, əsəbiyəm 224
Nida-sual 226
Mən öləndən sonra… 227

Cehiz 229
Qara zurna 233
Bəs bu necə gülüşdü? 235
Dözüm 237
«Bərəyə çatmamış yolu itirdin» 238
Narahat olanda... 239
Tapmacalar 240
«Yarpaqların ağacdakı nəğməsi» 243
«Yaman sıxır gecə məni... 244
«Kök gözə görünmür» 246
Pauzalar 247
Gecələr könlümə ulduzlar yağır 248
«Xəyalın qucağı…» 249
Biri varmış, biri yoxmuş... 250
Sən hardan biləsən? 252
«Sevirəm havanın tutulmağını» 254
Başqa cür yaşamaq! 255
Ekran qaralanda… 256
Yaxşı söz 258
Öz-özümə 260
Uşaq təbəssümü 261
Tutuquşu 263
«Gah olur...» 265
Tarixin qanunu 266
Gözəl sözlər 269

## İNSAN VƏ ZAMAN

Neytral zona 273
Dayan, insan! 274
Arzu böyük, ağıl gücsüz… 275

«Hamı vaxtı pusa-pusa» 276
Möcüzə 278
Uzaqdan… 282
«Cavanlıqda …» 284
Eksponat adam 285
Həqiqət 288
Fikir 291
Babam, atam, mən 293
Dünyaya gəlmişik 295
Ölümə gedəndə 296
Dərdə bax!… 299
Əsgər-şair 303
Tərk-silah 305
Dan yeri 307
Kölgələr 311
Şairləri öldürürlər 312
Yaşıdlarım 315
Zaman keçir 321
Qara qutu 323
50 yaşım 326
Qocalar 329
Gündəlik 332
Vaxtında 334
Tramvay 336
Gün var, min aya dəyər... 337
Kiçikmi, böyükmü? 340
«Gələn gedir ya tez, ya gec» 341
Solur bağçalar 342
Yaxşı ki... 343
«Gəl, enək tərkinə bilməcələrin» 344
Ay gidi dünya 345

Təskinlik 346
Tilsimli alma 349
Ağacdan atım 351
Bir gəminin yolçusuyuq 352

## HƏSRƏT NƏĞMƏLƏRI

Mən-ürək oğrusu 355
Yaxşı 357
Körpülər 359
Sənin nəğmən 360
Nədir? 361
«Bu gün dünənimə yad olmuşam mən» 362
«Nağıl istəyirəm..» 363
Nöqtələr 364
Ancaq 366
«De, necə ayrılaq biz gülə-gülə?» 367
Bəm-zil 368
Nağıl gecəm 370
«Sevdiyin gözəlin...» 372
«Nə mən istəyimi bilirəm, nə sən» 373
Darıxma, ha 375
Kilid 378
Məndən o tayda 379
Mən səndən qaçıram... 381
«Dedin qocalıram...» 383
«Mənə «bəxtim» dedin...» 384
«Ey könül, yaxşını yamandan ayır» 385
«Göylər yeddi qatdır…» 386
«Necə minnətdaram...» 388
Sevgi gileyi 389
Unuda bilsən… 390

«Mən səni yaratdım...»________________________________391
«Ağaca su verdim...»__________________________________392
Çoxdur yaşımdan da...__________________________________393
Yaman darıxmışam_____________________________________394
Yol işarəsi__________________________________________396
İnanır insan________________________________________397
«Bir bağlıca dəfinəydim»_______________________________398
Yuxular, yuxular…_____________________________________399
Özün yanmalısan… _____________________________________401
Səni andıqca…_________________________________________402
Yarıyuxulu___________________________________________403
Bulaq başında susuzluq_________________________________404
Əl unutmur___________________________________________405
«Gizli saxlamışdım...»_________________________________406
Yaxşı ki, dünyada...___________________________________407
Ağ tük______________________________________________408
«Deyirəm, bəlkə də...»_________________________________410
Səadət deyil?_________________________________________411
«Gecə serenadası»_____________________________________412
Havası – sözü_________________________________________413
«Gah asta yeridik…»____________________________________414
«Sən çoxsan...»________________________________________415
«Hirsləndin...»________________________________________416
Yuxular____________________________________________417
«Yağış tək yağmağa...»_________________________________418
Bir payız gecəsi_______________________________________419
«Nə zaman istəsəm...»__________________________________421
Odum, közüm, gəl…____________________________________422
«Yuxuma gəlmişdin…»_________________________________423
«Gündə zəng çaldım sənə»_______________________________424
Sayğac_____________________________________________426

Çiçəklərin baxışında 427
Təzələ sevgimi 328

## QƏZƏLLƏR, QOŞMALAR, GƏRAYLILAR

«Ağlar ürəyim...» 431
«Nur atəşə, atəş göyə...» 432
«Min kitab söz yazırıq...» 433
«Daş ürəklərdə yanıb...» 434
«Dolmuş nə qədər...» 435
«De, bilirsənmi...» 436
«Məşuqəmə ...» 437
«Özü heyrət...» 438
Dünya 439
Böl görüm 440
Dünyanın 441
«Çöllərin köksünə …» 442
«Doldur ürəyini…» 443
Eylədi 444
Qocalıq 445
Bizik 446
Gedənim, gələnim 447
İnsan göydə ay kimidir... 448
Oldu 449
Düz elədin 450

## SƏYAHƏT DƏFTƏRINDƏN

Tabut gedir 453
İki yol 455
Çörək-səadət 456
Çörək-Vətən 457

Könül qapıları 460
Portuqaliya lövhələri 462
Topqapı sarayı 469
«Qapalı çarşı» 470
Hayd park 472
Kiçik pəncərə 475
Kaman nalə çəkir.. 477
Olum, ya ölüm? 480
Sovxa medallar 482
Qürbətdə görüş 484

## NƏĞMƏLƏR

Əqrəblərin ucunda 487
Dayan, ruzgar 488
Yaşamaq eşqi 489
Mən sevirəm 490
Biz 491
Qulağım cingildəyir 492
Kəpənək 493
Durna qatarı 494
Çözəllər 495
Mən yandım, sən isindin 496
Bir arzuya dönmüşəm 497
Bir payız axşamı 498
Qızım 499
Bir baxışla 500

## UŞAQ VƏ MƏKTƏB DÜNYASI

Niyə 503
Sevinc gətirmişəm 504

Mən ki qara deyiləm 505
Niyə köks ötürdün? 506
Körpə gülüşü 507

## POEMALAR

Qiymət 510
Vətən mənəm, mən Vətənəm 526
Leninlə söhbət 536
Muğam 560
Atılmışlar 602



# BƏXTİYAR VAHABZADƏ

# ƏSƏRLƏRİ

**On iki cilddə**
**IV cild**
**(1970 - 1979)**

***«Qafqaz Turizm Redaksiyası» MMC-də hazırlanmışdır.***

*Bədii dizayneri*
**Xəyyam Əliyev**

*Texniki redaktorları*
**Ləman Süleymanova,**
**Adilə Osmanova,**
**Ləman Qafarova**

Çapa imzalanmış 15.04.2008. Kağız formatı 84x108 1/32.
Həcmi 33,00. Tirajı 500. Sifariş 154.
*Qiyməti müqavilə ilə.*

*Direktor:* **prof. N.B.Məmmədli**

*Nəşrə məsul:* **Əziz Ələkbərli**

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
*E-mail: nurlan 1959@yahoo.com*
*Tel.: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*